Nurəddin ƏDİLOĞLU

AZƏRNUR

(Roman)

Bakı-2014

Həyatdan vaxtsız köçmüş ömür-gün yoldaşım
Səmayə xanımın unudulmaz xatirəsinə
ithaf edirəm. Ruhu şad olsun!

Redaktor:
Sabir Rüstəmxanlı

Texniki redaktor:
Qorxmaz Abdulla

Rəssam:
Adil Mirseyid

Korrektor:
Əsmət Abdullayeva

Oxuculara 20 il sonra təkrar təqdim olunan bu əsər qədim zamanlardan bəhs etsə də, indiki dövürlə tam səsləşir. Burada insanın özündənkənar baş verən hadisələrin onun mənəvi dünyası ilə ruhi və məntiqi bağlılığı təsvir olunur. Müəllifin yaradıcılığının ana xəttini təşkil edən bəşərin taleyi, ətraf mühitə münasibət, vətənə sevgi, cahanda sülh, eyni zamanda yabançı təsirlərdən getdikcə mənəviyyatına çat düşən insanın daxili dünyası, fikir və düşüncələri, köhnə və yeni gerçəkliklər romanda obrazlı şəkildə, həm də magik realizm üslubu ilə əks etdirilir.

ISBN 978-9952-494-36-5

© Nurəddin ƏDİLOĞLU. 2014
© "OL" MMC. 2014

_____*Ön söz*_____

AVESTA İŞIĞINDA

Avestanın – bəşəriyyətin bu örnək abidəsinin bizim çağlaradək gələn işığının yolu ilə təzədən qayıtmaq, o işığın bulağına baş vurmaq məramı ilə yazılıb bu əsər. Müasir təfəkkürdə Odlar yurdunun Avesta çağlarını bərpa etmək olduqca çətindir. Burada qavrayış yalnız əbədiyyət (həm də ədəbiyyat – red) ölçüləri, mizanları ilə qurulur.

Nurəddin Ədiloğlunun pritça-romanında yaranışa baş vurulur. Avesta qanunları var, fəqət, o qanunlar hələ cəmiyyətə hopmayıb, iliyə işləməyib, hələ ritual durumundadır, münasibətlər kaldır. İnsan, içindən çat verir (hətta El Atası ilğımlar içində şərəfsizliyə enir!)

Əxlaq bərkiməyib. Pak insan tam müdafiəsizdir. İnsanların bir-birinə söykəndiyi cəmiyyət təzə-təzə yetişməyə başlayır və əzəli dünya ehtiraslarının bəlasına giriftar olur. Şərin bətnindən Xeyir, Xeyrin bətnindən Şər doğulur. Al Günəş altında Yer çiçəkləyir, amma o günəşin istisindən peyin də dəbərişir, həşərat ürüyüb artır.

Yazıçı İnsan tarixinə sarmaşan bu dürlü yozumlu metafizik həqiqətlərə dirənə-dirənə, Qəlb Dünyasında baş verən o ilk çatın (çatlamanın) səbəblərini arayır, bir Obanın taleyində Planet Əxlaqının yetişməsinə baxılır.

Sən demə, İnsan Cəmiyyəti ağlasığmazcasına kövrəkmiş. Onun bir görünməz nöqtədən zədələnməsi kifayətmiş ki, münasibətlərin bütün ahəngi pozulsun. Buna görə də Cəmiyyət ağrıyan yerini bilməlidir. Avesta həqiqətləri də bu zərurətdən doğub. Qanun doğulub ki, Xaos (ahəngsizlik, baş-

sızlıq, yiyəsizlik) bic doğmasın! Kənardan gələn güclülər, içindən yeyilən Elə rahatca caynaq atırlar. Çünki El özü bicə hamilədir! Buna görə də Kosmik Mizan (İlahi Harmoniya) özü bu Eli cəzalandırır. El düz yoldan sapmağın Şərə yuvarlanmağın acı aqibətini dadır.

Ancaq böyük müsibətlərin girdabına düşsə də, aclıqdan əriyib, susuzluqdan qovrulsa da, mayası hallallıqdan tutulmuş El müqəddəsliyinə murdar qatışan Suya dilini vurmur. Su qurban bahasına əzəl müqəddəsliyinə qayıdana qədər! Su – Mənəviyyatı arınan Elə nicat görünür. Torpağı, adamları susuzluqdan pörşələnən, çöllərində sümükləri ağarışan, üstünə ölüm qəhqəhəsi çəkilən El-obanın göylərində Gurşad yağış qisməti var! Yalnız Doğru Yolu (Avestada Xeyir yolu, Çin fəlsəfəsində Dao, Budda qanunlarında Dharma...) tutan Oba, El, Məmləkət göyün mərhəmətindən, yerin bərəkətindən barına bilər. Həmin Yola düşən Avesta işığından «tutub» İnsan Tarixinin kələ-kötür dolambacları ilə İndimizə gəlmək olur. Dərdi-səri göz qabağında olan (göz qabağında ola-ola kökü dərinliklərə gedən) İndimizi-Buçağımızı dərk edib arıtmaq üçün keçmişin dibindəkilər ən yaxşı məhək daşıdır.

Nurəddin Ədiloğlunun roman-pritçasındakı güclü mifoloji məntiq, məhz belə idrak katarsisinə (daxili aləmin saflaşmasına) yol açır. Yol açır ki, Buçağımız ötənlərimizdən ibrət götürsün. İbrət götürsün ki, Mənəviyyat susuzluğunda, Əxlaq qıtlığında qovrulmasın!

Rahşiid Ulusel,
Fəlsəfə elmləri doktoru, professor,
Yazıçılar Birliyinin üzvü,
1991-ci il

«Azərnur» - ədəbi avtoportiretimiz
(*ixtisarla*)

Bir zamanlar Azərbaycan ədəbiyyatşünaslığına, ədəbi tənqidimizə dair yazılan bütün kitablarda…(eyni zamanda orjinal rus ədəbi düşüncəsində) bir fikir aparıcı mövqe tuturdu: «Puşkini Puşkin edən Belinski idi»… Əgər bu fikir müasir Azərbaycan ədəbi tarixinə şamil edilsə, (ədəbi tənqidimiz – ədəbi mühit olduğu kimi işıqandırılsa) Nurəddin Ədiloğlu onda ən tanınmış nasirlərimizdən biri olardı.

Bu qənaətə mən yazıçının «Azərnur» («Qanlı ocaq») nəsr kitabını oxuduqdan sonra gəlmişəm. Bu kitab sanki Şərq ədəbi dünyasının keçdiyi mürəkkəb, keşməkeşli sivilizasiya dövrünün nəsr diliylə canlanmış ədəbi şəklidir. Olduqca maraqlı estetik zövq bağışlayan bu əsərin giriş hissəsindən oxucuya aydın olur ki, yazıçı dərin ədəbi mütaliə və tədqiqat nəticəsində onu araya ərsəyə gətirib.

Yazıçının bu əsəri Azərbaycan xalqının minillik keşməkeşli tarixini canlandırdığı üçün öz mövzu aktuallığını heç zaman itirməyəcək. Əsərin səciyyəvi üstünlüyü ondadır ki, bütün ədəbi, mifoloji və dini prinsipləri vəhdət halında əks etdirir…

…Ədib tarixin elə bir bədii lövhələrini yaradıb ki, hər lövhə ayrı-ayrılıqda milli azəri düşüncəsinin özünəməxsus psixoloji rənglərini əlvanlığı ilə əks etdirir…

Əsərin ilk səhfələrindən məni heyrət bürüyür. İnanın ki, bu, səmimi etirafımdır. Əsər müəllifinin bədii sərlövhəni canlandırma qabiliyyəti, şərq fəlsfəsinin özüllərinə bələdçiliyi, dini, mifoloji məqamların xalq düşüncəsində əks olunan rabitəsi, zühuru insana zövq bağışlayır. V.Q. Belinskinin təbirincə desək, «**əsər mürəkkəblə deyil**, **müəllifin ürək qanı ilə yazılıb**».

Şərqin klassik ədiblərinin əsərlərini oxuduqca məlum olan iki xüsusiyyət qədim şərq ədəbiyyatının əsasını təşkil edir: mahiyyət və məntiq. Mahiyyət və məntiq prinsipinin işığı «Azərnur» əsərinin də əsasını təşkil edir. Yazıçı insanda olan paxıllığın cəmiyyətdəki ən böyük bəlaların başında durduğunu sənətkarlıqla təsvir edir. Dahi Ə. Xəqani Tanrıya üz tutaraq «Ya Rəbim, məni paxıllıqdan kənar et» deyərək dua edir. Həmin ideyanı N. Ədiloğlu nəsr dili ilə belə əks etdirir: *«Gözəlliyinə və ağlına görə Yusifi öz doğma qardaşlarının zavalına gətirmiş PAXILLIQ yenə dünyanın yaxasını tapmışdı. Cəmşid kimi hökmdarın sorağındaydı Dünya. Dərdiylə-səriylə dolmaq istəyirdi onun camına, əks etdirmək istəyirdi ağışunda baş verən olayları. Nə peygəmbəri doğulacağına, nə də Cəmşid kimi hökmdarları olacağına ümidi qalmamış Dünyanı Savalanda qəfil ağlamaq tutdu. Göyqurşağı nigaran RUH kimi Dünyanın başının üstünü kəsdirmişdi».*

Bir anlıq nəsr diliylə canlanmış bu ədəbi lövhə insanı riqqətə gətirməyə bilməz. Qədim mifoloji ideyaların dini inanclarla birlikdə xalq psixologiyasında möhkəmlənmiş bu estetik fikir əsərə qısa bir ədəbi lövhə şəklində düşmüşdür. Bu elə maraqlı təsvirdir ki, istər – istəməz bu fikrə sevgi bəsləyirsən. Göyqurşağındakı nigaran ruh hər xalqın dini özüllərinə görə səmada bir rəngi olduğu ideyasına işarə edir. Müqəddəs «Qurani-Kərim»in ayələrinə görə səmada hər xalqın bir rəngi var... Bu rəng İlahinin öz rəngidi. Gec-tez bəşəriyyət bu rəngə girəcək!..»

«Ədavətlər həqiqətdir»- deyən M. Hadi «İnsanların tarixi faciələri» poeması ilə Şərq ədəbi dünyasının avtoportetini şeir dili ilə, N. Ədiloğlu isə «Azərnur» («Qanlı Ocaq») roman-pritçasında nəsr diliylə çəkib.

Hər iki əsərin ədəbi məzmunu, ideyası birdir. Əksetdirmə

prizması isə fərqli və önəmlidir. N. Ədiloğlu sanki bu kitabı uzun illərin tədqiqatının məsulu kimi üzə çıxarıb, olduqca maraqlı ədəbi nümunə yaradıb. Bütün fəlsəfi ideyalarla dini ideyaların arasında zəncir rabitəsi yaradıb elə bil. Nümunə üçün yazıçının bəzi fikirlərini klassik ədəbi nümunələrimizlə, eyni zamanda dini fikirlərlə müqayisə edək.

Qədim dini və mifoloji elmlərdən məlumdur ki, dünya yeddi qat göydən ibarətdir. Bu mükəmməl ideya bütün əsas dünya dinlərində öz əksini tapıb, eləcə də «İslam»da. Yazıçı bu ideyaya xüsusi bir əlvanlıq gətirib: «Dünyanın yamyaşıl qoynundan yeddi yol gedirdi: Ömür yolu, Ağ yol, Dövran yolu, Ümid yolu, El yolu, Vətən yolu, İpək yolu». Klassik şərq ədiblərinin fikirlərindən oxuyuruq ki, insan dünyaya yalnız və yalnız Allahın ulu hikmətlərini dərk etmək üçün, bir də ləyaqət üçün gəlir. N. Ədiloğlu da məhz Zərdüştün bu barədə dediyi dahiyanə bir fikri misal gətirir: «Vədinə vəfa etməyən Adam etimada layiq deyil. Ancaq o Adam etimada layiqdir ki, düzlük və sədaqəti özünə peşə etsin».

…Füzuli poeziyasına görə həyatda gözəl davranışı ilə insanın məqamı ucadır. Dini ideyalara əsaslanan bu fikrin «Azərnur» əsərində təsvirini aydın görmək olur: *«Nuh peyğəmbər dərindən köks ötürdü. Dağ da, quşlar da, daşlar da susmuşdu.*

- Dünən bildim öləcəyimi. Getdim nəvələrimə baş çəkməyə. Seçə bilmədim onları bir-birlərindən. Amma tanıdım, əlamətlərindən yox, davranışlarından»

…Müqəddəs «Qurani-Kərim»in surələrinə görə Musa peygəmbər əsasını torpağa basanda torpağın bətnindən 12 bulaq qaynayırdı. Həmin ideya öz əksini haradasa «Azərnur» əsərində də tapa bilmişdir: *«Dağ susmuşdu. Nuhun qurşağınacan uzanmış saç-saqqalını dağın sinəsindən ah kimi qopan*

meh sığalladı. Peyğəmbər özünün sərv ağacından düzəltdiyi qartal başlı əsasını yaxındakı ağacın qovuğuna toxundurdu»

Bir sözlə, N. Ədiloğlu kimi istedadlı, zəngin mövqeli nasirlərimizin müasir ədəbiyyatımızda çox olması əhəmiyyətli hadisədir… Mən şəxsən öz ədəbi qənaətimə görə, minillik keşməkeşli tariximizin nəsr diliylə mənzərəsini yaradan «Azərnur» («Qanlı Ocaq») roman-pritçasını müasir avtoportiretimiz hesab edirəm. Bu əsərin Azərbaycan xalqının həyatında rolu çox önəmlidir. Ona görə ki. xalqımızın İslamdan öncəki dini kitabı «Avesta» ilə müasir dövrümüz arasında sonsuz rabitənin əksini… gözümüz önündə canlandırır.

Elsevər MƏSİM,
şair.
«Mühakimə qəzeti , 29 noyabr 2007-ci il.

_____ÖNDEYİŞ[1]_____

«Müqəddəslərin RUHU yad edilməyən məmləkət
pis ruhlarların oylağına dönər!»
Azərnur

Qanlı ocaq

Dünyanın dönəlgəsi dönmüşdü, üzü bozarmışdı, suyu lillənmişdi, nəfəsindən tənbəki qoxusu gəlirdi, qan çanağına dönmüş ağlı-qaralı gözlərindən rəhmsizlik yağırdı. Ayağını dedi-qodu bataqlığından, başını fikir cəngəlliyindən çıxarmaq üçün vurnuxurdu. Çərxi-fələyin gərdişindən yeddiqat içi göynəyirdi, ahı yeddiqat çölünü yandırırdı. Şeytanı doğulmuşdu, bicləri ağuşuna daraşmışdı, torpağı dərddən qırışlanmışdı, bətni daralmışdı dünyanın, məzarları çoxaldıqca xoş güzərləri kiçilirdi. Böyüyü-kiçiyi səcdəsini itirmişdi, şikəsti, xəstəsi get-gedə çoxalırdı, dinc adamları nadinclərə əsir-yesir olmuşdu. Başbilənləri qürrələndikləri, öyündükləri bilgəni ÖLÜM xışına döndərmişdilər. Şər qılıncıyla şumladıqları dünyanın bağrına qovğa toxumu səpirdilər. Güneydən quzeyə nur verən xanəgahları qanlı ocağa cevirirdilər. Dünyanın qarnına ağrı dolurdu, qoynuna acı-acı göz yaşları tökülürdü. Yaddaşını ələk-vələk eləyirdi və onu qan çanağına döndərənləri, gözlərinə rəhmsizlik dolduranları, övladlarını yurdsuz-yuvasız, ac-susuz qoyanları tanıyırdı dünya. Öz bətnini qınayırdı. Elə bil bətni ona xəyanət eləyib Şeytan doğmuşdu. Şeytan biclərə himayədarlıq elədikcə dünya dərd-sərinə əncam çəkmək üçün çarə axtarırdı. PEYĞƏMBƏR umurdu dünya öz bətnindən, di gəl ki, elə bil qısırlamışdı, gücdən düşmüşdü. Sinəsində yaranmış yeddi möcüzənin şahidi olan dünya səkkizincini gözləyirdi. Amma elə bil özünü tanıya bilmirdi. Peyğəmbərlər yaradan ÖMRÜ daha tükənmişdi. Qismətinə düşən taleyin amansızlığı ilə barışa bilmirdi. Yaz öynəsi yeddi rəngli qiya-

[1] Öndeyiş – proloq

fəsini geyinib müqəddəs ruhların pişvazına çıxdı. Peyğəmbərlərin uyuduğu yerləri gözünə təpdi. Sərgərdən düşmüş, nəvə-nəticələrinin yad etmədiyi müqəddəs RUHları görüb qaşları çatıldı. Adamların çoxu adamlıqdan çıxmışdı. Əhrimənin divləri insan cildinə girmişdi, Zöhhak kimi qaniçən, qəddar hökmdarların əlinə girəvə düşmüşdü, «çiynində bəslədikləri ilanlar»a insan beyni yedizdirirdilər. Savaş və qovğa hərisi kimi Mars müqəddəslərin ruhuna göydən qan çiləyirdi. Allahın buyruğu ilə mələklərin göyün dördüncü qatına qaldırdığı İsanın ruhu xaçpərəst cəlladların törətdiyi əməllərə görə pərişan olmuşdu. Qanlı xaç yürüşləri acı bağırsaq kimi uzanırdı. Sağlığında Firionu qoşunu ilə dənizdə batırmış Musanın ruhu Tur dağının başı üzərində dayanıb, narahat dünyaya tamaşa eləyirdi. Bəşərin atası sayılan Adəmin ruhu Yer üzərində cənnətləri cəhənnəmlərə döndərən insan övladlarına baxıb, Allahın qəzəbindən çəkinərək Hindistanın Sərəndib dağına qısılmışdı. Nuh peyğəmbərin ruhu Ağrı dağının zirvəsindən Yafəs, Tur, Səlm adlı övladlarından törəmiş tayfaların bir-birlərinə qaynayıb-qarışdığına (amma Tufan öncəsi gəmisini düzəltmiş dülgərlərə ərə verdiyi qız cildinə girmiş eşşəklə it cinsindən doğulanların aralarına çaxnaşma salıb, düzü-dünyaya hiylə toru toxuduqlarına) baxıb, sağlığında işlətdiyi günahını özünə bağışlaya bilmirdi.

Kəbənin göylərində qərar tuta bilməyən Məhəmmədin ruhu gah qılınclarını qından siyirən şahsuvar sərkərdələrə, gah da yağı zülmündən didərgin düşən, ac-susuz müsəlman və zındıq uşağına baxıb, səlib yürüşlərdə ərşə dirənən ah-naləyə sonsuz heyrətlə acıyırdı. İnana bilmirdi ki, bunlar sağlığında gördüyü həmin ərəblərdir. Quran bəxş elədiyi o müsəlmandır ki, indi qardaş-qardaşa qənim kəsilir, məzhəblərə bölünüb bir ovuc torpağa «La ilahə illəllah» kəlməsi deyə qan tökür.

Dərə boyda qulaqlarına ah-vayla qarışıq ağı səsi, bir də göz yaşları dolurdu dünyanın. Elə bil Yusifin ölüm xəbərini eşitdiyi gündən

bəri «beytülhəzən»ə[2] çəkilib aramsız ağlayan Yəqub peyğəmbər hələ də ovunmaq bilmirdi. Gözəlliyinə və ağlına görə Yusifi öz doğma qardaşlarının zavalına gətirmiş PAXILLIQ yenə dünyanın yaxasını tapmışdı. Cəmşid[3] kimi müdrik hökmdarın sorağındaydı dünya. Dərdiylə-səriylə dolmaq istəyirdi camına, əks etdirmək istəyirdi ağuşunda baş verən təzadlı olayları. Amma yeni Peyğəmbərin doğulacağına, Cəmşid kimi müdrik hökmdarların taxt-tac sahibi olacağına ümidi qalmayan qoca dünyanı Savalanda qəfil ağlamaq tutdu. Göy qurşağı nigaran ruh kimi onun başının üstünü kəsdirmişdi.

Bu zaman Savalanın zirvəsindəki gölün dibindən bir səs gəldi:

- Niyə ağlayırsan, Dünya Dədə?

Dünya əvvəl karıxdı, sonra səsin Zərdüştün ruhundan sıyrılıb gəldiyini bildi. Səsdəki inciklik qoca dünyanın dərdinə dərd caladı, hannan-hana özünə toxdaqlıq verdi:

- Bağışla məni, gözüm yanında kölgəli, üzüm qaradır. Sən Tanrının mənə bəxş elədiyi əzəli peyğəmbərsən, səni də, dediklərini də unutmamışam: Şər əməlli Əhriman insanların içində gizlənibmiş. Odur ki, insan özünü işığa çevirə bilmir. İndi yenə aralarında şeytanxislətli adamlar peyda olub. Ancaq bir vaxtlar onların suçu Tanrını məhv elədiyi kimi məni də öldürdü. Yaddaşımın yarısı qədimdə qaldı. İndi yaşım çox olsa da, təzə dünyayam, ancaq nə şərqimdə, nə də qərbimdə şeytanla çarpışmağa peyğəmbər yaranacaq... Bətnimin Tanrı elçisi doğmağa daha insan qanı, ruhumun mələklərlə həmdəm olmağa səbri qalmayıb. Peyğəmbəri olmadığından insanlar şeytanın vəsvəsəsinə uyur, bir-birinin oduna, suyuna, torpağına göz dikir, tamah salır...

- Bəs məndən sonra yaranmış, amma öncə ruhlarını ziyarət elədiyin peyğəmbərlər nə dedi sənə?

- Sən onları əhv et, Zərdüşt! Onlar hamısı səndən barınıblar, an-

[2] Beytülhəzən – kədər otağı

[3] Cəmşid - «Avesta»da Yima. Əfsanəyə görə bütün dünya Cəmşidin camı içində əks olunurmuş.

caq peyğəmbərlik məqamına çatandan sonra sənin adını belə dillərinə gətirmək istəmədilər. Bu qoca çağımda dərk elədiyim ən böyük hikmət elə sənin bəyan etdiyin Əhrimənlə Hörmüzün əzəli çarpışmasıdır ki, ta bu günə kimi tüğyan eləyir.

- Əgər məndən sonra gələn peyğəmbərlərin də Nuh kimi günaha batıbsa, onda qoy insanlar özləri şeytanla vuruşmağı öyrənsinlər.

- Bilirəm, sən zorakılıq tərəfdarı olmamısan. Ancaq qorxuram əsl peyğəmbəri olmayan insanlar özləri yalançı peyğəmbərlik xəstəliyinə tutulsunlar. Sənin buyurduğun təki çobansız sürüyə bənzəsinlər. Şeytan canavar cildində o sürüyə təpinəndə təkələr hərəsi peyğəmbərlik eləyib sürünü qorxulu keçidlərə aparar. Qorxuram bəziləri özlərini də, sürüləri də dibigörünməz ucurumlara aparıb quduz canavarlara və cəhənnəm köpəklərinə yem eləsinlər.

- Yurddaşlarımdan xəbərim yoxdur, neçə bahardı ki, mənim ruhumu yad eləmirlər. Buyurmuşdum ki, əcdadlarınızın ruhunu yad eləməsəniz, onlar sizdən küsəcəklər.

- İndi onların başını gəlmələr qatıb, torpaqlarına bir tərəfdən məsihələr, bir tərəfdən də xilafət göz dikib. Başbilərləri, dövlətxanalarda oturan hökmdarları da sərvət azarına tutulublar. Məmləkətin dərdini kasıblar çəkir.

- Sərvət! Axı, buyurmuşdum ki, ən böyük əxlaqi borc odur ki, sərvətin çoxu ehtiyacı olan yurddaşlara paylansın.

- Onları qınama. İsgəndər sənin «Avesta»nı yandırandan sonra başları çox müsibətlər çəkdi. Yaddaşında saxladığı müqəddəs sözlərinin yarıbayarısını hərə öz bildiyi kimi kitablara köçürdü. Odur ki, əzəli qanunların yaddaşlardan silindi... Aralarına nifaq düşdü, amma...

- Yox! İnana bilmirəm, onların qənimi öz içərilərindən olmasa, kənardan gələnlər heç vədə aralarına nifaq sala bilməz.

- Hə, elədir. İndi onların məmləkətində yad məsləklərdən barınan YADIRĞALAR var.

- Yadırğa! Bu, yoxsa təzə dindir?

- Yox, unutqanlığa qulluq edən din kimi bir şeydir. Əhrimənin

yalançı vədlərinə, gözəl qadın cildinə girmiş insansifət divlərinə uyublar. Sərvətlə şöhrət hərisliyi gözlərini tutub. İndi atəşpərəstlərin həyat tərzinin singəsi olan buta əvəzinə hökmdarların tacını, böyük sərkərdələrin dəbilqəsini ləl-cəvahirlər bəzəyir[4].

- Belələri camaatı uçuruma sürükləyəcək. Qılıncdan iti olan nəfs atəşləri Azər ocağlarını qanla suvaracaq!

Ruhdan qopan ah sədası sanki gölün qırağındakı işıqotuna, zəngçiçəyinə çırpıldı.

- İndi zəmanə dəyişilib, adamlar sən gördüyün deyil!

- İndi bayırda hansı çağdır ki, Dünya Dədə?

-Təzədən fələyin çərxinə dolanan qərinəylə indi yeddinci çağıma qədəm qoymuşam. Ancaq dərd-qəm, haqsızlıq əyib qəddimi, yetmiş yeddi çağındayam elə bil: hər yanımda savaş, qovğa düdüyü[5] çalınır, hara üz tuturam düdəmələrə[6] urcah oluram. Elə bil dəhşətli ölüm məni izləyir. Bir də mənim üçün nə fərqi, istər yeddi olsun, istər yetmiş yeddi, mən sülh və əmniyyət istəyirəm. Ey müqəddəs Zərdüştün RUHU, xilasımı sənin səcdə elədiyin odun, işığın qorunmasında görürəm! Elə buna görə də adını hamıdan əziz tutdum! Sən qibləgahımsan, əzəli və son ziyarətgahımsan! Qoy sənin RUHUN öz doğma Odlar yurdunun, onun yurdsevərlərinin başı üzərindən əskik olmasın!

Savalanın zirvəsindəki gölün qırağında yaraqlı-yasaqlı bir igid mürgüləyirdi. Ruh dünyaya «Xeyirə qənşər!» pıçıldayıb məzarından aralandı, göyə çəkildi. Elə bil dünya da o yaraqlı-yasaqlı igid kimi dincəlmək üçün gölün qırağındakı Ulu Zərdüştün nəhəng qranit məzarı önündə qəddini əydi, başını ulu Savalanın dizinə qoyub keçmişinə boylandı.

---

[4]Atəşpərəstlik dövründə hökmdarların baş tacını bəzəyən "Cıqqa-buta" - cəsurluğun, şərəf və şücaətin, sərkərdələrin dəbilqəsindəki "Lələk-buta" vicdanın, ləyaqətin, iç gözəlliyin rəmzi sayılırdı.

[5] Düdük - zurna, şeypur.

[6] Düdəmə - ikibaşlı, hər iki tərəfi iti olan qılınc.



_____*Birinci fəsil*_____

MƏSLƏK

«Vədinə vəfa etməyən adam etimada layiq deyil.
Ancaq o adam etimada layiqdir ki, düzlük və
sədaqəti özünə peşə etsin».
Zərdüşt

Dünya hələ gənc idi. Xəyalında əlçatmaz keçmişini – dəcəl uşaqlığını canlandırırdı, davalı-şavalı, əli-üzü qanlı günlərini yadına salırdı və indiki çağına özü də heyran qalıb, gözəlliyindən həzz alırdı, yazın-yayın, payızın-qışın ağuşunda gecəli-gündüzlü libasını dəyişə-dəyişə yaşa dolurdu, təndirlərdə bişirilmiş isti sarı buğda çörəyinin ətri ləzzətlə canına yayılırdı. At kişnərtisi, qoyun-quzu mələrtisi, süd qoxusu, ana laylası, quş səsi, su zümzüməsi dünyanın ən şirin nəğmələriydi. Amma insanlarından xəbərsiz idi. Başını qoymuşdu Tanrı dağı SAVALANın dizinə, yamyaşıl sinəsini vermişdi yaz küləyinə, baxırdı: Suları dupduru, havası tərtəmiz, insanları sapsağlam. Di gəl ki, yeriyəndə yer tərpədən, səslənəndə quş hürküdən İNSAN oğlu İnsanın iç dünyasını görə bilmirdi. Və yaşıl duyğular aləmində dərk edirdi ki, YARADANIN bol-bol işığından barınan, suyunu pak nemət sayan, əkin əkib, biçin biçən, ölüm görəndə qara geyib, göy bağlayan, bayramlarda al-yaşıla bürünən insanlar özləri də bir-birlərinin dünyasından beləcə xəbərsizdirlər. İnsan İÇİ gözəgörünməz sirli bir aləm idi. O gözəgörünməz aləmin qaranlığa qərq olmuş guşəsində yer üzünə səfərə hazırlaşan yaraqlı-yasaqlı QORXU mürgüləmişdi. Zəhmli yatışı, əcaib xo-

rultusu dünyanı narahat edirdi və yaradanın hələ çox iştəklərindən xəbərsiz olan gənc dünya və onun sakinləri şübhə və nigaranlığın fərqinə varmadan ömrün yaz öynəsində gül-çiçəyin ətrinə bələnə-bələnə işıqlı səhərlərə, aylı gecələrə qovuşa-qovuşa, qarşıdan gələn isti yay vədələrinə həsrət və ümidlə boylana-boylana yaşıl günlərini yaşayırdı.

...Dünyanın yamyaşıl qoynundan yeddi yol keçib gedirdi: Ömür yolu, Ağ yol, Dövran yolu, Ümid yolu, El yolu, Vətən yolu, İpək yolu. Dünyanın bütün məmləkətlərindən keçən bu yollardan insanlarla çiyin-çiyinə İNSANSİFƏT divlər də gedirdilər. Onlar da insan kimi and içəndə «Od haqqı, ocaq haqqı!», «Su haqqı!», «Duz-çörək haqqı!» - deyirdilər. Alqış eləyəndə «İşığın gəlsin!», «Ocağın yansın», qarğış eləyəndə «Çırağın sönsün!», «Su üzünə həsrət qalasan!» - söyləyirdilər. Beləcə insanlar kimi geyinəcək geyinib, öyünəcək öyüb söyləməsi, bilməcəsiylə yer üzünün adamlarına qaynayıb-qarışmışdılar.

Və o yazın dünyaya can verdiyi gözəl yaz çağlarında Günəş quşqonmaz dağların qarlı zirvələrinə qalxırdı, odlu nəfəsinin təmasından ağ köpük kimi süzülən qar örtüyü irmaqlara qarışıb çaya tökülürdü. Çay yurd yerlərinə – suya təşnə elobalara tələsirdi.

Amma üzünü qatı duman bürümüş Ağrı dağının qısır dərələri zümzüməylə axıb-gedən çayın bir qoşun suyunu içinə sümürürdü. Dərələrin çat düşmüş ARAları HƏYASız bir inadla dünyanın doğma çayını, meşəsini, gölünü ODƏR övladlarına qısqanırdı. Qismətinə daşlı-çınqıllı gədiklər, qorxunc uçurumlar, qaranlıq mağaralar, simic çəməngahlar, kövşənlər düşmüş dağlar ulu Günəşə doğru ovxarlanıb açılan buz təki soyuq gözləriylə baxırdı bu yaz. Ətəklərində ilıq şəfəqlərin nuruna qərq olmuş ərmənzəminli binələr gombul-

qarın daşlara, qayalara sığınıb iştahla xumarlanmışdılar, əcdadlarının ruhlarını (bu qısır YERə köçüb gəldiklərinə, EV tikib, yurd saldıqları ANA lənətlər yağdıraraq) qınayan cavanlı-qocalı sakinlərin piylənmiş sifətlərində insan övladının nişanələri itmişdi. Həzarpeşəlikdən piy basmış içlərinin qəzəbini, şəhvətini, tamah və kinini itaətkar gözlərində gizlətmişdilər.

Ağrı dağının ağrılı-acılı fikirləri bulud-bulud başına çökmüşdü. Bu yaz qəlbinə YEDDİDAĞın ağırlığı düşmüşdü. Əzəl çağlarında o da dünyanın adi dağı olmuşdu.

Ölümqabağı Nuh peyğəmbər yalçın bir qayanın üstündə oturub ona sirrini açmışdı:

-Qoynunda əbədi qonaq olmağa gəlmişəm, əcəl carçısı başımın üstünü kəsdirib.

Dağ susmuşdu. Nuhun qurşağınacan uzanmış saç-saqqalını dağın sinəsindən ah kimi qopan meh sığalladı. Peyğəmbər özünün sərv ağacından düzəltdiyi qartal başlı əsasını yaxındakı ağacın qovuğuna toxundurdu:

- Məzarım bu gövdənin içi olacaq! Ölümdən qorxmuram, adamlardan qorxuram. Yenə adamlıqdan çıxırlar. Əgər bir də tufan olsa, canlılar xilas ola bilmyəcəklər!

Dağ dilə gəldi:

- Niyə, onların günahı nədir?

- Niyə? – Peyğəmbərin səsi xırıldadı. – Tanrı günahlarına görə bu adamlardan peyğəmbərliyi qaçaq salacaq, bu son və ən ağır cəza olacaq BƏŞƏR nəsli üçün.

- Sən bunun nə zaman olacağını da bilirsən?

Nuh peyğəmbər başını yellədi:

- Mən də günaha batmışam, böyük günaha, ona görə bilmirəm, o cəza günü nə zaman olacaq, Tanrının mənə də qəzəbi tutub.

Dağ heyrətdən yırğalandı, qaşından bir daş qopub üzü aşağı diyirləndi. Ətrafdakı quşlar diksinib civildəşdi. Nuh dilləndi:

- Heyrətlənmə, əzəli və əbədi dostum, mən də bu günahdan ölümqabağı xəbər tutdum. Gecdir, çox gec. Bu günahın qarşısında Tanrım da acizdir. Ona görə acıq edib, üz döndərib məndən...

- Ey Nuh! – Dağ dilləndi, – sən dünyanı su alanda üz tutub dabanını köksümə basdığın dağ mən olmuşam. İzin ver, agah olum sirrindən.

Nuh yanıqlı "ah" çəkdi, sonra aramla danışmağa başladı:

- Adamlar adamlığından çıxanda Tanrı buyurdu ki, yer üzünü su basacaq, mən canlıları xilas etmək üçün gəmi düzəltməyə başladım. Vaxt da gözləmirdi. Köməyə üç dülgər çağırdım. Söz verdim ki, gəmini vaxtında düzəltsəniz, hər nə istəsəniz, onu da verəcəyəm. İnsafən canla-başla işlədilər. Gəmi hazır olan kimi yanıma gəlib üçü də:

- Ey peyğəmbər, səxavətini əsirgəmə, nə istəyirik, onu da bizə ver. – dedilər. Mən heç kimə borclu qalmadığımı söyləyib onların nə istədiklərini soruşdum. Hər üçü mənim qızımı istədi. Olanım bircə qızım vardı, mat-məəttəl qalmışdım, tufan gəlməmiş hamı bir-biri ilə halallaşırdı. Borcu olanlar borcunu qaytarırdı. Mənimsə bir qızım, bir eşşəyim, bir itim vardı. Tanrımı çağırdım ki, bu qızı bunların hansına verim? Elə bu vaxt gördüm ki, eşşəklə it dönüb bir cüt gözəl-göyçək qıza. Ustaların üçünü də sevindirdim.

Nuh peyğəmbər susub, köks ötürdü. Dağ da, quşlar da, daşlar da susmuşdu.

- Dünən bildim öləcəyimi. Getdim nəvələrimə baş çəkməyə. Seçə bilmirdim onları bir-birlərindən. Amma tanıdım, əlamətlərindən yox, davranışlarından. Biri sözə baxandı, biri

eşşək kimi nə deyirdin qulaqardına vururdu, o biri bir loxma çörək umanda it kimi sülənir, loxmasını ötürən kimi söz deyənə mırıldayıb çəmkirirdi. Bunu görcək bədənimə ağrı doldu. İçimdəki ağrımı götürüb uzaqlaşdım onlardan.

Nuh peyğəmbərin ağzına qulağını dirəmiş Dağ dilləndi:

- Bu, nə böyük sirrdir, ey Nuh, sənin ağrın mənim içimə doldu. Kaş əzəl başdan gəmin başqa dağlara gedib çıxaydı. Aman, rahatlığım əldən getdi. Bu, nə qorxunc sirmiş?!

Nuh dedi:

- Bir yanın Nuh çıxandı, bir yanın Nuhyatan. İndi də Nuhun sirrini eşidib, ağrı tapdın, bu gündən sənin adın AĞRI oldu. Eşit məni, Ağrı dağı, sirrimi sənə danışdım, canımı sənə tapşırıb rahat oldum. Unutma, əgər dünyanı yenidən tufan bürüsə, bil ki, eşşək və it cinsindən törəyənlərin ucbatından baş verəcək həmin fəlakət.

...Şər vaxtı çatmışdı. Ağrı dağı günahkar Nuhu ağuşuna almışdı.

O vaxtdan çox qərinələr ötüb keçmişdi. Həmin sirr Ağrı dağının daşlaşmış yaddaşında yaşayırdı. Bu yaz başının üstünü qara buludlar kəsdirəndə Ağrı dağı Nuhu yada saldı: «Fəlakət eşşək və it cinsindən törəyənlərin ucbatından baş verəcək!». Ağrı dağının ağrıları artmışdı, dünyanın günahsız canlılarının da ağrısı dolmuşdu canına.

Narın yaz yağışından sonra Ağrı dağının güneylərində tikanlar, qanqallar, kol-koslar cücərib göyərmişdi. Sarmaşıqlar boy atıb tumurcuqlu Narbəndlərə, palıdlara, dəmirağaclara dolanırdı, çaqqalboğarsanağı irmaqları, eniş və yoxuşların çığırlarını örtürdü. Şeytan təpəsinin dağ havasını boğan, aləmə kəsafət iyi yayan HİC[7] çökəkliyinə yığılmış peyinliyin-

[7] Hic - «Avesta»da insanlara aclıq, ehtiyac, kasıblıq gətirən divin adı

də cücülər, birələr, buğdabitilər, eşşəkarısı, hörümçək və adı dünyaya bəlli olmayan qansoran həşəratlar qaynaşırdı. Dızıltısı dərin dərələrə sığmayan nəhəng bir gögöyin[8] qansoran həşəratları başçı təki arxasınca aparırdı. Yazın qanqaynadan çağı qansoran həşəratlar ömür yoluna çıxdılar. Dünyaya təzəcə göz açmış həşəratlar qismətlərinə düşmüş ömür yolunun qısa olacağını hiss edib GÜNBATANA can atırdılar.

Daşlı-kəsəkli yolun kənarındakı göyənəklikdə insan oğlunun quruca qəfəsəs[9] görünürdü. Qansoran həşəratlar onu canlı insan bilib üstünə şığıdılar. İçi boş insan qəfəsəsindən ölüm iyi gəlirdi. Ağappaq dişləri elə bil gülür, qansoran həşəratları ələ salırdı. Həşəratların da qan yaddaşı vardı. Bilirdilər ki, canlıların qanını sormağa yaranıblar. Odur ki, insan qəfəsəsindən üzülüb yollarına davam elədilər.

Dovşanyatışlı təpə onların vızıltısından diksinib qulaqlarını şəklədi. Qoşatəpənin döşündəki ŞEYTAN ağacı da qorxusundan titrədi. Həşəratlar da şirini, acını bir-birindən seçirdilər. Şirəsini sordular, yarpaqların şehini içdilər, hörümçəklər bu ağacda yuva qurub, tor toxudu, tora bal arıları düşdü. Bu vaxt Qoşatəpənin o üzündən səs gəldi: «XİLAS», «XİLAS!..» Qansoran həşəratlar səsə sarı cumdular. Qoşatəpənin o üzü günəvər idi. Gül-çiçək ətri basmışdı hər yanı. Ətəkdə qayalara dırmanan yaşıl otlar sanki yazın ilk addımından sevinə-sevinə şehli barmaqlarıyla daş gövdələri qıdıqlayır, zümrüd zəmilər, qırmızı lalələr, ətirli yasəmənlər tellənirdi. Sevgisi, ürək genişliyi yerə-göyə sığmaz qədim YURD köksündəki bar-bərəkətdən nəhəng xonça tutub ulu Bahar bayramının pişvazına çıxmışdı.

Həzin meh qansoran həşəratların qanadlarına uçurma

[8] gögeyin – ona el arasında at milçəyi də deyirlər.
[9] quruca qəfəsə - İnsan skeleti

saldı. «XİLAS!» Bayaq eşitdikləri səs dünyanın bir ovuc suyunda gövdəsi qurşağacan torpağa pərçimlənmiş iri şaxələri göylərə puçurlayıb qol-qanad açan, əzəməti ilə yurda nəfəs və can verən müqəddəs HƏYAT AĞACI Narradan gəlirdi. Ağacın budaqları arasındakı dəmir qəfəsdə gözləri ağlamaqdan işığını itirmiş qoca bir Tutuquşu çırpınırdı. Qansoran həşəratlar «XİLAS!»» - deyə fəryad qoparan Tutuquşunu susdurmaq üçün, irəli şığıyıb onun canına daraşdılar. Quş qanadlarıyla özünü qorumağa çalışdı. Bu zaman gögeyin onun başına qonub, nəştərini quşun beyninə sancdı. Tutuquşunun başından zol çıxdı. Amma itmiş yaddaşı sanki ağrının dəhşətindən özünə qayıdırdı. Onu qəfəsə salıb bura gətirən, dünyanın ilkini olan tək-tənha ağacın ağuşunda gizlətmiş sahibini yada salıb qınadı: Biryolluq başını üzsəydi, bundan yaxşıydı. Bədənini həşəratlar sancsa da, sanki Tutuquşu «XİLAS» deyə fəryad qoparmasına peşiman deyildi.

* * *

Qansoran həşəratlar dərin düşüncəyə dalmış Tutuquşudan əl çəkdilər, insan qanının şirin tamı yaddaşlarına hopub qaldı. Və ömür yolu ilə GÜNBATANA sarı üz tutdular. İşığına qızınıb üzərinə getdikləri yurdun el-obalarını tanımırdılar. Soylarını bilmirdilər. Təki doyunca sormağa insan qanı olsun! Atlı da getdiyi yerin adını bilmirdi, qaraca oğlan idi, amma yol onu yorub əldən salmışdı. Bayaqdan gözlərinə dolmuş yuxusunda yaralı qardaşını görürdü. Yola çıxanda «...getmə, Qisas», - demişdi qardaşı. - «Tanrı o adamı etdiyi günaha görə zavala gətirəcək!» - Atının yüyənini tutub yalvarmışdı ona. Doğma qardaşına qaraca oğlanın acığı tutmuşdu:

- Çıx yolumdan, Xilas! Məni öz yolumdan saxlaya bilməzsən. Anam mənim adımı ona görə Qisas qoyub ki, güna-

hı olanı özüm cəzalandırım. Tanrının səbri çoxdur, namərdlərin sayı isə gündən-günə artır.

Xilas:

- Axı, o bizim atamızdır, öz əllərinlə öz qanını tökmək günahların ən iyrənci deyilmi? Ona qarşı bəslədiyin nifrətdən sənin özünə qarşı ən böyük nifrət doğulacaq!

Qisas:

- Ata! Üzünü görmədiyimiz bir namərd necə ata ola bilər? Kim bilir, heyvan kimi şəhvətini harda gəldi orda söndürən belə adamdan dünyaya bizim kimi ayrı-ayrı məsləki olan nə qədər qardaşlar gəlib. Sən özün deyərdin ki, ulu Hörmüz günahları yumaq, təmizliyi qorumaq eşqinə divləri məhv etməyi, onların fəna əməllərinin qarşısını almağı buyurmuşdu. Bizim atamız da insansifətli divdir...

Xilas inad göstərirdi. Qisas qəzəblənib atdan endi, qardaşını yerə yıxıb, təpiklədi. Sonra atını minib yola çıxdı. Təpələr aşıb, dərələr keçdi. Adı dağdan ağır elləri dolaşdı. Muğandan Gilana, Təbrizə, oradan Şərura, Naxçıvana, Beyləqana, Bərdəyə, sonra Şirvana, Əfşərana – Hirkan[10] dənizinin sahillərinə gəldi, qayıdıb Şirvan yolu ilə Gəncəyə, ordan da Arranzəmin ellərinə gəlib çıxdı. Cənnət məkanı Qarabağdan keçib Qəbələyə yetişdi. Məmləkətin ən böyük bazarlarını gəzib dolaşdı. Naz-nemətlər qoynunda dəniz kimi yırğalanan bazarlar məmləkətin qəlbiydi, dünyanın güzgüsüydü. Anası öz dünyasını dəyişməzdən öncə söyləmişdi ki, əgər o murdar adamı axtarmaq istəsən, bazarlarda tapacaqsan. Məmləkətin özü kimi bazarları da dünyaya sığmırdı. Beləcə yeddi il idi ki, yəhərdən düşmürdü. Yurdun dünyaya meydan kimi açılmış köksündə od-ocağı ulduz kimi şölə saçan doğma

[10] Hirkan -Xəzər dənizinin ən qədim adlarından biridir.

VƏTƏN yolları da başı üzərindən asılan yeddi rəngli göy qurşağı tək uzandıqca uzanırdı.

Bayaq atını səyirdib göy qurşağının altından keçmək istəmişdi. Elin inamına görə, göy qurşağının altından keçən adam nə arzulasaydı, o da hasil olardı. O qədər çapdı ki, atı da, özü də yorulub əldən düşdü. Elə bil göy qurşağı atlı oldu, atlı piyada. İndi atın üstündəcə mürgüləyib, gözlərinin acısını alırdı. Atının yoldan çıxdığından canavar hənirtisi duyub, döyükə-döyükə qulaqlarını şəkləməsindən xəbəri yox idi. Boz canavar iy çəkməkdən genişlənmiş burun pərlərindən axıb havanın və torpağın canına hopan həcnini udmaq üçün yolun qırağındakı göylükdə şöngüdü. Diliylə suyu süzülən ağzını yaladı. Ömründə insan əti yeməmişdi. Birdən neçə günün aclığından çuxura düşmüş, işığı azalan gözlərini yolçudan çəkib göyə zillədi. Tanrısına şükür etməyə macal tapmamış başının üstündə hərlənən bir dəstə qarğa-quzğun gördü. Axır ki, boğazına şərik çıxan tapılırdı. Canavar xain idi, amma tox olanda şikara çıxmazdı, uğuruna tuş gələnə toxunmazdı, gücsüzlərə güclü pəncəsini göstərməzdi, çobansız sürülərə soxulmazdı. Onda Tanrının nəzərindən düşərdi, kiçilərdi, öz canavarlıq dünyasını dəyişərdi.

Ac-yalavac canavarın bayaqdan pusduğu yolçuya yazığı gəlmirdi. Çəkdiyi əzaba heyfsilənirdi, boğazından yuxarı ölü cəsədlər, ələngəsi çıxmış leşlər axtaran hiyləgər quşlara paxıllığı tuturdu. ÖLÜ CƏSƏDLƏRlə döyüşmək lazım gəlmirdi, ölü cəsədlər döyüşsüz də MƏĞLUB olurdular.

Canavar HİYLƏGƏR və QORXAQ quşların bu ədalətsizliyinə fəryad edirmiş kimi, qəfil inildəyib uladı: Au-u-u...

At kişnəyib şahə qalxdı, qaraca oğlan kəllə-mayallaq yerə yıxıldı. Yüyən ayağına ilişmişdi, at onu bir az sürüyüb dayandı. O, ayağa durub key-key yan-yörəsinə baxdı, qarşısın-

da yamyaşıl təpə bir cüt yumruq təki düyünlənmişdi. Gəldiyi yol Qoşatəpədə qurtarırdı. Ətəkdə tək-tənha, zəhmli Şeytan ağacının ala-bəzək budaqlarında bir cüt bayquş oturmuşdu, böyük və qara bir hörümçək həvəslə tor hörürdü. Uca budaqlarına qonmuş qara qarğalar qarıldaşa-qarıldaşa səmada uçan qarğa-quzğun dəstəsinə boylanırdılar. Şeytan ağacının həndəvərində dadlı meyvələrə tamarzı qalan, alçaqboylu təkəm-seyrək qaratikan ağacları tumurcuqlamış budaqlarını Tanrısının gözlərinə soxurdu. Atlı atının yüyənindən tutub Qoşatəpənin başına qalxdı, həzin meh yorğun ruhuna sığal çəkdi, gözlərindən yuxusunu qovdu.

Mavi göylərdə leyləklər, qaranquşlar görünürdü. Alnının qırışığı açılmış təpənin döşündə gül-güllü, bülbül-bülbülü çağırırdı. Təpənin ətəyindən Ağ yol puçurlamış ağac budağı kimi şaxələnirdi. Elə bil dünyanın bütün yolları burda qovuşub təzədən başlayırdı. Daşlı-kəsəkli, qumlu-çınqıllı, odlu-alovlu, tozlu-torpaqlı, işıqlı və qaranlıq yolların da sehrli nağıllar dünyası vardı. «Görəsən, bunların hansı Şeytanbazarı olan məmləkətə gedir?» - deyə ürəyində düşündü yolçu, ehmallıca enə-enə gəlib yolların qovuşuğuna çatdı. Qovuşuqda yeddirəngli çiçəyinin məstedici ətri könüloxşayan narra ağacının dibindəki suya yarpızın-quzuqulağının qulaqlarına şehdən sırğa taxmış yasəmənlərin əksi düşmüşdü. Atının dəhnəsini alıb, başını buraxdı. Atı da, özü də doyunca sudan içdi. Suya elə bil göydən nur ələnmişdi, qaraca oğlanın gözünə işıq gəldi. Ətrafa çökmüş sakitliyi arabir uzaqlardan eşidilən ac qurdların, çaqqalların ulaşması pozurdu. O, səsləri dinlədikcə hiss edirdi ki, bərk acıb, atın belindən xurcunu götürdü, göy otların üstündə bardaş qurub, ayın-oyun çıxarıb iştahla yeməyə başladı. Xurcunun o biri gözlüyündən gö-

türdüyü gil cürdəkdəki HƏMƏŞƏRA[11] çaxırından qurtha-qurtla içdi.

Sonra çarığının ipini açıb ayaqlarının patavasını rahladı, əvvəl istədi dünyanın hay-küyü, bazarların çığır-bağırınhdan uzaq olan azad guşəsində bir az uzanıb dincəlsin, amma ürəyində «yolçu yolda gərək» - deyib ayağa qalxdı, atını mindi. Birdən qulaqlarına qarmaqarışıq səslər gəldi, kimsə «Xilas! Xilas!» - deyə qışqırırdı. Başının tükləri biz-biz oldu, bu səs elə bil gözəgörünməz bir aləmdə yaşayan anasının ruhundan qopub, canına üşütmə saldı, «yoxsa, anamın ruhu Xilası xurd-xəşil elədiyimdən indi xəbər tutub? Yox! Yeddi il keçir o vaxtdan. Bəlkə, Xilas məni izləyir? Anamın öyüdü mənə müqəddəs işi gerçəyə çevirməyə vadar edir. Ruhunu şad eləyəcəyəm, ana. Xilas məni çox yubatdı. Bizi əkiz doğsan da, məsləkimiz bir-birinə bənzəmir, yollarımız ayrıdır, lap elə Hörmüzlə Əhrimən kimi...»

- Xilas! Xilas!

Atlı mavi səmaya boylandı.

- Axı, bu səs hardan gəlir, ulu Tanrım?

Bu zaman narra ağacının uca budaqları arasında qəfəsə çırpmaqdan qanadları qana bələşmiş Tutuquşunu gördü. Tutuquşu bir də «Xilas!» deyə çığırdı və atlı dərindən nəfəs aldı. Bir anlığa dünyanın yaşıllığını, rahatlığını əlindən almış o sirli səsin bu balaca varlıqdan gəldiyinə əmin olub toxdadı. Atını sürüb getmək istəyirdi ki, Tutuquşu yenə «Xilas!» - deyə qışqırdı. Atlı atını saxladı:

- Mən Qisasam, özüm də insan oğlundan öc almağa gedirəm!

- Hamı bu ağaca səcdə edir, sonra yola çıxır insan oğlu!

[11] Həməşəra - Müqəddəs Haoma içkisi hazırlayan qədim tayfa və şəhər adı.

Atlının qorxudan boğazı qurudu, başını həyəcan içərisində yelləyib «bilmirəm!» dedi. Həyəcanı ötüb-keçsin deyə xurcundan cürdəyi götürdü, bir-iki qurtum çaxır içib, özünə gəldi:

- Mənə Rumbazara, Ərzuruma, Ərmənbazara, ya da Şeytanbazara aparan yolu göstər, ey Tanrının sevimli quşu! Qayıdan baş səni özümlə Muğana apararam, müqəddəs suya and içirəm.

- Gecdir! – söylədi Tutuquşu, - sən çoxdan özünə ÖMÜR yolunu seçmisən. Qismətinə düşən yolun son ucunda vaxtsız ölüm gözləyir səni!

Atlı elə ucadan güldü ki, onu pusan canavar gizləndiyi yovşan kollarının arxasından çıxdı. Atlı toxdayıb Tutuquşuya:

- Sənsə o qəfəsdə çürüyəcəksən! – deyib atına bir-iki qırmanc çəkdi, at sıçrayıb irəli atıldı. Qoşatəpənin döşündəki həyat ağacı arxada qaldı.

Boz canavar gəlib ağacın yan-yörəsini imsilədi, havadan və sudan qoxusu çəkilib getməmiş yolçunun arxasıyla getmək istəyirdi ki, Tutuquşunun səsini eşitdi: «Xilas! Xilas!»

Canavar quşa ərincək-ərincək baxıb, gözdən itirdiyi yolçunun izinə düşdü.

«Tanrının sevimlisi olsaydım, bu dəmir qəfəsdə çürüməzdim. Tanrının sevimlisi o boz canavardır. GÜNAH eləsə, o da Tanrısının gözündən düşəcək. Get, canavar oğlu canavar, o ulusa ki, insan oğlu insandan qisas almağa gedir, sən də get! Adamlar bir-birlərindən öc alanda yurdun barı-bərəkəti göyə çəkilər. Yiyəsizlik çoxaldıqca didərginlər artar, sənin ruzunu tanrın nə qədər istəsən, yetirər, qalmaqaldan, hərc-mərclikdən, dava-dalaşdan yaxasını qurtara bilməyənlər sənin yemin olacaq! Get, qurd oğlu, get! İnsanların başına

hər nə gəlsə nəfslərinin murdarlığından gələcək!»

Qarğa-quzğunlar atlının süfrə açdığı yeri dimdiklədilər, həyat ağacının ayağından su içdilər, sonra da uçub günbatana sarı üz tutan canavarın arxasınca getdilər.

Ac-susuz Tutuquşu özlərinə yem axtaran o azad quşlara baxıb yanıqlı səslə «XİLAS! XİLAS!» deyə fəryad qoparırdı. «Xilas!» deyə çağırdığı sanki bir əsimlik külək kimi Qoşatəpənin o üzündə, Şeytan ağacının həndəvərində çıxlaşan kolkosluğa ilişmişdi. Fəryad səslərini eşitsə də, canına batmış tikanlardan silkinib çıxa bilmirdi, ağ köynəyi qızıl qana bələndikcə köksündə xilas hissi pardaxlayırdı. «Xilas!» deyə soraqlanan qan yaddaşı özünə qayıdırdı. Qan yaddaşına dirənə-dirənə, söykənə-söykənə kol-kosluqdan çıxmağa can atırdı. Dadlı-dadlı meyvələrə tamarzı qaratikanlarsa onun keşiyində ayıq-sayıq dayanmışdılar.

Tutuquşunun gözləri dikilmişdi uzaqlara, yaddaşının cığırlarında gözləri göyümtül, sifəti qırmızı, burnu əyri, boynuyoğun sahibi canlanırdı: «Mən sənə ulu babalarından miras qalmışdım. Onların günahlarını üst-üstə yığsaydın, sənin günahlarına çatmazdı. Ayna kimi yaddaşım da sənin günahlarının qurbanı oldu. Sən məni qızıl qəfəsdə saxladın ki, susum. Susmaq qızıldı deyə, susdururdun ki, səninlə getdiyimiz ellərdə şahidi olduğum murdar əməllərindən elin ağsaqqalları-başbilənləri xəbər tutmasın. Sonra qorxdun ki, qızıl qəfəsdə də susmaram. Odur ki, mənə bu cəzanı çəkdirirsən. Sənə də CƏZA məqamı çatacaq, indi o yoldadır...

Sənin özünəxas günahların kimi cəzan da qorxunc olacaq. Əcdadlarının ruhunu incitmisən, çünki günahların ulusunun üstünə müsibət çəkib gətirir. İnsan oğlu, öz üstünə müsibət gətirən günahlar da sənin içindən doğulub".

…Şər vaxtı çatmışdı.

* * *

Amma günbatanda Günəş qızıl xonçasını Tanrı dağının başı üzərində tutmuşdu. Qoynunda dünyanın azman ulu Peyğəmbəri uyuyan vətən dağlarının müdrik ağsaqqalı Savalan bu yaz günləri fikirli görünürdü. Zirvəsində şəfaverici suyunda buludları əmizdirən müqəddəs göl için-için ağlayırdı. Göz yaşları üzü aşağı süzüldükcə daşların köksündə şırımlar açа-açа Darcaçay[12] yaradıb ətəyinə tökülürdü. Laləli düzlərdən, çiçəkli dərələrdən keçib, Ağrı dağının ağrısından-acısından sıyrılıb axan ƏRAZın görüşünə tələsirdi.

O yaz ASLAN yatağında vüsalına qovuşduğu Ərazın suyu bulanıq qan rəngindəydi. Darcaçay dupduru sularıyla öpüb oxşadığı Xan Ərazın bulanıq qanını durulda bilmədi: Ərazı durultmağa dünyanın Hirkan dənizi boyda GÖZü gərək idi. Ağrı dağın ürəyindən axıb gedən qara qandan nə Tufandağın xəbəri vardı, nə Dəlidağın. Şahdağın başı dumanlıydı. Fit dağı da susmuşdu. Yurdun başına gəlmiş müsibətlər onlar üçün tarixə dönmüşdü. Bir vaxtlar əzab və müsibətlərin ağrısından şişib ürəyində yeddi yerdə Dağ olan YURDun tarixi yenə dövranın kələ-kötür yoluna çıxmışdı. Ağrı dolurdu ürəyinə, şişdikcə torpağı da daralırdı yurdun. Bircə Savalan dağı duymuşdu Ağrı dağın ağrısını, Dərdi şişdikcə torpağı darısqallaşan Yurdun acısını.

Bu yaz qoynunda uyuyan Zərdüştün[13] ruhu sızıldayıb, göynəmişdi, üzərində nəhəng qranit daş olan məzarı titrə-

[12] Darcaçay- «Avesta»da Daitiya kimi də tərcümə edilmişdir

[13] Zərdüşt 29 yaşından Savalan dağında gizlinə çəkilib və on il ötəndən sonra «Avesta»nı tamamlamışdı. Bahar bayramında Peyğəmbərliyə çatıb, 77 yaşında ikən yeni il bayramından (Novruzdan) 6 gün keçmiş burda vəfat edir.

mişdi, ruhunu yad eləyib çıraq kimi yanan lalələrin bağrına qara xal salmışdı, qırağında uyuduğu gölü yırğalamışdı.

Yeddi il idi ki, qaranlıq qəlblərinə işıq daşıdığı adamlar onun məzarına baş çəkmirdi. Ruhunu şad- xürrəm etmək üçün bayram günlərində burda nə çıraq yandırır, nə də fəqir-füqaraya şirni-şərbət paylayırdılar. Yeddi il idi – Yurdu sərvətini, Tanrının od ovladlarına bəxş etdiyi nemətlləri bədnəzərlərdən, pis ruhlardan qorumaq üçün qara camaat ulu Hörmüzün səcdəgahına üzərlik və duz qurbanları gətirmirdilər. Yeddi il idi ki, zənginlər, dövlətxana əyanları ağırlaşmış gövdələrini dartıb Tanrı dağına qalxa bilmirdilər. İçi şeytanlara yuva olan gövdələri onları aşağı çəkirdi. Ruh duymuşdu ki, bu yaz da onu yad etməyə gəlməyəcək insan oğlu. Odsevərlər niyə ona bu qədər həvəssiz, biganə olublar?! Bu gün müqəddəslərinin ruhunu unudan sabah özünü unudacaq.

İncik RUH arxayınlıqla oturmuşdu öz məzarının başında. Əvvəl günəşə baxdı, sonra dünyaya, uzaqlara – ellərəobalara boylandı, ondan getdikcə uzaqlaşan adamları gördü. Ruh öz-özünə pıçıldadı: - Ağrı dağı, ağrı-acın xeyirliyə calansın! Dünya dəyişib, sıxıntı içindədir, zəngini də, kasıbı da. Ağalıq etmək istəyən kimdir, boyun əymək istəməyən kim! Hər ikisi yoruculuqdur. Buyurmuşdum ki, müqəddəs sözlərimi ürəklərinə, könüllərinə nəqş eləsinlər, qəlblərini işıqla doldursunlar. Buyurmuşdum ki, qardaşlarım, cılız və nadan adamları aradan götürün, onlar yüksəkliyə qalxmaq istəyən, ucalığa layiq insan üçün ən böyük təhlükədir...

Ruh ədalət tərəzisi əyilən qarışıq dünyaya baxdı və sanki gördü ki, insanın insanlıq ləyaqəti əksilib, ağlı şöhrət qəfəsinə düşüb, işığı-odu Əhrimən nökərlərinin əlinə. İnsan bədniyyət şeytana uyub. Güclülərin məhv etmək ehtirası şiddət-

lənib, həyasızlıq o yerə çatıb ki, yazıq xalqın tikəsini boğazından çıxarırlar. İnsan təbiətə düşmən kəsilib, bar verən ağacı kəsir, axar suyun qabağına bənd vurub. AzƏr çayı – axar sular Sultanı XAN ƏrAz öz əzəli məcrasını dəyişib, insan oğlu insan özü-özünə xəyanət edə-edə xırdalanır. Və ulu TƏBİƏT də dədə-baba adətlərini, dini ayinlərini unudan adamlardan intiqam almağa hazırlaşır.

- Yoxsa onlar müqəddəs «Avesta»nı[14] tamam unudublar? – deyə RUH öz-özünə pıçıldadı. – Unutmasaydılar ayıq olardı odsevərlər, axı üç min il əvvəl buyurmuşdum ki, insanın ən yüksək UMUD toxumunu əkmək vaxtı çatıb... Bunun üçün torpağı yetərincə verimlidir. Buyurmuşdum ki, bir gün gələcək bu torpaq yoxsullaşacaq və gücdən düşəcək, onda heç bir ulu AĞAC bitməyəcək. Unutmasaydılar, ayıq olardı AZƏRlər... Axı üç min il əvvəl buyurmuşdum ki, amandır, ayıq olun, insanın bir daha ulduz – dahi Peyğəmbər doğurmayacağı vaxtı gəlir. Onda ən eybəcər insan belə, artıq özünə nifrət edə bilməyəcək!.. O zaman dünya kiçiləcək, yer üzünü hər şeyi kiçildən SON-ƏSKİK insan bürüyəcək. SON əxaqı sönük insan atılıb-düşən torpaq birəsi kimidir, kökü kəsilməz, son və əskikliyinə görə hamıdan çox yaşayar... Unutmasaydılar ayıq olardılar. Son insan yaşamaq üçün soyuq olan yerləri atıblar, çünki onlara isti gərəkdir. Hələ öz qonşularını sevirlər və ona qısılırlar. Axı onların istiyə – oda qızınmağa ehtiyacı var... Üç min il əvvəl buyurmuşdum ki, ayıq olsun açıq qəlbli insanlar, odsevərlər, işıqpərəstlər, dərinliklərinizi gizlin saxlayın, demişdim: RİYAKAR adamların günü gələcək!.. Bax, indi o gündən yeddicə il ötüb, qorxuram, düz yeddicə qərinə belə ötə...

[14] «Avesta»nın ilk nüsxələri Makedoniyalı İsgəndərin (e.ə. 356-323) qisasçı yürüşü zamanı yandırılmışdır.

Ruh ətəklərini ŞƏRƏ qapı kimi açmış Ağrı dağına:

- Xeyirə qənşər! – deyə pıçıldadı və məzarın başından qeybə çəkildi.

İnsanların ürəyinin işığı, sevgi GÜNƏŞİ sönürdü...

...Şər vaxtı çatmışdı...

* * *

Şər vaxtıydı; işığın qaranlığa, qaranlığın zülmət saçlı gecəyə qovuşduğu çağıydı. Ahənrüba kimi öz üzərinə dartıb gətirdiyi müsibətdən xəbərsiz XIRMANTƏPƏ eli sığınmışdı cavan Dünyanın ovcuna, günbatanda nilufər kimi yavaş-yavaş yumulurdu, gündoğanda xırman kimi açılırdı. Yasəmən ətri basmış Ədalət meydanının alaqapısı ağzında zülmət gecələrin ömrünü əlkəsdi eləyib doğrayan atəşböcəkləri qanadlarıyla işıq saçırdılar. Günçıxandakı malakanbazarın TRAYASUNA[15] bataqlığından uçub gələn ağcaqanadlar atəşböcəklərin işığına yığışıb, həndəvərlərində fırlanırdılar. Azərzəmin binələrdə bir-birlərindən arxayın yatıb duran cavannı-comrullu, qızlı-gəlinli, ağsaqqallı-ağbirçəkli, uşaqlı-böyüklü halallıqla yaşayıb, ömrü-ömrə, günü-günə calayan Xırmantəpə sakinləri şər əməl sahibi olan insansifət divlərə ulu olmuşlarının ocaqdibi söhbətlərində, nağıllarında rast gələrdilər.

Nağıllarda əcdahalar insanların gözünə-könlünə toxluq, əkinəcəklərinə bərəkət verən pak suyun qarşısını kəsirdilər. Nağıllarda, söyləmələrdə el qızları onlara aşiq olmuş el oğlanlarına könül verəndə: - hər kim ƏCDAHAnı öldürüb, yurdu susuzluqdan qurtarsa onunla ömür-gün ortağı olacaqlarına ƏHD bağlayardılar. Nağılların sonu xeyirliyə calanıb, xeyirliklə qurtarardı.

[15] Tryasuna -Göyçə gölü yaxınlığında ən qədim bataqlıq

Xırmantəpənin ətəyindən ötüb-keçən daş hörüklü XATIN arxının qırağıyla sıralanmış söyüd ağacları həmin yazı xeyli vaxtmış ki, yuxularında görürlərmiş. Yaşıl yuxularının çin çıxdığını əyilib yamyaşıl saçaqlarıyla arxın sularına pıçıldayırdılar; Xırmantəpə o yaşıl yuxuların qoynunda bardan-bərəkətdən aşıb-daşan xırmanlar, qoyun-quzulu, inəkli-camışlı, otlu-əncərli kövşənlər, qürrəsindən sevinci-sevgisi yerə-göyə sığmayan insanlar görürdü. İnsanların yuxusuna dünyanın yeddi rəngi calanmışdı: qırmızı, yaşıl, göy, sarı, mavi, ağ, qara.

Xırmantəpə elinin cavan el atası, Kiçik hökmdarın və Böyük Xaqanın elçisi sayılan Azərnur da Xatın arxının suatında dayanıb gecə gördüyü qorxunc bir yuxunu qırçın sulara pıçıldayırdı. Qıraqdan baxanlara elə gəlirdi ki, el atası müqəddəs suya dini dualardan birini zümzümə edir.

Azərnur yuxusunda tər-təmiz suları zil qaranlıq bir aləmə tökülən çaylar görmüşdü. Həmin qaranlıqdan çayların suyunu acgözlüklə canlarına sümürən şər əməlli insansifət divlərin qulaqbatırıcı qəhqəhələrini eşitmişdi: «Biz Əhrimən nökərləriyik. Hörmüz övladlarının odunu əlindən almışıq, pak sandığı suları murdarlamışıq, indi də bitkilərinə bal dadan zəhərli küləklər yollamışıq. Ağ libaslı qara yellər, yağışsız buludlar göndərdiyimiz Məmləkəti Ölüm yatağına təpmişik...».

Çayların suları quruduqdan sonra qaranlıq mağaradan küləyə çevrilib əsən isti nəfəsləri yer üzünün adamlarını qarsalayırdı, insanların dabanlarından tər su yerinə axırdı, adamlar cılızlaşa-cılızlaşa əriyib yoxa çıxırdı. Sakinsiz qalmış yer üzü boşluqdan yaranan uğultular içərisində inildəyirdi... Elə bil tanrı qəsdən yer üzünə yas saxlamaq üçün yalnız bircə insan övladını qorumuşdu. Biçilməmiş dolu sünbüllərini

heyfsilənə-heyfsilənə yellədən QANLIZƏMİ içindən od tutmuşdu. Od-alovdan güclə yaxasını qurtarmış yer üzünün tənha adamı başını əlləri arasına alıb ağlayırdı, sonra o da ağlamaqdan kor olurdu. Yer üzü onun üçün əbədi qaranlığa qərq olurdu... Azərnur yer üzünə yas saxlayan o kor adamın özü olduğunu bilən kimi yuxudan ayılmışdı. İndi də arxın sularına dikilmiş gözlərindən o dəhşətli yuxunun vahiməsi çəkilmişdi.

Suatda heykələ dönüb daşlaşmış, qızıl onlu su ilahəsi NAHİDƏ[16] sanki gənc el atası kimi ağır düşüncələrə dalmışdı. Azərnur başı Hilal-aypara təsvirli AZAD[17] ağacından qayrılmış əsasını suatın daş döşünə toxundurdu. Su ilahəsinin heykəli yırğalandı. Başında ayparanın içərisində yeddi dilim məşəl təsviri gün işığında parladı, arxın suyunun dibində ağ topuqlu daşlar göründü, su ilahəsinin üzü nurlandı.

Azərnur dilləndi: - Ey tanrımızın gözəllik ilahəsi, Səni and verirəm Böyük qüdrətinə, o pak və təmiz hüsnünü bu ulusa çox görmə! Ulu tanrının sadiq köməkçisi ol, könüllərə paklıq gətir! Qoy torpaqlarımızın barı-bərəkəti tükənməsin, yurdumuz hüsnün kimi gözəl və yaraşıqlı olsun! Müqəddəs ruhlarımızı şad elə!

Sonra əyilib arxdan bir ovuc su götürüb su ilahəsinin ayaqlarına atdı, su yazın erkən istilərindən qızmış heykəlin canına hopub yoxa çıxdı. Azərnur dönüb təpənin üstündə əzəmətlə dayanan Günəş məbədinə sarı addımladı. Ağ-qara mərmərlərdən hörülmüş pilləkənləri ağır-ağır qalxdıqca Xa-

[16]Nahidə - Sarı Nahid və ya Anahit adlandırılan su ilahəsinin şərəfinə atəşpərəstlərin qədim hökmdarları məbədlər ucaldıb, çay qırağında qızıldan heykəl qoyublar. Su ilahəsinə həm də təmizliyin, paklığın rəmzi kimi sitayiş olunardı)

[17]Azad - Bərk odunacaqlı ağac növü (Cənubda bitir)

tın arxı aşağıda qalırdı. Arxı üzük təki həlqələyən kərpic komalar, daş binələr sakinlərinə şadlıq və səadət gətirən baharın yolunu gözləyirdilər. Odsevərlər qəm-qüssələrini unudub həvəslə od-ocaqlarını sahmana salır, ağardılası şeylər ağardılır, göyərdiləsi şeylər göyərdilir, çirkli şeylər yuyulub təmizlənirdi. Həyət-bacaları silinib süpürülür, uçuq-sökük yerləri suvayırdılar. Ağbirçəklər-ağsaqqallar oğlu səfərdən qayıtmayan anaları, əri savaşda şəhid olmuş gəlinləri yasdan çıxarır, zindanlarda olanların ailələrinə baş çəkir, bayramda ellə şənlənməyə, ağrıları-acıları ovutmağa çağırırdılar.

Uşaqlar unnuqlarda una batırıb bərkitdiyi yumurtaları boyatdırırdılar, əyinlərinə qırmızı geyinəcəklər biçdirirdilər.

Qızlar, gəlinlər bahar rəngli xalıları, xalçaları, yorğan-döşəkləri günə verirdilər, tozunu çırpıb – alırdılar. İgidlər dədə-babaların torpaq sevgisindən yaratdığı cütü-xışı şumaçıxma mərasiminə hazırlayırdılar. Ağsaqqalların: «Durna gəldi, Şuma çıx!» - buyruğunu gözləyirdilər.

Xırmantəpə elinin çiyin-çiyinə söykənmiş obaları məbəddən ovuc içi kimi görünürdü. Obaların mal-qarası, qoyun-quzusu günbatandakı kövşənlərə yayılmışdı, gündoğanda ANA GÖYÇƏ pak sularında mavi göyləri yırğalayırdı. Azərnur indi o bol suların qoynundan qopub gələn həzin yaz küləyinin çiyinlərinə dağılmış saçlarında sığalını duydu. Elə bil bir əsimlik külək gecə gördüyü vahiməli yuxunun qəlbinə doldurduğu ağrı-acının hovunu çıxarırdı: «Əskik olmayasan bu eldən ulu Göyçə! Susuz torpaqlar da məsləksiz adam kimidir, bətnində bəla bəsləyər. Su nurdu, ümiddi, saflıqdı, təmizlikdi, paklıqdı, gözəllikdi, yaşıllıqdı. Suyun rəngi DİRİ HƏYATDI. Su özünü duruldub arındırdığı təki, insan da özünü təmizləmə durumundadır!»

...Yayda quraqlıq olardı bu yerlər. Məmləkətin yeddi da-

ğından baş alıb gələn sular torpağın canına hopa-hopa yoxa çıxardı, sudan korluq çəkərdi el-oba. Ulu əcdadı Azər oğlunun AZIX[18] oymaqdan pərvazlanıb bu azərzar torpaqlara yayılmış qədim Suvar tayfası quraqlığın, susuzluğun adamların azıxdırdığını görüb istil qurmağa başlayardı. Hələ dünyada Nuhun tufanı olmamışdı: yaz ağzı əkinəcək işlərində istildə yığılmış su dadına çatardı adamların, neçə-neçə qərinələr keçsə də and yerinə döndərdikləri, ana istillərini göz bəbəyi kimi qorumuşdular. Ana İstil tayfaların sayı artdıqca yorulub əldən düşdü. Quşları suyu iylənməyə başlayan İstildən uçub getdilər. Balıqlar öldü. Ana İstilin göz yaşları quruyurdu... Adamların canında təpər qalmamışdı, susuzluqdan nəfəsləri təntişirdi. Susuz-ələfsiz heyvanlar Ana İstilin gömgöy qarasuyunu içib tələf olurdu. Dözməyənlər ata-babalarının yurdunu qoyub DAĞLARa çəkildilər. Qalanlarınsa qırılanı qırılırdı, qırılmayanları Atəşgaha gedib maqlara ovsunlar oxutdurdular. Yanar odlara qurbanlar verdilər... Duaları müstəcəb olsun deyə fəryadlar qoparıb, ah-nalə etdilər. Göylər məşum-məşum uğuldadı. Dünyanın göydə gözü, yerdə göbəyi yırtılıb söküldü... Aləmi su aldı qucağına: qaldırdığını qaldırdı, yıxdığını yıxdı. Elə bil tanrı adamların ah-naləsini eşitmişdi, hikkəsini yer üzünə tökəndən sonra ovunub toxdadı... Suyun çəkildiyi yerlərdə dağ-düyünlər, çala-çuxurlar, GÖZƏLdərələr, AĞbulaqlar, Yarpızlı - Daşlı, QIRXBULAQ, ÇİÇƏKLİ, GÜNƏŞLİ, AZAD AĞCAQALAlar əmələ gəldi... O yozub-yoranarın söz-sovuna görə Nuhun tufanından sonra Ana İstilin yerində bambalaca Göycə göl yarandı. Qərinələr ötüb keçdi, göl böyüdü, adamlar ona Ana Göyçə dedilər.

[18] Azıx oymaq – Azıxantrop, Azərbaycan adamı: 500 min il əvvəl od-ocaqdan istifadə edən ilk insan əcdadlarının qalığı Azıx mağarasından tapılmışdır.

Göycənin ətrafında o vaxtdan Nuh peyğəmbərin oğlu YAFƏRdən[19] olan nəvəsi TÜRKün övladları yaşayırdılar... Amma özləri də bilirdi ki, Nuhun tufanından sonra qara qarğa cildinə girmiş bəd əməlli Qara div üç yüz il yer üzərində ADƏM övladlarının yurddaş saldıqları yetmiş iki məmləkəti dolaşa-dolaşa yenə onların arasına insansifət div təki qayıtmış, ondan törəyənlər dünyanın yeddi yoluna, yeddisindən yetmişinə qədər tanınmaz kökdə çıxmışdılar...

...Elin yaddaşına sığınmış Azərnur ata məbədin Ədalət meydanında yurdun böyük bayramına hazırlıq görən adamlara baxa-baxa dərin fikrə qərq olmuşdu. İndi o adamlar da yazın bu öynəsində qəfil başlanan istilər barədə danışırdılar. Nə Xırmantəpədən iki ağac[20] aralı Ana Göycə, nə də onun ayağına başını söykəmiş Xatın arxı gördüyü yuxunun xofunu canından çıxarmışdı. Havalar yağışmız keçirdi. Gölün suyu isə yavaş-yavaş azalırdı. Göy büllur sular elə bil sirli-soraqlı bir aləmə axıb gedirdi. Ovçuların söylədiyinə görə, göl son yeddi ildə dörd adam boyu aşağı enmişdir. Bu fikirlərin qoynunda Azərnur ağır-ağır meydana enirdi. Sanki o, yuxusunu ağır bir yük kimi çiyinlərinə götürmüşdü.

* * *

El ağsaqqalı Bayandur baba meydandakı cavanların birinə üzünü tutub: - Yağmur! – deyə səslədi. Cavan qıvraq gəlib ağsaqqalların əyləşdiyi QEYRƏT ocağına çıxdı.

- Buyuruğunuzdayam! – deyə Yağmur alnında puçurlamış təri sildi.

- Bir bardaq su gətir bizə!

Yağmur «baş üstə» deyib meydanın yasəmən saçaqlarına

[19] Bəzi mənbələrdə Yafəsdir. FƏR işıq deməkdir

[20] Bir ağac – 6-7 kilometrə bərabər qədim uzunluq ölçüsü.

bürünən daş taxçalı divarına sarı getdi.

- Ömrümün üçüncü qərinəsini[21] yaşayıram, yaz ağzı belə istilər görməmişəm, bu yandan göyərən torpaq, o yandan qovurğa təki qovrulur. - Bayandur baba əl ağacı ilə başını buludların qucağında gizlətmiş dağları göstərdi: - Odey, buludlar dirənib qalıb dağların başında.

Qaraçıq tayfasının ağsaqqalı Ağbaba dedi:

- İstilər də, yağışlar da Ulu tanrının ixtiyarındadır.

Azərnur dilləndi:

- Tanrının taxtı altından çıxıb arxlara axan, torpaqlar suvaran qaynağın özü də cannıdır. Torpağa can verən axar sular, bol yağışlar onun əlindədir. Əgər o qüvvə olmasa, yurdlar quru və cansız bir aləmə çevrilər... İnsanlar onu unutsalar, əziz günlərində ona dualar oxuyub yad eləməsələr, öz mehrini onların üstünə salmaz.

Bu zaman Yağmur özü kimi iki gənclə yaxınlaşıb, gətirdikləri ayın-oyunu böyük qranit kürsünün üstünə düzdülər.

Bayandur baba onlara:

- Sucan ömrünüz olsun! Bayramlarda qulluq tutasız! – dedi.

Cavanlar sayğı göstərib meydana qayıtdılar. Bayram süfrəsi üçün bəzədilmiş xonçalarda bahar səməniləri göyərirdi. Beli qırmızı qurşaqlı Səmənilər yurdun sanki zümrüd zəmilərinin elçisi kimi el ağsaqqallarının hüzuruna gəlmişdi.

- Bayram xonçaları torpağın barından-bərəkətindən xəbər verir, – deyə Yanıxlı tayfasının ağsaqqalı Bozyel qalxıb bəzəkli camlara şərbət süzdü.

- Mən su içəcəyəm, susuzluğum ac qurd kimi içimi oyur... – deyə Bayandur baba anqobla[22] naxışlanmış parlaq

[21] Qərinə - 33 illik dövr olub, əsr mənasında işlənir.

[22] Anqob -Qədim dulusçuluqda istifadə olunan xüsusi şirə

cama su doldurdu. - Qoy bu yazın ayağı sayalı olsun, torpağımız barlı-bərəkətli, ocağımız yanar olsun!

Ağsaqqallar bayram sovqatlarından qismət daddılar.

Azərnur dedi:

- Nə yaxşı ərdəmli[23] tayfa başçıları bayram bazarlığından tez qayıtdılar. Belə istidə səfərdə olmaq da yorucu işdir.

- Hə, ancaq bizim göycəli tayfasının başçısı Udvan hələ gəlib çıxmayıb, – deyə göycəli tayfasının ağsaqqalı Ulutürk Qeyrət ocağına yığışmış tayfa ağsaqqallarına, El[24] atası Azərnura və El ağsaqqalı Bayandur babaya baxdı.

Bayandur baba gözün bəbəyində, qəlbinin aynasında hövsüyərdi adamları, indi də ötkün xəyalında Udvanı arıyıb arıtdayandan sonra üzünü Ulutürkə tutub belə dedi:

- Udvanın götürgəsi əzəldən belə olub. Əvvəllərdə atasının da qurdu yad ellərdə ulayardı, axırda da sümüyünü gedib it sümüyünə caladı. Udvan da damarıboşluq vərdişini anasının südüylə qoşa əmib... Ulu tanrı qoy onun uzaq yolunu bizə yavuq salsın!

Hamı susdu. Ulutürk öz tayfadaşlarının yanında günah iş tutmuş adam kimi oturmuşdu. Udvanın atası Qayamərdan atəşsevərlərin uluca adətini hələ gəncliyində ikən pozmuşdu. Qan qohumluğuna görə hər tayfa ulu babanın törəməsi sayılırdı. Nəsil böyüyüb tirələrə ayrıldıqca tayfa daxilində kişilər qadınlarla nigah bağlaya bilməzdilər.

El adətincə, ərgənləşmiş gənclər öz elində-obasında yaşayan başqa tayfaların ərgənləri ilə ailə qura bilərdi. Belə nigah iki ayrı tayfanın sümüklərini bir-birinə qarışdırırdı. Xırman-

[23] Ərdəmli - xeyir əməlli

[24] El - dövrün iyerarxiyasında: ailə, soynəsil – tayfalarda, tayfalar isə birləşib el yaradırdı. Bu birlik və ya ittifaq siyasi quruluşa malik dövlət bölgəsi sayılırdı.

təpə elində yurd salmış tayfaların hərəsinin öz türbələri var idi. Yurddaşlar dünyasını dəyişəndə cəsədlər üç gün türbələrin üstündə saxlandıqdan sonra müqəddəs oda verilmiş saxsı və gildən qayrılmış böyük küp qəbirlərdə türbələrə götürülürdü. Bəzən bir küpdə ailənin bir neçə üzvünün sümükləri yığılardı. İndi göycəli tayfasının Qoç türbəsindəki həmin küp qəbirlərin birində Qayamərdanın sümükləri nəsrani tayfalarından olmuş qadını Herkincanın sümüklərinə qatışmışdı.

- Qoy hörmətli Ulutürk yaddaşının unutqanlığını xatırladığıma görə məndən inciməsin!.. Udvan hər il bayram bazarlığına, alqı-satqı işlərinə gah Ərmənbazara, gah Şeytanbazara, gah da Malakan bazarına gedir. – Göyöküzlü tayfasının ağsaqqalı Urşan dədə qaynar səsi ilə araya çökmüş sakitliyi qırmancladı.

Ulutürk uzun əlağacına söykənib ayağa qalxdı:

- Həmin bazarlarda slavyan tacirləri, bir də rum elindən gələnlər satacaqlarını ucuz, alacaqlarını baha qiymətə alır. Udvanın dayıları oralarda böyük nüfuz sahibidirlər. Məncə, bu qohumluğun ona elə də ziyanı yoxdu.

- Doğrudur, amma Tanrı qapısından Zəncanədək: Muğan, Şirvan, Əfşar, Qəbələ, Şərur, Şabran, Qarabağ bazarlarından qayıdan tayfa başçıları məbədin xəzinəsinə ondan da çox xeyir verirlər, – deyə Azərnur ata ağsaqqalların dilləşməsinə son qoydu.

Və qranit kürsünün arxasından qalxıb meydana endilər. Meydanda cavanlar odun-ağac doğruyur, qız-gəlinlər üçün yelləncək küpü asır, kəndirbazlar ağac tirlərin qayımlılığını yoxlayır, oyunbazlar qarmaqlı ağacayaqlar düzəldirdilər. Meydan divarlarının üstündə çıraqbanlıq düzəldir, atəşfəşanlıq üçün atəşxanalarda bayram topları doldurulurdu.

- Tanrı köməyiniz olsun! Keyfiniz kök, damaqınız çağ ol-

sun! – deyə buyurdular cavanlara. Cavanlarsa: – Tanrı sizi eldən əskik eləməsin! Neçə-neçə belə Novbahara çatasınız!.. Qədəmləri yüngül olsun Baharın! – deyə-deyə sanki gəncliklə ahıllıq bir-birlərini bayramqabağı səmimi alqışladı. Meydanda canlı-cansız nə varsa hamısı bayramı gözləyirdi. Bayramın hələ mənzilinə çatmağa yeddi günü qalmışdı. Bircə uşaqlar təhvil-təslimə erkən başlamışdılar. Bayram hələ öz taxtına çıxar-çıxmaz allı-güllü donlarını geyinib sevinir, atılıb-düşürdülər. Tünd xınayı rəngə boyanmış yumurtalarını bir -birilə döyüşdürdülər. Bu cür rəngə boyamaqçün onlar bayramlıq yumurtaları qırmızı soğan qabığı atılmış suda qaynadırdılar. Meydanda el ağsaqqalarına rast gələn kiçiklər oyunlarına ara verib, etiramla onlara yaxınlaşır, əllərindən öpür, "bayramınız mübarək" –deyirdilər, böyüklər də onların başını sığallayıb, "üzünüzə gün doğsun, əziz balalar! Ömrünüz-gününüz həmişə işıqlı olsun!" – deyə xeyir-dua verirdiər:

- Bayramda çalın, oynayın ki, ömrünüz şadlıqlarda keçsin...

* * *

Ədalət meydanına qəfil sakitlik çökdü. Təkcə uzaq bataqlıqlardan uçub istiyə gəlmiş ilk ağcaqanadın dızıltısı eşidilirdi. Ağcaqanad ağsaqqalların başı üzərində hərlənib sonra qeybə çəkildi. Bayandur baba xırıltılı bir səslə pıçıldadı:

- Bu, sizin haqqında danışdığınız Durunasuya[25] bənzəyir – deyə el atası Azərnura baxdı.

Azərnur:

[25] «Avesta»da Druc Nasu – pis ruh, aldanmış: Yoluxucu xəstəlik yayan milçək və qadın cinsində şeytanın adı.

- Hə, hörmətli el ağsaqqalı, elə bil Əhrimənin səltənətindən gəlmiş o ziyankar və yoluxucu xəstəliklər yayan milçəyin özüdür. Onların el-obada törəyib artması böyük əndişə yaradır.

Hamı hiss edirdi ki, qarşıdan bərk istilər gəlir... Və hamı ümidlə günəşə baxırdı. Elə bil Ulu Günəş Savalanın başındakı müqəddəs göldən su içməyə enmişdi. Mis məcmeyi kimi parası görünürdü: Uşaqlardan biri zümzümə edirdi:

Gün gedib su içməyə,
Qırmızı don biçməyə...
Gün özünü yetirəcək
Bizə də su gətirəcək.

- Hə, o da bizim kimi canlıdı, su içməyə gedib, ulu Hörmüz ona güc verəcək, o yenə Əhriməni qaranlıq taxtından salacaq! – deyə Bayandur baba uşağın başını sığalladı.

Xırmantəpənin günbatandakı GÜLLÜDÜZ otlaqlarından qayıdıb-gələn mal-qarası binələrin həyət-bacalarına doluşurdu. Axşam düşürdü. Şər vaxtı çatmışdı.

* * *

Göydəsə təkəm-seyrək ulduzlar görünürdü. Azərnur məbədə daxil olmaq istəyirdi ki, astanada donub qaldı. Dünyanın bu dar çağında yaxınlıqda XORUZ banladı, meydandakı adamlar çoxdan dağılışıb binələrə getmişdilər. Xırmantəpənin ətəyindəki binələri qaranlıq udmuşdu, görsənmirdi, parlaq üzük qaşı təki təpəyə bitkinlik, zənginlik verən gümbəzli məbəd də sanki xoruzun vaxtsız banından diksindi.

Səs Azərnura qorxunc yuxusunu yada saldı:

- Yox, mən bu səsi eşitməmişəm, bəlkə, şübhələrimin pı-

çıltısını dinləmişəm. Xeyir olsun! – deyə özünü nigarançılığın əlindən qurtardı.

İçəri keçib ağacdan düzəldilmiş yaraşıqlı taxtın qarşısında dayandı. Divarda çiçəkləmiş ağaclar təsvir olunmuşdu. Daş divarlarda ATA və ANA ağacının solmaz güləbənd şaxələri haçalanıb sanki ətrafa işıq saçmağa can atırdı.

Məbəd yeddi yerləşməyə bölünmüşdü, hər birində alov şölələnirdi. Alov dilləri boşluqları yaladıqca qəlbə xoş duyğular, ümid işıqları doldururdu. İşıqpərəstlik, odsevərlik insanı işığa çevirirdi. İçində işıq gəzdirən adam qaranlıqdan qorxmurdu, dünyanın işıqlanacağına inanırdı. İşıq gur yandıqca Əhrimənin qaranlıq dünyadan göndərdiyi bəd əməlli insansifət divlərin gözü qamaşırdı, kor olurdu. İndi taxtın qarşısında qəlbindən keçirdiyi bu düşüncələrdə Azərnur da oda baxa-baxa bayaq əzgin ruhunun necə dirçəldiyini duyurdu. Taxtın arxasında qırağı tunc hörgülü hündür daş taxçalarda ulu Hörmüz və onun yeddi müqəddəs ilahəsinin heykəlləri qoyulmuşdu. Azərnur daş oturacaqdakı öküz və at heykəlciklərin, buynuzlu dəbilqə, çaxmaq daşından düzəlmiş karda[26], daş ucluqlu ox, qədim dünyadan qalma qızıl piyalə, İsgəndərin cahangirlik dünyasından, Sasani hökmdarlarının zülmündən soraq verən nizə, cida və zirehli qalxanların önündən keçib yurdun yeddi rəngli TUĞU[27] altında dayandı. İpək tuğda Ulu Vətən göyləri ilə onun yamyaşıl torpaqları arasında qırmızı-sarı alov dilimləri dalğalanırdı. Ortasında Birliyin, dostluğun və işığın rəmzi sayılan Ayparanın ağuşuna, əbədi eşqinə sadiq, sönməz Yeddiqardaş ulduzu düzülmüşdü. Çiyin-çiyinə söykənmiş Yeddiqardaş ulduzu tuğa əsrarəngiz gözəllik verirdi. Uca dağ başında təsvir olunmuş

[26] Karda - «Avesta»da qılınc mənasında karəta kimi də işlənib
[27] TUĞ - bayraq

QURD da mübarək üzlə ulduzlara boylanıb, ulayırdı.

Tuğun bir tərəfində Hörmüz, bir tərəfində torpaq ilahəsi Armaita, aşağısında od oğlu Atarın heykəlləri dayanmışdı.

Qızıl şamdanlardan qalxan alov şölələri heykəllərin üzünə nur ələyirdi. Birdən hava boşluğunu yalayan qırmızı və sarı alov dilimləri içərisindən ağ libaslı, qızılı çələngi qotazlı qönçələrlə süslənmiş gözəl qadın əndamı pöhrələndi. Məhəbbət ilahəsi Buta ilə gözəllik və uşaq hamisi Humayənin heykəlləri onu aralarına aldı. Qadın ağlayırdı. Onun gözlərindən süzülən yaşlar elə bil şamdanın alovuna qarışırdı. Azərnur əllərini irəli uzatdı. Gözlərinin qarşısında xəyallarının canlandırdığı qadını bağrına basıb göz yaşlarını silmək istədi. Elə bil yaşlar ovucuna töküldü:

- Bu müqəddəs oda and olsun ki, sənin baş qoyduğun yastığa özgə bir qadın bu günəcən baş qoymayıb, ölümündən sonra yatağına qadın bədəni toxunmayıb, Türkay! Sənsiz ötən ömrüm nə qadın nəfəsinə isinib, nə məhəbbət oduna qızınıb... Ağlama, Solmaz çiçəyim, ağlama!

Xəyal:

- Nurum, ömrünü zahidanə keçirmə, cavansan... Evlən!

Azərnur:

- Yox, Türkay, sənin ruhun qoy məndən həmişə razı qalsın! Vədəsiz ölüm səni mənim əlimdən alandan sonra Ulu Tanrıma sığındım, - deyə Hörmüzün heykəlinə baxdı. Qismətimə düşən əbədi hicranın əzabından məni ulu Tanrımın mərhəməti qurtardı. Qaranlıq çökmüş qəlbimə Zərdüştün hikmətləri işıq saçdı. Bu cavan yaşımda Tanrımın böyük qüdrətiylə el atası seçildiyim ulusun anaları anam, qızları bacımdır. Məsləkim ulu Tanrının köməyilə elin-günün adamlarını xeyir niyyətə, xeyir sözə və xeyir əməl yolçusu olmağa çağırmaqdı.

Xəyal şamdanın divarda rəqs eləyən qırmızı-sarı dilimlərinə qarışıb yoxa çıxdı.

Məhəbbət ilahəsinin mehriban təbəssümü Azərnurun qəlbinə rahatlıq gətirdi, keçib taxtda əyləşdi, üzünü Zərdüştün günəş kimi nur saçan heykəlinə tutub pıçıldadı:

- Ey böyük bilici, mən də sənin kimi o şəxsəm ki, pak bir təbiətlə insanların ruhunu qorumağa çalışıram. Hörmüzün xeyirxahlıq üçün verəcəyi mükafatdan sən məni xəbərdar etmisən! Sənin buyurduğun kimi, ta nə qədər güc və dözümüm vardı, doğru yola getməyi insanlara öyrədəcəyəm!

Qəlbində: «Bu böyük səadəti Zərdüşt kimi mənə də qismət elə, Ulu Tanrı!» - dedi.

Son vaxtlar Azərnur tez-tez Türkayı xəyalda və yuxularda görürdü. İyirmi bahar bundan əvvəli – Türkaylı günlərini yada salırdı. Yuxusunda tapdığı Türkayı sağlığında olduğu kimi əzizləyib oxşayardı, göz yaşlarını silirdi, yaxınlıq edirdi. Ona elə gəlirdi ki, Türkay həyatında olmasa da, RUHU onunladır. İndi Türkayın da ruhu ona müqəddəslərin ruhu qədər əziz idi. Azərnur Türkayın ruhuna ad qoymuşdu, ürəyində: «Hardasan bəs, mənim məslək ilahəm», - deyə onu səsləyərdi.

Türkay həyatdan köçəndə yaz idi. Onda da dünya elə indiki kimi gül -çiçək ətrinə bələnmişdi. Lal daşların, qoca ağacların cana gəldiyi bir vaxt Türkay cansızlaşdı, bətnindəki körpə ilə birlikdə Azərnuru tərk etdi. Yalqız qalmış Azərnur öz toxtaqlığını «Avesta»nın dərin «Qatlar»ında tapdı...

Makedoniyalı İsgəndər işıqpərəstlərin bu müqəddəs qanun kitabını yandırandan sonra Sasani hökmdarları[28] Zər-

[28] «Avesta»nın sonrakı variantı - I Şapurun (241-272), II Şapurun (309-270) hakimiyyəti illərində toplanmış pəhləvi və sanskritcəyə çevrilmiş, bura fars əfsanələri atəşpərəstliyə uyğunlaşdırılaraq daxil edilmişdir.

düşt üləmalarının yaddaşında saxladığı parçaları toplatdırıb öz hakimiyyətlərini gücləndirmək üçün ondan dini qüvvə kimi yararlandılar. Müqəddəs kitabın həmin parçaları olan «Qatlar»da dini ayinlər, alqış nəğmələri, torpaq və ruhla bağlı dərin mənalı hikmətlər var idi.

Azərnur bu hikmətlərdən barınanda:

- Kaş, İsgəndər bu müqəddəs kitabı yandırmayaydı[29]. Axı Zərdüştün zəkası bütün dünyaya işıq bəxş etməkdi, işıqsız insanlıq da ola bilməz! – deyə düşünmüşdü.

Ağsaqqal və tayfa başçılarıyla söhbət edəndə Azərnur deyərdi: «Zərdüşt əski dünyanın azman peyğəmbəriydi. O, hikmət bağçasının gülüstanlığı qoynunda dünyanın ilk bal arısı olub. Yığdığı şirələrdən Tanrı dağı Savalanda böyük və müqəddəs hikmət çələngi toxuyub»[30]

- O elə bir çələngdir ki, başlara qoyulduqca dünya nura qərq olur! Dünyada işıqsız, odsuz-ocaqsız həyat yoxdur! Yer üzü işığa möhtac yaranıb! İşığı, odu qorumağın yol-yolağını isə Ulu Zərdüşt öyrədib. Qəlbində Hörmüz işığını gəzdirən adamlar məmləkətləri didişmələrdən və dünyanı əbədi qaranlıqdan xilas edə bilər!

- Zərdüşt buyurmuşdu: Tanrının insana bəxş etdiyi ən ali nemət sözdü. Müqəddəs söz gücdü! İnsanın şanı və şöhrətidir, şər əməlli insansifət divlərə qarşı ancaq müqəddəs sözlə yaraqlanıb-yasaqlanmaq olar!

- Zərdüşt hikmətləri işıqdan, oddan keçib, tanrının pak odunda yoğrulub. Dünyanı nura qərq eləmək üçün savaş

[29] «Avesta» 21 cild (kitab) bütövlükdə 815 fəsildən ibarət olmuşdu. 7-si Dünyanın və insanın yaranmasını, 7-si əxlaq, hüquq və dini qanunlara, 7-si tibbə, fəlsəfəyə, astronomiyaya həsr olunmuşdur. İsgəndər kitabı yandırmamışdan əvvəl 7 cildi yunanca tərcümə etdirmişdir.

[30] Rəvayətə görə Zərdüşt "Avesta"nı 12 min inək dərisinə yazmışdı.

yox, işıq gərəkdir. Şərin xain gözlərini Hörmüzün gur odu söndürə bilər! Zərdüşt hökmranlığa savaşla yox, işıqla can atmağı üstün tutub.

- Odu sevin və ona səcdə edin!

* * *

Axşam məbədə yığışan cavanlar el atasının müqəddəs kitablardan oxuduğu nəğmələri dinləyirdilər. Çıraqdanlardan süzülən gur işıq kimi Azərnurun kəlmələri də axıb onların qəlbinə dolurdu.

Azərnur əyninə ətəyi topuğacan uzanan zəfəran rəngli atlaz xalat geymişdi. Boynundan asdığı kəhrəba muncuq düzümü çıraq işığında parıldayırdı, bayramqabağı o da cavanlar kimi belinə yamyaşıl qurşaq bağlamış, alnına güləbətindən zərbafta sarımışdı. Ensiz zərbafta qaytan kimi onun gur qıvrım saçlarını sifətinə və gözləri üstünə tökülməyə qoymurdu:

- Ulu peyğəmbər buyurub ki, mən xeyir əməlləri sevənlərin aşiqiyəm. Xeyir əməl ömrün gələcək sahilinə uçan həsrət oxudur. Bu yolda ruhunu israf edəni, qurban getməyi bacaranı sevirəm. O kəs ki, nə «sağ ol» gözləyər, nə də «sağ ol» deyər, o özünü qorumaz, amma ömür bağışlayar – Azərnur gənclərin məna dolu gözlərinə baxdı, - Bu həqiqəti necə dərk etmək olar? – dedi. – Yəni insan və insanları qorumaq fikri təkcə nəsil artırmaqla gerçəkləşmir: xeyirxahlıq insana və insanlığa xidmət edir, onu qorumaq elə bir həqiqətə tapınmaqdır ki, o həqiqət toxumunun məskəni ancaq pak ürək və nurlu ağıl olur! İnsanlıq səltənətinin taxt-tacında oturmuş döyünən ürək, düşünən ağıl bitkin can sahibidir. O can ki, insanlara işıq bəxş edib, insanlığı yaşadır, öləndən sonra da varlıq kimi yaşayır.

* * *

Şər qarışmışdı. Axşam duasından sonra ayın süd işığında təpədən aşağı cığırların birinə düşüb ağır-ağır göycəli tayfasının binələrinə tərəf gedirdi. Bayramqabağı hər tayfaya baş çəkirdi, görüb-götürdüyünü saf-çürük edir, sonra fikirlərini tayfa ağsaqqalları ilə bölüşürdü. Ötən axşam adamların çöl bayırdan əl-ayaqları ev-eşiklərinə yığılanda göyöküzlü tayfasının binələrini gəzib-dolaşmışdı.

Bu tayfanın adıyla bağlı öyrəndiyi öyməcə yaddaşına hopmuşdu. Tayfadaşların yorub-yozduğuna görə nuh əyyamında tayfa başçısının mal-qarası içində göy öküz varmış: obada böyürəndə çöl-biyabanlıqda səsindən qurd-quş diksinərmiş, əkin-biçində yeddi kəlin işini təkbaşına görən bu öküzrün ayağı dəydiyi torpağın bərəkəti tükənməzmiş. Ona görə sayılıb-seçilən tayfanı ulus camaatı göyöküzlü çağırmışdı. Azərnur öyrənmişdi ki, tayfa başçısı Uruf Boyat bazarlarından alıb gətirdiyi bayram sovqatları hamını razı salmışdı.

Azərnur düşünürdü: tayfa başçılarının gün-güzəranı birbirininkinə bənzəyir, bəs bayram bazarlığından qayıdıb gəlməyən göycəli tayfasının başçısı Udvanı onlardan seçib-seçdirən nədir?

Aylı gecənin yasəmən bələnmiş qoynundan bir əsimlik küləyə qoşulub gələn səslər ürəyindən keçirdiyi suala cavab oldu:

- Udvanın qızıl qəfəsi boş qalıb!

- Eh, ay bala, tutuquşunu istər taxta qəfəsdə saxla, istər dəmir, istərsə də qızıl. Qəfəs qəfəsdi, tutuquşu da tutuquşu! – Səslər yaxınlığındakı binələrin birindən gəlirdi.

- Boş qalan Udvanın qızıl qəfəsi deyil, öz içidir! Boş qalmış qəlbdə tamah yuva salır! – deyə pıçıldadı Azərnur. Pıçıltısı da eşitdiyi səslər kimi ayın süd işığına bələnmiş cığırlara calandı, gözlərinin qarşısında Udvanın xəyalı durdu:

- Yoxsa əl boyda quş məndən qiymətlidir? Qocalıb əldən düşmüşdü, hülqumuna nə gəlirdi üyüdüb-tökürdü... Uçurdum getdi. Hii, hii! Bunun nəyi günahdı? Öyrən, dünyada adama ən əfzəl şey gün-güzərandı! Bu axarlı-baxarlı dünyada ye, iç, kef çək! Cavansan, ləzzət al fani dünyadı! Tanrı sənə də, mənə də onsuz bir gözlə baxır. Kim bilir, sabah bəlkə, məni el atası seçəcəklər, sənin yerinə!

Udvanın xəyalı əriyib yoxa çıxdı, Azərnur aya baxdı, elə bil xəyaldan eşitdiklərinə onu şahid tutmuşdu. Ay da sakit-sakit göydən ona boylanırdı.

Elin adəti belə idi: tayfadakı narazılıqların qarşısı alınmayanda başçılıq nişanələri sayılan əl ağacı və tutuquşu təzə başçıya verilirdi. Bu minvalla tutuquşu ilə əl ağacı neçə-neçə tayfa başçılarını yola salırdı. Bu miraslar ulların adət-ənənəsinə sayğısının, etibarının singəsiydiydı. Bir-birini əvəz edən nəsillərin şahidiydi.

Bayaq səs eşitdiyi binəyə döndü. İndi ordan ana laylası yol-yolağa yayılmışdı, çırağının işartısı görünürdü.

Ağca nənə gəlişinə sevindi:

- Ulu Tanrı nəzərin üstümüzdən əskiltməsin!

- Axşamınız xeyir olsun! – Azərnurun baxışları evi dolaşdı. Uçuq-sökük divardan Muğan-butası naxışlarl ilə toxunmuş nimdaş xalça asılmışdı. El atası gəlib xalçaya yaxından göz yetirdi. Oyulu xalçada Yima[31] əlində qamçı və ox tutmuşdu. Çeşid-çeşid naxışlar, badamabənzər butalar dünyanın əzəlindən soraq verirdi. Pardaqlanmış çiçəkliyin qoynunda insan, heyvan, ağac təsvirlərinə xalça darısqallıq edirdi. Hökmdar Yima elə bil oxla yeri nişan alıb, qırmancını işə salaraq deyirdi: «Ey müqəddəs yer, genişlən, səndə canlılar yaşaya bilsin...»

[31] Yima – İma, İman – "Avesta"da dünyanı idarə edən insan nəslinə hamı olan mütəfəkkir, dünyanın qızıl yüzillik dövründə hökmüdarı olmuşdur.

Ağca nənə:

- Xalça mənə yeddiarxadönənimdən qalıb. Ulu nənəm deyərdi ki, İsgəndərin döyüşçüləri vaxtilə onu Tac-Mahal elinə aparmışlar. Qərinələr ötüb, ulu babam Muğan xaqan[32] İpək Yolunda savaş aparanda xalçanı tanıdığı iranlılardan geri almışdır.

- Hələ çox qərinələr ötəcək, Odlar Yurdunun qiymətli-qiymətsiz sərvətlərinin sorağı dünyanın uzaq məmləkətlərindən gələcək! Bu yurdun səxavət kisələri həmişə gəlmələrin üzünə açıq olub! – deyə Azərnur Ağca nənəyə və yanındakı cavan gəlinin üzünə baxdı:

- Ulu Hörmüz eşqinə! Haqqı söyləyin, umu-küsünüz varsa, qəlbinizi mənə açın!-dedi.

Üzü qırışlanmış, birçəkləri ağarmış Ağca nənə və cavan gəlin xeyli susdular. Onlar öz dərinliklərini Azərnurdan gizlədə bilmirdilər. Azərnur bilirdi ki, bu eldə qadınlar hörmət və sayğı göstərib onun hüzurunda susur, açıq danışmağa çəkinir, dilucu «Yaxşıdır!» - deyə canlarını uzun sorğu-suallardan qurtarırdılar. Tavandan asılmış yüyrükdəki körpə oyandı. Anasına və nənəsinə susduqlarına görə sanki qiyam etdi, ağlamsınıb-qımıldandı, gəlin əlini uzadıb asta-asta yüyrüyü yellətdi. Elə bil körpəsini yox, gözlərinin dərinliyindəki ağır kədəri yırğalayıb ovundurdu.

Ağca nənə doluxsunmuş gözlərinin yaşını sildi:

- Üç oğul böyütmüşdüm, üçü də Vətən yolunda savaş-

[32] Muğan xaqan (553-572) - Aşina sülaləsindən Göytürk xaqanı. Böyük İpək Yoluna nəzarət etmək üstündə İranla müharibə aparmışdı. Birinci Göytürk xaqanlığının (dövlətinin) ən qüdrətli dövrü cəsur Muğan xaqan və onun qardaşı oğlu İstəmi xaqanın zamanına təsadüf edirdi. Rəvayətə görə, Aşina soyu qurddan törəmişdir. Məhz bu inancla Göytürk xaqanlığının rəmzlərindən biri də qurd başlı bayraq (tuğ) olmuşdur.

mağa getdi. Biri sağ qayıtdı, dedim çox şükür Tanrıya, heç olmasa qəbrimizin üstündə çırağımızı yandıran, ocağımızı qoruyan bir nəfər başıpapaqlı saxladı. O da qış ağzı Ana Göycənin adama boy verməz qamışlığında quş-quşlamağa getmişdi, qayıdıb gəlmədi. Ovçulardan da gördüm deyən tapılmadı, dönüb qurda-quşa yem oldumu balam? Öldüsünüqaldısını bilmədik. Vətən yolunda qardaşlarıyla şəhid olsaydı, bu qədər yanıb-yaxılmazdım.

Gəlinin yanaqlarına iki damla göz yaşı süzülürdü... utancaq-utancaq dillənib oğul dərdi çəkməkdən qəddi əyilmiş qaynanasına toxdaqlıq verdi:

- Ay ana, özünü ası-kifir eləmə! Bayaq yuxumu yozanda inandım onun gələcəyinə, özün demədinmi yuxuda binə görmək xoş mücdə olacağına, təzə həyata işarətdi?!

- Tayfa başçısının binənizin bu kökdə olmağından xəbəri var? – deyə Azərnur Ağca nənədən soruşdu.

- Agah etmişəm onu, neçə vaxtdı ki, söz verirdi. Əlacsız qalıb ona sürüdən qoyun, naxırdan inək ayırdım, Bayramdan sonra tayfalığa yığılıb binə tikdirəcəyinə söz verdi... – Ağca nənə nəfəsini dərdi, sonra üzünü gəlninə tutub səsləndi:

- Aysu, qızım, bayırda külək ağzına bir çölmək qaymaq qoymuşam, gətir onu, qoy Tanrı qonağının dilinə ocağımızın bərəkətindən dəysin!

- Peyğəmbər buyurub ki, bəxşiş verib, bəxşiş almaqdan da əfzəl xeyir iş görmək gərəkdir.

- Eh, hələ ki, təzəsən, Udvanı tanımırsan, ruhu şad olsun, ulu dədə-nənələrimizin. Deyiblər ki, dölü düz olmayanın yolu da düz olmaz! Peyğəmbər sözü insan balasına kar edər! Udvan atasından da yeddi çömçə yuxarıdı. Anasının nəsilnəcabəti bilinmirdi. Gəlinliyindən ölənəcən cığallıq elədi,

qız-gəlinlər ona cığal Anuş deyərdilər. Atası Qayamərdanın[33] da elə bil başına bu eldə-ulusda avrad qəhətə çıxmışdı... – deyə Ağca nənə giley-güzar elədi:

- Udvan da onun qanından əmələ gələn nadürüstü, indi-indi tamah dişini çıxarır.

Aysu qaymaq çölməyini gətirdi. Taxta rəfdən piyalə götürdü, qaymağı piyaləyə tökdü. Azərnur piyaləni ondan alanda burnuna gülab qoxusu doldu, Türkayın ölümündən sonra ilk dəfəydi ki, gənc qadına bu qədər yaxın dayanmışdı, saçlarından gülab qoxusu gələn gəlin elə bil Türkayın özü idi durmuşdu qarşısında: «qadınlar hamısı kədərli baxışları, umudlu yuxuları, utancaq duruşları ilə bir-birlərinə oxşuyurlar!» - deyə el atası qəlbində düşünürdü.

Qaymaq dadlıydı, amma Azərnur piyaləni axıra kimi içmədi.

- Ulu Tanrı istəyinə qovuşdursun! – deyə piyaləni Aysuya qaytardı. - Ocağınıza nur çilənsin! Qoy həqiqət həmişə bizim elimizə yar olsun!

Ağca nənə:

- Tanrı köməyin olsun! - deyə ayağa qalxdı.

Azərnur binədən çıxıb yola düzəldi. İndiyə kimi binələrini gəzib-dolaşdığı altı tayfanın adamlarından giley-güzar eşitməmişdi.

Yolu arxın kənarı ilə keçib gedirdi. Ayın əksi düşmüş sularda söyüdlər saçaqlarını yuyurdu. Suatların birində donu ay işığından biçilmiş bir qız qollarını söyüd ağacının gövdəsinə dolayıb pıçıldayırdı: - Ulu Tanrı, məni ona qovuşdur, ulu adına yaraşdır! Gördüyüm gündən bəri gözlərimin yuxusu, könlümün quşu uçub! Qoy məhəbbət ilahəsi sevgimi şəhriyarın qəlbinə doldursun!

[33] Qayamərdan - əxlaqsız div qadına aldanıb, günah iş tutan “ilk xilqətin” - Hörmüz övladının adından götürülmüşdür.

Azərnura elə gəldi ki, qız gözlərini yumub, yoldan-yolağadan ötüb keçəni görmür. Duruxub dayandı. Elə sandı ki, qız ağacı oxşayıb-əzizləyir, gecənin ən şirin, ən hərarətli sözlərini də ona deyir. «Bu qız kim ola?» Alnında tər puçurlandı, heyrəti və sualı elə bil boğazında qaynayırdı, istəyirdi ötüb keçsin, birdən öskürək tutdu onu, qız söyüdün gövdəsindən qopub, ona sarı bir-iki addım atıb dayandı: - Ulu Tanrı dualarımı eşitdi, gəl bu aylı-ulduzlu gecənin yaradıcısına birgə alqış oxuyaq!.. Azərnur geri çəkildi: - Kimsən? – deyə soruşdu, bu dəfə onu güclü öskürək tutdu. Qız: - Çin çıxdı yuxum, görmüşdüm, məni qolların arasına almısan, gəl, gəl al məni qolların arasına! – Yolçunu yoldan eyləyən o titrək pıçıltılar, ehtiraslı baxışlar el atasının daşa dönmüş kişilik hisslərini əridirdi. Ona elə gəldi daş yox, içərisindəki mum heykəldi, indi hərəkətə gələcək, indi yavaş-yavaş yola düşəcək. Əsasını yerə söykədi, içindəki heykəl sahildən gölə yan alan kiçik gəmitək yırğalandı: «Nə yazıq, ey insan, bir mum heykəl uyuyurmuş daşın içində!»

Dönüb yeyin addımlarla məbədə sarı addımladı. Arxadan leylək qaqqıltısına oxşar gülüş səsləri eşidilirdi.

* * *

...Ulu Günəş torpağa xeyir – bərəkət, təmizlik işığını paylaya-paylaya qızıl atını yəhərləyib gündoğandan günbatana səfərə çıxdı. El atası səhəri narahat açdı. Gözlərindən yorğunluq yağırdı, yazqabağı tez-tez qarışıq yuxular görürdü. O: - «Bu yuxular nə sirli hikmətdi görən, ulu Hörmüz? Niyə mənə qorxunc yuxuların ağuşunda çabalamağı rəva görürsən? O gecə suları qarışıq dünyaya axan arx, bu gecə Savalanın zirvəsində dirilik çeşməsinin keşiyini çəkən igidi görmüşəm: murdar bədənli div qadın dirilik çeşməsinə girəndə igid

qılıncını qından çıxarmaq istədi, ancaq nə illah elədisə, qınından çıxmadı. Qılıncı da, qını da pas basmışdı. Elə bil igid yeddi qərinəydi ki, qılıncını qınından çıxarmırdı. Div qadın dirilik çeşmələrini murdarlaya-murdarlaya leylək kimi qəhqəhə çəkirdi».

Azərnur yataq hücrəsindən taxtına baxa-baxa yuxusunu yorub-yozmağa çalışdı. İçini bürümüş qorxunu bilmək, onu dəf etmək, üstələmək istəyi mütəkkədə, yorğan-döşəkdə gəzinirdi. Bir vaxtlar yuxusunu Türkay yozardı, atəşgahlardakı kahinlərə, gələcəyi xəbər verən maqlara inanmazdı. Bəxşiş almaq üçün onlar dəridən-qabıqdan çıxıb yuxuları və taleləri bildikləri təki yozardılar...

Ona elə gəldi ki, indi də Türkay nazik canköynəkdə oturub yataq taxtında, ona təsəlli verib, özünü üzmə deyir, yuxular uğuruna gələn müsibətlərdən səni agah edir. Elbaşı olmağının sınaq anları yetişir. İzinə bir qız düşüb, səni gözdən qoymur. Yuxundakı saf sular sənin ruhundur, arxanca sürünən murdarlıq Əhrimənin insansifət qadın cildindəki nökəridir, paslı qılınc yaddaşdı, o kütləşdikcə şər öz qılıncını itiləyir!..

- Eh, Türkay, Türkay, niyə məni belə tez tək-tənha qoydun? Niyə susursan, ey mənim məsləkimin ilahəsi, ömrümün – günümün ruhu, canımın cövhəri!

Türkayın sanki ruhu səhər mehi kimi üzünə toxundu. Azərnur ruha öz sonsuz sayğısını bildirərək gülümsündü, onun təmasından gözlərini yumdu.

Məbədin girişində ayaq səsləri eşidildi, o daldığı şirin xəyalların qoynundan ayrıldı. Adəti üzrə səhər yeməyindən əvvəl alqış nəğmələrindən birini zümzümə eləyər, yeməkdən sonra hücrəsindən çıxıb məbədə keçərdi. Bu gün ilk dəfə idi ki, ənənəsinə dönük çıxırdı.

Əsasını götürüb daş arakəsmələrdən keçib məbədin böyük salonuna getdi. Mərmər kürsüyə sarı əllərində parıltısı gözqamaşdıran çölmək tutmuş gözəl bir qız addımlayırdı. Əyninə geyindiyi sarı güllü libası əndamına yapışmışdı, alnına qızılı zərbafta, belinə gümüş kəmər bağlamışdı, büzməli arxalığında qızıl suyuna salınmış düymələrin ikisi açılmışdı, mərcan boyunbağısı ağ meydan sinəsini arakəsməyə salmışdı, zərli başmaqlarının dabanları elə bil qurğuşundan tökülmüşdü. Aram-aram yeridikcə məbədin daş qulaqları cingildəyərdi. Azərnuru görcək üzünə kölgə salmış kirpiklərini qaldırdı, gözlərindən yağan işvəkar sevinc seli cavan el atasını özünə sarı çəkdi, indiyə kimi baxışlarının sərtliyini Xırmantəpə elinin kişili-qadınlı sakinlərinin gözlərində sezib-duymuş el atası həmin sərtliyin bu sarıpaltarlı qızın qara gözlərində əriyib itdiyinə heyrət edib dayandı. Qızın dik və iri döşləri köksündə keçirdiyi təlaşlan qalxıb-endikcə donu əndamına daha da darlıq edirdi. Saçlarının gülab qoxusu Azərnurun burnuna dolub, işvəli baxışları təki canına hopurdu. Elə bil kişi qəlbinin içində sehirli bir əl gəzişirdi, təkliyin əzabına sığal çəkib, ovundururdu. Qız əyilib çölməyi mərmər kürsünün üstünə qoyanda saçları tül örtük kimi sinəsinə töküldü. Bəstə boyunu dikəldib, quş qanadları tək zərif əlləriylə tül örtüyü çiyinlərindən kürəyinə yığdı. El atası yüngülcə öskürdü. Qız ona nəvazişlə baxa-baxa dilləndi:

- Anam deyir, sarımsaqlı umac öskürəyə məlhəmdir, ancaq onu isti-isti yemək gərəkdi! – Xoşqılıqlı səsindəki şirinlik Azərnurun qəlbinə xoşnudluq gətirdi. Ona elə gəldi ki, bu gözəlcə qızı tanrı ona bahar mücdəsi kimi göndərib:

- Adın nədir sənin, gözəl?

- Adımı göyçəli gözəllərinin gözəli Sevan Xatun çağırarlar!

Onun titrək sözlərindən üzülüb axan su şırıltılı, meh nəfəsli duyğular Azərnurun üzünə sevinc yaydı. Əgər qız özünün göycəli tayfasından olduğunu nişan verməsəydi, Azərnur onu tanrının xeyir mələklərinə bənzədəcəkdi. «Yox! Mələklərin belə ehtiraslı səsi olmur, axı mələklərin ehtiras duyğusu heç yoxdur! Bu gözəl isə ulus cavanlarından birinin qismətinə yazılan Tanrı payıdı. Özünü tanıyandan bəri qismətini axtarır» Azərnur keçib taxtında əyləşdi.

- Sevgi anı, sevgi məkanı, sevmək anı, Sevan, - deyə pıçıldadı. Qız onu dinləyə-dinləyə öz gözəlliyindən məmnun-məmnun sarıköynək kəpənək təki qanadlanıb məbədi dolandı. Məbədin gündoğan tərəfindəki gözlüyündən Günəş ona gülümsünürdü, yaz öynəsi qıza uğur diləyib, xeyir-dua verən günəşə baxa-baxa pıçıldadı:

- Var ol, ulu Mehri, var ol, ey işıq pərisi!

Burdan Xırmantəpənin damları, daxmaları ovuc içi kimi göründü qıza, birdən-birə bu ucalığa qalxmağı qəlbinə uşaq fərəhi doldurdu. Sonra dönüb məftunluqla müqəddəs heykəllərə baxa-baxa el atasına yaxınlaşdı:

- Bəlkə, elimin – günümün şəhriyarı bərk soyuqlayıb? Mən ona xidmət göstərməyimə şad olaram. Gərəyi olsam, buyruq versin, canla-başla buyruğunda amadəyəm!

Azərnur qızın işvəkarlığına duruş gətirə bilmədi. Taxtından qalxıb müqəddəs oda yaxınlaşdı:

- Soyuğu-acını bu od mənim canımdan çıxarır, onun zərrələri qaranlığı nura boyadığı təki soyuqluğu-xəstəliyi də yox edir.

Qız da ona sarı gəldi. Müqəddəs odun şöləsi gözlərinə düşdü.

- Deyirlər, el atası tək-tənhadır, heç kimi yoxdur! Mən onu təklikdən qurtarmağa, qəlbinə həmdəm olmağa gəlmişəm,-dedi.

Azərnur içində unamadığı bir yüngüllük duydu, ona elə gəldi ki, uzaq bir keçmişdə bu qızı lüt-üryan görmüşdü, onda ağ sinəli, incə belli kişi bədəninin şövqündən bəlli olan yumru əsmər baldırları onun varlığını əlindən alıb özünə sarı çəkmişdi. Qara badamı gözlərindən aşıb-daşan sarmaşıq kolları çılpaq kişi bədəninə dolanmışdı. Ehtiras çiçəklərinin ətri bürümüş yataqda sinələrinin təri bir-birnə qarışmışdı...

Harada görmüşdü bu qızın bədənini? Yuxularında? Yox! Yuxularının yalnız bircə qonağı vardı... Bəlkə heç görməmişdi. Damarlarında qanı axan əcdadların ruhu döyünərək şahid təki oyanmışdı. Oyanıb içində ayağa qalxmışdı. Nəvəsinə, nəticəsinə, kötücəsinə, ilicəsinə, yadicəsinə... elicəsinə qan yaddaşı ilə qahmar çıxırdı. Azərnur yəqincə hasil elədiyi belə fikri ürəyindən keçirdi: «İnsan aləmi böyük hikmət səltənətidir, onun keçmişiylə bu çağı bir-birinə ilişiklidir, unutqan yaddaşlar keçmişini yaşatmır, ÖRNƏK keçmişdir, öyrədəndir. Ərkə bu çağımızdır – cocuqdu, öyrənəndir, öyrənib ƏRKAN yaradandı, öyrənməyib ƏRKANSIZLAŞANDIR».

- Mən tənha deyiləm... Tanrının doğru yolunu tutanlar mənimlədir. Mən də tanrının haqq yolunu uca tutanlar iləyəm! Bu üsuli-ərkandl...

Qız:

- Müqəddəs kitablardan, məhəbbət nəğmələrindən söz açan bilici buyurub: «Qadınsız həyatda sevinc və səadət yoxdur. O kişi xoşbəxtdir ki, yumşaq balışlar qoyulmuş yataqda qadını bəzənib onun yolunu gözləyir»[34] – İşvəli-işvəli gülümsündü. Sonra əllərini ehmalca uzadaraq Azərnurun əllərinə toxundurdu.

- Ulu Tanrı, bəndənin qəlbi ay kimi soyuqdur, əllərimi

[34] "Avesta"nın "Toy qatı" fəsli nəzərdə tutulur.

üşütmə tutdu, - deyə əllərini çəkdi və oda qızındırdı. Qəlbində «Mənim ondan istəyib umacağımı o, nədən umusundurdu, elə bil müqəddəs kitablarda yazılanlardan xəbəri yoxdur!»* - deyə düşündü.

Azərnur qızın duruşundan incikliyini duydu:

- İnanıram ki, gözəllər gözəli Sevan Xatun həmin məhəbbət nəğmələrində söyləmiş «Nigahsız məhəbbət və ünsiyyətin qadağan» olunmasını da yaxşı bilir, qoy qəm eləməsin, bu gözəlliklə ulus ərkənlərinin birinə qismət olacaq!.. Axı sevib-sevilmək çağı bahar gəlir!

Azərnur aram-aram gəzişdi, gəlib taxtın yanında dayandı. Qız naz-qəmzəylə arxasını ona çöndərmişdi. El atasının öyüd-nəsihəti ona uzun-uzadı söz yığnağını xatırladırdı. Azərnur:

- Ulu Tanrı eşqinə, qəlbini xoş niyyətlə doldur!

Qızın içinə sığmayan sevgisi yanağına qızartı ələmişdi. Azərnurla bu görüşü həsrətlə gözləmişdi. İndi hiss etmişdi ki, onun sevgisini qazanmağın özü susuz çöl-biyabanlıqda su axtarmaq kimidir. Amma sevgiyə möhtac qəlbində ümid çırağı sönməmişdi. Kəpənək kimi pərvazlandı, gəlib taxtın o biri tərəfində durdu.

- Bu taxtın sahibi, mənim də qəlbimin yiyəsidir, -dedi,- qoy el atası bilsin ki, bu eldə Sevan Xatun yalnız onun xoşuna gəlmək istəyir, o Xırmantəpəyə qədəm qoyandan bəri ruhuma sevinc gətirib...

İzin verin, o sevinci tez-tez duymaq üçün məbədə gəlimgedim.

Azərnur düşünürdü ki, bu şıltaq qız ondan şadyana cavab gözləyir. Xeyirxahlığın hüdudu yox idi, əgər qəddarlığın hüdudu olsaydı, bu gözəl qızın qarşısında qurtarardı! Harın hökmdarlar belə diz çöküb ondan murad istəyərdi. Bayaq əl-

lərini əllərinə toxunanda isti və coşqun qadın bədəninin hərarətini duymuşdu. Duz səpilmiş bir yaraya da bu əllərin sığalı məlhəm olardı... Tanrı belə qadınları elə bil məhəbbət oyunları üçün yaratmışdı. Yadına gənc yaşlarında Muğan atəşgahında oxuduğu «KAMA-SUTRA»dakı saqrin[35] qadınlar düşdü. Elə bil Sevan da özünün işvəkarlığı ilə həmin qadınlara bənzəyirdi. Saqrinlər nikah bağlamağa yaramırlar, onlar özlərini nikahsız da məhəbbət oyunlarına qurban verirdilər. «Avesta» qanunlarında isə nikahsız məhəbbət yasaq olunmuşdu.

Xəyalı Azərnuru çəkib uzaqlara aparmışdı. Qızın həsrətlə cavab gözləməyini bir anlığa unutmuşdu, handan-hana pıçıldadığı Zərdüşt deyimlərini elə bil qəlbinin dərinliyindən tapıb çıxartmışdı:

-...Bütün böyük sevgilər sevgi istəməzlər, daha artıq bir şey istərlər...

Qız Azərnurun söylədiklərindən bir şey anlamasa da:

- Sevan xatunun sevgidən daha artıq sayğıları Tanrının və onun hökmdarlarının elçisi Azərnuradır! – deyə dilləndi.

Bu zaman el ağsaqqalı Bayandur baba və göyçəli tayfasının ağsaqqalı Ulutürk məbədə daxil oldular.

- Ey ədalət carçısı, sabahın xeyir!

- Uğrumuz Xeyir olsun!

- Xeyir bizimlə olsun!..

Hər ikisi keçib kiçik taxtlarda əyləşdilər.

- Yəqin göyçək Sevan xatun atası Udvan Göyçəlinin gəlişindən hörmətli Azərnuru agah etməyə gəlib?!. – deyə Ulutürk Sevana və Azərnura baxdı.

Azərnur ağır-ağır taxtda əyləşdi. Əlini asta-asta yuxarı

[35] "Kama-Sutra"- «Məhəbbət incəsənəti», bizim eradan əvvəl hind təbibi Batysan tərəfindən qələmə alınmışdır.

qaldırıb alnını ovuşdurdu. Bayaqdan qızın ağca əndamından qətrə - qətrə qopub məbədi bürüyən gülab ətri qəfildən qeybə çəkildi. Elə bil Ulutürkün sözləri içərisindən nəsə daşa dönüb alnına çırpılmışdı, ağrısı-acısı bədəninə yayıldı.

- Hə, həyəcandan unutmuşdum. Atam xoruzların birinci banında səfərdən qayıdıb gəldi... – deyə qız şadyana təzə sarı donunu nişan verərək əzilib-büzüldü...

Bayandur baba el atasının pərişan olmağının səbəbini anlamışdı:

- Udvan çanaq içi çıxartmağa getməmişdi ki, gec də olsa gəlib özünü bayrama yetirməliydi.

- Başqa tayfa başçıları kimi o da yaz əkininə toxum alıb gətirib, bayram ayın-oyunu da!.. – Ulutürk dilləndi.

- Arat torpaqlarının suyu çəkilir, deyirəm, əkinə tez başlasaq, yaxşı olar... Uşaqlar elimizə-obamıza gələn ilk leyləklərin dimdiklərində çöplə, sümük görüblər.

- Hə, bu o deməkdir ki, irəlidə bizi quraqlıq gözləyir. – Ulutürk Bayandur babanın sözünə qüvvət verdi.

Azərnur ağsaqqallara qulaq asa-asa Sevanın gətirdiyi çölməkdə hələ də buğlanan ümaca baxırdı. Və elə bil o xəfif buğ çölməkdən yox, Udvanın içindən qalxırdı: «Boş qalan qızıl qəfəs deyil, Udvanın içidir. Boşluq fitnə-fəsad yuvası qurar. Belə yuvada şeytan gizlənər!» - Ağca nənə, Aysu xatun gözlərinin qabağına gəldi. Ağca nənənin sürüdən qoyun, naxırdan inək verməsi Udvanın tamah dişi çıxarması barədəki söhbətlərini xatırladı.

Ulutürk:

- Ulu Tanrı sular Sultanı Ana Göyçəni bizə çox görməsin! – söylədi.

Bayandur baba dedi:

-Göyçənin suyu yay vədəsi azalsa, arxa su gəlməz!..

Ovçular böyük çillə çağları gölün dibindən qorxunc səslər eşidiblər. O səsdən sonra qalın buz qatlarına çatlar düşüb, buz örtük dar köynək kimi min bir yerdən sökülüb, dağılıb. Dönəlgəsi dönmüş dünyanın iştəklərindən heç baş açmaq olmur ki...

Ağsaqqalların söhbəti Sevanı bezikdirmişdi. Çıxıb getmək istəyəndə Azərnur ağır-ağır dilləndi:

-Qoy Sevan xatun umac çölməyini də aparmağı unutmasın, mən bu gün pəhrizdəyəm, dilimə pak sudan savayı, bir şey vura bilmərəm!

Qəlbində: «Ulu Tanrım, yalanımı bağışla, mən haramxor bir adamın loxmasını dadıb, günahına şərik olmaq istəmirəm!» - dedi.

Sevan duruxub Azərnura, sonra ağsaqqallara baxdı. Çölməyi götürəndə dodaqları səyridi, baxışlarını sarmaşıq təki yenə Azərnura dolandırdı, bədəninə uçunma düşdü. Elə bil kəpənək kimi qanadlarını açıb gülüstan qoynundan uçub gedirdi, başmaqlarının cingiltisi məbədin astanasında itsə də, qulaqlarını hələ də içəri şəkləmişdi.

-Siçanların səs-küyünə görə ibadətindən əl çəkmiş zahid barədə hekayət yadıma düşdü, - deyə Bayandur baba dilləndi.

Ulutürk dedi:

- Ulu Zərdüştün səhrada bir ağac əkməyin faydasız ibadətdən daha əfsəl olduğunu söylədiyi sərgərdan zahidi deyirsən?

- Yox, - deyə Bayandur baba sözünə davam elədi: - Həmin zahid də bir küməyə çəkilib, ömrünü ibadətlə keçirmək istəyirmiş, di gəl kümədə siçanlar səs-küy salıb onu ibadət etməyə qoymurmuş. Gedib bir pişik tapıb gətirir, siçanlar pişiyin həcnini eşidib yuvalarından çıxmır, ac-yalavac pişik də

başlayır miyoldamağa, bu dəfə zahid inək alıb gətirir ki, südünü pişiyə içirtsin, amma inəyi sağmağa qadın gərək olur, qadınla bir kümədə yaşayan zahid də məcbur olur ki, onunla izdivaca girsin və nikah bağlasın. Bununla da öz ibadətinə son qoymağa vadar olur.

Ulutürk Azərnura baxıb dilləndi:

- Sevan xatun gözəllər gəzilidir, əgər el atası onunla nikah bağlamaq istəsə, biz bunu öz tayfamıza şərəf sanarıq!

Azərnur susmuşdu. Sanki gözləri içinin dərinliyinə dikilmişdi.

Bayandur baba ayağa qalxdı:

- Zərdüşt özü buyurub ki, qadınsız həyatın sevinci olmaz, ancaq bizim eldə məsəl var: deyir, uruğunu-turuğunu tanımadığın soya qız vermə! Əslini-kökünü bilmədiyin yerdən də qız alma! Bir də eşitdiyimə görə, o qız Oxçuoğlunun beşikərtmə deyiklisidir...

Ulutürk də ayağa qalxdı:

-Uğur diləyək, uğurumuz xeyir olsun! Bayram gəlir, mübarək deyək ki, günlərimiz mübarək olsun!

Azərnur taxtında oturub, dərin fikrə qərq olmuşdu. Düşünürdü: «Boş qalan tutuquşunun qızıl qəfəsi deyil, Udvanın öz içidi!»

* * *

Udvan öz kaşanə damında xalıya-xalçaya bürünmüş otaqların birində dirsəklənmişdi, sapsarı məxmər mütəkkəyə, göy-firuzeyi lüleyindən bəzəkli çini piyaləyə süzüb içdiyi çaxırın ləzzətindən ağzını marçıldada-marçıldada neçə günün yol yorğunluğu canından çıxarırdı. Xəyalında indiyə kimi bazarlarında olduğu Böyük Gurodlarda[36] kef çəkdiyi qa-

[36] Gurod – qor, qor-od, şəhər mənasındadır

dınları canlandırırdı. Qadın dünyasına elə bil bir qərinə yaşayandan sonra bələd olmuşdu, yaşadığı dünyaınn quzeylərinə vardıqca güneydə yaşayanların halına acımışdı. Güney qadınlarının içlərində buz soyuqluğu uyumuşdu. Quzey qadınlarındansa bu soyuqluğu duymamışdı. Elə bil onlar içlərində istisinə qısıldığı kişilərin odundan məşəl yandırmışdı. Və elə bil belə qadınlar gümüş piyalələrdən içdikləri şərabla içlərindəki məşəlləri daha gür şölələndirirdilər. «Ah, onların od kimi hərarətli, çılpaq, tərli sinələrində məst olub uyumaq necə xoşdur!» Quzeydəki qadınlar ala-bəzək kəpənəklər kimi uçub sinədən sinəyə qonduğu zaman güneydəki həmcinsləri üzərində buta təsviri olan xurcun, yəhərüstü, çalma, gəbə, xalı-xalça toxuya-toxuya təmiz yataqda ərlərinin yolunu gözləyirdilər. Kirkirədə dən üyüdüb, təndirlərdə çörək bişirirdilər, sərincləri sağdıqları südlə dolurur, nehrələrin ağzına sələ çəkib çalxalayırdılar, yağ hasilə gətirilən kimi yaxmac düzəldib körpələrinə verir, özlərini dünyanın xoşbəxt qadınları sanırdılar.

Onlar kişi yığnaqlarında ildə bir dəfə – bahar bayramlarında olardılar, içdikləri səməni şirələrindən çəkdikləri şərbət idi. Udvan öz mehrini güneytəpələrə saldığı vaxtlar da olmuşdu. Şəhriyar bazarında altı ay səfərdə olduğu zaman ay üzlü Muğan qızına tuş gəldi, qarşısında diz çöküb: «Dönük çıxsam, müqəddəs od mənə qənim olsun!» - deyib nikah bağlatdırdı. İkicanlı olanda qadının toxuduğu Muğan xalçalarını, çuval və palazlarını Əlincədə baha qiymətə satmaq adı ilə aradan çıxmışdı[37], oradan da Dərəşam sahillərinə getmişdi. Dərəşamda ərəb tacirlərindən birinin kəniziylə izdivacda olmuşdu. Əsmər bənizli ərəb qızı kəniz də olsa ona nifrət elə-

[37] «Avesta» qanunlarında nikah pozulanda günahkar tərəf odda qızdırılmış qırmancla cəzalandırılardı.

yirdi. Udvan həmişə o ərəb qızını xatırlayanda qəlbini qorxu sarıyırdı. O qızın səsi də gözləri kimi kədərliydi, belindən aşağı uzanan hörükləri ilan kimi canlanardı Udvanın xəyalında. İlana dönmüş o hörüklər boğazına sarılıb onu boğardı, qəzəblə ona tuşlanmış kirpiklərinin hər biri oxa dönüb köksünə sancılırdı. İndi Udvan iyirmi iki il bundan qabaq aldatdığı o muğanlı qızı, zorla ram elətdiyi ərəbli kənizi yada salmağa qorxurdu. O vaxtlardan quzeylərdəki kurodlara üz tutsa da ulu Babası Aymuğəmdan qalma tutuquşusu dil boğaza qoymazdı. Keçmişini yada salardı, gah Muğan qızının ona öyrətdiyi «XİLAS!» sözünü, gah da ərəb qızından eşitdiyi «Vəhşəti-Qisas», «Qisas!» kəlmələrini söyləyirdi... Məcbur qalıb Rumbazarda olanda tutuquşuya qəfəs aldı. Tutuquşunu ağac qəfəsə saldı, susmadı, dəmir qəfəsə saldı, quş yenə bildiyini dedi, sonra qızıl qəfəs düzəltdirdi, amma qızıl qəfəsin içində də quş «Xilas, Xilas!» - deyə car çəkdi.

Bir dəfə Ərmənbazarda böyük dayısı Xoren Terpetiyan dedi:

-Tutuquşun hanı? Yoxsa atrpatakanlılar[38] səni qəbilə başçılığından çıxarıblar? Yox, - deyə Udvan cavab verdi. - Qocalıb əldən düşüb, hulqumu da boşdur. Tayfadaşlarının arasında, el içində məni xar eləyib, hörmətdən salır, istəyirəm...

- Qoy bacıoğlu buna görə sıxıntı keçirməsin, bizim hayaslılar gözəl tutuquşular bəsləyirlər. Elə sizin Böyük Xaqanın adamları gəlib burdan tutuquşu alıb aparıblar. Əfşarlar, goranlar, saclar, qarabağlar, kəbrlər, kəngərlilər, boyatlar, ləklər, qanıqlar, giltlər, xınalıqlar, vedililər, məzdəkilər və başqa çoxlu türkanlar bizim quşları bəyənirlər. İstəyirsən, sənə də ən yaxşılarından birini tapım?

[38] Od qorunan yerin adamları (erm)

- Olsun, amma qərinədə bir danışsın!

Böyük dayısı onu öz bazarçasından quş bazarına apardı. Bazarbaşı onları görcək sevindi, cürbəcür quşlar gətirdi. Amma bütün quşlar danışmağı bacarırdı. O, dayısından soruşdu ki, bu nə sirdir belə? Bazarbaşı cavab verdi: - Alış-verişimiz yaxşı getsin deyə biz quşlara dünyada nə qədər Nuhdan törəmişlər var, hamısının ayamasını, yaşadığı yurdların adını öyrədirik. Bu, bizə çoxlu qazanc gətirir. Udvan dedi:

- Bunların hamısı başaparandı, mənə az danışan, susqun tutuquşu gərəkdir.

Durub getmək istəyəndə bazarbaşı dedi:

- Bax bu quş ən az danışandır, vur-tut iki-üç elin-obanın adını bilir, al bunu! – Sonra bazarbaşı tutuquşunu danışdırdı. Tutuquşu susdu.

- Gördün ki, bu susqundu, acdı yəqin, - deyə tutuquşunu yemlədi. - Hə, dillənsənə, danış görək. Tutuquşu axır ki, silkinib dilləndi: - Xırman-təppə! Göy-cə, Qarabax!.. Qarabax! – Əgər özün öyrədə bilsən, daha çoxlu sözlər bilər! – Udvan axır ki, razılaşdı.

- Bu tutuquşunun anasını Əfşarandan gəlib aldılar, böyük Xaqanın adamlarıydı, – deyə bazarbaşı razılıqla Udvana və onun böyük dayısına baxıb gülümsündü.

Udvan əlində piyalə qalxıb qızıl qəfəsə saldığı təzə tutuquşuya yaxınlaşdı. Arvadının qovurduğu ləbləbidən götürüb quşu yemlədi, ha çalışdı ki, quş danışsın, danışmadı, qeyzindən quşu yemlədiyi çubuqla vurdu. Quş qışqırıb haray qopardı: - Dur-rak!.. Dur-rak!..

- Bax, belə danışarsan! – deyə Udvan gülümsünə-gülümsünə mütəkkəli taxtına sərəvəzləndi. Xəyalında quşa bu sözü öyrədən qızılsaçlı slavyan qızını canlandırdı. Xırmantəpəyə qayıtmamışdan əvvəl Ərmənbazardan Malakanba-

zara kiçik dayısı Balavan bazarçaların birində tanınmış başmaqçıydı. Udvan onun yanında satacağını satıb, alacağını alandan sonra gəldiyi atlılarla gedib karvansara hücrələrinin birində yolüstü dincəlmişdi. Darıxıb yenə bazara qayıtmışdı. Slavyan bəzzazlarına qızıl dirhəm verib, onlardan boş vaxtını keçirməyə qızılsaçlı bir qızı iki günlüyə alıb öz hücrəsinə gətirmişdi.

Udvan qızla kefə israf elədiyi qızıl pullara heyislənmədi. Özündən razı gülərüz, qızılsaç qız hücrədəki taxtda oturub başına çiçəkdən çələng qoymuşdu, cürdəkdəki yeddi illik şərabdan içə-içə Udvana baxıb gülümsünürdü:

- Xoroşuxa! Xoraşava!.. Qm! – deyə ləzzətlə pıçıldayırdı.

Udvan bardaş qurub, maddım-maddım ona baxırdı, sözlərindən heç nə anlamırdı. Fəhmlə başa düşürdü ki, qız şərabı tərifləyir: - Xoroşi tovar sam sebe xvalit!.. Qm! – piyaləni Udvana uzadıb: - Qm! Xaxal![39] Nu-us?.. Xaxal!.. Ya xoxana, xoroşuxa?..[40] idika ko mne.. Dur-rak! – Yarıçılpaq halda durub tutuquşu olan qəfəsə yaxınlaşdı. - Durrak! Durrak! – deyə tutuquşuya Udvanı göstərdi. Sonra qız gülə-gülə quşa da şərab içizdirdi. Durrak! –deyə-deyə qəhqəhə çəkdi.

Tutuquşu da onun sözünü öyrənib götürdü:

- Durrr-rak! Qız gəlib udvanın qabağında diz çökdü:

- Qm!.. Xaxal! Öomka moşennik, vor! Qm! Vorovskoy lyud?! Şo smotreş kraduçis... Qm! Da!.. Da bud... xaxal çvannıy![41] – Piyaləni yerə qoydu, Udvanın əllərindən tutub qaldırdı, geyinəcəyini soyundurub taxta sarı apardı:

---

[39] Xaxal – oynaş (köhnə söz)

[40] Mənası – mən gözəl məşuqəyəm.

[41] Niyə oğru-oğru baxırsan, ötkəm oynaş ol!
Mənası (kinayəli)- Əqidəsiz adam –firildaqçı,oğru-əyri olar.

- Na bezlyudi i Eoma dvaryanin[42] xaxal!.. Ya xaxanuka, tı xalal, eoma[43] – pıçıldaya-pıçıldaya güngörməz bədənini Udvana sıxdı...

Zor işlətmədən əyləndiyi, kef çəkdiyi qızılsaçlı slavyan qızı quzey erməzəminin Anaitis məbədlərində yunanlı Heteraların[44] ənənələrini davam etdirən nəsara qızlarına bənzəyirdi.

Yalnız Hetera qadınlarında kişilərə belə güclü coşğunluq ola bilərdi. Udvan buna görə qazancının yarıdan çoxunu həmin məbədlərin xəzinəsinə verirdi. İndi Xırmantəpədəki kaşanə damında oturub həmin Heteraları və iki gündən də çox kef çəkdiyi qızılsaçlı slavyan qızını yada saldıqca Udvanın içini niskil bürüyürdü.

İçki başını dumanlandırmışdı, şəhvət hissi gözlərinə qan çiləmişdi. Darıxıb dərindən ah çəkdi, tayfasında yerişinə-duruşuna baxıb, əndamına tamah saldığı, oduna yanıb-yaxıldığı ərsiz qalan gəlinləri bir-bir yadına saldı. Durub taxçaya yaxınlaşdı, boxçadan bayram bazarlığında aldığı cürbəcür qadın donları çıxartdı. Seçib-seçmələyib ən gözəllərindən birini götürdü, bükmələyib xalatının qoltuğuna soxdu. Birdən dönüb qızıl qəfəsə baxdı. Təzə tutuquşu yazıq-yazıq sahibinin üzünə baxırdı, dinib-danışmırdı.

- Bax belə. Xoşum gəldi səndən, yoxsa o birisi kimi: - Xilas, Xilas! – deyə baş- qulağımı aparmışdı. Bu lənətə gəlmiş adət-ənənələr olmasaydı, heç sən də mənə gərək döyüldün! Gedib nəfəsi götürdü: - Gəl, indi çıxaq el içinə, camaat bilsin ki, qəfəsim boş qalmayıb! – kefli-kefli barmağını silkələdi: - Xəbərdarlıq eləyirəm, susmaq qızıldır, bax, bu qəfəsin qızılı kimi...

---

[42] Adamsız yerdə məsləksiz adam zədagandır (köhnə dini söz)
[43] Xristianlıqda: eomka və eomo – şübhəli, məsləksiz adama deyilir.
[44] Heteralar - Xəzinəyə gəlir gətirən fahişə qadınlar.

Tutuquşudan səs gəlmədi. Udvan əl ağacını götürüb: «hə, indi gedək, görək kim köçüb, kim qalıb!» - deyə qapıya sarı yan aldı.

Həyətdə ağır düşüncələrə dalmış arvadı Mağmunla üzüzə gəldi. Arvadı təpədən dırnağacan onu süzdü. Sonra çallaşmış saqqalına baxıb səsini qaldırdı:

- Tayfadaşların səndən bərk narazılıq edir, bayram ayınoyunlarını ikiqat bahasına satırsan! Axı niyə Tanrının hüzurunda bu qədər günah qazanırsan? Nəyinə gərəkdir bu qədər sərvət?

- Ömrüm boyu tayfa başçısı olmuyacam ki, sərvət daha böyük qulluqlara açar deməkdir. Bir də ki imkan yarandımı gərək sərvət toplayasan! Bu dünyada əzəldən sərvət hökmranlıq, hökmranlıq da sərvət olub.

- Sən bayram bazarlığına gedəndən burada mən qorxulu yuxular görürdüm. Bir dəfə gördüm ki, sən aylı gecədə qızıl axçaları, gümüş dirhəmləri atıb tuta-tuta, oynada-oynada gedirsən. Birdən qızıllardan biri əlindən yerə düşdü, sən də əyilib yerdən qızıl əvəzinə əlinə qızıl ilan götürdün.

Udvanın kefli qəhqəhələri arvadının sözünü ağzında qoydu:

- Nədi, mən yəni o qədər axmağam ki, ilanı qızıldan ayırd eləyə bilmirəm? Ha! Ha! Ha! Sərvət deyirsən, qızıl deyirsən! Yadında saxla, mən sənlə yatanda o sərvət dediyindi şövqümə güc verən!

Arvadını dedi, amma gözlərinin önündə indiyə kimi Quzeydə kef çəkdiyi qadınları gətirdi, onları arvadı ilə yan-yanaşı qoydu.

- Sərvətdə olan güc yalnız hökmdarlarda olur!

Mağmun dedi:

- Peyğəmbər özü buyurub ki, ən böyük əxlaq borcu sər-

vəti ehtiyacı olanlara paylamaqdır, yıxılanı qaldırmaqdan, acı doyurmaqdan böyük savab nə ola bilər?!

- Görünür, sən də o Azərnurun boş-boş danışıqlarına uyursan! Bu məmləkətdə ondan savayı, Zərdüştün cındır kitabını oxuyan bir canlı bəşər yoxdur. İndi dünyada daha təzə dinlər yaranıb.

- Lamahla[45], sən bu sözləri ucadan danışma!

- Eh, Mağmun, Mağmun, dünyanın quzeyində adamlar öz libaslarını çoxdan dəyişiblər, biz güneydəkilər hələ də köhnə libasımızdan əl çəkmirik!

-Görəsən, din nə vaxtdan libas olub belə?

- O vaxtdan ki, dünya böyüyüb, biliciləri artıb, sirləri çoxalıb, qadınları kişisayaq, kişiləri qadıntəhər olub! İndi cavahirxanası, həşəmətli ordugahı, min cür bar verən gözəl məhəbbət bağları, dövlətxanası fəndkirliklə dünyanın yüyənini istədiyi səmtə döndərən qüdrətli hökmdarlara pənah aparmaq zamanıdır.

Mağmun ərinin dediklərindən heç nə qavrıyammadı.

- Sənin ağlın başından çıxıb, ayıbdı, bu kökdə el içinə çıxma! Adamlar onsuz da sənin əlindən cəzana gəlib.

- Yetər, mənə ağıl öyrətmə! Bu öyüd-örnəklərin nimdaş cır-cındıra bənzəyir.

Boz ayğır atına mindi, pələddən çıxanda qızı Sevanla üzüzə gəldi. Umac dolu çölməyi əlində tutmuş Sevan da dayanıb lal bir baxışla atasına baxdı, sifəti pörtüb qızarmışdı. Atın üstündən qızının gözəlliyinə sınayıcı nəzərlərlə tamaşa edən Udvan xoşhallandı. Məstlik çökmüş gözlərini çölməyə zilləndi. Qızına təskinlik verməyə bir söz tapa bilmədi, pələdin ağzında aşıq-aşıq oynayan oğlanları Amanla Tumana təpindi. -

[45] barı, heç olmasa.

Sür-sümüyünüzü yığışdırıb keçin həyətə! – dedi.

Sevan dilləndi:

- Mən Oxçuoğlu Tomarı xoşlamıram.

- Mən də belə əski adətləri xoşlamıram, kimi istəyirsən, ona da gedərsən!

- Bayandur baba ona Oxçuoğluyla beşikkərtmə deyikli olduğumu söylədi.

Udvan gülümsündü, öncə Sevana, sonra onun əllərində tutduğu umac çölməyinə zəndlə baxıb söylədi:

- Çox heyf! Ağzının ləzzətini bilmir el atası!

Əl ağacını ehmallıca atının yambızına toxundurdu, at addımlarını yeyinlədib yolağa çıxdı. Yəhərin qaşından asılmış qəfəsdə tutuquşu anlaşılmaz səslər çıxardı. Udvan yavaşca:

- Sus, - dedi, - yoxsa səni də bu eldən didərgin salaram. Zəhləm gedir tutuquşu səsindən. Mən şam işığında yalnız qızıl cingiltisini, bir də yataqda çılpaq qadınların ehtiras coşduran iniltisini xoşluyuram!

* * *

Ədalət meydanında Udvanla bayram bazarlığında olmuş beş-altı göyçəli cavanları yığışmışdı Ulutürklə Bayandur babanın həndəvərinə.

Bayandur baba deyirdi: - Kor deyiləm, görürəm tayfanızın bazburutdu cavanları baş götürüb özgə obalara, ellərə gedirlər... Belə getsə Udvan arvadlara başçılıq edəcək, damdaxmaların çoxunun qapısında kilid asılıb, arvad-uşağıyla çıxıb gedənlər də az deyil! Aranızda birliyiniz olsa, dirliyiniz də olacaq!

Ulutürk:

- Ulu tanrının dostu düzlük yolunu tutanlardı,-dedi, - Zərdüşt belə buyurub, ancaq Udvan ağsaqqal öyüdünü də

qulaqardına vurur, düzü qoyub, əyri yola gedir, xəzinəyə də gəlir gətirmir.

- Ruhumuzu təzələyən yeni il gəlir, məsləhət-məşvərət eləyin. Özünüzə yeni tayfa başçısı seçin! – deyə Bayandur baba göyçəli tayfasının ağsaqqalına baxdı.

Cavanlar el ağsaqqalı ilə tayfa ağsaqqalının gənəşəyinə razılıq elədilər.

Ulutürk:

- Nə deyirəm, elin gözü yaxşı daş- tərəzidir! – deyə köksünü ötürdü.

Bu zaman meydanın ala qapısı tərəfdə Udvanın boz ayqırının ayaq tappıltısı eşidildi. Udvan təpənin ətəyindən qalxıb meydana girdi. Cavanlardan Ağınca, Qılıq, Şorca onu ağsaqqallara göstərib dedilər: - Odur ha gəlir! Deyəsən, yenə şeytan suyu içib! – Təzə tutuquşusunu da özüylə götürüb!

Udvan onların tuşuna çatcaq, yüyəni çəkib atını saxladı:

- Bu küt bıçaqları niyə itiləyirsiniz, haay?! – deyə cavanları Bayandur babayla Ulutürkə nişan verdi.

Bayandur baba onun piyli sifətinə baxıb aramla dilləndi:

- İtiləyirik ki, yalanın dilini, tamahın əllərini kəssinlər!

Udvan:

- Əşi, sizin elcanlı tayfasında çovuş olub axı ötən əyyamlarda!

Ulutürk qəzəblənib əl ağacını daş döşəməyə çırpdı. Səsinə güc verdi:

- Sital-sital danışıb, şəcərəlik eləmə sən, Udvan, çovuş bəd ayaqda yol göstərməyi bacarır. Ağsaqqal üzünə ağ olan qara günə düşər! Yetər daha eldən-elə, obadan-obaya tayfadaşlarını didərgin saldığın, hələm-hələm əcdadlarımız bu yurda daş qoyandan bəri el-oba sənin kimi tayfa başçısına ürcah olmayıb! Bu daşlar – deyə Ulutürk meydanın Nuh əy-

yamından da qabaqkı ulu daşlarını göstərdi, – əcdadlarımızın düyünlənmiş yumruğudu, cızığından çıxanların başına çırpılıb, haqq yolunu göstərər! Əgər bacarmırsan, ver yerini cavan-comrula!

-Bəsdi, ay ağsaqqal, sən də dil atma bunnarın ağzına, qoy gedib qoyun-quzu otarsınlar, bağ əkib, bostan becərsinlər. Başçı olmaq cavan-comrul işi döyül.

Bayandur baba:

- Əlində tutduğun o qızıl qəfəsdəki tutuquşunu görürsən? – deyə irəli yeridi.- Qınından siyrilmiş qılınc kimiydilər, sənə kimi də qəfəs üzü görməmişdilər. Bu elə-obaya ilk dəfə qəfəs gətirdən sən oldun! Cavan-comruldan başçı olmaz, deyirsən! Bəs sən, Udvan, tayfa başçısı seçiləndə sütülcə cavan döyüldün?!

Udvanın alnı düyünləndi. Bir anlığa sinəsini qabağa verib onu tayfa başçısı seçdirən o vaxtkı aybəniz el atasını yadına saldı. O vaxt anasına məhrəm münasibət bəsləyən həmin aybəniz el atası indi Böyük Xaqanın hökmdarlarından birinin dövlətxanasında dəllallıq eləyirdi. Bu gün – sabah məmləkətin hökmdarlarından biri olacaqdı. Fikrində çox öyürübçöyürdü, amma o aybəniz kişinin adını yadına sala bilmədi. Meydandakı cavanların səs-küyü bir-birinə qarışdı: - Aldığını baha satırsan, qiymət qoyduğun əcəri şeylər od kimi tükümüzü ütür, camaatı müflis eləyibsən! Halala haram qatırsan, qızılboz atlarımızı dayılarına bəxşiş verirsən!

Bala İsgəndər adlı bir cavan sinəsini irəli verib:

- Rədd olsun Udvan! – dedi.

Cavanlar meydandakı daşlar kimi yumruqlarını düyünləyib, havaya qaldırdılar, hamısı bir ağızdan: - Rədd olsun! Rədd olsun! – qışqırdılar.

- Dayanın! – Ulutürk heybətli səslə çığırdı. Hamı susdu.

Sözünün zərbi Udvanın atını hürküdüb, özünü diksindirdi, tutuquşunun qanadlarına titrətmə saldı. Əyri dimdiyini açıb-yumdu. Udvan him-cim eləyib, onu da, atını da sakitləşdirmək istədi. At altında şahə qalxdı. O, kəlləmayallaq yerə yıxıldı.

Udvan ayağa qalxıb əl ağacını və tutuquşunu götürdü:

- Mən Tanrının köməyilə, sərvətimin gücünə bu elin taxtında əyləşəndə, Xırmantəpədə, Ana Göyçə kənarında at oynadanda... yerimə adam seçərsiniz!

Ötkəm nəzərlərlə meydandakılara baxdı, hamı özünü öyən, sərvətiylə qürrələnən tayfa başçısına kinayə ilə baxırdı. Bu zaman qızıl qəfəsdə tutuquşu çırpınıb sahibinin sözlərini təkrar edirdi: - Xırmantəpə! Göyçə! Qarabağ! - Cavanlar ağsaqqallara, ağsaqqallar da bir-birinin üzürə baxdı. Udvan onların karıxdığını görüb güldü:

- Ha! Ha! Eşitdiniz? Mən hələ ölməmişəm! Dipdiriyəm!

Bayandur baba:

- Eşitdik, amma anan... Anuş Qoç türbəsindən bir daha ayağa qalxıb, Yadırğa Əcəmlinin aybəniz çöhrəsini görə bilməyəcək! Ərkəsöyünlük eləmə!..

Cavanlar arasında gülüş dalğası qopdu. Udvan pərt düşsə də, el ağsaqqalının Yadırğa Əcəmlinin adını xatırlaması ona xoş gəldi. Düşündü ki, İndi bundan sonra gedib el-el, oba-oba düşüb onu axtara bilərdi. Atının yüyənindən tutub arxasınca apardı. Alaqapıdan çıxıb təpənin ətəyinə endi.

- Get, get, axır Tanrı səni də... bədləkərə[46] uymuş atan kimi zavala gətirər!.. – Ulutürk dodağının altında pıçıldadı. – Bayramacan da təvəxül[47] edərik!

[46] bədləkər- pis qadın
[47] təvəxül- səbr

* * *

Özündən razı bağ-baxçaların yanından ötüb keçirdi. Kişilər təpənin günəvər döşlərində şuma çıxmışdılar. Bayramın gəlişiylə sər-sahman yaradan qız-gəlinlərin həyat-bacalardan şux səs-sədaları gəlirdi. Həzin-həzin zümzümə elədikləri bayram ruhlu uluca nəğmələrinə gül-çiçəyin təravəti hopmuşdu. Bağçalarda cehizlik xalı-xalçasının tozunu alan ərkən qızlar bayatı söyləyə-söyləyə ürkək baxışlarla yol-yolağa boylanırdılar:

Obası Tər-Tər üstə,
Tər yorğan örtər üstə.
Kaş yarımla qovuşum,
Qarışsın tər-tər üstə.

Atəşpərəst,
Odpərəst, atəşpərəst...
Hüsnünə baxa-baxa,
Olmuşam atəşpərəst.

Üzünə yaz nəfəsi toxunan kimi el-oymaq bəzəyi olan qız-gəlinlərin xəfif gülüşləri bağ-bağçaların yasəmən qoxusuna qarışaraq yol-yolağı basmışdı.

Udvan o gülüşləri dinlədikcə, ciyərlərinə o yasəmən qoxusunu çəkdikcə gözlərinin önünə taxt-tacda oturacağı günləri canlandırırdı. Şərab... Qadın... Hökmranlıq! «Ah, dünya, bunlarsız nə yazıqsan!» Elə bil Udvanın əyri burnu qarışıq qoxuların içərisində təkcə bir iyi ayırd eləyib çəkmişdi. Və o iyin havasına gedib Ağca nənəgilin həyətinə çıxmışdı.

Aysu ətli döşlərini köynəyinin yaxasından çıxarıb körpəsinə süd verirdi, qara saçının bir cəngəsi bulud kimi tökül-

müşdü gözlərinin üstünə. Uşaq anasının döşündən iki əlli yapışmışdı, çəmənlikdə yorğan-döşək, pal-paltarlar sərilib günə verilirdi.

Aysu qəmli-qəmli zümzümə edirdi:

Bu yol Göyçə yoludu,
Çuxuryurdun qoludu.
Çiynimə əl toxundu,
Sandım yarın qoludu.

Səsdəki yanğı Udvanın qəlbini vəcdə gətirdi. Həyət-bacaya göz gəzdirdi. Ağca nənə gözə dəymirdi, sakitliyi görəndə elə bil çiçəyi çırtladı, nəfsi ac canavar kimi içərisindən çölə çıxmaq istəyirdi. Atının başını buraxdı, əl ağacını və qəfəsi çəmənliyə qoydu. Aysu özgə həniri duyan kimi döşlərini yaxalığından içəri saldı, durub körpəsini tut ağacından asdığı yüyrüyə qoydu, saçını üzündən yığdı və qarşısında Udvanın qan çökmüş gözlərini görüb duruxdu.

Udvan:

- Körpəyə hələ də ad qoymamısan?

Aysu:

- O qayıdıb gələr, özü qoyar!

- Sən onun qayıdıb gələcəyinə də inanırsan? – deyə Udvan Aysunun hələ də süd qoxusu çəkilməmiş sinəsinə baxdı.

Aysu:

-Niyə də inanmayım, bir də bu tayfada o qədər mənim təki ər yolunu gözləyən gəlinlər var ki, onların hansından mən artığam?

Udvan:

-Sən onların hamısından gözəlsən, cavansan! – deyə qol-

tuğundan qadın donunu çıxarıb Aysuya uzatdı – Bunu sənə bayram töhfəsi gətirmişəm. – Donu verəndən sonra gülümsündü. – Malakanbazarda beləsini ancaq hökmdar arvadlarının əynində gördüm. Qəttəzədir!

- Yox! Hələ mənim gəlinlik libasımın əcəri solmayıb. Borboxçamda belə əcərli dondan çoxdu. Apar ehtiyacı olanlara ver! Qalabazarda bunları o qədər baha verirsən ki, kasıblar ala bilmir.

- Kasıb-kusubun dərdi-səri sənə, mənə qalmayıb ha, götür, sağlığnan gey, Aysu xatun!

- Qaynanam inəyi, qoyun-quzunu ona görə sənə pay verdi ki, dam-daxma tikdirəsən bizə, sən də başımızı Malakanbazarın donu-monuynan aldadırsan?!

- Əgər sən istəsən, daxma yox, lap dam tikdirərəm!

- Mən istəsəm? – Aysu onun şəhvət qığılcımları saçan baxışlarından qorxdu. Qətiyyətlə dedi: – İstəyirəm, gedəsən, tez çıxıb gedəsən burdan!

Aysu donu çəmənliyə tulladı, çəmənlikdə Udvanın tutuquşu qəfəsini, əl ağacını, atını acıqla süzdü, əl ağacı bəzəkli ilana oxşayırdı, don havada uçub onun yanına düşdü. Elə bil əl ağacı ilan kimi sürünüb qadın donuna sarılacaqdı:

- Götür, zir-zibillərini rədd ol! – Aysu qəzəbli baxışlarını Udvana zillədi, pıçıltıyla soruşdu: - Yoxsa qulaqlarına pambıq tıxamısan!? Get, dedim!

- Özünü üzüb əldən salma, cavan, gül kimi gəlinsən, heyifsən! – deyə Udvan qollarını açıb Aysunu qucaqlamaq üçün özünə sarı dartdı.

- Elə sanma ki, kişisiz evə gəlmisən, əlini çək! – deyə Aysu yaxasını birtəhər onun əlindən qurtarmağa çalışdı. Qanovuz köynəyinin yaxalığı şəhvətindən və məstlikdən insanlığını itirmiş Udvanın caynaqlarında parçalandı. Gəlinin ağ

sinəsi gün işığında onun gözlərini qamaşdırdı. Udvan duruxub dayandı.

- Gəl bura!.. Ərin gəlməyəcək daha, onu gölün kənarında ceyran ovluyanda böyük xaqanın adamları tutub aparıb, zindana salıblar! Axı ceyranlar öz ceyranlığıyla dövran hökmdarları, tacidarları üçün yaranıb... Gəl buraya! Gəl, hürkmə məndən ceyranım!..

- Bəs indiyə kimi niyə susurdun? – Aysu geri çəkildi, birdən yannığın qabağına söykənmiş qoşa qıynaq yabanı götürüb Udvanı divara dayadı:

- Niyə demirdin tutublar, ay çırağı keçmiş!

- Yabanı yerinə qoy! Yoxsa istəyirsən ərin zindanda, özün burda çürüyəsən. Hi! Hii! Hii!..

…Birdən başının üstündə qəfil səs guruldadı.

-Eheey! Udvan! Sən öz pis əməlini Tanrıdan gizlədə bilmirsən! O gözəgörünməz səni görür! Utan! Əl çək o zavallıdan!

Bu heybətli səs elə bil həqiqətən də göydən gəlmişdi: Udvan da Aysu da əvvəl göyə baxdılar, sonra həyətdə nəhəng kölgə tərpəndi. Udvan vahimələndi, kölgəyə baxa-baxa boğazı qurudu.

Ağca nənə özü də əlində səhəng pələtin girəcəyində dayanmışdı. Səs gələn tərəfə boylandı. El atası Azərnur tayfa ağsaqqalı Ulutürkün ləminə çıxmışdı, qürub günəşi onun kölgəsini uca ləmdən həyətə salmışdı. Amma Ulutürk gözə dəymirdi (bir də yazın bu vədələri heç kim ləmə çıxmazdı). Ağca nənə samanlığın ağzında Aysunu və onun hələ də divara söykəyib, yabanı boğazına dirədiyi Udvanı gördü. Səhəngi yerə qoyub ağır-ağır onlara yaxınlaşdı:

- Ulu Tanrı! Gecə yuxumda busağamızın ağzında ilan görmüşdüm, yoğun bir ilandı!.. Tayfamızın başına qaxınc, üzünə toxunc olan damarıboş namərd! Görüm səni Qoç tür-

bəsi çəkib aparsın atan Qayamərdanın, anan Anuşun yanına, odsuz-ocaqsız qalasan, su deyibən qapı-qapı gəzəsən!

Udvan bayaq eşitdiyi heybətli səsin gur işığında boğulurdu, özünə gələn kimi əyilib qəfəsi, əl ağacını, qadın donunu götürdü, atının yüyənindən tutub getmək istəyəndə gözü Ulutürkün ləmində dayanmış Azərnura sataşdı. Özündən qabaq kölgəsindən qorxduğu adama sakit-sakit baxdı, sonra hiddətlə addımlayıb pələtdən çıxdı, öz damına yollandı.

Ağca nənə üzünü göyə tutub:

- Tanrım niyə bu zülmü götürürsən? – deyə diz çökmüşdü. Göydə dimdiklərində çör-çöp tutmuş iki leylək enib onların daxmasının kümünə qondular, gətirdikləri çör-çöpü ayaqlarının altına alıb, qanad çırpdılar, qaqqıldaşıb dayandılar, bir-birinə baxıb ora-bura boylandılar. Gətirdikləri çöpü dimdiklərinə alıb yenə havaya qalxdılar.

- Ey gözəgörünməz Tanrı! Leyləklər də öz quşluğuyla bu daxmanı bəyənib, yuva bağlamadılar. Onlar da pisi-yaxşını görürlər, ulu Tanrı! Onlar da yaxşıyla pisi seçirlər. Bəs sən niyə pislərin başımızın böyüyü olmağına göz yumursan! Niyə? Niyə?

Aysu körpəsini bağrına basıb için-için ağlayırdı, göz yaşlarıyla içinə çökmüş qorxunu yuyub aparırdı. Ağca nənə Azərnurun düşüb getdiyi ləmə boylandı, sonra durub elə bil yuxuda yeriyirdi. Ocaqlıqda közərən narrat ağacının parçalarından birini götürdü, daxmanın alçaq, qamış kümünü yandırdı: - Yan, Yan! – dedi. - Sənin namusuna sataşmaq istəyən o piyli idbarı qoy hamı tanısın, qoy Tanrı gözünü açıb onun kimilərini yaxşı-yaxşı görsün! Qərinələr boyu ev yıxan, eşik dağıdan, qapıları bağlı qoyan, qız-gəlinə sataşan zavala gəlib!.. Niyə, niyə bəs indi bit-birə kimi canımıza daraşanları qanadının altına alıbsan TANRIM? Niyə?

El-obanın ayağı yer tutanından, ahılınacan hamısı yanğını görüb söndürməyə axışdılar. Xırmantəpənin qoynundan qalxan yanğının üstünə qarğalar dimdiklərində apardığı çöpü, qaranquşlarsa ağızlarında daşıdığı suyu tökürdülər... Şər vaxtına hələ çox qalmışdı.

* * *

- Udvan ulu babası Aymuğəmin sümüklərini incidib, təhqir elədi. - Bayandur babanın xırıltılı səsi məbədə çökmüş sakitliyi pozdu.

- Udvan ağır cəzaya layiqdir! – Azadlı tayfasının ağsaqqalı Basarkeçər dilləndi.

- Bir cüt göy gözlərinə yiyəlik eləyə bilməyən Udvan hələ bu elə sahiblik etmək iddiasına düşüb! – Göyçəlilərin ağsaqqalı Ulutürk ağır-ağır gəlib el atası Azərnurun yanında dayandı, el atası məbədi daş gözlüyündən Ağca nənənin artıq söndürülmüş daxmasına baxa-baxa dərin düşüncələrə dalmışdı.

- Müqəddəs qanun kitabımızda buyurulub ki, fazil fikirli adam cilovsuz qəzəbə və vəhşi ehtiraslara düçar qalmır. Ağlını itirmiş Udvana ağır cəza verməklə başqa tayfa başçılarına ibrət vermiş olarıq!.. – deyə yanıxlı tayfasının ağsaqqalı Bozyel çubuğunu tüstülətdi...

- Vaxtı ilə müqəddəs qanunlarımızı pozan belə adamları Günsevər babalarımız odda qızdırılmış şallaqla döyərdilər. – Sarıcalı tayfasının ağsaqqalı Ulu Saral da çubuğunu yandırdı.

...Azərnur yeddi tayfa ağsaqqallarını bir-bir dinləyib el ağsaqqalı Bayandur babaya dedi:

- Ağıl və təmiz əxlaq insandakı çövhərlərin ən gərəklisidir. Ağlın, əxlaqın, zəifliyi bəlanı hüdudsuzluğa aparır. Məncə, Udvan tayfa başçılığından çıxarılmalıdır.

Ağsaqqallar narazılıq elədilər: «Bu çox yüngül cəzadır».

Bayandur baba onları sakitləşdirdi:

-Hörmətli Azərnur, aqillərdən biri buyurub ki, Tanrını görən gözün yoxdursa, barı öküzpərəst olma, günəşpərəst ol! Bu məsləksiz Udvan özünə heç bütləri də tanrı hesab etmir! Ulutürklə mən onunla Ərmənbazarda, Şeytanbazarda, Malakarbazarda, Rumbazarda, Qırmızı Bazarda olan cavanların şahidi olduğu iştəklərdən xəbər tutub xeyli məyus olduq. Udvan min bir əziyyətlə böyüdüb bəslədiyimiz Qarabağın Dilboz atlarının dölündən olan madyanları, qızılboz atları, ağyal kəhərləri, göy bədöyləri, oralardakı qohum-əqrəbasına peşkəş eləyib, igidlərin yaraq-yasağını paylaşdırıb bəzirganlara, sabah işdi şayəd yağı üstümüzə ayaq alsa, minməyə şahbaz atlarımız, ələ götürməyə yaraq-yasağımız olmuyacaq! Bir dərdə əlac qılmağa nə var! Bir dərdi min eləyənin cəzası təkcə tayfa başçılığından çıxarılmaqdırsa, onda bu eldə xəyanət ağacı təzə-təzə meyvələr yetirəcək!

- El ağsaqqalı doğru buyurur, hörmətli Azərnur, Udvana verilən cəza yaddaşlara həkk olunmalıdır! – Basarkeçər dilləndi.

- Bütün cəzalar yaddaşda dərin iz qoymurmu? Elin gözü qabağında Udvanı tayfa başçılığından çıxarmaq və onu bağbostan işlərinə göndərmək həm də mənəvi cəza deyilmi? Bəzən elə olur ki, pislikdən yaxşılıq doğur. Bir vaxtlar insanlar tanrıya inanmayıblar, öküzə sitayiş eləyib, bütlərə inanıblar. Zərdüştün peyğəmbərliyinə inanmayıblar. Müqəddəs oda tapınıb Azər nəslindən çıxanlar bütləri qırıb, düzlük yolunu pislərə göstərdilər. Pislər də pislik yolundan əl çəkib yaxşıların yolunu tutdular. Udvanı pis sanıb, ən ağır cəzaya məhkum eləsək, pislərin küdurətini qazanarıq. Pisə xeyirxahlıq göstərmək pisliyi öldürməkdir. Pisliyin məhvi yaxşılığın do-

ğulması kimidir. Ulu Zərdüştün doğru yolunu göstərənlərə zorakılıq eləməyə yasaq etmişdi. «Xəstə bədəni çarəsiz qalanda dağ basmaqla sağaldarlar». Hörmüz işığına məna verən də budur!..

Ağsaqqallar onun fikri ilə barışmasalar da, qulaq asıb dinləyirdilər. Azərnur müqəddəslərin heykəlləri önündə dayanmışdı.

- Öz günahlarını dərk edib, özünü cəzalandıra biləcək pəhrizkar insanı yetişdirən zaman nə vaxt gələcəkdir, Ulu Tanrı?!- deyə fikrini yekunlaşdırdı.

* * *

Udvan həris gözlərylə günəş, torpaq, od və su təsvirli qulplu qızıllarına baxırdı. Tələm-tələsik ovuclayıb onları iki böyük gil bardaqlara yığırdı, hərdən qorxa-qorxa yol-yolağa boylanmaq üçün pəncərəyə yaxınlaşırdı. Arvadı qəmli baxışlarını ona tuşlasa da, uzaqlara boylanmışdı. Orada iyirmi il öncəki gəncliyini, erkən qızlığını arayıb-axtarır, Udvana ürcah olduğu bir yaz gününü tapıb, gəlin köçdüyü çağı lənətləyirdi.

Həyətdə oğlu Aman boz ayğırın yedəyindən tutub yelgəsini tumarlayırdı. Tuman isə tut ağacına dırmaşmışdı, yaşıllaşan yarpaqları yolub-tökürdü. Aman ona acıqlanırdı. - Ağacı incitmə, günahdı! – deyirdi. Tuman: - Sənə nə var, özüm bilərəm, niyə tutgilə gətirmir? – deyə qardaşının başına çımxırdı. Sevan gülümsər gözləriylə həyətlərində – çuxuruna mal təzəyi yığılmış peyinlikdə qurdalanırdı, siçan görən kimi şaqqanaq çəkib gülürdü...

İçəridə Udvan ağzınacan qızılla dolu bardağın birini götürüb daş taxçaya qoydu, ikincisini eşmə zənbilə. Atını minib, zənbili qucağına götürdü. Arvadına üzünü tutub əmr et-

di: - Məni soruşsalar, bircə kəlmə bilmirəm deyərsən! Bayramdan sonra səfərə çıxacam, yola ayın-oyun irahla! – deyib atını kövşənliyə çapdı. Güllüdüz tərəfdə adda-budda, qoyun-quzu inək gözə dəyirdi. Xırmantəpənin ətəyindən çıxıb gələn arxın suyu gölməçələr yaratmışdı. Gölməçələrdə ağnayıb, sucaq yerlərdə yatmış camışlar tənbəl-tənbəl gövşək çalırdılar. Balaca yastı təpəni yasdıq kimi başının altına qoymuş Oxçuoğlu Tomar el-obadan xəbərsiz-ətərsiz, ağ çalanın zoğunu, ot-əncərini yeyib, əmcəklərini südləndirən mal-qaradan arxayın yana mürgüləmişdi. Yuxusunda biyabanlığın ortasında ona tərəf bir atlı gəlirdi, ağ atın üstündəki adamın kimliyini ayırd eləyə bilmirdi. Ağ atlı adamın geyinəcəyi çox-çox qədimi, oxu-yayı Tomarınkından yaraşıqlıydı. Atlı uzaqdan Tomara baxıb, yenə dönüb geriyə çapırdı. Tomar arxasınca qışqırdı ki, ehey, kimsən, nə istəyirdin? Atlıdan cavab gəlmədi.

Udvan Tomarın yatdığı yerə yaxın olduğunu bilmirdi. Qızıl bardağını basdırdığı yulğun ağacının dibində dayanıb, Xırmantəpəyə boylanırdı. Oxçuoğlu naxırçı Tomarın qəfildən «Kimsən?» deməsinə bərk diksindi. Amma onun yatdığını görüb, yuxusunda sayıqlamasını anlayanda qorxunun əndişəsi üstündən götürüldü. Ehmallıca qurşağından xəncərini çıxardıb ağaca xaçaoxşar nişan vurdu. Qalxıb atına mindi. Dönüb bir də Tomarın yatdığı balaca yastı təpəyə baxdı. Bu zaman atın qulağını sancmış iri bir gögeyin onun da əlinə neştərini yeritdi. Udvanın ürəyi göynədi, gözlərinə çökmüş ağrıyla Güllüdüzün ayağındakı ağ çaladan Ağrı dağına boylandı. Ağrı dağının başı qara buludlar içində görünməz olmuşdu. Qürub günəşi dünyanın bic-bic iştəklərinə canlı şahidlik edirmiş kimi Savalanın zirvəsində dayanmışdı.

* * *

Tayfa ağsaqqalı Ulutürk başda olmaqla bir dəstə göycəli Udvanın həyətinə doluşdu. İndi ürəyində sevinirdi ki, nə yaxşı qızılların yarısını aparıb gizlətdi. Lal-dinməz dayanıb gələnlərin gözlərinə baxaraq, düşünürdü ki, tayfa başçısı olandan bəri göycəliləri belə dilbirlik eləyən görməmişdi. Atdan düşüb, içəri keçdi, tutuquşunu qızıl qəfəsdən çıxarıb ağac qəfəsə saldı, qapının dalında divara söykədiyi sadə əl ağacını götürüb çölə çıxdı:

- Ey göycəlilər, vaxt gələr peşiman olarsınız, mən onsuz da bayramdan sonra çıxıb gedəsiyəm, intəhası həmişəlik yox, unutmayın, tayfa başçılığından çıxardığınız Udvan bu elə tanrının köməyi ilə böyük Xaqanın elçisi kimi qayıdacaq!..

- Biz çox dözdük, Udvan! Sən annamadın, bu gün sən ulu babalarımızın adına şərəfsizlik gətirdin. İnən belə sənə görə nə göycəlilərə qız verərlər, nə də onlardan qız alarlar. Bunsuz da axırıncı dəfə elədiyimiz toy-düyünün havası çoxdan canımızdan çəkilib getmişdi. Dinmirsən, nıxtın[48] batdı? Hanı bizim tayfanın yerişi nər, duruşu nər igidləri? Bu eldə öz bəlağətli danışığı ilə sayılıb-seçilən tutuquşunu harada azdırdın? Bəs bu susqun tutuquşunu haradan tapıb gətiribsən? Danışdığı iki-üç kəlmə sözdü elə? O da Göyçə, Xırmantəpə...– Bala İsgəndərin səsi həyəti başına götürmüşdü.

- Sən tutuquşunu neynirsən, elə özün tutuşuqu kimisən də. Bir də mənim burdan köçüb-gedənlərə nə pisliyim dəyib ki? Hansı elə, hansı məmləkətə gedirsən orada göyçəli var, bunun nəyi pisdi, hə? Qoy göyçəlilər öyünsünlər ki, görmədiyi yerləri gedib görürlər. Bəlkə sənin könlündən makedonlu İsgəndər olmaq keçir?

[48] nıxt -nitq

Ulutürk onun sözünü kəsdi:

- Hərzə-mərzə danışıb çox baş aparma, Udvan! Ha vaxtdan öz dədə-baba torpağından baş götürüb getmək öyünc sayılıb? Anaların oğul həsrətli, gəlinlərin ər soraqlı gözləri yolara dikilib? – deyə Ulutürk Udvandan əl ağacını və Tutuquşunu aldı. Udvan hiddətlə tayfadaşlarına baxıb içəri döndü. Günəş də bu anı gözləyirmiş kimi Savalanın uca başından enib dirilik çeşməsini içməyə yollandı.

* * *

Məbədin ədalət meydanı bəzək-düzəyin içində sakitliyə qərq olmuşdu. Daş babalar halay qurub elə bil meydanın əbədi keşiyini çəkirdilər. Sirdaşla Qız daşının üstünə kölgə salmış tut ağaclarının qol-budaqları bir-birinə sarılmışdı. Daşların arasında əlində toxunma torba tutmuş Sevan yanyörəsinə boylana-boylana dayanıb məbəddən eşidilən sözlərə qulaq asırdı. Yeddi çinar ağacı həzin-həzin gövdəsini yellədirdi, əzəmətli daşların yeddisi də lal sükutla müqəddəs sözləri dinləyirdi, amma Sevan heç nə unamırdı, ürəyinin zoqqultusu qulaqlarını batırırdı. «Ulu tanrı, mənə kömək ol!» - deyə özünü ələ almağa çalışdı. Birdən damcı səsinə diksindi. Qız daşının dizindəki daş ovcuna iki damla yaş düşdü. Daşın kasayaoxşar kəlləsinə hopan şeh süzülüb dupduru göz yaşı kimi ovuca bənzər oyuğa yığılmışdı: daş ovucun suyuyla bir səhəng doldurmaq olardı, qız əlini həmin suya saldı, əzalarına üşütmə yayıldı. Qız daşının yanında Sirdaş sanki xəyala dalmışdı. Sirdaşın üzərində yazılar həkk olunmuşdu. Sevanın baxışları yazının sonundan oxla dəlinmiş ürək təsvirində ilişib qaldı. Əlini uzadıb ürək təsvirinə toxundurdu. Elə bil ox yarıb keçmiş ürək hələ də zoqquldayırdı, canlıydı, istisi çəkilməmişdi.

Məbədə gedən pilləkənləri qalxdıqca ona elə gəlirdi ki,

Xırmantəpənin aşağısından hamı onun arxasınca boylanır.

İçəridən Azərnurun səsi yaz küləyinə qarışıb qulaqlarına çırpılırdı: - Ulu peyğəmbərimiz Zərdüşt belə buyurmuşdu, çalışın alim ilə cahil arasında fərq qoyasınız, alimlər həyatın yol göstərənləridir. Əhd-peyman sındırmaq nadanlıqdır. Bilicilər hamını əhd-peyman sındırmağın ziyanlarından xəbərdar eləyib, onlara əsl həyata yaraşan ilqar aşılamağa çalışmalıdırlar.

Sevan qımışa-qımışa günəşə boylandı. Qızıl saçaqları pərişan günəş də ona kinayə ilə baxıb gülümsünürdü. O yan - bu yana döyükə-döyükə əyilib torbasının ağzını açdı, oradakı siçanları bir-bir çıxarıb məbədin girəcəyindəki mərmər döşəməyə yığdı.

- Bir, iki, üç, dörd, beş, altı, bu da yeddi. – Pıçıldayıb siçanları məbədin içinə qovmağa başladı. Siçanlar mərməri iysiləyib, bir-birlərinə qısıldılar, inadkar səslər çıxardılar və harada olduqlarını sanki anlamış siçan topası qəfilcə dağılışdı, hərəsi bir yana qaçdı. İki-üç siçan məbəddən aralı, kimsəsiz daxma-qazamata sarı üz tutdu. Sevan siçanların arxasınca baxıb dodağını büzdü:

- Ey qüdrətli məhəbbət ilahəsi, sevdiyim adam könül qapısını üzümə bağlayıb, mənə yol göstər! Qızıl bilərziklərimi, üzüklərimi sənə nəzir eləyirəm!

* * *

Ədalət meydanında daşlar da çiyninə od götürmüşdü, hər tayfa bir tonqal qalamışdı, yeddi tonqal yeddiqardaş ulduz kimi çiyin-çiyinə verib şölələnirdi, güllü süfrələrdə yeddi cür yemək, yeddi cür çərəz düzülmüşdü, yaz ətirli, yaz çeşidli dürlü-dürlü gəbələr, güllü-butalı xalçalar, üzərində elobanın uşağı-cavanı istədiyi kimi əylənirdi, qızlar boy-boya

verib bir yanda qol çirməyib qurşaq tutan ulus oğlanlarına baxırdılar. Baxışlarıyla güc verirdilər güləşənlərə, yaz bayramları gözləri bu meydanda açılırdı, burada qızlar bulağından su içərdilər, ərgənlərinin əhdi burada bağlanardı.

- Əhdiniz-muradınız qayım olsun! – deyirdilər cavanlara. Bu tayfa o biri tayfa ilə qohum olurdu. Ağsaqqallar elçi daşlarının üstündə oturub bir-birinə: -"Gəl bu əziz günlərdə sümüyümüzü sümüyümüzə calayaq,- deyirdi. - Hələ mənə de görüm, qızın əlindən yaxşı xalça toxumaq gəlir? Bəs oğlan necə, at çapmaqda, ox atmaqda, quş quşlamaqda nə təhərdi?"

...Hamı əvvəlkindən də artıq bir-birlərindən səxavətli, mehriban görünürdü. Ocaqların üstündəki saclarda fətir bişirən, qovurğa qovuran, mis teştlərdə bayram halvası çalan, şadlıq üçün yasəmən çiçəklərindən şirələr çəkən şadyana qadınların sifətləri istidən pörtüb daha da gözəlləşmişdi.

Təptəzə bayram libaslarını geyinmiş bir dəstə ulus cavanları, çırçırpıdan, quru ot qalağından çatılmış tonqalların üstündən hoplana-hoplana:

Ağırımı-buğurumu od götürsün,
Ruzimi Tanrı yetirsin...

- deyib şənlənirdilər.

Anaların atəşin pakedici gücünə inamlı duaları eşidilirdi. Yandırdıqları üzərlikləri meydan boyu tüstülədə-tüstülədə: – Dərdiniz, bəlanız çıxsın, köhnə ildə qalsın! – deyə-deyə qoxusunu yayırdılar.

Elin-obanın sayılıb seçilmiş qız-gəlinləri əllərində iri xonçalar, mis və gümüş düzülmüş yeddi cür nemət: su, çörək, duz, balıq, boyanmış yumurta, səməni, ayna parçasını

nəzir-niyaz təki Günəş məbədinə aparırdılar. Bayram xonçalarının qıraqlarında yeddi rəngdə şamlar yanırdı. Sirdaşla qız daşının başına çiçək topası kimi yığılan qızlar ürəklərində niyət tutub, qız daşının ovucundan yumurta qabığı ilə su götürüb başlarına çiləyirdilər. Qardaş ilə Yoldaşın həndəvərində dayanan ərkən oğlanlar ovçu gözləriylə oğrun-oğrun qızlara baxırdılar. Əli dirsəyəcən xınalı gəlinlər onlara baxa-baxa oxuyurdu:

Göyçə üstə at gedər,
At gedər, polad gedər.
Yaxşı qızın cehizi
İgidə xalat gedər...

Mavi səmada haçaquyruq, sinəsi ağ qaranquşlar uçuşurdu. Qaranquşlar oxuya-oxuya göy qurşağının altından ötüb keçirdi. Xırmantəpə elinin sakinləri yeddi rəngli göy qurşağına baxıb sevinirdilər. – Ora bax, Peyğəmbər qurşağı! - Elin başbiləni Bayandur baba göy qurşağına baxıb, fikrə getdi; qurşağın narıncı, bənövşəyi rəngləri solğun görsənirdi, qırmızı rəng göy rəngi üstələmişdi, yaşılını isə sarı rəng udmuşdu. «Dünyanı yenə insan qanı bürüyəcək, savaş gözlənilir, ilin arpa-buğda bərəkəti də rahat olacaq, deyəsən. Tanrı axırını xeyir eləsin». Sonra düşüncələrdən duyuxdu. Və əl ağacını göyə qaldırdı. Meydana sakitlik çökdü. Hamı Bayandur baba kimi məbədə sarı baxdı. Yeddi qızılı buta naxışlanmış yamyaşıl libaslı, əlində müqəddəs od tutmuş, başına yeddi bürünc ulduzlu tac qoymuş Azərnur Günəş məbədindən çıxıb ağır-ağır addımlarla ədalət meydanına enirdi. Tayfa başçıları, cavanlar ayağa qalxdı. El atası əlində tutduğu məşəllə Qeyrət ocağına yaxınlaşdı. El arasında BAŞDAŞ, həm də

BABADAŞ deyilən YURDDAŞın köksündəki yeddi kiçik butanı bir-brinə bağlayan böyük ocağı məşəlin odu ilə alovlandırdı, sonra üzünü meydandakılara tutub söylədi:

- Qoy hər kəs Yurddaşın köksündə şölələnən bu müqəddəs oddan öz ocağına aparsın! Eviniz nurlu, ocağınız xeyir-bərəkətli olsun! Müqəddəslərimizin ruhunu yad edib, bu odda yandırdığınız çıraqları, şamları türbələrə aparın! Qoy orada uyuyan əcdadların ruhu şad olsun! Qərib ellərdə, zindanlarda olanların adına çıraq yandırılsın! Bu beş günlük ayda[49] hər kəs müqəddəs kitablarda yazıldığı kimi, üç ağac əksin! Yaşıl günlər həmişə nəsibiniz olsun! Qoy beş günlük el bayramı ağlınıza işıq, qolunuza qüvvət versin! Ulu Savalandan əsən yellər qəlblərinizə sığal çəkib, ruhunuzu oxşasın! Qoy həqiqət, düzgünlük həmişə bizim ulusa yar olsun! Üzümü cavanlara tutub ulu Zərdüştün əxlaq sərvəti olan alqış nəğməsiylə onlara öyüd edirəm: - Ey ərlik qızlar və yeznələr! Sizə öyrədirəm, öyüdümü könlünüzə nəqş eləyin! Qeyrətlə çalışmaqda bir-birinizdən qabağa düşün! Bu həyat gücü ilə ta özünüzü xoş və şad edəsiniz! Ən fərəhli yer – insanın ailə qurduğu, ocaq çatdığı yerdir! Qoy evinizdə söz eşitmək eşitməzliyə, əmin-amanlıq küsüyə, səxavət-xəsisliyə, sədaqət dönüklüyə, həqiqət yalana qalib gəlsin. Ey həqiqət! O vaxt ki, sən mənim ürəyimdəsən, deməli, xalqımın arasındasan! Unutmayın! Ən müqəddəs yer oda sitayiş yeridir! Ən gözəl yer, əkilib - biçilən yerdir! Ən ulu yer – Vətəndir! Ən əziz bayram Bahar bayramıdır! Bahar bayramınız mübarək olsun!

Adamlar bir səslə oxudu: - Buludları yağışsız, gündüzləri günəşsiz, arxları susuz, ocaqları odsuz, bayramları nəğməsiz, dodaqları gülüşsüz, cavanları gərəksiz, qadınları vəfasız, qoca-

[49] Zərdüşt təqviminə görə, Günəş ili 12X30+5 tərzində hesablanırdı. Bahar bayramı da bu beş günlük aya düşürdü. Bu aya "xoşbəxtlik ayı" adı verilmişdi.

ları məsləhətsiz, yurdu insansız, insanları Vətənsiz, Vətəni sülhsüz və əmniyətsiz eləmə, ulu Tanrı, uca Tanrı! Eşit bizim duamızı, dinlə bizim nəğməmizi!

Himn kimi səslənən bu təntənəli andan sonra bayram şərbəti içildi. Hamı yenə cana gəldi, yallı gedən, xoruz döyüşdürən, güləşən, halay pozan, nişana qoyub ox atan, kəndirbazlıq edən, yanar məşəli ağzına salıb odu ram eləyən, yasəməndən çələng hörən el adamları meydana sığmırdı. Bir dəstə atlı meydandan çıxıb Ana Göyçədən bayram şənliyi üçün təzə balıqlar gətirən ovçuları qarşılamağa yollandılar.

Bayandur baba bayram şərbətini içib, çərəkəsini götürdü, ağsaqqallara, tayfa başçılarına üzünü tutub dilləndi:- Ruhu şad olsun babaların. Elcan babam nəql eləyərdi ki, əzəl çağlarda bu yurd yerində iki qardaş birgə əkir, birgə biçir, amma bölgüyə gələndə hər kəs qədərincə götürüb, bəsimdi deyərmiş. Günlərin bir günü xırmanda pay bölüşəndə evli qardaş öz-özlüyündə götür-qoy eləyir ki, evli-eşikliyəm, güzəranım da kefimcədi, nəyimə gərək artıq taxıl? Qoy kiçik qardaşımın payı çox olsun! Axı o evlənib ailə quracaq, iki baş, dörd əl-ayaq olacaq, taxıl gərəyinə yarayar. Gəyişib eləmədən payının yarıdan çoxunu ayırıb qatır kiçik qardaşının taxılına! Kiçik qardaş da öz payını götürəndə ürəyində götür-qoy eləyir ki, ayə, bə mənim qanacağıma nə gəlib, tutalım bu məni kiçik sayır, amma özünün bir çəkən külfəti var axı, mənimsə nə yeyənim var, nə də dağıdanım hələ ki! Böyük qardaşının əltutdusuna öz payından da qoşub qatır onun payına! Hə! Səhəri böyük qardaş ondan xəbərsiz gəlib paydakı nişanı pozur, yenə kiçik qardaşına öz payından qoşur. Sonra kiçik qardaş xəlvəti öz payının yarısını qatır böyük qardaşının payına! Vaxt-vədə ötür, ancaq xırmandan taxılı daşıyıb qurtara bilmirlər. Tanrı qardaşların bu səxavətini görüb taxı-

la bol bərəkət verir. Görüb-görənlər deyirlər ki, bu qardaşların xırmanı dolub, böyük taxıl təpəsinə döndü. Hər gün də ulu Tanrı da elə bir taxıla bərəkət nurunu ələyirmiş. Babam deyərdi ki, o qardaşları el arasında nişan verəndə deyərmişlər: - Xırmanı dolu qalan filankəslər. Xırman yerinə Xırmantəpə söyləyiblər, o gördüyünüz Qardaş həmin qardaşların sədaqəti təmizliyinin nişanəsindən yadigar qalıb. Yurddaşından sonra bu meydanın yeddi daşından biri də Qardaşdır. Elimizin adı da deyilənlərə görə, qardaş sayğısının təhər-tövüründən binə tutub!

Bayandur baba sözünü sona çatdıran kimi yer-yerdən dilləndilər: - Binəsi möhkəm olsun! Adamları salamat! Mehribançılıq olan yerdə bolluq olar! Deyir, bərəkət ondursa, onu da düzlük sevər!

- Yoxsa Udvan təki! El bayramında da gəlməyib, haram tikə gözünü kölgəli eləyib elin yanında! – Ağsaqqallardan biri dilləndi.

- Amma odur ey, qızı Sevan özünü az qala Günəşə tay eləyib, Yaman dotələb qızdı! – deyə azadlıların tayfa başçısı Toğulca meydanda zınqırovlu qavalla rəqs eləyən yaxası qızıl düyməli qızı göstərdi.

Hamı dönüb ona baxdı. Sevanın zərbaflı libasından da çox gözlərinə yanğı düşmüşdü. Od rəqsini oynaya-oynaya arada oğrun-oğrun Azərnura baxırdı. Əndamını sirkələdikcə qurşağına düzdüyü qızıl pullar bir-birinə toxunduqca oyununa uyarlı səslər çıxarırdı, çılpaq göbəyi zər tozu ilə naxışlanmışdı, ulduz təki yanıb-sönən libası elə bil qəsdən yeddi para bölünmüşdü. Hər bölümü bir rəngdəydi, qıraqları zərlə sırmalanmışdı. Cavan el atasının ona baxmadığını görüb özündən çıxır, coşub havalanırdı. Acığını- acısını oda töküb, onu ram eləmək istəyirdi. Əndamında elə bil sümük yox idi,

fırlananda kəpənək qanadları kimi zərif libası qurşağından sıyrılıb uçuşduqca kişi nəzərlərini özünə çəkən yumru budları çılpaqlaşırdı.

Cavan-comrulun gözü ömürlərində ilk dəfə açıq-saçıq görünən ağca-maya qız əndamında qalmışdı, qız-gəlinlərin baxışları zər-zibalı Sevanın boyun-boğazında şölə saçan qızıl daş-qaşlara dikilmişdi. Deyiklilər deyiklisini, adaxlı qızlar adaxlısını, cavan gəlinlər ərlərini (ürəklərinin dərin guşələrində) qınayırdılar. Amma Sevanın Udvan kimi haramxorun qızı olduğunu yada salcaq özlərinə təskinlik verirdilər. Ən böyük zinət bu eldə təmiz adı qorumaq, onu uca tutmaq idi. Əcdadların ruhunu incitməmək idi, Sevanın atası Udvan isə artıq el arasında öz hörmətini itirmişdi. Sevanın rəqsini böyük tut ağacının dibində, ağbirçək anaların arasından Ağca nənə də görürdü:

- Cavan-comrulun ağlını başından aparacaq bu qız!

- Bir süyümünə görə anqutboğaz nənəsinə oxşuyub! – deyə dilləndi İntizar qarı. – On dörd-on beş yaşı ola-olmuya!

- Buy, day de ki, mənim alabaş itimlə yaşıddı ki! – Ağca nənə rişxəndlə güldü.

- Mağmun deyir buna yerikliyəndə Udvan ona Malakan-bazardan alıb gətirdiyi donuz sucuğu[50] yedirib.

- Bu cavanlara nə sədəmə gəlsə bu qızdan gələcək! – Selcan nənə söylədi. - Bu otaşparaşdığıyla elə bil üzü üzlər görüb munun!

- Ayağısürüşkənlikdə nənəsinə çəkib! – Bağdagül nənə yaddaşında keçmişi aradı. – Gör hələm gözlərini necə də el atasına marıttayıb.

- Suyu axmış, heç beşikkərtmə deyiklisini də yada salmır!

[50] Sucuq - kolbasa

- Heyif Oxçuoğlu Tomardan, o yazıq munun dərdindən ölür...

- Canıyanmışın qır-qızılına baxın, kaş o qır-qızılın müqabilində bir çıqqan qanacaq yiyəsi olaydı bu qız. Ulularımız yaxşı deyib ki, övladınıza əşyadan çox, ədəb-ərkan cehizi verin!

Ağsaqqalların yığnağında isə Bayandur baba meydandakı ulu daşlara baxıb yanıqlı bir ah çəkdi.

- Mən Malakanbazar meydanlarında ərəb, venetsiya, hind, firəng tacirlərinin cariyələrini, rəqqasələrini yaxından görmüşəm. Udvanla quzey məbəd-saraylarında çox olmuşam... Oralarda qızlar belə yarı çılpaq, göbəyiaçıq rəqs eləyirlər, – deyə göyçəli tayfasının təzə başçısı Yadırğa Teynur sinəsini qabağa verib özünü göstərdi.

Bayandur baba:

- Yenə Malakanbazar, yenə də Malakanbazar! – deyə deyindi. – Oralar sizi korruyub, öz məsləkini itirənlər oralardan qayıdıb ellərə-obalara, guya, təzə adətlər-vərdişlər gətirirlər. Bu məmləkətin öz dədə-baba adət-ənənələri var!

Bayandur baba çox danışıb, öyüd-nəsihət verdi, tayfa başçılarına. Onun gözlərinin içinə din baxanları da oldu, şöhrət azarına tutulmuş tayfa başçıları isə hiyləgər gözlərini yerə zilləmişdilər.

- Hörmətli Bayandur baba, - deyə Azərnur getdikcə qızışan el ağsaqqalını sakitləşdirmək istədi. - Bilicilər buyurur ki, insanlarda bol-bol vədə verənlərə inanmayın, onlar bilsələr də bilməsələr də zəhərsaçandır, çürüyən və zəhərlənmiş insanlardı onlar, yer üzü bezmişdi onlardan. Məhv olsunlar! Bir vaxt Zərdüştün «Avesta»sından barınanlar indi onu artıq din hesab eləyir. Odur ki, dediyiniz yerlərdə adamlarımıza öz təlimlərini öyrədib, məmləkətimizin el-obalarına göndərirlər. Bu əziz gündə onlara baş qoşub qanınızı qaraltmayın!

Zərdüşt buyurmuşdu: «Biri bıçaqla sağaldır, biri bitkiylə, biri ulu sözlə!.. Təkcə bir AŞA[51] yolu var! Bu həqiqət yoludur, başqa yollar yolsuzluqdur!»

Bayandur babanın işarəsi ilə tayfa başçısı Uruf ona yaxınlaşdı. Urufun qulağına nəsə pıçıldadı. Uruf da Sevana baxan cavanların arasından iki-üç nəfər bazburutlusunu yanına çağırdı. O da onların qulağına nəsə pıçıltıyla söyləyəndən sonra dönüb arxayın Bayandur babaya baxdı.

Sevan: «Atıl-matıl çərşənbə, bəxtim açıl çərşənbə» sözlərini pıçıltıyla söyləyə-söyləyə sönən tonqalı xatırladırdı, elə bir üstünə qaynar su calanmışdı, qızlar halay qurub onu üzük qaşı təki dövrəyə aldılar, Sevanın yarıçılpaq əndamı onların arasında qalıb görünməz oldu.

* * *

Axşama yaxın bayram topları atıldı, atəşfəşanlıq yaradan lopalar göylərə işıq saçdı. Ulu babalarının adları işığında böyüyən totuq-motuq oğlan uşaqları qonum-qonşu qapı-bacalarına qurşaq atmağa yollandılar. Qismətlərinə düşən noğul, rənglənmiş yumurtalar, qoz, badam, fındıq, alma, ərik qaxı, tut qurusu payına sevinirdilər. Onlara pay qoşan qarıların ağzı duada idi: - Bayram ömrünüzə yar-yaraşıq taxsın, yurd yeri güvənciniz olsun!

Uşaqların sevinci bir elə sığışmırdı, aşıb-daşırdı. Üz-gözündən nur yağan nənələr bayram xonçasından pay götürüb nəvələrinə verib deyirdilər: - Belə əziz axşamlar kimsəsizləri tək qoymaq günah sayılar, aparın bu payları yeddi ev o yana, yeddi ev bu yana kimsəsiz tapsanız, verib sevindirin onları, savab qazanarsınız. Tanrıya da xoş gedər!

[51] AŞA - yüksək rifah, xoşbəxtlik

Ağbirçəklər əlləri biləyinəcən xınalı cavan qız-gəlinlərə öyüd – nəsihət eləyirdi: - Öyünüzdə - eşiyinizdə, damınızda-daşınıza nə qədər qıfıl və düyün varsa, hamısını hökmən gedin açın, qoy təzə ildə heç bir işiniz düyünə düşməsin! Bəxtinizin qapıları hər yanda üzünüzə açılsın!

Belə bahar bayramı axşamında Udvan tül pərdələrə bürülü taxtında tək-tənha mütəkkəyə dirsəklənib sulu qəlyan çəkirdi, nəşəli gözlərini hərdən-hərdən boş qalmış qızıl qəfəsə dikirdi. Dörd divarın arasında sıxıldıqca xatirəyə dönmüş çağlarını yada salırdı. Göy gözlərinin önündə divardan o yana muğanlı qadın canlanırdı. - «Oğlum olsa, adını Xilas qoyacağam!» - həmin qadın pıçıldayırdı. Udvan soruşurdu: - «Xilas niyə?» Muğanlı qadın cavab verirdi: - «Hamımıza xilas lazımdır!» O soruşdu: «Biz zindanda döyülük ki?!» Qadın deyirdi: - «Zindan əzabı azadlıqdakı əzabların yanında nədir ki?» O soruşdu: - «Hii, sən nə əzab çəkirsən ki?» - gülümsündü. Qadın: - «Məgər sən insanların qollarına, dillərinə vurulan qandalları, qıfılları görmürsən?» O: - «Sənin başına hava gəlir bəlkə, get özünü cindara göstər!» Qadın: - «Niyə başa düşmürsən. Ədalətsizlik, özbaşınalıq baş alıb gedir. Var-dövlət sahibləri insanlıq ləyaqətini itirir. Sərvət həvəsi onlarda insafı, qeyrəti öldürmüşdür. İndi onlar da Əhrimənin şər qüvvələrinə xidmət göstərirlər. Həqiqət qandallanıb! İnsanlıq xırdalanır, onlar məmləkəti uçuruma sürükləyirlər!» - deyə uzun-uzadı danışdı. – «Nə boş-boş sayıqlayırsan? Yoxsa Həməzan[52] qadınlar kimi ad çıxarmaq istəyirsən? Ya da qadınlığıynan Məzdək[53] yolunu tutub qəhrəmanlıq göstərmək

[52] Həməzan - Amazon: Qədim Atropaten Midiyasının Hirkan-Xəzər torpaqlarında yaşamış cəngavər qadınlar.

[53] Məzdək - VI əsrin əvvəllərində Azərbaycanda Sasani əyanlarının zülmünə qarşı hərəkatın başçısı (524-529))

niyyətindəsən». Udvan onu ələ salırdı.

«Eh! Hanı indi elə analar ki, Məzdək kimi oğullar doğsun! Gör onun dəhşətli ölümündən neçə qərinə ötüb, amma əzabəziyyətlərimiz biz anaların bətnini qorxuzub. Elə bil tapşırır ki, Məzdək təki mərd doğma! Doğsan, aqibəti onunku təki olacaq! Heç kimin iradəsi çatmır ki, ağ Sarayda Muğanın taxt-tacında oturub, nəşəli-nəşəli rəqqasə qızların oyununa baxan hökmdarın yaxasından yapışıb gətirə Şəhriyar bazarına! Bəlkə burdakı bahaçılığı, əyanların, tacirlərin xalqa zülmünü, təhqir olunan dilənçiləri gözü ilə görsə, onda kefindən əl çəkər!»

«Yox! – deyə onun sözünü kəsirdi Udvan. – İndi məmləkətin bazarları bir-birinə bənzəyir! Təkcə Şəhriyar bazarı deyil, əgər sən nağıllarda olduğu kimi Simurq[54] quşunun qanadlarında göydən yerə baxsan, onda görərsən ki, Böyük Xaqanın kiçik hökmdarları cıdır meydanlarını da bazara döndəriblər».

O vaxt qadın Udvanın dilindən ilk dəfə düz söz eşitdiyinə görə sevinmişdi. İndi də Udvanın gözləri önündə canlanan xəyalı ona qəmli-qəmli baxıb, qeybə çəkildi.

Udvan durub taxçadan qızıl bardağını götürdü. Gətirib taxtının üstünə döşənmiş xalçanın üstünə dağıtdı, uşaq aşıqla oynayan kimi oturub qulplu qızıllarla əyləndi. Xəyalında Böyük Xaqanın günbəzi badamı buta şəklində olan əzəmətli sarayını canlandırdı. Hökmdar taxtında əyləşib rəqqasələrin şövqlə ifa etdiyi "Pambıqçı" qızlar rəqsinə tamaşa edirdi. Rəqqasələr o qədər tənik[55] geyinmişdilər ki, güngörməz yerləri apaydın görünürdü. Qadınsifətli bir ağbəniz kişi Xaqana şərab süzüb verirdi. Onun başında ləl-cəvahiratla süslənmiş

[54] Simurğ –Simruh. "Avesta" motivləri əsasında yaranmış Azərbaycan nağıllarındakı əfsanəvi quşun adı.
[55]tənik- nazik, yüngül.

tac var idi. Bu tac Udvana Malakanbazar məbədində gördüyü keşişin mitrasını[56] xatırladırdı. Tacı atəş dilimləri kimi dövrələyən gümüş çənbərə taxılmış qızıl lələyin üzərində Zərdüştün "Xeyir niyyət, xeyir söz, xeyir əməl" kəlamı yazılmışdı. Xaqan atəşrəng şərabı qurtum-qurtum içirdi. Kənardan baxana elə gəlirdi ki, kişi şərab yox, müqəddəs haomanı içir.

Sonra Xaqan əllərini bir-birinə vurdu, bu dəfə rəqqasələr "Xalçaçı" qızların rəqsini oynadılar. Xaqan gözlərini qıyıb, onların arasında əndamı canlar yaxan ən gözəlçəsini qaralamışdı. Həmin rəqqasənin abrı-isməti Xaqanın məst gözlərində üzə-üzə boğulurdu. Xaqanın şorgözlüyü Udvanı çox çasarətləndirdi: "Əminəm ki, tacına yazdırdığı o qiymətli kəlam da Xaqana xalqın gözündən pərdə asmaq üçün lazımdı".

«Ey güclülərin ən güclüsü, ey Tanrının yer üzərində kölgəsi, Böyük Xaqanımız!» - Axır ki, o təklikdə qalan Xaqanın yanına girirdi. İçi qızıl dolu iki bardağı qoyurdu ayaqları altına: «Ey böyük tacidar, sənin ulu babanla mənim ulu babam Vətən yolundakı vuruşlarda – Sasanilərlə savaşda Vaçeni[57] təslim edəndə, başbilənlərə sui-qəsdlər hazırlayanda ikisinin bir şərikli nizəsi olub! O bir nizəylə düşmənlərə göz verib, işıq verməyib. Atam Qayamərdan həmin nizəylə sənin atanla birlikdə Məzdəki öldürüb, parça-parça doğradılar. Amma bunu heç kim bilmir. Öz aramızda qalsın. Biz də sənlə birlikdə o nizəni bu məmləkətin başı üzərindən əskik eləməməliyik. Bu məmləkətin anaları yeni-yeni qəhrəmanlar doğmağa hazırlaşır. Onlar sənin əyanlarını, sərvəti olanları sevmir! Mənə bir qulluq ver, qulluğuna gəlmişəm. Bizim Xırmantəpə elinə biri başçılıq edir, nə ətdir, nə balıq! Sən bu bayram günü

[56] mitra- yüksək rütbəli katolik ruhanilərinin baş geyimi.
[57] Vaçe -Albaniya hakimi, Sasanilərə qarşı üsyanın başçısı

burada şərab içirsən, o isə orada şərbət! Sən burada gözəl qızlara baxıb feyz alırsan, o isə orada camaatın başını korruyur ki, bəs Hörmüz belə gəldi, Əhrimən elə getdi. Götür bu qızılları, ver mənə Xırmantəpə elinin taxt-tacını, çox yox, beş bahar bayramını el atası təki qarşılasam, səadəti tapmış olaram!

"Beş nədir, mən üç bayrama beş qərinəlik sərvət yığaram..." düşündü.

-Böyük Xaqan, Azərnuru sən yaxşı tanımırsan. Gecə-gündüz camaata göz verir, işıq vermir. Gərək yatanda da, duranda da hamı onun peyğəmbərinin, bağışlayın, bizim peyğəmbərin müqəddəs qanunlarını əzbərləsin! Fərman göndərib çıxardın ordan! Əşi, gör o nə qədər ölüvaydır ki, qadın məxluqlarından özünü yan verir, bəlkə, heç bizim cinsimizdən döyül, hə?!»

Xaqan dodağının altında nəsə pıçıldayırdı. Udvana elə gəlirdi ki, Xaqan qəzəblənib onu söyür, sonra fəhmlə unayırdı ki, Xaqanın həbəşi dodaqları onun Malakanbazarda öyrəndiyi və tez-tez eşitdiyi sözləri pıçıldayırmış? – «Xoroşava, Xoroşuxa!»

Udvan xəyaldan ayılıb kefli-kefli güldü. – Ha, ha, ha! Dünya elə bu beşgünlük bayramdı, ye, iç, kef elə! Hə, beş günün biri bu cürə keçdi, - deyə qızılları təzədən yığmaq istəyirdi ki, qapı qəfil açıldı, üç nəfər cavan içəri girdi.

- Hə, Udvan,bu qızılların keşiyini çəkdiyinə görə Bahar bayramına da gəlmirsən! Biz səni bu qayğıdan azad etməyə gəlmişik! - deyə Bala İsgəndər irəli yeridi.

Udvan kefli-kefli bardağı qucaqlayıb geri çəkildi.

- Sən çox atılıb düşdün, elə bilirdin, tayfa başçısı səni qoyacaqlar. Sən hələ mənim kimi, Yadırğa Teynur təki Malakanbazarda alqı-satqı biliyi öyrənməyibsən. İndi də gəlibsən qızıllarımı almağa? Yox! Mən bunları sənə vermərəm, min-

bir əziyyətlə qazanmışam, ona görə vermərəm! Bunlar mənim gərəyim olacaq...

- Onlar sənin gərəyin olmayacaq. Elin-tayfadaşlarının alın təri ilə qazandıqları bu sərvəti mənimsəmisən. Ona görə də bu sərvət elin-tayfanın gərəyi də olmalıdır.

Bala İsgəndər ona yaxınlaşdı.

Udvan:

-Yox, balaca, sən öz ağlında deyilsən, öyrədib göndəriblər səni bura! Keçmişdə sərvəti olanlara Məzdək düşmən kəsilmişdi, axırı nə oldu? Parça-parça doğrandı. İndi sizin ağzınıza dil atanların aqibəti də Məzdək təki olacaqdır. İnan mənə!

Bala İsgəndər:

-Sən bu sərvətə tamahının gücünə sahib olubsan. Bədbəxt elədiyin neçə-neçə ailənin göz yaşlarıyla islanıb bu qulplu qızıllar. İndi də tamahının ucbatından sən bu sərvəti haralarasa aparmaq istəyirsən! Yox! Udvan, bu qızıllar məbədin xeyir xəzinəsinə veriləcək! Bu sərvətə saray tikdirmək, dağların döşündən saxsı su kəməri çəkdirmək, uçurumların üstündən körpü salmaq olar! Niyə bu qızıllar indiyə kimi istifadəsiz qalıb, niyə?

Bala İsgəndər irəli yeriyib, bardağı Udvandan aldı, özü ilə gələnlərə işarə ilə bildirdi ki, taxçaları axtarsınlar, taxçaların birindən işıq pərisi Mehrin toz basmış heykəli çıxdı. Gətirib onu taxtın üstünə qoydular. Başqa taxçalardan heç nə tapa bilmədilər. Cavanların biri qızıl qəfəsi götürdü.

- Qızıl qəfəs! İstər ağac olsun, istər qızıl, qəfəs elə qəfəsdir, ömrün gözəl anlarını oğurlayan qaranlıq zindanlara bənzəyir.

-Sizi görüm lənətə gələsiz, nəyim vardı aldınız, daha nə gəzirsiniz? Gedin, gedin burdan, görüm sizin çırağınız sönsün! – Udvan hiddətlə Bala İsgəndərə baxdı.

Cavanlar gedəndən sonra Udvan taxtın üstündə qalan işıq pərisi Mehrin heykəlinə yaxınlaşdı. Heykəli qurdalayıb, döş hissəsini açdı. Oradan anasından yadigar qalmış, qızıl ucluqlu ox kimi dünyanın dörd qurşağına tuşlanan daş-qaşla süslənmiş böyük xaçı çıxardı. Xaçın üstündə insan övladının təsvirinə baxdı. Üzünü nursuzlaşdıran ölüm əzabından insan övladının başı çiyninə düşmüşdü. Əllərinə çalınmış mıxı görəndə Udvanın həmin Tanrı övladına yazığı gəldi. Ona elə gəldi ki, indi o da çarmıxa çəkilmiş İsadan da çox əzab çəkir. Sərvətinin yarıdan çoxu əlindən çıxmışdı, sərvətsizlik Udvana ölümdən də betər idi. Sonra o əlində tutduğu qızıl xaçı yalnız qızıl olduğuna görə dodaqlarına yaxınlaşdırıb öpdü. İşıq pərisi Mehrin heykəli toz bassa da, gözlərindən işıq parlayırdı. Udvan Mehrin heykəlinə baxıb qorxdu: - Yox! Vermərəm! Ölüm olsun işıqpərəstlərə! – deyə heykəli vurub aşırdı. Heykəl daş döşəmələrə dəyib tikə-tikə oldu.

* * *

Gəbənin eni qarış,
Güllü, butalı naxış,
Bayram küsülü sevməz,
Qadan alım, gəl barış.

Ağsaqqallar, ağbirçəklər təkidlə küsülüləri barışdırırdı, onlar da əl tutub barışır, bayramlaşıb, umu-küsülərini unudur, birlikdə şənlik edirdilər. Meydançada tayfalar bir-birlərinə bayram xonçaları verirdilər, yer-göy də yaşıl günlərin qoynunda fərəhlə gülümsünürdü. Ana Göyçədən su götürən Xatın arxı da söyüdlərin yamyaşıl saçaqlarına tumar çəkə-çəkə zümzüməylə Güllüdüzün görüşünə tələsirdi.

Qotazlı kəhrəba çərəkəsini əlində şaqqıldadan el atası dərin

düşüncələr dünyasından, meydanda bayram küpündə[58] yellənən uşaqlara, cavanlara baxırdı: «Min il öncələrin adətini yaşadan bu insan övladları yaradılışdan üzü bəri işıqla zülmətin, xeyirlə şərin, yaxşıyla pisin ağuşunda bir-birlərinin əllərindən tuta-tuta, şadlana-şadlana, qəmlənə-qəmlənə gələcəyə yol gedirlər, niyə gözəl ənənələrimizi unutmalıyıq? Yox, inana bilmirəm ki, nə vaxtsa yaddaşlardan yaddaşlara hopan ata-baba adətlərimiz unudulsun!.. Bu nədir, yenə mən gözlərimi içimin dərinliklərinə çevirib, yan-yörəmi unutmuşam?! Yaman istilər düşüb, bəlkə də, bu istilik heç günəşdən gəlmir? İşıq pərisi

Mehrin yoxsa biz insanlara acığı tutub, ona görə odsaçan qanadlarını yerə yaxınlaşdırıb?! Ot da, bitki də bəlkə ona görə yanıb qovrulur? Yox, işıqsevərlər həmişə onun şərəfinə nəzir-niyazlar, qubanlar verir. Mehr onlardan inciyə bilməz! Bu istilik insanların murdar nəfsindən, ac gözlərindən, pis niyyətlərindən də qopub gələ bilər! Odur, yenə həmən qızdı, özünün dediyi kimi gözəllər gözəli Sevan xatun, görən niyə elə baxır mənə, isti baxışları od yağdırır üstümə? O necə baxışlardı elə, Ulu Tanrı! Ehtiras cilovunu qırmış at kimidi, qaçdıqca qaçar! Sahibi də arxasınca düşər... «Qadınsız həyatda sevinc və səadət yoxdur!» Görəsən niyə o peyğəmbərin ancaq bu sözlərini əzbər bilir. Baxma mənə, odlar qızına yaramaz ki, ehtirasın qulu olsun! Bax, o yanda kimsə sənə oğrun-oğrun göz yetirir. Hə, deyəsən bu sənin beşikkərtmə adaxlın Oxçuoğlu Tomardı. Əhd-peyman sındırma, get onun yanına, get!»

Azərnurun ürəyində danışdıqları elə bil gözlərində əks olunmuşdu. Həqiqətən də, Sevan küskün bir görkəmdə dönüb getdi. Amma Tomarın yanına yox, ərsiz qadınların yığnağına gəldi. Onlar bir qom boynubükük bənövşələrtək gö-

[58] Yelləncək

yənəkliyə sərilmiş xalçaların üstündə oturmuşdular. Aysu da dul gəlinlərin arasında idi, bütün gəlinlər kimi o da qəmli gözlərini Sevana tuşladı.

- Elin əski inamına görə belə əziz günlərdə cavan, ər üzü görməyən qızın dul gəlinlər yığnağına gəlməsi pis əlamət sayılır. Bu sənə uğur gətirməz, get qızların yanına!

Sevan Aysuya və onun kimi yaşıl, mavi bir də göy parçalardan don geyinmiş gəlinlərin üzünə baxdı. Dul gəlinlər ortada şölələnən ocağa ud ağacının[59] çır-çırpısını atırdılar.

Sevan ocağa baxıb dilləndi:

-Mənim sevib istədiyim də qəlbimin zindanındadı!

Gəlinlər bir-birlərinin üzlərinə tamaşa edib, çiyinlərini çəkdilər, aralarında Sevanın sözünə gülümsəyəni də oldu. Ona boylanmaqdan Aysunun səməni saçaqlı, güləbətin saplardan toxunmuş baş örtüyü çiyninə sürüşdü. Birdən gəlinlərdən kimsə dilləndi: - Oda baxın! Oda baxın!.. Od titrəyir, uzaqlardan gələn var! Görən, kimi sevirdirəcək!

Aysunun ürəyi uçundu: «Bu QEYRƏT olacaq, yəqin zindandan buraxıblar...»

Qayınanası Ağca nənənin əyləşdiyi səmtə boylandı, az qaldı ki, gedib onu muştuluqlasın, sonra nə fikirləşdisə, utancaq-utancaq rəfiqələrinin üzünə baxdı.

Ağca nənə də yasəmən şərbətini süfrəyə qoyub, gəlininə sarı boylandı, elə bil ər yolu gözləyən və dul qalmış cavan qadınların hamısının halına yanırdı, kirpikləri nəmləndi:

Mən aşıx yasəməni,
Libası yasəməni.
Yetir oğlumu, Tanrı,
Batırma yasa məni..

[59] Ud - yandırılarkən ətir iyi verən ağacdır.

- deyə dilləndi, sonra üzünü göylərə tutdu.

-Ey yeri-göyü yaradan ulu Hörmüz! Səni and verirəm bu əziz günlərə, öz böyük qüdrətinlə zindanlarda olan balalarımıza rəhm elə! Öz rəhminlə rəhmə gətir Böyük Xaqanı, onun irili-xırdalı hökmdarlarını. Qoy zindanlarda gün üzünə həsrət qalanları xilas etsinlər! Ulu Tanrı sən özün elimizi-günümüzü aclıqla, susuzluqla sınağa çəkmə! Eşit mənim duamı ey ulu Tanrı!

-Düz dörd bayramdı ki, oğluma bayram sovqatlarından pay götürürəm, nə müşgüldü bilmirəm, gəlib çıxmaq bilmir! – deyə Bağdagül nənə gileyləndi.

İntizar qarı da dərindən köksünü ötürdü.

-Mən də yeddi bayramdı oğlumun yolunu gözləyirəm, heç bilmirəm harada zindana salıblar. Əfşaranda, Muğanda, Zəncanda, Şirvanda, Aranda, Şabranda, Malakanda o qədər zindanlar var ki! Hər gecə dağı arana, aranı dağa qatıram yuxularımda. Nə öldüsü bilinir, nə qaldısı.

-Gedəniniz gəlsin, üzünüz gülsün. – Selcan nənə dilləndi:

- Ulu Tanrı, ucalardan uca Tanrı, biz sənin mərhəmətinə sığınırıq, eşit bizim giley-güzarımızı, dərdimizə-sərimizə əlac göndər! –Ağca nənə əllərini göyə açdı. - Niyə xaqanların, hökmdarların sayı-hesabı artdıqca, ədalətsizləri, niyə loğmanları çoxaldıqca xəstəlikləri, biliciləri artdıqca nadanları da doğub törəyir bu dünyanın! Niyə? Niyə bu gen dünyanı başımıza dar eləyənlərə sərvəti - ruzunu bol verirsən, niyə? Niyə sənin yaratdığın yeddi qat dünyanın canına əmniyyəti pozanlar bit-birə kimi daraşır? Qanımızı-canımızı sorurlar. Niyə Udvan kimilərini, elimizin-obamızın oduna-ocağına dönük çıxan yadırğaları zavala gətirmirsən? – Ürəyinin gücü gedənəcən sorğu-sual elədi. Ağbirçəklər təpindilər ona, su verib ovundurdular. Ağca nənəsə hələ də göyə baxırdı... Ma-

vi göylər sükut içindəydi, lay-lay bulud saçlarına sığal verə-verə susurdu.

Buludlardan aşağıda bir dəstə qarğa-quzğun görünürdü.

* * *

Qız - gəlinlər öz məclislərində ədəb-ərkanla nənələrin söz mücrüsünü açmışdılar:

...Xonçaya qoydum balığı,
gülə tutdum ortalıqı,
üzündən aç çalmalıqı,
Bayram gəldi, xoş gəldi!

Hamı xor ilə:

A şanı, a şanı,
Dağlar aşanı.
Yar özü gəlsin,
Bayram axşamı...

Meydanın bir yanında cavanlar iki dəstəyə bölünüb, atmindi oyunu çıxarırdılar. Oyunun hər dəstədən bir başçısı ortada dayanıb öz aralarında məsləhət-məşvərət eləyəndən sonra üzlərini dəstələrdən birinə tutub deyirdilər:

- Ey yeddilər, yeddilər! Atlarda heyy, atlarda, tap görüm kimin atı?

Hər iki başçı əllərini Xırmantəpənin ətəyindəki binələrə uzatmışdı. Birinci dəstədən yeddi cavan fikirləşdi, sonra biri dilləndi:

- Tuğulcanın atı!

- Yox! Bilmədin! – başçılardan biri cavab verdi.

İkinci dəstəyə üz tutdular:

- Yeddilər! Atlarda heyy, atlarda, de görüm kimin atı?

İkinci dəstənin başçısı əl-qolunun işarəsi ilə at sahibinin, ya da atın nəm-nişanını bildirəndə, birinci dəstənin başçısı onları çaşdırmaq üçün aldadıcı işarələr verdi, amma ikinci dəstədən bir cavan dedi:

- Tapdım, Oxçuoğlu naxırçı Tomarın atı!

- Get min gəl! – deyə ikinci dəstənin başçısı sevincək dilləndi.

Düzgün cavab verən gənc birinci dəstəyə sarı qaçdı, hoppanıb bayaq cavabında yanılmış gəncin kürəyinə mindi, onu at kimi çapa-çapa öz dəstəsinə apardı. Oyuna tamaşa eləyənləri gülmək tutmuşdu. Aralarında əli çomaqlı Oxçuoğlu Tomarı elə bil indi görmüşdülər. Tomar da el içinə nüdrətən çıxardı, o da bayramdan bayrama, indi atmindi oyunu çıxaranlara baxıb, düşünürdü: «Gör nə günə qalmışam ki, oyunçıxaranlar məni tənbəlliyimə görə tanıtdılar, bizim sarıcalı tayfasında o qədər mənim kimi atı olanlar var ki. Hələ kəhərimin büdrək olmasına da him-cim elədilər, bulara deyən yoxdu ki, bu eldə fərli-başlı at qalıb ki, alasan? Lağ eləyə-eləyə ayılıb görəcəklər piyada qalmışıq. Eh, tanrı özü dadımıza çatsın!» Hövlündən oradan uzaqlaşdı, ağbirçəklərin yanından ötəndə Ağca nənə onu saxlayıb, ustufca dümsüklədi:

- Əyə, Oxçuoğlu, səni and verirəm bu əziz günün sahibinə, məə de görüm, bu mal-qaranı sən harda otarırsan? Torpağın yaşıl yaxası yüz yerdən göyərib zoğun cicərdiyi vaxtda qaşqa camışımın hoqqırı çıxıb, heç bir doyumluq süd də vermir?!

İntizar arvad da ona bəndmiş kimi dilləndi:

- Ağzının içində ölüm, ay Tomar, qadaların mənə gəlsin,

qulaq ver, gör nə deyirəm sa. Dərdimizə dərd calayıb, bizi ağartısız qoyma! Mənim inəyim neçə gündür ki, töylə üzü görmür, birdən qurd-quş yeyər, ya da qaçaq-quldur aparar ha?

Tomarın səbri tükənmişdi, bayarkı hikkəsi də bu yandan içini oyurdu: «Görən, nə deyim bunlara məndən əl çəksinlər, atacam naxırçılığın daşını, elə bilirlər hasand şeydı, yağış yox, zad yox, gövşənnik dəmirçi Domrulun kürəsi təki adamı yandırıb-yaxır, ot-əncərə nə baxır, burdan cücərən ordan qovurğa kimi qovrulur. Əşi, qoy oturub cəhrələrini sazlayıb, yunlarını əyirsinlər!».

Ağbirçəklər hələ də onu qınayıb giley-güzar eləyirdilər. Axır, Tomar dözmədi, dilləndi:

- Siz nə yamanca vaxt tapıbsız giley eləməyə, bu beş günlük bayramı hamı kimi mən də deyib-gülüb, şadlıq eləmək istəyirəm, siz də başlayıbsınız ki, süd belə gəldi, camış belə getdi... Aclığı gətirib çıxarıbsız lap, naxırçılıq da eləyən döyüləm, əl çəkin məndən! Aclıq olur, qoy olsun, təki qırılan mal olsun, tapılmayan duz olsun, içilməyən su olsun, ancaq bayram olsun, kef olsun! Bu bayramdan çox olsun! – Sözünü qurtarıb, ucadan güldü.

- Ay haay, səndə Sarıca çobanın qanı olsa, belə pisniyyət danışmazdın! Belə əziz gündə bu, tanrıya da xoş getməz!

Tomar əllərini yelləyib, ox atanlar dəstəsinə sarı getdi. Ağbirçəklər bir-birinin üzünə baxıb heyfsləndilər.

- Bunun bir tənbəl babası olub, elə ərincəkmiş ki, biçənəklikdə kopnalar od tutub yananda, gedib gətirməyin bəlasından ləminə çıxıb, qışrıqıb ki, kaş o yanan kopnalar məəmki olaydı. Aaz, bu da o kişinin nəvəsidi dana! – deyə Selcan nənə uğunub getdi.

- Amma deer, munun yeddinci babasının adı da Tomar

olubdu, göydə uçan ala qarğanı gözündən oxluyurmuş – Bağdagül nənə adəti üzrə lap keçmişdən soraq verdi.

Ağca nənə dedi:

- Çox uzağa niyə gedirsən. Ruhu şad olsun atası Ərgünəşin, yağılarla Vətən yolunda oxu tükənənədək vuruşmuşdu, oxu qurtarandan sonra deerlər, toppuz başlı çomağı ilə yağıların başını əzirmiş. Axırda da Vətən yolunda şəhid oldu.

- Bir babası da olub axı... Huşum qalıb ki, başımda, hə, yadıma düşdü, Turqut[60].

O da yaxşıca ney çalanmış. İgidlər savaşa gedəndə ney çalıb ruh verərmiş onnara, həm də deerlər, dini duaları üsulluca-üsulluca neylə çalarmış... Yas olanda da qadınların ağısını neylə yamsılayarmış, – deyə Selcan nənə ah çəkdi.

- Tomar da bir süyümündən onnara oxşuyub, ancaq yazıq müştaq olub Udvanın qızı Sevana, indi bunun yadına camış-cumuş düşür? Odey qızı axtarır, qız canıyanmış da deyiklisi olsa da elə bil, gen gəzir ondan, heç Tomar yazığı pəsənd[61] də eləmir... – deyə Bağdagül nənə yenə onlara sarı qayıdıb gələn Tomarı göstərdi.

Sevan qəmgin-qəmgin dayanmışdı güləşçilərə tamaşa eləyən qızların arasında. O biri qızlar kimi o da yasəməndən çələng hörmüşdü. Tomar onu görən kimi fikrindən güləşmək keçdi. Sevanın gözlərinin qabağında onu kim yıxa bilərdi? Ağbirçəklərin him-ciminə məhəl qoymadan onların yanından saymazyana ötüb keçdi. Atmindi oynayanların dəstəsinə baxdı. Birinci dəstədən bircə oyunçu qalmışdı. Tamaşa eləyənlər bu dəstənin uduzduğunu güman eləyirdilər. Elə dəstəbaşı da ona görə əlini könülsüz hara gəldi tutub, dedi:

- Atlarda kimin atı?

---

[60] Turqut - burada Tanrıdan gələn mübarək işıq, güc mənasına. (türk ruhu)

[61] Saya salmır, vecə almır

- Qaraca qonağın atı! – deyə tək qalmış oyunçu həqiqətən də meydanın alaqapısında tərli yambızları qürub günəşinin işığında parıldayan atı və onun üstündəki qaraca oğlanı göstərdi. Hamı heyrətlə qəribə qonağa boylandı. At yorğun-yorğun fınxırdı. Sahibi yerə hoppanıb, ağsaqqalların əyləşdiyi Qeyrət ocağına tərəf baxdı və təzim elədi: - El bayramınız mübarək olsun! – söylədi. Birdən nə düşündüsə üzünə şit təbbəssüm yayıldı. Adım Xoşqədəmdi, sizə öz mübarək qədəmlərimlə təzə gün, səadət, əmin-amanlıq gətirmişəm, izin verin bayram şənlyinə qatılım.

Bayandur babanın işarəsi ilə onu bayram süfrəsinə dəvət elədilər.

El - oba qaydasına görə, özünü Xoşqədəm kimi qələmə verən hər hansı şəxs ədəb-ərkana malik xeyirxah, təvazölü və qədəmi yüngül bir insan olmalıydı. Adətən, bayram gecəsi belə muştuluqçu hər tayfanın yaxşı tanıdığı öz başıpapağlısından seçilirdi. O da öz növbəsində taxıl dənələri ilə dolu xəlbirlə qapı-qapı gəzib ocaqlığa toxum səpirdi. İnanca görə Xoşqədəm hər ailəyə bar-bərəkət, firavanlıq bəxş edirdi. İndi isə Qaraca qonaq sanki hamını ovsunlamışdı, heç kim ötən çağların adət-ənənəsinə görə, öz tayfasının başıpapağlısından Xoşqədəm seçmək barədə daha düşünmürdü.

Aysu qəlbi döyünə-döyünə gəlib, naxışlı iri qələmkar[62] ətrafında bardaş qurmuş qonağa yaxından baxdı, nigarançılığın içində lal-dinməz də qayıdıb getdi. Ağca nənə gəlinini görüb yanıqlı ah çəkdi: - Bilmirəm mənim ağzımın dadı qaçıb, ya bu bayram ayın-oyununun! – deyə süfrədəki çərəzləri göstərdi.

[62] qələmkar- qəlıbbasma üsulu ilə hazırlanan süfrə növü

* * *

Qaraca qonağı görəndən bəri Sevanın elə bil çiçəyi çırtlamışdı, qanı qaynadığından qara badamı gözlərini ondan çəkə bilmirdi. Yan-yörədəkiləri unutmuşdu. Bircə Oxçuoğlu Tomar kefi birdən-birə durulub, qırışığı açılmış qıza göz qoyurdu. Qonaq da cavan-comrula qaynayıb-qarışmışdı. Deyirdi, gülürdü və arada da işvəli təbəssümlərlə ona baxan Sevanı başdan-ayağa, ayaqdan başa qədər süzürdü.

Tomar hikkəsindən özü də bilmədi nə vaxt qaraca qonağı qolundan tutub xalça üzərinə güləşməyə çağırdı. Qaraca qonaq keçə arxalığını çıxarıb xalçanın qırağına tulladı, çılpaq boyun-boğazının qara tükləri göründü. Tomar da gödək kürkünü soyundu, çomağını, papağını bir tərəfə qoydu. Qotazlı qaytarına zərli qolbəndlərinə əl gəzdirdi, qollarını dirsəyəcən çirmələdi.

Xalçanın üzərində güllü-butalı, naxışlı çəmənlikdə kəlləkəlləyə dirənmiş iki öküz təsvir olunmuşdu. Kəllələrin birbirinə söykəndiyi yerdə qonaqla Tomar sinə-sinəyə gəldi, elə bil öküzlərin buynuzları sındı: - Şarraq! - Qabarmış sinələr daş kimi bir-birinə çırpılıb, hərəsini xalçanın bir küncünə itələdi. Qaraca qonaq Tomara qıllı qaban kimi təpilirdi, biləklərindən yapışıb necə atdısa, Tomar fırlanıb dizi üstə düşdü. Qaraca gizlin bir sevinclə Sevana tərəf baxdı. Ürəyinə dammışdı ki, gözünə suyuşirin görükən bu qız onun qələbəsini intizarla gözləyir. Tomar da Sevanın əlində tutduğu yasəmən çələnginə baxdı: - Ə, Tomar, götür onun qopalığını! – Bala İsgəndərin səsi Tomarın qulağının lap dibində partladı. – Nə təhər olsa, qonaqdı axı, pərt salma onu! – Bunu da tayfadaşı Şamur ona söylədi. Tomar qalxıb ley kimi Qaraca qonağın üstünə şığıdı. Qaracanın paçasından soxulub qol-qıç elədi, onu öküz kimi boynuna götürüb, çiyinlərinə aldı. Aya-

ğa qalxanda elə bil göylərin ağırlığı çiyinlərinə endi, rəqibinin arxasını yerə vurmaq onu çiyinlərinə qaldırmaqdan da ağır idi.

-Vur, a Tomar, niyə bəbək qalıbsan, vur onun arxasını yerə! – El-oba adamları Tomarın gücünü indi görürdü. Amma naxırçı olanda nə olar, Tomar da insafını itirməmişdi. Dönüb Yurddaşa sarı baxdı. Qeyrət ocağından ağsaqqallar bilgəli[63] nəzərlərini ona zilləmişdi. Bayandur baba başıyla qonağı yerə qoymaq işarəsini verdi. Yəni qonaqdı, hörmət elə! Tomar dönüb Sevana baxdı, qızın gözləri də aman diləyirdi. Axır ki, qonağı üsulluca boynundan endirib yerə qoydu, lal-dinməz ona baxdı. El qızları Tomarın boy-buxununa valeh olmuşdular. Gül-çiçək dəstələri tökürdülər üstünə.

El adətinə görə, qalibin başına çələng qoyan qız ona öz sevgisini bildirirdi. Çələng eşqin rumuzu sayılırdı. Amma bu güləşin qalibi nə Tomar, nə də Qaraca qonaq sayılırdı. Tomarı adamlar comərdliyinə görə alqışlayırdı. O isə Sevana baxırdı, elə sanırdı ki, qonağın arxasını yerə vurmadığına görə o biri el qızları kimi o da Tomarın başına gül-çiçək atacaq, ya da əlində tutduğu çələngi qoyacaq! Sevansa yaxınlaşıb onların hər ikisinə baxdı, badamı gözləri ilə Tomara gülümsündü, çələngi isə qonağın başına qoydu. Hamıya elə gəldi ki, Sevan da Tomar kimi qonağa sayğı göstərməklə el adətini pozur. Elə Tomar da bu fikirlə özünə toxdaqlıq verə-verə səsküyün içərisində itib qaldı. Cavanlar narazılıqla fitə basdılar Sevanı. Qızlar vaysınaraq: - Yasəmən çələngi nə olan şeydir ki, onu da öz halalca beşikkərtmə adaxlına qızırğandın? – deyə onu qınadılar. Tomar başını qaldıranda meydanda nə Sevanı, nə də o qərib Qaraca qonağı gördü.

[63] Bilgəli – müdrikanə

* * *

Beş günlük bahar bayramında kim kimi harda itirsəydi, ədalət meydanında tapardı. Üç gün, üç gecəydi ki, Oxçuoğlu Tomar Sevanla qaraca qonağı axtarırdı. Gecələr Ana Göycəyə uzanan Xatın arxı boyunca gəzib-dolandı. Meydanda gözaltı elədikləri el qızlarını bura çəkib gətirən oğlanlar əhdpeyman bağlayır, müqəddəs su ilahəsinə, məhəbbət pərisinə and içir, əl-ələ tutub səhərəcən gəzirdilər. Arada Tomarın qulaqlarına Qındırğa talasından, qırmızı, bənövşəyi və ağ çiçəkli salxımlarını sallamış yasəmən ağaclarının daldasından xəfif pıçıltılar, qız gülüşləri doluşurdu. Ağaclar budaqlarını torpağacan əyib sevgililəri sanki bəd nəzərdən gizləmişdi. Söyüdlü arxın qoynunda da odla su bir-birlərinə qovuşmuşdu, qırçın sularda ulduzlar işıl-işıl yanırdı. Tomar göylərin ənginliyinə boylandı. Orada da elə bil yeddiqardaş ulduzların üzüm salxımı təki bir-biriylə qucaqlaşıb öpüşürdülər. Bahar bayramında yerlərdə canlılar, göylərdə ulduzlar da öz kamına çatmışdı. Bircə Keyvan[64] fərsiz-fərsiz şürələnib yerə baxırdı. Bəhram[65] isə ondan küsüb qaçan işıq pərisi Mehrin, gözəllik ilahəsi Nahidin[66] həsrətindən yanıb közərirdi. Və elə bil ki, Hut[67] bürcü ulduzlar gözəllərini Bəhramın hiyləgər divlər kimi Əhrimənə sadiq olan kinli, qan çökmüş qırmızı gözlərindən gizlətmək üçün parlaqlığını daha da artırmışdı. Tomara elə gəldi ki, o qərib Qaraca qonaq da göydən yerə enmiş, sonra Sevanı da götürüb özüylə ulduzlar səltənətinə aparmışdı. Sevan da, Qaraca qonaq da Tomar üçün ilim-ilim

[64] Saturn səyyarəsi.
[65] Bəhram - mifə görə müharibə hamisi Mars.
[66] Zöhrə, Venera
[67] Hut – Balıq bürcü

itmişdilər. Xırmantəpədən xeyli aralansa da oradan gələn səsləri, nəğmələri apaydın eşidirdi.

Mən aşıq gül əndama,
Çıxıbdı gülən dama.
Olam bir atlaz köynək
Yaraşam Güləndama...

Şamurun səsiydi, oxuya-oxuya sevdiyi qızı səsləyirdi. Tomar o səsi dinlədikcə, ətrafındakı bəxtəvər yurddaşlarına baxdıqca təkliyinə üşəndi. Elə bil indi hamı Qaraca qonağı yıxmadığına görə onu qınayırdı. Kim bilir bəlkə elə Sevanla Qaraca qonaq da bu dəm yasəmən kollarının birinin arxasından ona baxıb, maymaqlığını ələ salaraq xısın-xısın gülürdülər. Yanından üç-dörd atlı ötüb keçdi. Onlar atlarının tərkinə götürdüyü qızlarla Ana Göyçəyə sarı gedirdilər. Biri Tomarın yanında atını saxladı:

- Tomar, bəs sən Saza[68] dan açmağa getmirsən? Yoxsa bu əziz gündə gedib yatmaq istəyirsən?

Tomar key-key onun üzünə baxdı, atlının bir əlində tutduğu məşəl ona qısılmış qızın atlaz donunu işıqlandırmışdı... Tomar lal-dinməz geri qayıtdı, bir azdan yaraq-yasağını – oxunu, kamanını götürdü, neyini qotazlı qurşağına taxıb, xəncərini kəmərinə bağladı. Kəhərini yəhərləyib mindi, sonra da Ana Göyçəyə üz tutdu. Gölün kənarında çoxlu cavan-comrul, ərgən qızlar yığışmışdı, hamı deyib-gülürdü. Tapmaca söyləyir, məhəbbət nağılları danışır, gizlənpaç, təkbələncüt, əlbəndi oynayırdılar. Dan yerinin ağarmağına az qalmış hamı göyə boylandı. Səs-küy kəsildi. Təkcə gölün Quzey

[68] Saz- işıqlı su, qədim azərbaycanlılar gölə həm də saz deyərdilər.

tərəfindən Malakanların Tryassuna bataqlığından qurbağaların səsi kəsilməmişdi. El inamına görə, təzə ilin başlanğıcında hər kim göydə gözəllik ilahəsi Nahidlə Bəhramın görüşüb barışmasını görsəydi, ulu Hörmüz onun bütün niyyətlərini hasil edər, o dünyanın ən xoşbəxt adamı olardı. Odur ki, gölün kənarında Günəşi qarşılayan cavanlar hamısı iki səyyarənin görüşünü həsrətlə gözlədilər. Bahar qədəmlərini torpağa basanda, səmada Nahidlə Bəhram umu-küsülərini ötəri olsa da, unutdular. Və elə bil yer üzünə əmniyyət nuru ələdilər. Amma bu anın ömrü çox uzun sürmədi. Səyyarələr yerə vüsal həsrəti ilə gələn bahara kimi bir-birindən ayrıldılar. Cavanlar cana gəldilər. Sevdiyi qızın gözlərindəki eşq atəşindən çox yananlar sanki odunu söndürmək üçün soyunub özlərini Ana Göyçənin qoynuna atdılar. Doyunca çimdilər. Ana Göyçə göz yaşı kimi durulmuş sərin suyu ilə cavanların odunu yatırtdı, onları ana nəvazişiylə sığallayıb yuyundurdu. Qızlar da sudan çıxan deyiklilərindən öz qayğılarını əsirgəmirdilər. Onların cəngavər bədənlərinin yaşını güllü məhraballarla qurudurdular. Oxçuoğlu Tomarın beyni ərgən qızların şaqraq gülüşlərindən uğuldayırdı. Atını gölün kənarı ilə xeyli çapıb dayanmışdı. Sonra qızlar özləri ilə gətirdiyi bəzəkli su qablarını Ana Göyçənin suyu ilə doldurub atların tərkinə oturdular. Bu suyu aparıb evlərində yatanların üzünə, taxt-taxçalarına çiləyib hamını oyadacaqlar: - Oyanın, elimizə Bahar gəlib, təzə ildi!

Hər yan Günəşin nuruna qərq olmuşdu. Ululların dediyi kimi, Bahar Ulu Hörmüzün bədəməlli, qaranlıqlar hökmranı Əhrimənə qələbə çalmağı şərəfinə dünyanın üzünə gülümsünürdü.

O gün bircə Tomarın üzü gülmürdü. Bu Bahar ona sirli bir tapmacatəki görünürdü. Xırmantəpəyə qayıdanda gölün

kənarında cavanlardan eşitdiyi bu tapmacanın da açmasını fikirləşirdi:

Hazılı hay hazılı,
Yanım Qara tazılı.
Çıxdım dünya üzünə,
Gördüm qəbrim qazılı.

Gündüz Tomar ədalət meydanını ələk-vələk elədi. Yeddi daşın yeddisinin də yığnaqlarına baş çəkdi. Elin Baş daşı sayılan Yurddaşında Qeyrət ocağı şölələnirdi. Yurddaş ətrafında yığışan bilgəli babalar təki dərin düşüncəyə dalmışdı. Qardaşın rəngi ağarmışdı, Qandaşı qızarmış, Yaddaşı qaralmışdı, Yol Daşı sarsılıb-saralmışdı, Qız Daşı ağlamsına-ağlamsına göyərmişdi. Görkəmindən qəm yağırdı. Sir Daş isə neçə-neçə qərinələr bundan öncə olduğu kimi daş sinəsindəki sirli-soraqlı yazısıyla yamyaşıl daş sarmaşıqlarına bürünmüşdü.

Əcdadlarının daşın sinəsinə təsvir elədiyi oxla dəlinmiş yumruq boyda ürək şəklinə əllərini sürtəndə Oxçuoğlu Tomarın içindən gizilti keçdi. Ürəyi sancdı, elə bil daşlaşmış ürəyi dəlib keçən oxun ucu köksünə toxunmuşdu. Ağrısınıacısını götürüb meydandan uzaqlaşdı. Atını kövşənliyə sarı çapdı. Kövşənlikdə bir dəstə qız onu görcək mindikləri eşşəklərdən düşdülər. Qızlar bitkin əndamlarına görə Sevandan seçilmirdilər. Tomara baxıb bir-birinin qulaqlarına nəsə pıçıldayıb güldülər: - Məhəbbət ilahəsi Gözəl Buta, görəsən, səni hansımıza qismət göndərib? Yoxsa sən bizim qismətimiz deyilsən? Hə? – deyə qızlardan biri zarafatla ona sataşdı. Tomar öz dərdinin hayına qalmışdı. Qızlara baxa-baxa Sevanı düşünürdü, canı bir yerdə aram tapa bilmirdi, atının başını

buraxdı, onlardan aralıda dikdir bir yerə çıxıb Ağrı dağına tərəf boylandı. Dağın zirvəsini qara buludlar almışdı. O, nəhəng Əcdaha[69] buludlar göy üzərində yağış suyunu qara caynağına keçirib əlçatmaz zirvələrdən məğrur-məğrur qürrələnirdi. Arabir sanki quraqlıq divləri ilə çarpışan ağ atlı Tiştara[70] bic-bic baxıb, onun bu döyüşdə məğlub olması üçün daha böyük hiylə toru qururdu. Tomara elə gəldi ki, müqəddəs kitablarda rəvayət olunduğu kimi,h indi də Ağrı dağının başına yığılmış Əhrimənin pis əməlli divləri Apauş və Əspəncərum[71] qardaşları birləşib köməksiz Tiştarı sıxışdıra-sıxışdıra Varukaşa[72] gölündən qovurlar...

Get-gedə Ağrı dağı qara buludların arasında tamam görünməz oldu. Elə bil dağın ətəklərindən qara tüstülər qalxıb, zirvədəki buludlara qovuşurdu.

Tanrı, məni quş eylə,
Qanadım gümüş eylə.
Yar dar yoldan keçəndə
Məni ona tuş eylə.

Bayağkı qızlar Tomara kənardan oğrun-oğrun baxıb oxuyurdular:

[69] Əcdaha – Aci və Daha, Varitra, Vartan, Vərhəhram – Bahram. Qədim təsəvvürə görə, yağışın yağması üçün o öldürülməli idi. Bunu da ildırım tanrısı Tandur bacarardı
[70] Tiştar-Tiştiriya,-İştar – insanlara bol məhsul verən Tanrı qüvvəsi, ulduz
[71] Apauş və Əspəncərum - "Avesta"da Əhrimənin fənalıq törədən əsas divlərindəndi, güya iki qardaş quraqlığı müdafiə edirlərmiş.
[72] Varukaşa - «Avesta»nın «Yəşt» hissəsində buxarı yağışa çevrilib torpağa səpələnən qədim göl. Bəzi mənbələrdə indiki Balxaş (Balas-nur) gölü olduğu bildirilir.

Yaz günündə qar olmaz,
Söyüd qalxar, bar olmaz.
İki dilli gözəldə
Əhdə etibar olmaz.

Oxçuoğlu Tomar əllərini ixtiyarsız qurşağındakı neyə uzatdı. Neyini çala-çala qızların oxuduğu qəmli bir bayatının üstündə köklədi:

Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirməyin ağlaram
Yaman çağımdı mənim.

Tomarın neyinin yanıqlı səsini meydana yığışanlar da eşidirdi. Elə bil ney çalan Tomar deyildi. Xaç qovğasında onun şəhid olmuş ulu babası Turqutun ruhuydu. Elin başı üstünü alıb qəmli-qəmli inildəyirdi, yurdun daşları, ocaqları, damları-bacaları göynəyirdi, yurddaşların içi oyum-oyum oyulurdu.

...Şər vaxtı çatmışdı.

_____*İkinci fəsil*_____

Tale

Xeyirlə Şər əkiz qardaşdır.
Azər el məsəli

Bayandur baba dedi:

- Yeni ilin Əntər üstündə gəlməsi hikmətini yorub-yozan uluolmuşlarımızın inancına görə, ruhlar ilboyu sevincə möhtac olur. Əntər gülünəsi bir heyvan olsa da, bədənindən uzun qollarıyla gözəlliyi çirkləndirir. İnsanın ruhu kirlənəndə iyrənclik artar!

Urşan dədə dilləndi:

- Uğuru bizi dar-damanda qoymasın! Əllərin bədəndən uzun olması əliuzunluğun, əliuzunluq da tamahın nişanəsidir. Qoy tamahkarın uğur ulduzu yanmasın! Tamhın tumu gəsilsin!

Bozyel dedi:

-Əcdər[73] ili quraqlıq keçdi, ulusumuza köçəbəlik, xəstəlik saldı. Ondan bəri ilan, at, qoyun illəri ötüb keçsə də, əcrini çəkdiyimiz iştəklərə bir əncam tapılmadı. Əntər də quraqlıq sevəndir, hiyləgər və kələkbazdır, qoy Ulu Hörmüz bu baharın uğurunu urvatlı eləsin!

Basarkeçər, Ağbaba, Dondar qağa birbəbir dilləndilər:

-Uğuru elin taleyinə gülsün!

-Halalı haram görməsin, uğuru xeyir olsun!

-Suyu bulanmasın, soyu yarısın!

Ulu Saral da ağır-ağır söylədi:

[73] Əcdər- əcdaha

- Tanrı xeyir-duvanızı qəbul eləsin! Ağlım kəsdirəni yurdun taleyi də xeyirlə şər qardaş təki şərik olublar. Hörmüzün işığıyla tən yarı Əhrimən qaranlığı var! Bu taledi! Səadət özü işığı yaşatmaqdadır. Ocağımız öləziməsin!

Bayandur baba Azərnura baxıb dedi:

-Elcan babamın ocaqdibi söhbətlərindən xeyirlə şərin əkiz doğulmasını uşaq çağımda eşitmişəm. İntəhası inana bilmirəm ki, eyni züryətdən olan qardaşlar dünya durduqca bir-birinə əbədi qənim kəsilsinlər. Şər niyə intiqam almaqdan yorulmur?

Azərnur ağsaqqalların sual dolu baxışlarının ona dikildiyini görüb dilləndi:

-Müqəddəs «Avesta»da bu fikri açıqlayan belə rəvayət var. Bir zamanlar ki, yer-göy yoxuymuş, bircə Tale tanrıçası Zurvan var imiş. O, öz-özlüyündə diləyir ki, oğlu Hörmüz yaransın, yeri-göyü, canlı aləmi yaradıb, hökmranlıq eləsin. Qurbanlar bahasına onun bətnində Hörmüzlə yanaşı Əhrimən də yetişir. Zurvan təbiətin ikicinsli olduğunu biləndə qəlbindən keçir ki, bətnindəki uşaqların hansı onun hüzuruna ilkin gələrsə, bütün hökmranlığı, bir də işıqlı dünyanı ona verəcək! Hörmüz hələ bətnindəykən Zurvanın qəlbindən keçən istəyi duyur, intəhası xoşniyyət olduğundan bunu qardaşına açıb söyləyir. Əhriman bunu eşitcək Zurvanın bətnin yarır və onun qarşısında diz çöküb hökmranığı istəyir. Tale tanrıçası Əhrimənin sifətinə baxan anda dəhşətə gəlir. Görür ki, onun sifətindən kin, zalımlıq, cəlladlıq tökülür. Zurvanı bərk ağrı tutur, bu zaman Hörmüz dünyaya gəlir. Hər yan al şəfəqlərə bürünür, aləm nurla dolur. Zurvan bədheybətli Əhrimənə deyir ki, sən yer üzünün həmişəlik hökmüdarı Hörmüzün himayəsində olacaqsan! Zira sənin yerin qaranlıq dünyadır.

Min illər keçəndən sonra Əhrimən[74] işıqlı dünyaya çıxır, dünyanın gözəlliyi onu dəhşətə gətirir, həsəd, paxıllıq girdabında boğulur. Qayıdıb qaranlıq dünyada insansifət divlər yaradır, onları insanlar arasına buraxır ki, əmin-amanlığı pozsunlar… O vaxtdan İnsanlar əsl Hörmüz övladlarını tanımadıqlarına görə bədniyyət insanlara urcah olurlar. Onlardan biri də Hörmüzün canlı insan övladı kimi ilk yaratdığı Qayamərdan[75] olur. Əhrimənin göndərdiyi əxlaqsız insansifətli div qadın onu aldadır. Günah işlətdiyinə görə ölməzlikdən çıxaraq ölümə məhkum edilən Qayamərdan Sasani hökmdarları zamanı yaranan rəvayətlərdə Kəyumərs adı ilə tanıdılmışdır.

-Ulu Zərdüştün Tanrıdan göndərilmiş ilahi vəhylə yazdığı müqəddəs kitabın hikmət bağçası zəngin, dəryalar qədər dərin, dağlar kimi əzəmətlidir! – Bayandur baba heyrətini gizlədə bilmədi.

-Makedoniyalı İsgəndərin ziyankarlığının böyük bəlası ondadır ki, ərzin bitkisindən tutmuş ulduzlar aləminəcən örtülü sirlərdən soraq verən bu cür nəhəng qalanı yerlə-yeksan eləyib, külünü göyə sovurub. Yaddaşlardan bizə gəlib çatanı bu kitabın yeddidən bir qalıqları ola-olmaya, – deyə Azərnur dərin köks ötürdü.

Urşan dədə çubuğunu yandırdı, elə bil içərisində qaynayan acını odla söndürürdü, bir udumluq tüstünün yarıbayarısını çölə üfürüb dedi:

- Suraxanı atəşgahında baş möbid azərbanlara[76] bir dəfə belə söhbət eləyirdi ki, İsgəndər yurdumuzu əsarət altına alanda cəsur sərkərdələrimiz ordugah qurub xalqı intiqama çağıraraq tez-tez istilaçılara ağır itkilər vururmuş. Hətta mü-

[74] Əhrimən- bir mənası da iylənmiş ruh deməkdir.
[75] Qayamərdan – Qayimart- “Avesta”da altıncı canlı.
[76] Od qoruyan, od keşikçisi

qəddəs yurdun dağı-daşı, suyu-quşu belə zalımlarla savaşa qalxıbmış. Deyir Şammat[77] gurodunda Fit dağı yadelli yağıların çoxunu çəkib aparırmış. Savaşsız-filansız qoşunun qırıldığını görən İsgəndər buranı nişan verəndə, «Ölməzlik yurdu» adıyla tanıyıb. Adamların qoçaqlığını görən İsgəndər çarəsiz qalıb dərdini yunan bilicilərinə anladır. Bilicilər buyururlar ki, bu yurdu möcüzəli, qüdrətli, adamlarını sədaqətli eyləyən onların müqəddəs kitabıdır. Əgər o kitabı məhv elәsən, inamlarını öldürmüş olarsan. Sonra onlardan, arxayın ola bilərsən, başları bir-birinə qarışacaq. Kimisi yeni inanc yaradacaq, kimisi köhnəsinin bərpasına səy edəcək! Sənlə mübarizə aparmaq iqtidarında olmayacaqlar.

- İndi dünyada tanınan irfan sahiblərinin, bilicilərin, təbiblərin zəka ocağı «Avesta»dan mayalanmışdır. Elə sənin dediyin həmin bilici Ərəstun[78] özü, Əflatun[79], Heraklit, Demokrit müqəddəs kitabımızın ilkin laylarından barındıqlarını özləri də bəyan etmişlər. Qədim Midiya mağlarının örnəkləri quzeydə, güneydə ad-san qazananların çoxunu öz beşiyinə alıb yırğalayıb, xeyirli-dualı laylalar çalmışdır. Zərdüşt nurundan işıq yığanlar arasında onun zəkasına həsəd də aparmışlar, qara da yaxmışlar… Bunlar coşğun bir dənizin tufanını yatırmaq üçün onu şallaqlamaq qədər gülünc görünürdü. Odur ki, rəvəyətə görə, İsgəndər yetmiş yeddi yunan alimi ilə yeddi Zərdüşt üləmasının məclisini qurur və Hörmüz qüdrətinə özü şahid olur.

Bayaqdan ədalət meydanının qeyrət ocağına yığışan ağsaqqalların söhbətərini dinləyən Ulutürk ruhuna hakim kəsilmiş nisgilli səslə dilləndi:

---

[77] Şammat -Şamaxının qədim adlarından biri

[78] Ərəstun – Aristotel (eradan əv. 384-322). Qədim yunan filosofu, makedoniyalı İsgəndərin müəllimi olmuşdur.

[79] Əflatun – Platon (er.əv. 428-384) antik yunan alimi.

- Bu söhbətlərə qulaq asdıqca içimi ağrı bürüyür, elə bil məmləkətimizin taleyi də öz müqəddəs kitabına oxşuyub. Yeddi yerə parçalandıqca böyüklüyünü, əzəmətini itirir, hökmdarlar bir-biri ilə yad dillərdə danışır, qızıldan da qiymətli sərvətlərindən yadlar barınır, İş o yerə çatıb ki, kiçik tayfa başçıları da hökmdarlar təki bir-biri ilə öcəşir. Böyük Xaqan da üstündə elə quruca ad gəzdirir.

- Hörmətli Ulutürk, deyilənlərə görə, sizin tayfanın təzə başçısı Yadırğa Teynur andiçmə mərasimində Malakanbazardan gətirdiyi müqəddəs kitaba and içib? – deyə Urşan dədə ondan xəbər aldı.

Ulu Saralın üzü saraldı, incik halda Ulutürkə baxıb dedi:

- Bu nədi, yoxsa kimin atının alnına harda günəş doğdu ora da onun məbədgahıdı? Düz deyiblər ki, pisi itirmək yaxşını tapmaq deyil hələ!

Ulutürk:

- Əbəs yerə özünüzü yormayın! Bu elə bizim müqəddəs «Avesta»nın özüdür. İntəhası ya firəngcədi, ya da malakanca! Bir də elə bizim kitablarımız da öz dilimizdə deyil, pəhləvicədi! Öz dilimizdəki yeganə kitabımızsa Muğan xaqanın ölümündən sonra Göytəpənin Mehr məbədindən yoxa çıxdı. Sağ olsun Azərnur, yaddaşımızı təzələyir, bizə «Avesta» hikmətlərindən yerli-yataqlı soraq verir.

Bayandur baba dedi:

- Məbədlərdə müqəddəs kitablara and içib, tac qoymaq mərasimi Sasani hökmdarlarından qalma əski adətdi. İndi yalnız günahkarlar müqəddəs kitablara əlbasdı edib and içirlər. Tayfa başçılarından, kiçik hökmdarlardan tutmuş Böyük Xaqana kimi hamısı öz məqsədləri xatirinə çox vaxt xalqı aldadırlar. Məsləki olmayanın bir yox, min kitaba belə and içməsi onun ədalət yiyəsi olacağına dəlalət etmir. Qaldı, Tey-

nur təki yadırğaları Malakanbazar bataqlığının havası yamanca zəhərləyib. Tayfa başçısı seçildiyi heç yeddicə gün deyil. Qalabazarın yanındakı cıdır meydanını bazarçaya döndərib. Bu gün cıdır meydanından mərdliyi, ərənliyi qaçaq salan sabah yurdun dar günündə başıpapağlılarımızı yağı önündə aciz qoyar!

Urşan dədə:

-Tayfa başçılarından Toğulcanın, Urufun söylədiyinə görə, məmləkəti bazarlar, bazarçalar başına götürüb,-dedi. - Sərvətə hərislik adamları zalımlaşdırıb. Qoluzorlular, qoçular zəmanə adamları olub, xalqın taleyini alqı-satqıya döndəriblər, istədiklərini qaldırır, istəmədiklərini endirirlər. Bundan ləzzət duyanlar qoçular icması yaradıb, kəramət sahiblərinə çevriliblər. Sərvətə qovuşmaqdan ötrü onlar zor işlətməkdən belə çəkinmirlər. İndi onlar Böyük Xaqanın, kiçik hökmdarların sarayalarında özlərini evlərindəki kimi aparırlar.

Ulu Saral dilləndi:

-Zərdüşt tövsiyyə etmişdir ki, torpaq üzərində hakimliyi qoy ədalətli hökmdarlar etsinlər. Torpaq onu sevənlərə sevgi bəslər! Sərvətin yaraşığı odur ki, paylandıqca artar, işləndikcə məmləkəti gözəlləşdirər. Onun qüdrətini yüksəldər, yox, əgər sərvəti təmtəraq, şan-şöhrət eşqinə yığıb xalq malını, xalqdan gizlədirlərsə, onda gec-tez həmin səltənət dağılacaq!

Azərnur Yurddaşın ağuşuna aldığı müqəddəs oda baxa-baxa dedi:

-Tanrı dağı Savalanda ulu peyğəmbərimiz Hörmüzə belə sorğu edir: - Ucalardan uca Hörmüz, yer üzərində ən savab işlər nədir? – Tanrı ona Soruşla[80] vəhy göndərir ki, ən sa-

[80] Soruş - «Avesta»da göydən xəbər gətirən, göyə sorğu ediləndə cavab verən mələkənin adı. Bəzi mənbələrdə Bəhmən kimi göstərilir. Səmavi ruhlardan biri olan Bəhmən Zərdüştün qarşısında nazil olur və onu Tanrının yanına qaldırır.

vab işlər, susuz yerə su çıxarmaq, ağac əkmək, körpü salmaq, zərəri həşaratları öldürməkdir. İnsanlara ən böyük sərvət Tanrı tərəfindən verilmişdir. Belə sərvət Ulu Zərdüşə qismət olmuşdu. Hərisliklə yığılmış sərvət dağ boyda olsa da, Tanrının göndərdiyi bəlalar onu bir göz qırpımında məhv edir… Qoy ulu Hörmüz özü məmləkətimizin dadına çatsın!

-Məmləkəti sərvətpəstlik xəstəliyindən Məzdək xislətli mətin övladları xilas edə bilər! Tale onu, görəsən, bir də xalqımıza qismət eləyəcəkmi?! – deyə Bayandur baba ayağa qalxdı.

-Məzdək zamanında xalqa zülm edənlər, adamların yağlı-yavan tikəsini boğazından çıxaranlar sasainlər idi. İndi isə öz qan qardaşlarımız Zöhhaka[81] dönüb xalqı yazıq günə salır, – deyən Basarkeçər də əl ağacını yerə vurub ayağa durdu.

-Qoy bu yurdun taleyinə həmişə günəş doğsun!

* * *

Ağsaqqallar əkinəcək yerlərə baş çəkməyə gedəndən sonra Azərnur da qalxıb ağır-ağır Məbədə sarı addımladı.

Bu elə qədəm qoyandan Bayandur babaya daha çox ürək qızdırmışdı. Onun «Məmləkəti sərvət xəstəliyindən Məzdək xislətli mətin oğulları xilas edə bilər!» söylərkən Azərnura əzgin-əzgin baxmağı bu dəruni ünsiyyətlə bağlıydı.

Hələ Türkayın sağlığında Muğanda ömür-gün keçirdiyi çağlarda çoxlu haqsızlıq, ədalətsizliklərlə üzləşməli olmuşdu. Muğan böyük olduğundan gəlmələrlə yerlilər arsında çəkişmələr gedirdi. Böyük tayfaların başçıları şəhriyarlıq iddiası edirdilər. Elin xeyri-şəri bilinmirdi. Onda Azərnur Türkayı da götürüb Əfşəran elinə gəldi. Amma burada da icmalar

[81] Zöhhak- mifə görə, qaniçən hökmüdar olmuşdur. “Avesta”da üçbaşlı Aci-dahak, od oğlu Atarın rəqibi (Sasanilər öz dillərinə çevirərkən “Avesta”nın qəhrəmanlarına öz adlarını vermişdir)

arasındakı narazılıqları, adamları sarsıdan hərc-mərcliyi görüb, gəldiyinə peşman oldu. Ona elə gəldi ki, məmləkətin böyük gurodları işığına şər və dələduzlar daha da çox yığılır. Haqq, ədalət oralardakı kaşanə saraylardan didərgin düşüb. Carçıların dəm vurduğu həqiqət nuru Azərnura görə, ancaq kiçik ellərdə – obalarda qalmışdı. Onda ürəyindən həmin el-obalardan birinə üz tutub ora getmək fikri keçmişdi. Əfşəranda tanıdığı bilicilər, azərbanlar, möbidlər ona bəlağətlə Xaqan və hökmdarların sərvətini qoruyan qoçu icmalarının özbaşınalıqlarından danışırdılar. İrfan sahiblərinin məmləkət xaqanının yanında kiçik bazarça əhli qədər də hörməti qalmamışdı. Bazarbaşılarsa onları ələ salıb gülürdülər. "Hansımızın sərvəti yaşatmağa qadirdir, sənin əxlaqi sərvət sandığın alqış nəğmələrin, müqəddəs dediyin kitabların, yoxsa mənim əntiqəfüruşluq edib yığıb-topladığım möhtəşəm sərvət?.." Sərvətə hərislik insanları yurdsuzlaşdırırdı. Məmləkətin kiçik el-obalarından köklü-köməcli tayfalar üz tutub Əfşərana gəlirdi. Onlar da yurd yerlərində qaynar bulaqlarını, şehli çəməngahlarını, əkinəcəklərini-biçənəcəklərini, bağ-bostanlarını Tanrının umuduna qoyub bura yığışırdılar. Çoxları qızılboz atlarını, qırmızı, ala-bula, sarı inəklərini, qara kəllərini, qaşqa öküzlərini dəyər-dəyməzinə satıb Əfşəranda özlərinə yurd yeri alırdılar… Öz nəfsinə yiyəlik edə bilməyən tamahkar torpaq sahibləri qədim oğuz yurdu Əfşəranda əfsanəvi Hunların minlərlə əzəmətli abidəsi ucalan məzarlığı satıb sərvətə çevirirdilər. Getdikcə seyrələn abidələrin üzərindəki yazılar, at və qılınc təsvirləri qədimdə bu yerin qanlı döyüş meydanı olduğundan, yurdun qəhrəman keçmişindən soraq verirdi. Daş sənduqələrin param-parça edildiyini görəndə Azərnurun gözləri doldu: "Bu daş sanduqələri niyə bu hala salıblar?" Qol-budağı budanmış, gövəsində xəncər yara-

ları olan Xan Çinarın kölgəsində oturmuş evsiz-eşiksiz qoca bir əfşar ona belə cavab verdi: "Ey cavan, saray qapısının müxənnət nökərləri özlərindən uydurublar ki, güya, hunlar bu sanduqələrə ölən döyüşçülərin cəsədləri ilə bərabər onlara aid olan qızıl əşyaları qoyublar. Odur ki, əli başa çatanlar sanduqələrin çoxunu qır-qızıl xatirinə sındırıb viran ediblər". Qoca dedi ki, qara cövhər çıxan dədə-baba torpağını əlindən alıb, evindən didərgin salıblar. "O qara cövhərə qızıl deyən sərvət düşgünləri buranın əzəli sakinlərinin çoxunu mənim kimi yurd-yuvasız qoydular. İtaət etməyənləri Əfşərandan sürgün etdilər. Bizə burada el arasında boz oğuz deyirlər. Mənim əcdadım Ulduz xanın oğlu Əfşar bu yurdun yağıları ilə Dədə Oğuz xaqanın ön cinahında döyüşüb. Şan-şöhrətlı keçmişmizin bu günümüzə nə faydası? Sən demə, lənətə gəlmiş qara cövhərin ucbatından bizim boz oğuz tayfalarından törəyən türk ellərinin qara günləri də varmlş..."

Azərnur sərgəndan qoca əfşara qulaq asa-asa ağır düşüncələrə dalmışdı. "Qara cövhər belə asanlıqla alınıb-satıla bilməz! Ulu Tanrının Odlar yurduna bəxş etdiyi bu çıraq bəs niyə qoca əfşar kimi əsil-nəcabətli insanların ömrünü işıq əvəzinə qaranlığa qərq edib?.." O gecə ruhunu didişdirən belə fikirlərin qoynunda yuxuya getdi. Yuxusunda zirehli geyimdə ağ at üstündə oturan, başına "Ciqqa-buta" qoymuş Muğan xaqanı gördü. O, əlindəki polad qılıncı Azərnura uzadıb dedi: "Ey Azərnur, cəngavər Əfşar soyundan olan o didərgin qocaya de ki, mən də sənin ulu babanam. Amma tale mənə qılınc, sənə qələm verib. Qoy sənin qələmlə yazdığın sözlərin mənim qılıncım kimi kəsərli olsun! Unutma, babam İlik Xaqan göytürk ellərini bir BAYRAQ altında birləşdirdi. Atam Qara İşıq Xaqandan qalan bu polad üzlü qılıncla dənizdən - dənizə böyük Göytürk xaqanlığına ağ işıq saldım. Varislərimiz qılınc

çalıb, Sasaniləri yurdumuzdan qovdu, quzeydə ağ hunları ağır məğlubiyyətə uğratdılar, Əral gölünü[82], İdili[83] ələ keçirdilər. Çindən Qırımacan[84] İpək yolunun keçdiyi bütün məmləkətlər biz göytürklərə xərac verirdi. Fəqət indi həmin məmləkətlər Əfşəran toprağında çıxan qara cövhərə göz tikib! Belə zamanda qılınc öz qınında paslanmasın gərək!

Bilirəm, sən qan tökməyi insanlığa yaraşdırmırsan. Amma yurdun ağır günündə qələmlə qılınc birləşib bir amala xidmət etməlidir! Təkcə bir amala: Vətəni qorumağa!

"Ey Azərnur Eloğlu, qələminin gücü, sözünün qüdrəti qoy yurdu qorumağa mənim kimi qılınc sərkədəsi yaratsın, məmləkətin cavahirxanalarda tığ vuran sərvətini insanlar arasında bərabər bölən Məzdək kimi qeyrətli oğullar yetişdirsin! Al bu qılıncı, məqamı catanda yurdun ən qeyrətli türk oğluna, qılınc cəhgavərinə ver!"

Yuxudan oyanan an tez kağız-qələm götürdü. Muğan xaqanın ona yuxuda verdiyi qılıncın şəklini çəkməyə başladı. Bahar günlərinin birində o dənizin ləpədöyənində - Qız Qalasının ətrafında gəzəndə çox məyus oldu. Azərnur indi onu da özünə dərd eləyirdi ki, böyük gurodun dartəhər yolağalarında bir-birinə ürcah olan ərgən qızlar, ərən oğlanlar əslini-soyunu öyrənmədən nikah bağlayırlar. Tayfalar uruqunu-turuğunu öyrənmədiyi tayfalarla qohumluq əlaqələri yaradır, bir-birlərində insanlığı, əxlaq dəyərləri sərvətdə arayıb-axtarırdılar. Güc də, ağıl da sərvətlə ölçülürdü. Sərvət iştahıyla çoxalan nikahların uğursuzluqları olsa da təzə doğulan körpələrin səsi dar həyət-bacalara sığışmırdı. İrili-xırdalı meydanlarda, bazarlarda, daş döşəkli yol-yolaqlarda hərdən-bir

[82] Əral – Aral gölü.
[83] İdil – Volqa çayı
[84] Qırım - Krım

öcəşib-savaşanlar, ölüb-öldürənlər, qarğanıb-qarğış edənlər Əfşəranın paklığını, rahatlığını pozur, dincliyini əlindən alırdılar. Çox zaman məmləkətdə hərc-mərclik, iğtişaşlar da sərvət üstündə baş verirdi. Belə özbaşınalığı görəndə Azərnur yay təki gərilirdi. Az vaxtda Suraxanı atəşgahında bir neçə dil bilən Zərdüşt üləmalarının yanında sanskrit, avesta, pəhləvi[85] dillərini mükəmməl öyrəndi. Xoşnəvisliyin[86] sirlərinə yiyələndi. Burada Azərnur Ənuşirəvan Adil[87] barədə yazılmış öyməcələrin, öyüdlərin üzünü köçürdüyü günlərdə Atəşgaha nəzir-niyaz gətirənlərin azərbanlarla, kahinlərlə soydaşlarının ağır keçən gün-güzəranı barədəki söhbətlərini çox eşitmişdi... Bir dəfə ağsaqqal, nurani bir kişidən eşitdi ki, «Dünya bir gördüyün, bir də görər, inanıram nə vaxtsa zəmanə yenə bu xalqın taleyinə Məzdək təki qeyrətli oğullar yazacaq! Onlar od rəngli libaslarını geyib, əllərinə od rəngli tuğlar götürəcəklər. Yox olsun sərvət, var olsun qeyrət! – deyə zənginlərin kif basmış anbarlarının, zər-zibalı saraylarının, cavahirxanalarının dabanını çıxaracaqlar! Onların xalqın qanı bahasına yığdığı sərvəti El yolunda, Vətən yolunda gərəkli edəcəklər!» Azərnur o söhbətdən sonra Məzdək haqqında öyməcələri düzüb-qoşub yazıya aldı. Azərnurun ən çox xoşuna gələn Manilik[88] təlimiydi. Lakin sərvətsevərlərin Muğan taxt-tacına əyləşdirdiyi əcəmi şəhriyarlardan[89] biri onu tutdurub qazamata saldırdı, «Məzdək» kitabının əlyazmasını isə yandırdılar. Yeddi aydan sonra sədaqətinə və xidmətlərinə görə Xaqan sarayında böyük qulluq almış həmin əcəmi

[85] Pəhləvi dili - Orta dövr (e.ə 250, 65-ci ilə kimi) fars dili
[86] Xoşnəvis – xəttat
[87] Ənuşirəvan Adil - İran padşahı Xosrov Ənuşirəvan (531-579)
[88] Manilik – radikal təlim.
[89] şəhriyar- şəhər başçısı.

şəhriyar Azərnuru qazamatdan çıxartdırıb Darül-əmana[90] göndərdi. Bir gün hüzuruna çağıtdirıb Xaqanın yanında aldığı yüksək qulluğa görə Azərnura minnətdarlıq eləyəndən sonra ona sarayda işləməyi təklif etmişdi: «Xeyirlə şər borcdur. Gözəl, xoşnəvis xəttatlığın var. Yaxşı-yaxşı düşün! Atəşgah sənin yerin deyil, elə səni mənə şeytanlıyanlar da oradakılardan oldu!" – deyə hiyləgər gözlərini Azərnura zilləmişdi. "Hə, əgər istəmirsənsə, özünə başqa yol seçə bilərsən. Elə yol ki, səni burdan çox uzaqlara aparsın". Azərnur ömründə ilk dəfə öz soyunu ona TURANlı kimi nişan verən insansifət divlə üzbəüz, göz-gözə dayanmışdı. Ona elə gəlmişdi ki, belə insanlar istəsə, göydəki ulduzların, yerdəki elobaların taleyi ilə əylənə bilər. İnsansifət divlərlə əlbəyaxa olan insan oğlu Tanrıdan diləyirdi ki, özü də divləşib insan cildinə girən divlərlə diz-dizə, üz-üzə gəlsin. Ancaq gücü və canı sərvətdə olan divlər Odlar yurdunda hələ çox «Məzdək»ləri parçalayıb, kin-küdurət alovunda yandıracaqdı... Məmləkətdə dərəbəylik, yaraqlı-yasaqlı qoçu icmaları yaradan və onları idarə edən belələrini Böyük Xaqan öz əzəmətli sarayının ən sədaqətli, etibarlı adamları hesab edirdi. Azərnurun fikrincə, onlarla yaxınlıq etmək, istəklərinə boyun əyərək amallarına xidmət etmək Tanrıdan, həqiqət yolundan uzaqlaşmaq idi. Yeddi gün düşünüb – daşındı.

Aylı-ulduzlu gecələrin birində Azərnur xəstələnib tabdan düşmüş ikicanlı Türkayı da özü ilə götürüb Əfşarandan çıxmışdı. Anasının yurdu sayılan Ana Göyçəyə sarı üz tutmuşdu...

Taleyinin qəsdinə erkən hicran yelləri əsdi. Günəştəpə atəşgahında Bayandur babaya tuş gələndə Türkay artıq dünyasını dəyişmişdi. El ağsaqqalının məsləhətiylə Xırmantəpə-

[90] Darül-əman – aman evi.

yə pənah gətirdi. İndi o gündən yeddi qış, yeddi bahar ötüb keçmişdi. Azərnur Muğanda keçirdiyi uşaqlığını, gəncliyini Türkaylı-Türkaysız günlərini xatırlaya-xatırlaya məbədə qədəm qoydu. Bahar bayramından öncə cücərdilmiş həyat və əbədiyyət çiçəyi adlandırdığı səmsəm-səmənilər soluxmuşdu, el adətinə görə, bayramdan sonra yeddi gün saxlanmalıydı, ona görə də dibçəkdəki güllərlə birgə səməniyə də su çilədi, divarlardakı şamdanların sönmüş şamlarını yandırdı. Sonra müqəddəs kitabların saxlandığı taxçadan «Zənd»i[91] götürüb, oxumaq üçün taxtında əyləşdi.

Qəfildən ədalət meydanında sinc çalındı. Tələş dolu səslər məbədin divarlarına çırpıla-çırpıla Xırmantəpənin başı üstündən ötüb keçdi. Ətəklərdə, acı düzündə, bağ-bostanda, əkinəcəklərdə adamlar sincin tələşlı döyüntülərini eşitcək meydana sarı üz tutdular. Azərnur dikəlib məbədin çıxışına yaxınlaşdı. Meydanda həyət-bacalarından axışıb gələnlər yorğan-döşək, sandıqçalar, qab-qacaq yüklənmiş kəl arabalarını dövrəyə almışdılar.

Azərnur azad ağacından olan əsasını götürüb meydana endi. Sifətində təzəcə çıxarılmış gözlərinin qanı qurumuş kor kişini iki cavan arabadan düşürdü. Əynindəki sırıqlısını elə bil acgöz canavarlar parçalamışdı, onunla gələn uşaqlı qadınlar göz yaşı içində hıçqıran ayağı yalın, başı açıq körpələrini kiridirdilər. Kişi kor da olsa elə bil həndəvərinə yığılanları, anaların ovundurmaq istədiyi körpələri görürdü.

- O günahsız cocuqlara bir içimlik su verin! – dedi. Boğazı qubarla dolu, səsi qırılıb köz kimi içinə töküldü. Su gətirənlər kor kişiyə də mis dolçadan su vermək istədilər. O dolçanın qulpundan tutub özü suyu qurtum- qurtum içdi. Dol-

[91] "Avesta"nın şərhinə həsr edilmiş kitab.

çadakı suyu axıracan içsə də içərisinə qor dənəcəyi kimi dağılmış atəşi söndürə bilmədi. – Bu, arx suyudu, sənəkdə qalsa da, bulaq suyundan seçilir- dedi. - Eh! Taleyin işinə bax, irmaq suyuna qayıl olmayan canımız, indi gölməçə suyuna da möhtac qalıb! Su üçün yan aldıq elinizə, hələ uzun yol gedəsiyik, içməyə, bir qurtum da suyumuz qalmayıb. Dərdimiz böyükdür. Dədə-babası köçəbə ömür-gün sürən AZNAVURLU Hay tayfaları Ələyəz[92] ətəyindəki dam-daxmalarımızı, binələrimizi, Şörəyel vadisindəki obalarımızı çapıb-taladı, cavan-comrullarımızı qılıncdan keçirdi, ilaxır çərşənbəmizi qara elədi. Bayram süfrələrimizi tapdaq altına saldılar. Əllərimi göyə qaldırıb Tanrıdan mədət diləyəndə gözlərimi çıxardılar. Nuh əyyamından yurd salmış Şörəyel tayfalarını, təpədələkləri, qızılqoçluları əsir-yesir elədilər, yaraq-yasaqlarını alıb, özlərini qəhələ saldılar. Əl-ayağımız yalın qaldı, sürülərimizi qənimət apardılar. Dədə-babalarımıza sasanilər heç belə zülm eləməmişdi, yağıların əlindən camaat qısır dağlara, daşlara, qayalara sığındı. Yaz da olsa oraların qarı hələ əriməyib. Ona görə əlimizə keçənimizi yığıb-yığışdırıb, üzümüzü hara gəldi ora tutduq...

Kor kişi nəfəsini dərdi. Azərnur, Bayandur baba, ağsaqqallar, cavan-comrullar didərgin uşaqlara – qadınlara ürək ağrısıyla baxdılar. Birçəkləri ağarmış, yaralı qolları boynundan sallanmış bir ana:

Mən aşıq yağı gəlməz,
Dolanar dağı gəlməz.
Bir bala itirmişəm,
Səsi-sorağı gəlməz.

[92] Ələyəz – Ağrı dağına el arasında deyilən adlardan biridir.

Hüznlü səsi meydandakıları kövrəltdi. İntizar qarı, Ağca nənə, Bağdagül nənə də övlad həsrətini bayatı dilinə çevirərək qadının dərdinə şərik oldular. Vaysına-vaysına gah taleyin dönüklüyünü, gah fələyin zülmünü, gah da yurdun ağrısını göz yaşlarıyla suladılar. Xırmantəpə elinin uşağı-böyüyü quzeydəki Ağrı dağına sarı boylandılar. Uzaqda görünən dağın dərdli zirvəsinə əcdaha buludlar yığışmışdı. Sürünə-sürünə karvan kimi uzanan duman dağın hüsnünü bürüdükcə bağrına çat düşürdü, elə bil dağılmış yurdun ərşə dirənən fəryadını eşidən tanrı əcdaha buludları sehrli çubuqla döyəcləyirdi, suçlu bulud topası çat-çat olub, əriyirdi. Bayandur babanın işarəsiylə doğma yurdlarından didərgin düşənlərə yavanlıq gətirildi, əyni-başı yalın uşaqlara geyinəcək verildi, boş bardaqları suyla dolduruldu. Azərnur kor kişiyə dedi:

-Əzəldən dünyanın taleyi xeyir-şər üstündə köklənib. İnsanların, yurdların taleyi də belədir. Dərdiniz ağırdır. Qalın burda! El-oba yığışıb adamlarınıza yurd-yuva salar...

Bayandur baba dedi:

- Şahdağdakı, Günəştəpədəki[93] Ərgünəşdəki qalalara çapar göndərib oraların hökmdarlarını bu işdəkdən agah edərik.

Kor kişi başını yellədib israrla bildirdi:

- Yolumuz eniş-yoxuş da olsa, həyat ağacı bitirən Narratel[94] tərəfə gedəcəyik, Nuhçıxan elinin Bozağıl gediklərindən yurdumuzun ətrini alsam, onda rahat ölləm!..

Ağsaqqallar bir-birinin üzünə baxdı, Basarkeçər dedi:

- Yol qorxuludu. Zəngəzur yoxuşlarında Eşşəkmeydan deyilən yer var, ətrafı qaçaq-quldurla doludu.

- Od-ocağını itirmək ölümdən də betərdi... Bir də ki,

[93] Günəştəpə - Qarabağda ən qədim yer adı.

[94] Narratel – Narraşen. Narra – "Avesta"da həyat ağacı, sulu yerdə bitən gül. Narrat –ağac, el – vətən, yurd.

dünyanın işığı mənim üçün əbədi sönüb, axşam-səhər elə bil zülmət mağaradayam, – deyə kor kişi onun sözünü kəsdi.

- İndi ki belədi onda biz sizi Eşşəkmeydandan ötürməyə yaraqlı-yasaqlı igidlərimizdən qoşarıq, – deyə Bayandur baba tayfa başçısı Urufa baxdı. Uruf razılıqla başını tərpətdi.

- Yolunuz yovuq olsun!.. Oralara çatan təki adamlarınızdan birini Əlincə qalasına göndərin, qoy oradakı hökmdar da müsibətinizdən soraq tutsun! – deyən ulu Saralın səsi titrədi. Elə bil sözlərindən bir batmanlıq daş asılmışdı.

Adamlar onları El yoluna çıxanacan ötürdülər. Hər tayfadan bir igid yaraqlanıb-yasaqlanıb didərginlərə qoşuldu. Qadınlar gedənlərin arxasınca su atdılar.

Taleyinə ilk dəfə köç yükü daşımaq düşmüş öküzlər, kəllər Xırmantəpənin acı düzündə, əkinəcəklərində cütlərəxışlara qoşulmuş qara kəllərə, qaşqa öküzlərə boylana-boylana El yoluyla güneyə sarı getdilər.

...Qürub Günəşi pərişan-pərişan solub-saralırdı. Göyün boşluğuna çəhrayı-sarı saçaqlardan səssiz nalələr yayılırdı. Göy qübbəsində Günəşin yerini Şir bürcünün ulduzları tutduqca işığı udan qaranlıqlar yarpaq-yarpaq göyərməyə başladı. Savalanın daldasına çəkilən Günəş elə bil odlu köksünə ruzigarın vurduğu yaralara məlhəm qoymaq üçün gözdən itdi.

Şər vaxtı yaxınlaşırdı, aylı-ulduzlu gecə dünyanın dağılmış yurdlarının sızıltısını sürməli gözlərindən süzülən süd rəngli nuruna boyayıb ovundururdu.

Amma Tomarın neyi neçə gün idi ki, ovunmaq bilmirdi. Nə özü ovunurdu, nə də qəm üstündə köklədiyi neyi. Çobanqayasının daldasına çəkilib eli-obanı, naxırçılığını unutmuşdu. Yəhərini yasdıq eləmişdi, aylı gecəni yorğan təki çəkmişdi üstünə, neyin ucundan göz yaşı təki su damcılayırdı. Handan-hana Tomar özünə də, neyə də toxdaqlıq verdi.

Dikəlib oturdu, öz-özünə pıçıldadı: - Hazılı hay hazılı, yanım Qara tazılı, çıxdım dünya üzünə, gördüm qəbrim qazılı. Açmasını ürəyində yeddi cür yorub-yozdu. Sonra içindən qopan yanıqlı bir ahla ayağa qalxıb Xırmantəpəyə boylandı. Neçə gün idi ki, çöl-bayırı gəzib-dolaşırdı. Elindən, həyət-bacasından xəbəri yox idi. Elə bil Sevanla Qaraca qonaq göy əskiyə bürünmüşdülər. Atını yəhərlədi, amma minmədi, yedəyindən tutub, tozlu-torpaqlı cığırla Xırmantəpəyə döndü. Cığır zəmiliyin ayağından ötüb keçirdi. Sünbülləşmiş zəmi mehin təmasından Ana Göyçə təki yırğalanırdı.

Birdən gözlərinə zəminin ortasında, sünbüllərin arasında qığılcımlar sataşdı. Bu nəydi? Aylı gecənin qoynunda orada parıldaşan nə ola bilər? Tomar atın yedəyini buraxıb, zəmi xəndəyini keçdi, əyilə-əyilə işartıya sarı yeridi. Qulaqlarına inilti səsi gəldi, başını qaldırıb baxdı. Yayı, oxdanı atın yanında qoymuşdu, əlini qurşağındakı kəmərə uzadıb ehmallıca xəncərini qından çıxartdı. İşartı gələn yerdən yenə inilti eşidildi. Başı zər qaytanlı bir adam zəminin ortasında at «çapırdı», amma elə bil atı çuluna qədər yerə batmışdı, nə illah eləyirdisə yerindən tərpənmirdi. Tomar həyəcanını içində boğub «atlıya» yaxınlaşdı. «Atlının» saçları çiyinlərinə tökülmüşdü, iniltisindən-ufultusundan qadına bənzəyirdi. Atının belinə sanki qor tökülmüşdü. Qadın atılıb-düşdükcə içərisini bürüyən atəşdən həzz alır, bədənini ağrıdıb-acıdan təməsdan xoşnud olurdu. İniltisi gücləndikcə altındakı at da tövşüyürdü. Qəfildən inilti səsi kəsildi, ay işığında libası parıldaşan atlı «yəhərdən» enib, sünbüllərin arasında yorğun atın boynuna sarıldı və gözdən itdi. Tomar dikəlib ayaqlarının ucunda işartının görünməz olduğu yerə yaxınlaşdı. Ora-bura boylandı, duruxub lay divar kimi dayandı. Sünbüllərin dibindən qopan pıçıltılar qulaqlarına daş kimi çırpıldı: - Oxxay! Bu

oyunun ləzzətindən doymaq olmur.

-Sən buna oyun deyirsən, bəs uşağın olsa necə?

Tomar gözü odlu, başı lovlu div kimi bağırıb, irəli cumdu.

-Sevan! – Qız ayağa qalxdı, şəltəsini əlinə götürüb, zəmiliyin içiylə qaçıb gözdən itdi. Tomar onu bir də çağırdı, hay gəlmədi, elə bil gördüyü qız heç Sevan deyildi. Damarlarında qanı fışıltıyla axdıqca, ürəyi zoqquldayırdı. Birdən vəhşi nərə çəkib Qaraca qonağın qaraltısının üstünə atıldı. Neçə gün əvvəl ədalət meydanında hamının gözü qabağında çiyinlərinə qaldırdığı ağır-əşfa bədəni sanki o vaxtdan başının üstündə gəzdirirmiş, indi daş kimi yerə vurub, qalib kimi qıllı sinəsinə çökmüşdü.

* * *

Sübhün gözü açılanda Oxçuoğlu Tomar Qaraca qonağı əli-qolu bağlı ədalət meydanına gətirdi. Şumlamanı başa vurmuş el gün çırtlamazdan oyanıb meydanda mərasim keçirirdi. Ağaclardan SU və Bərəkət ilahəsi Anahitin şərəfinə kəsilmiş qurbanlıq qoyunların şaqqaları asılmışdı. Hamı Tomarı və onun qabağına qatıb Qeyrət ocağına sarı apardığı qonağı görcək səs-küylərinə ara verdilər. Təkcə manqallarda bişirilən qoyun kabablarının cızıltısı eşidilir, tüstüsü meydanı bürüyürdü. Kabab işinə baxanların hamısı zorba-zorba kişilər idi. Tanrı elə bil onları belə-belə işlər üçün yaratmışdı, piy basmış boyunlarının topu dönmürdü, dünya-aləm veclərinə deyildi, kətan xalatlarının cibi o qədər dərin və iri idi ki, zarafatla sataşdıqları adamlara «səni ciblərimə salıb gəzdirərəm ha!» deyirdilər. Tomara baxıb kabab çəkə-çəkə bir-birlərinə göz-qaş elədilər. Onlardan biri yavaşca dedi:

-Deerəm, bu Tomarın başı mayıf olub a!

-Əyə, bu od haqqı, mayıf döyül, Sevana yox ey, Udvanın sərvətinə aşıq olub! – deyə o biri manqala yelpik verdi.

Oxçuoğlu onların nə dediyini unamasa da, dönüb yekəpər boy-buxunlarına tərs-tərs baxdı. Sonra gəlib ağsaqqalların qarşısında təzim edərək Qaraca qonağı göstərdi.

-Öncə bu müxənnət özünə Xoşqədəm deyib süfrəmizin başında oturdu, naz-nemətimizi daddı, sonra qonaqdı deyə güzəşt edib, arxasını yerə vurmadım. İndi də qudurub başımıza çıxdı, halalımıza haram qatdı, bərəkətimizi murdarladı, şərəfimizi ləkələdi, elimizi ucuz tutdu. Namusumuza sataşdı.

-Nə? – Yeddi tayfanın yeddi başçısı dik qalxdı ayağa. -Kimdi, hansı tayfadandı o qız?- soruşdu.

-Niyə dinmirsən?

Tomarın elə bil ürəyinin giri qalmamışdı, bir də Sevanın adını dilinə gətirməyə cürət eləmirdi, amma çönüb Qaraca qonağa acıqlı-acıqlı baxdı, qonaq onun zəhmli baxışlarına tab gətirə bilməyib başını aşağı saldı, əyilib ağsaqqalların qarşısında diz çökdü. Günahı qırımından bəlli idi.

-Hər kimdisə, bəlkə, əhd-peyman bağlayıblar? – deyə Bayandur baba tayfa başçılarını sakitləşdirmək istədi.

-Qoy onda adını söyləsin, bilək kimdi? – Urufun qayım səsi meydanın daşlarına çırpılıb əks-səda verdi.

-Bu adamın uruğunu-turuğunu tanımırıq, qoy söyləsin haralıdı, adı nədi?

-Bizim elə niyə gəlib?

-Bəlkə, qorxusundan lal olub? Odda qızdırılmış qırmancla döyün, onda dili açılar! – deyə Uruf qızışdı.

-Bu bədayağ namərdin əli kimi dili də uzundur. Xoşqədəm olsaydı, elimizə uğursuzluq gətirməzdi. Elə bil oxlov udub. Güya, öz şəstini sındırıb danışmaq istəmir! – deyə Tomar hikkəsindən yeyin addımlarla meydandan çıxıb getdi.

Qaraca qonaq susub gah tayfa başçılarına, gah ağsaqqallara, gah da tut ağacına dırmaşıb ona tamaşa eləyən uşaqlara

baxırdı. Qorxusundan elə bil nitqi qurumuşdu. Ürəyində düşünürdü: «O suyuşirin qız məni yolumdan çıxartdı, tora saldı, dadlı öpüşlərinə aldanıb, anamın ruhunu incitdim. Ulu Tanrı, məni əhv et, əgər bunlar məni öldürsələr, onda anamın qisasını bəs kim alacaq?!» Tayfa başçılarının qəzəbindən qorxub özünə yad olan səslə yalvarmağa başladı: – Mənə ən ağır işgəncə verin, amma öldürməyin!

-Xeyirxah söz olan yerdə ağır işgəncə nəyə gərəkdir?! – dedi Azərnur. Ayağa qalxdı. Gəlib Qaraca qonağı da ayağa durğuzdu.

-Murdarlıq eləyənə güzəşt ikiqat günahdı! – deyə Basarkeçər gileyləndi.

-Peyin də murdardı, iyindən nəfəs boğulur, amma o da gözəl və ətirli gül-çiçək bitirməyə qadirdi.

Bayandur baba Azərnura yaxınlaşdı.

-Əzəl-binadan oğuz ellərinin qonaqpərvərliyi başına bəla olub! –dedi. - Nə etmək olar? Xeyirxahlıq, qonaqpərvərlik alın yazımızdır, eləysə qoy onu aparıb daxma-qazamata salsınlar. Bura nə üçün gəldiyini danışar. Biz də o qızın kim olduğunu öyrənək. Sonra sən özün nə buyursan, o da olacaq!

Cavanlar hövsələlərini birtəhər boğub, qonağı məbədin yaxınlığındakı qazamat adlandırılan köhnə daxmaya saldılar, qapısına da qaraqulaq it bağladılar. «Bu yaz qəribə yazdı. Sirlərinin açılmamış düyünü puçurlanmayan meyvə ağacları təkidir...» Azərnur qonağın salındığı daxmaya baxa-baxa düşünürdü.

* * *

Sevan Qaraca qonağın boyu uzunluğunda yaprışmış dənli sünbülləri sığallayardı. Zəminin ortasında əzilib-üzülən alagöy sünbüllər qızın tumarıyla dirçəlmək istəyirdilər. Şehli saçaqları Günəşə gülümsünürdü. Gecəyarı buradakı

olayın şahidi olmuş əzgin sünbüllərin duruşundan pərişanlıq yağırdı.

Qız əzilib payımal olan sünbüllərə elə bil əfsun oxuyurdu. Pıçıltılarla əzizliyib-oxşayırdı, günahını yuyurmuş kimi onları dikəltmək istəyirdi.

Zəmiliyin ayağından qəfil ney səsi eşidildi. Sevan ömründə neyin belə yanıqlı səsini eşitməmişdi, naləsindən zəmiyə elə bil od ələnirdi, sünbüllər saralıb-qovrulurdu. Sanki sehirli bir əl zəminin yaşıl donunu soyundurub, sarı don geyindirirdi. Neyin yanıqlı səsindəki sehr Sevanı özünə çəkdi, sarıxallı kəpənək təki səsə sarı uçdu, keçdiyi yerlərin sünbülləri də torpağa yaprıqmışdı.

Tomar zəmi xəndəyinin döşündəki iri daşın üstündə oturmuşdu. Gözlərini yumub neyi püləyirdi, yanaqlarından axan göz yaşları saqqalından damcılayırdı. Sevan onu görcək duruxub dayandı.

-To...ma..r..! – Neyin yanğısı Sevanın içinə düşmüşdü, nəfəsi Tomarın boyun-boğazını yaxdı.

Tomar çalğını dayandırdı. Gözlərini ağır-ağır açdı. Sevanı başının üstündə görüb dikəldi. Qız ona baxıb işvəkarlıqla qımışdı, naz-qəmzəylə gülümsəməyi elə bil Tomarın kinini əridib puça çıxarırdı. Üz-üzə, nəfəs-nəfəsə dayanıb bir-birlərini süzdülər. Tomar qızın başı üsdən zəmiyə baxırdı, qızsa Tomarın çiyni üsdən Ağrı dağına sarı boylanırdı. Sevan Tomarın əlini ovucları arasına aldı, sığallayıb öpəndən sonra dedi:

-Bəs niyə söyləmədin o qız kimdi?

-Mən sənin lə ömür-gün ortağı olub, bir yaxadan baş çıxarmaq istəyirəm, Sevan!

-Elə bil hələ də yuxulusan, Tomar!

-Hə, deyirəm, bəlkəm, gecə gördüklərimin hamısı yuxuydu.

-Tomar, mən də o qədər yuxular görürəm ki! Hərdən elə

bilirəm, yuxumda gördüklərim aşkarda olub. Şirin də olsa, aldadıçıdı yuxular... Tomar!..

-Bəs bərəkətin murdarlanması? Bu ki, həqiqət idi.

-Belə danışma, Tomar, mən qorxuram! – deyə Sevan Tomarın islanmış saqqalını əllərilə quruladı. – Adam yuxusunda bəzən əcaib şeylər də görür.

Tomar elə bil ovsunlanmışdı. Sevanın əllərini tutanda ney əlindən sürüşüb daşa dəydi. Elə bil daş yarıldı.

-Bu Turqut babanın yadigarıdır, yəqin, ruhu məndən inciyib-küsdü...

-Belə demə Tomar, axı sən cavansan, deyəllər başına hava gəlib! Sus! Gəl bura!.. Gəl! – Kəlmələrini elə bil şəhvət odunda bişirirdi, Tomarın qollarından tutub daşdan iki-üç addım aralı seyrək çəmənliyə sarı çəkdi. Qollarını onun boynuna doladı, dodaqlarını dodaqlarına sıxdı. Ətli döşlərinin istisi Tomarın canına yayıldı: - Sus, Tomar! Canım mənim. O qərib qonaqla gördüyün qızın adını dilinə də gətirmə! Gətirmə! – deyə pıçıltıyla söylədiyi kəlmələri Tomarın qulaqlarına doldurdu: - Əgər məni öldürsələr, onda sənin ilk sevgin də öləcək, Tomar!..

Tomar ona sarılmışdı, elə bil körpə uşaq kimi gözüyumlu anasının sinəsinə qısılıb, döşlərini əmmək üçün axtarırdı.

-Əgər deyərəmsə, onda dilim yansın, oxuma sancılım!

-Odun yandırdı məni, igidim, qoymaram səni öz sevginə tamarzı qalasan!..

-Sevan!..

-Tomar!..

Küsülü adamlar kimi oturmuşdular. Tomarın gözlərində heyrəti çiçəkləmişdi, Sevan köynəyinin yaxasını düymələyirdi, qaş-qabağı yer süpürürdü. Tomara baxmadan dilləndi:

-Görməmişin biri, görməmiş, əşva təki daraşırsan adama,

da bilmirsən ki, inək döyül, camış döyül, qadın quş kimi şeydi, tumar görəndə pərvazlanmaq istəyir. Sənsə...

-Sevan, canım-gözüm, köç mənim yuvama, atmışam naxırçılığın daşını, istəsən gedib Qalabazarında alqı-satqıyla əlləşərəm.

Tomar çönüb kobud nəvazişindən incimiş Sevanın könlünü almaq istədi, başını əyib qızın dizlərinə qoydu.

-Ərə getmək kənizlikdi, mən azad quş təki olmaq istəyirəm, Oxçuoğlu, qorxuram səndən, oxluyarsan məni! – deyə Sevan güldü: - Eh, Tomar, Tomar, bir yuvaya bənd olmuşam, amma buz kimi soyuqdu... Heç özüm də bilmirəm, niyə o yuva məni özünə çəkir.

-Sevan, sən nə danışdığını bilirsən? Yaxşı qadının bir yuvası olar! -Tomar dikəlib acıqla ona baxdı.

-Bu eldə -obada hər şey köhnəlik qalığıdır, adam istədiyi təki yaşayıb, istədiyi təki də ölməlidi.

Tomar mısmırığını salladı:

-Sən Qaraca qonağı istəyirsən?

-Yox!

-Bayramda çələngi bə niyə ona verdin?

-Onun qanı mənə şirin gəldi, bir də bizim elin igidlərinə oxşamır. Ona görə..

-Sevan, axı biz deyikliyik.

-Deyikli? Deyikliyə bax! Ha, ha, ha!.. Deyikli yox ey, sən görməmişsən, görməmiş! – deyə Sevan ayağa durub Tomardan aralandı. - Oxçuoğlu, oxun məndən yan keçdi, ha, ha, ha!..

-Sevan, dayan, hara gedirsən?!

- Ay xan çoban, xaqan çoban, sən bəzənmisən, düzənmisən bu gündəsən, bəzənməsən, düzənməsən nə gündəsən? Ürəyim bulandı, səndən qoyun-quzu, mal-qara iyi gəlir. Ha, ha, ha!.. Görməmiş! – Cığırla yüyürüb Xırmantəpəyə sarı üz tutdu.

Tomar onun arxasınca baxa-baxa mat-məəttəl qalmışdı: - Eh, Sevan, Sevan,- dedi,- fələyin min bir oyununu bilən də, sənin sirrindən baş açа biməz!"

* * *

Amma Sevanın ağuşunda vüsala qovuşub, xoşnud olmağı Tomara ayrılıqdan da betər dərd oldu. O gündən sonra düz yeddi gün, yeddi gecə özünə gələ bilmədi, havalı-havalı atını gah çölləməyə, gah Ana Göyçəyə səyirtdi, göydə gözünə dəyən sevgi quşlarını nişan alıb oxladı, el-obanın mal-qarası başlı-başına qaldı. İndi el arasında ona naxırçı yox, dəli Tomar deyirdilər. Gecələr hamarlıqda yatırdı, gözlərini yumcaq, arayatı yuxularına kövşənniyin ortasında ağatlı adam girirdi. Atlının özü bir süyümündən elə Tomara oxşayırdı, di gəl ki, libası elə bil zirehli polad tordan toxunmuşdu, oxunu kamana qoyub, düz Tomarın sinəsini nişan alıb atanda Oxçuoğlu qışqırıb yuxudan ayılırdı.

O yeddi günün yuxularına dünyanın yeddi cürə boyası hopmuşdu. Sevan çəməngahın qoynunda çiçəkdən-çiçəyə uçub qonan kəpənəklər, qızlarquşu görürdü. Yuxusunda duyurdu ki, hər çiçəyin, hər gülün öz ətri var, içinə gül-çiçəyin qoxusu yayıldıqca özü də dönüb quş olurdu. Uçmaq istəyəndə Oxçuoğlu Tomar sinəsindən oxlayırdı onu. O da yaralı-yaralı dərin dəryaya düşəndə qaraqışqırıqla yuxusundan ayılırdı.

Divarın o üzündə atası Udvan yatağında qurcunurdu. Sayıqlaya-sayıqlaya hərdən boğuq səslə: «Boğmuyun məni!» - deyirdi. - Yalvarıram, istəmirəm sizi, mənə gərək deyilsiz. - Düz yeddi gün idi ki, Udvan ağçalada nə qədər yulğun ağacı var, hamısının diblərini qazırdı, amma nişanladığı ağacın yerini itirdiyindən qızıl bardağını tapa bilmirdi. Yorulub əldən düşmüş-

dü. İndi yuxuda görürdü ki, qazdığı çalalardan zəqqum su çıxır, göydən də başına qızıl yağışı yağır, əriyib suya dönən qızıllar boğazına çıxırdı, məcrasına sığmayan sel Udvanı qucağına alıb aparırdı, daşlara-qayalara çırpılan sel sanki höybətli səslə pıçıldayırdı: «Biz ömrün boyu yığdığın qızılların, ləl-cəvahirlərin, əntiq daş-qaşlarınıq! Qızmar Günəşin hənirtisindən əriyib selə dönmüşük, sən bizi pis işlərə israf eləyirdin, ailələr dağıdırdın, qız-gəlinləri gözüyaşlı qoyurdun, indi artıq biz sənin ucbatından öz dəyər- qiymətimizi itirmişik. Odur ki, səndən öc alırıq! Sən ölümə məhkum edilmiş insansifət divsən!» Udvan qorxa-qorxa: «Mən sizi Böyük Xaqana verib, ondan şəhriyarlıq alacaqdım, boğmayın məni, öldürməyin, yazığam, heç nə istəmirəm... Sizi də istəmirəm!» Sel pəncəsiylə onu daşlara çırpanda hövlnak yuxudan ayılırdı.

O yeddi günün arayatı yuxularında Qaraca qonaq əli-qolu bağlı daxma qazamatın ot-ələfli döşəməsində uzanıb dayaz Xatın arxında boğulan adama əl verməkdən vaz keçirdi. «Axı mən sənin atanam, əkəninən, a bala!» - ağlaya-ağlaya ondan imdad istəyən adama: «Yox, anam məni elə səndən qisas almaq üçün bu dünyaya gətirib, qafil»- deyə inad edirdi.

Qaraca qonaq atasından üz döndərib, dal-dalı həslənəndə ayaqları sürüşdü, özü də dərin uçuruma yuvarlandı. Başı qazamatın divarına çırpılanda yuxusundan ayıldı.

Meydandasa o yeddi günün yuxularını danışanda Bayandur baba deyirdi: - Ömrümdə yuxu görməmişəm, ya da ki yadımda saxlamamışam, intəhası, o gecəki yuxum yadımdan çıxmır. Gördüm ki, bu daşların hamısı yerindən tərpənib, o şir heykəlləri də uçub-dağılıb, bu Baş daş dediyimiz YURDDAŞI tən ortasından çatdıyıb.

-Başım yastığa gələn kimi oğlumu görürəm yarıyuxuda. Görrəm ki, çıxıb zindanın bacasından içəri boylanır. Bir şülə-

mə gün işığında sümük yığnağından başqa içəridə heç nə görünmürdü, - deyə Ağca nənə tut ağacının altında bir top yun didələyirdi, - elə bil qazamat döyül, məzar eviydi, - qarının qəzəblə didələdiyi sanki qoyun yunu deyildi, zindan sahiblərinin yaxasıydı, arada qayım-qayım çubuqla da döyəcləyirdi.

Taxtında oturub mürgüləmiş Azərnur yuxusunda ilk dəfə Türkayı qara libasda görürdü. Yuxunun qaranlığında əriyib yoxa çıxdıqca: «Nurum, tək-tənha yaşama, evlən, evlən!» - deyirdi. Sonra Türkayı udub ağuşuna almış zülmət qaranlıqdan qorxunc qəhqəhələr gəldi: «Ha, ha, ha! Axır ki, biz Əhrimən nökərləri bu eldə də insanların ürəyinə yol tapa bildik. Udvanı kim məsləksizləşdirdi, Oxçuoğlu Tomarı dəli eləyib hamara salan kim oldu? Hələ Qaraca qonaq! İnsanlar arasında şəhvətpərəst nökərlərimiz nikahsız məhəbbətdən eybəcərlər nəsli törədəcək! Etibarlı, namuslu, qeyrətli insanları gözdən salacaqlar. Sizin ellər-obalar "Hay gəldi, vay gəldi" deyib fəryad edəcək! Qardaş bacısının, bacı qardaşının ehtirasının qurbanı olacaq, insansifət divlər döşündən süd əmdiyi qadına da tamah salacaq! Ha! Ha! Biclik toxumu səpmişik hər yana. Göyərəndə onlar da Əhrimənə qulluq göstərəcək! Biz onları dünyanın sərvəti, neməti, kefiylə qail edib, işıqlı dünyanı onlara ərməğan edəcəyik. Biclər, dələduzlar Hörmüz övladlarından uzun ömür sürəcək, zəngin yaşayacaq! Aclıq, susuzluq, yoxsulluq, pozğuntu, qanlı savaşlar, sərvət gücünə dağıdılmış yurdlar biclər tərəfindən törədiləcək! Odu sevənlər, işığa pərəstiş eləyənlər NİFAQ odunda, öz doğma dədə-baba OCAĞında yanacaqlar. Bu el-oba əsl cəhənnəmə dönəcəkdir. Ha! Ha! Boş yerə oxuyub adamların beynini doldurduğun «Cənnət sevinci və cəhənnəm əzabı» kitabındakı fikirllər kəlləmayallaq olacaqdır. «İlkin yaranış»ın, «Zərdüştnamə»nin, «Zəndi»nin... «Avesta»nın hamısının tör-töküntülərini bicdən törəyənlər yandırıb, külünü göyə sovuracaq!»

* * *

Həmin səhərlərin birində Oxçuoğlu Tomar el-obaya qayıtdı. Ömründə ilk dəfə öz iti ona hürəndə doğma həyat-bacası Tomarın başına fırlandı. Oxçuoğlu dizi üstə yerə endi, itinə baxa-baxa ağladı. İt hürməyinə peşman olubmuş kimi, sahibinin əl-ayağını yalayır, quyruğunu bulayırdı. Tomar itin xaltasını boynundan açdı, başını sığalladı. «Get,-dedi,- mən sənin yiyən deyiləm daha, yalama məni, ruhumu kir basıb...» Qovalasa da, it ondan əl çəkmədi. Şöngüyüb yiyəsinin dalınca boylandı. Tomar qalxıb atı binənin qulabanına hörüklədi, kamanını, oxunu götürüb, busağanın ağzında çömbəldi, başını ağac dirəyə söykəyib xeyli əyləşdi, gözlərini yumdu və elə bil yuxusuna gələn ağatlı cəngavərlə savaşa çıxmaq üçün mürgülədi.

* * *

Azərnur zəfəran rəngli atlas xalatını geyindi, əsasını götürüb, məbədin yaxınlığındakı daxma qazamata yollandı. Addımlarından yorğunluğu duyulurdu, yuxular ruhunu əzginləşdirmişdi. İçini bürümüş qorxu rahatlığını əlindən almışdı. İndi həmişəkindən də çox düşünürdü. Qorxu onu dərindən düşünməyə öyrədirdi. Ona görə də qorxunu özündən qova bilmirdi.

Daxma qazamatın qarşısında bağlanmış it el atasını tanıyıb quyruq buladı, içəridə Qaraca qonaq qollarının bağlı olmasına məhəl qoymadan dik ayağa qalxdı. Azərnur soruşdu:

-Hansı məkandansan, bu eldə nə işin var, söylə?!

-Elim yoxdu, yaşamağa yerim yoxdu, necə deyim haralıyam? – dedi. - Qaraca qonaq el atasına yalvarıcı nəzərlərlə boylandı:

-Gəlişimin məqsədini söyləsəm, məni burdan buraxmazlar!

-Susmağın xeyri nədir ki?

-Mən yeddi ildir ki, bir adamdan öc almaq üçün onu axtarıram. O mənim anamı təhqir eləyib, alçaldıb, ölümünə bais olub!

-Ulu peyğəmbərimiz buyurub ki, yaxşı insan gərək qəlbindən xeyir niyyət keçirə, dilinə xeyir fikir gətirə, əməli də xeyir ola! Bu üç böyük amalı unudanların aqibəti pis olur. Ey, cavan, qoy Tanrı özü sənin axtardığın günahkarın cəzasını versin!

-Tanrı heç bir günahkarın cəzasını vaxtında vermir, odur ki, günah yiyələri indi məmləkəti başına götürüb.

-Öc alıb, insan oğlunu öldürmək, təzə bir günah olmurmu? Əgər insanlar bilsələr ki, ən böyük günahı, yüngül cəza almaqla yuyacaq, onda hamı günah işlətməzmi? İlahi cəza birinin ruhunda, başqasının yaddaşında qalır! Bəzən ən ağır günahkarı öz günahı ilə təkbətək buraxmaq həmin günah yiyəsini ömrü boyu iztiraba düçar eləmək kimidi. Günahkarı ölümə məhkum eləmək hələ insanı bəladan qurtarmaq sayılmır.

-Yox, müqəddəs adam, bu, ağlın sığındığı keçici aldanışdı. Bu cürə yalnız ətrafımızdakı insanlar pak və müqəddəs olanda düşünmək olar! İndi hər yanda adamların nəfsi çirkaba bulaşıb, talelərilə barışmırlar, sərvət xatirinə şərə boyun əyirlər, haqqı qılınclayırlar! Belələrinin cəzası göz qabağında olmalıdır, yaddaşda yox! Ancaq göz qabağında günahkara verilən cəza bəlaların qabağını alar!

-İnsan anadan olanda günahkar doğulmur, amma günah işlədəndə insanlığını itirmiş olur. İnsanlığını itirmişlərin insansifət divlərlə üz-üzə, diz-dizə gəlib onların bəd əməllərinə qarşı təkbaşına çarpışmağı fərəh doğurmaz!

-Buraxın məni, o adamdan öc alıb, yenə qayıdaram bura. Öz günahımı qanımla yuyaramam!

-Bu el sənin nikahsız ünsiyyətdə olduğun qızın adını bil-

mək istəyir. Əgər günahkar odursa, onda…

-Mən onun adını bilmirəm! Elə bil aramızda olub-keçəni yuxuda görmüşəm!

-Yuxuda?! – deyə Azərnur pıçıldadı. Öz yuxusunu yadına saldı. İnsansifət oğlan və qız divlər gözünün qabağına gəldi. «Biz nikahsız məhəbbətimizlə insanları gözdən salırıq, bax, görürsən, bu oğlan mənim həm qardaşım, həm də ərimdi. Biz Əhrimən nökərləriyik! Düşmənlərinizin sayını artıran, dininizə zərbə vuran bizik. Keçmişdə olduğu təki. Onda tarixin atasını biz aldatdıq» Azərnur əli-qolu bağlı qonağı heyrətlə süzdü: - Cavan, sənin bu eldə doğmaların necə, var, bəlkə, özün də bilmirsən? Ananızı həqir eləmiş o günahkarın adını heç olmasa söylə?

-Bilmirəm, anam ona kiçik tanrım deyərmiş, amma günlərin bir günü anamın hamilə olduğunu bilib onun toxuduğu nə varsa yığışdırıb ilim-ilim itir. El içində həqir olduğunu görən anam Muğandan Uruma köçür, orada biz Hörmüzlə Əhrimən kimi əkiz doğulmuşuq! Anam qardaşımın adını Xilas, mənim adımı Qisas qoyub! Biz doğulandan taleyimizə köçəbəlik düşdü. Gah burda, gah orda yaşasaq da, yurdumuz olmadı. Anam dünyasını Gilanda dəyişdi. Vəsiyyəti bu oldu ki, qardaşımla Muğana dönək! Sonra mən böyüyüb, bizi elimizdən didərgin salmış o günahkardan qisas almağa yollandım. Anam axır nəfəsində söyləmişdi ki, damarlarımızda axan qana görə mən o adamı görən kimi tanıyacam!

-Muğan! Mənim də uşaqlıq çağlarım orada ötüşüb. Sən dedin qardaşının adı Xilasdır?! Xilas! – deyə el atası Udvanın vaxtilə qoca tutuquşusunu yada saldı. Sonra köks ötürüb dilləndi: - Tanrı eşqinə, qəlbini xoş niyyətlə doldur! Bitkilərə zəhər qatan, oda tüstü, insanların qismətinə hicran, qəm-qüssə, savaş, köçəbəlik, həyata vədəsiz ölüm bəxş eləyən bəd əməlli Əhrimən‌di!

Qazamatın daxmasından çıxandan sonra qəfildən el atasını cansıxıcı bürkü bürüdü. İstidən başı gicəlləndi, gözləri alacalandı. Amma ürəyindən el-obanın əkinəcək yerlərinə getmək keçdi. "Qanı-qanımdan, canı canımdan olan insan övladları döyülmü bu istilərdə bağ-bostan becərən?" Məbəd meydanından ötüb-keçəndən Yurddaşın sinəsində alovlanan müqəddəs oda baxdı. «Ey müqəddəs od! Yalana sığınıb, həqiqətə arxa çöndərənləri tanıt bu ulusa! Bütün bəlaların kökü yalandan başlayır. İşığınla gözə görünən və görünməyən dünyamızı pak elə! Qoy insanlar həmişə həqiqəti özlərinə dost tutsunlar!»

Alaq-ələfdən təmizlənmiş bostanlarda ucuna qurudulmuş heyvan kəlllələri taxılmış payalar görsənirdi. Uyuq[95] deyilən payaların coxuna adamlar köhnə-külə qiyafələrini geyindirmişdi. Cındırı cin hürküdən bu uyuqlar gecə-gündüz bağ-bostanın keşiyində dayanmışdılar. Bayandur baba, Ulutürk və başqa ağsaqqallar Azərnurun belə istidə bostanlığı gəzməsindən narahat olduqlarını bildirdilər.

-Qoy mənim əllərim bərəkət yaradan qabarlı əllərə toxunsun! – deyə cavan el atası başına yığışan bostançıları mehriban dindirdi, onların qabarlı əllərini ovuclarına aldı, üzünü hamıya tutub söylədi: - Ulu peyğəmbərimiz buyurub ki, «müqəddəs o şəxsdir ki, bir əli ilə əkdiyini, o biri əli ilə biçir». Torpağı əkib-becərən şad-xürrəm olar! Bərəkətin bolluğu divləri hirsləndirər. Divlərə nökərçilik edən ancaq köçəbə tayfalar olar, özləri əkməz, başqalarının da əkdiyinə göz dikər. Elin xoşbaxtlığı torpaqdan asılıdı. Əkin əkən, bağ-bostan becərən əlləriniz yorulmasın! Alın təri tökdüyünüz bu torpağın bərəkəti tükənməz olsun!

[95] uyuq –bostan müqəvvası

Əlləri suluq bağlamış Udvan bir yanda durub acıqlı nəzərlərlə el atasını süzürdü. İndiyə kimi cilov tutmuş, başçı ağacı gəzdirmiş qızıl-gümüş pulları yerbəyer eyləmiş əllərinə suluqlar acıq verirdi, ürəyini göynədirdi.

Bayramdan sonra yır-yığış eləyib getmək istəyirdi. Amma gizlətdiyi qızılları tapa bilmirdi, ona görə də el gözünə işləyir, fürsət düşəndə gedib ağçalanı gəzib-dolanırdı.

Azərnurun gözlərinə baxdıqca Ulvan xoflanırdı. Ona elə gəlirdi ki, el atasının gözlərindən bu eldə heç nə yayına bilmir. Bəlkə, qızılları o axtatdırıb, tapdırmışdı?

«Əgər qızılı tapmasam, onda mən nə üçün yaşayıram? Qızılsız-sərvətsiz mən kiməm? Kim məni eşidər, sözümü aşırar, istəyimi göyərdər? Qızıl!.. Sərvət!.. Böyük Xaqana sərvət gərəkdir, axı əliboş onun mübarək hüzuruna necə gedim mən?» Gözlərinin önünə xaqanın bər-bəzəkli sarayını gətirdi. Xaqan qızıl piyalədən mey içib, gözəl qızlarla əylənirdi. Udvan düşündü: «Bizim Sevan da xaqanın əyləndiyi nəsara qızlarından heç də geri qalmır! Xaqanın sərvəti çoxdu, ona eyş-işrət gərəkdi!».

* * *

Şər vaxtı Udvan evinə dönürdü. Qaraca qonağın adını eşidib, üzünü görməsə də ağır düşüncələrə dalmışdı: «Görəsən, el atası niyə mənə elə baxırdı. Azərnur Bayandur babaya söylədi ki, qonaq anasını həqir eləmiş adamı gəzir! Sonra dedi ki, əgər o adam bizim eldə yaşayırsa, qonağın yolunu bura Tanrı özü salıb!» Udvan gözlərinin qarşısına kef çəkdiyi, aldatdığı, zorladığı qadınları gətirdi. İstədi Azərnuru ucadan söysün. Dönüb yan-yörəsinə baxdı. Arxın qırağındakı söyüd ağaclarına külək tumar çəkirdi. «Yox, bu eldə canlı-cansız hər nə varsa el atasına xidmət göstərir!» Beləcə bir də gördü

ki, öz pələdinə çatıb. «Tfu, sənin təxtinə!» -söyləyib acığını soyutmaq istədi. Sarmaşıqlara bürülü daş hasarlar uzanıb yuxarıda məbədin daş divarlarına can atırdı. Daş çəpərlərin də qulağı vardı. Ona elə gəldi ki, daş çəpərlər qulaqlarını şəkləyib Udvanı dinləyirlər. Udvan atlanıb yenə kövşənliyə üz tutdu. Bir də axşamdan xeyli keçmiş qayıdıb gəldi. Qızıl bardağını tapmadığına görə cilov gəmirirdi. Başı lovlu Sevanı soruşdu.

-Elin ağzını yummaq olmaz, ay Udvan! Deyir, yaz bayramında sənin qızın qonağın boynuna yasəmən çələngi taxıb. Guya elə onun sataşdığı el qızı da Sevanın özüdü ki, var! Bir də deyirlər ki, o gələn qonaq öz atasını axtarır.

Udvan arvadına elə baxdı ki, elə bil gözlərindən od püskürəcəkdi. Mağmun geri həsləndi: - Son vaxtlar qız da eveşikdə heç tapılmır.

-Hanı Sevan? – Udvanın bərəlmiş gözləri arvadına dikildi.

* * *

Sevan iti hiyləylə aldatdı, xaltasından tutub dama saldı, qabağını sür-sümüklə doldurdu. İt ləzzətlə sür-sümüyü şaqqıldatdı. Qız arxayınca yana gəlib qazamatın qapısını açdı. Məşəlin işığında qərq olmuş daxmada ölü bir sükut uyumuşdu.

-Qaraca, hardasan? – deyə oğlanı səslədi. Qaraca qonaq daxmanın qaranlıq bir küncünə qısılıb oturmuşdu. Qız məşəli ortadakı dirəyə bərkitdi, sonra gəlib qonağın əl-qolunu açdı. – Gəl, sənə boranılı süddaş gətirmişəm, hələ ki soyumayıb, gəl ye!

Qaraca qonaq qapıya boylandı, ürəyindən qaçıb getmək fikri keçdi. Amma süddaşa baxıb udqundu, aclığı qaçmaq fikrinə üstün gəldi. Naxışlı taxta qaşığı götürüb, çölməyi qa-

bağına çəkdi, Sevana baxmadan soruşdu:

-Mənim atım, görən, harda olar?

Sevanın baxışları ciddiləşdi.

-Getmək istəyirsən?- Titrək səslə soruşdu. - Sənə yaman quşum qonub, öyrəşmişəm sənə, məni də apar özünlə, yalvarıram Qaraca!

Oğlan qaşığı təzəcə ağzına aparmışdı ki, daxmanın tavanından bir siçan sürüşüb, çölməyin içinə düşdü. Çölmək dərin olduğundan siçan süddaşın içində çobalayıb çıxa bilmədi. İsti süddaşa bulaşdıqca çölməyin dibinə sarı enirdi. Qaraca qonaqla Sevan bir-birinə baxdılar. Qız bir vaxt məbədə gətirdiyi siçanları xatırladı. Qəfil gülmək tutdu onu. Acığından ya şadlığından güldüyünü bilməsə də, qonaq da qıza qoşulub kəsik-kəsik güldü. Sonra ayağa qalxdı:

- Tanrının bizə qəzəbi tutub, hər şey bitdi. – Oğlan özüözüylə danışan adamlartək pıçıldadı.

-Gəl qaçaq burdan, Qaraca! – Sevan onun əllərindən tutdu.

-Mənim arvad-uşağım var! Bir də ki mən axtardığım adamı tapmayınca ulusuma dönməyəcəyəm. Sənə uyub yubandım burda. Anamın ruhu indi mənə lənət yağdırır!

-Özüm də bilmirəm, niyə mənə qanın şirin gəlir, tanımaza-bilməzə taleyini düşünürəm! – Gözləri yaşla dolmuş Sevanın əlləri yarpaq kimi əsdi.

-Sənin kimi qadınların ehtirası külək təki cilovsuzdu. İstədiyi səmtə çapar. Mən bədbəxt də sənin toruna düşdüm!

-Bəlkə, sənin axtardığın adam çoxdan dünyasını dəyişib!

-Pis adamlar çox yaşayır, onlardan qisas almayınca zavala gəlmirlər! – Qaraca oğlan dişlərini qıcadı, gözlərində məşəlin əksi parıldadı. - Get burdan, qız, milçək kimi vızıldayavızıldaya çənəmə yapışma, daha səni görmək istəmirəm!

Sevan elə bil atasının qəzəbli baxışlarıyla üzləşmişdi. Nit-

qi tutuldu, dala çəkildi, başını yellədi. «Aman tanrım, atamın gözlərinə necə də oxşayır bu qəzəb dolu baxışlar» Sevan ürəyindəkiləri dilinə gətirmək istədi, ancaq heyi qalmamışdı dillənməyə, susub udqundu.

-Sevan! – səs bayırdan eşidildi. Qız məşəli götürüb söndürdü: - Atamdı, igid çıx get! – deyə qaranlıqda gözdən itdi. Daxmanı Udvanın əlində tutduğu məşəl işıqlandırdı. O qonağın əl-qolunu açıq görüb duruxdu, çölməyin içində hələ də çabalayan siçanı görcək qışqırdı:

- Hanı mənim qızım, harada gizlədibsən onu? – deyə Udvan daxmanın qaranlıq künclərini işıqlandırdı. Sonra Qaraca oğlanla üz-üzə dayanıb xeyli ona baxdı. Oğlanın baxışından canına qorxu düşdü. Bir addım geri çəkildi:

-Xilas! – deyə pıçıldadı. Qaraca oğlan diksindi.

-Yoxsa sənin atalıq hissin oyanıb, vicdanın indi dilə gəlib! Amma gecdi, vaxtilə hiylə yolu ilə əkdiyin, yalanlarla suladığın ağac indi acı meyvə yetişdirib, onu özün dadmalısan!

-Sən günah işlətmisən, o, sənin öz bacın...

-Bütün günahların kökü səndədir, mənim günahım sənin kökündən pöhrələyib.

Oğlan məşəli Udvanın əlindən aldı. Qəzəblə səsini qaldırdı:

-Atasız həqarətlərə düçar etdiklərini, günaha batdığın günləri bu od sənə xatırladacaq! Yeddi ildir səni axtaran cəza bu gün əməllərinə son qoyacaq!

-Öz atana necə qıyıb öldürəcəksən, Xilas?

-Yox! Mən Xilas deyiləm, Qisasam. Xilasın əkiz tayıyam! Səni öldürmək günahlarına görə ərməğan olar! Keç bura görüm, divdən törəmişin biri.

Qaraca oğlan Udvanın əl-qolunu daxmanın ortasındakı dirəyə bağladı.

-Sənin kimi əxlaqı düşüklərin ürəyi ölənəcən göynəməlidi, qoy məsləksizlər sənə baxıb ibrət götürsün!

Məşəllə Udvanın bədəninə yeddi yerdən dağ basdı.

* * *

Tomar qışqırtı səsinə diksindi. Səs yuxarıda məbədin yaxınlığından eşidilirdi. İt səsinə ara vermədən hürürdü. Tomar yaraqlı-yasaqlı atlandı, səsin arxasınca çapdı. Xırmantəpənin ətəyində səsə oyananlar pələtlərinin ağzına yataq geyinəcəyində çıxmışdılar.

Meydanın daş sinəsində at nalının cingiltisini eşidən kimi Qaraca qonaq daxma qazamatdan çıxıb, daş hasarı aşdı. Tomar atının başını geri döndərib meydanın alaqapısından çıxdı. Qaçan qaraltı zəmiyə tərəf üz tutmuşdu. Tomar qışqırdı:

- Dayan!!! – Səs elə bil qaranlıqda şölələnən məşələ çırpıldı. Qaraltı əlindəki məşəllə zəmi xəndəyində sancılıb qaldı. Tomarla Qaraca qonaq məşəl işığında üz-üzə, göz-gözə dayanmışdılar.

-Mən gərək bu elə gəldiyin gün səni şikəst eləyəydim. Onda şərəfsizlik eləyib aradan çıxmazdın! Səsi elə bil Tomarı böyütmüşdü. Qaranlıqda sanki böyük bir qaya Qaraca qonağın - Qisasın üstünə yeriyirdi. O, dala çəkildikcə arxada sarımtıl sünbüllər işıqlanırdı. Xəndəkdən o üzə tullandı. Tomara hədə biçdi.

-Bədbəxt, cavan ömrünü puç eləyirsən... Çəkil get!- Qışqırdı.

-İndi mən sənin puçunu buraram, işlədiyin günahı ölümünlə yuyarsan. Tomar kamanı çiyninə aşırıb, xəncərini çıxardı. Zəminin içində xeyli vuruşdular. Xəncərlə Qisasın tutduğu məşəl bir-birlərinə dəyib ətrafa qığılcım tökürdü... Birdən Tomarın zərbəsindən məşəl Qisasın əlindən çıxdı, göydə

uçub, zəminin ortasına düşdü. Alov dilimləri qaranlıq səmanın köksünü yaladıqca Tomar karıxıb dayandı: «Bu zəmiyə od Sevanın qızılı libasından düşmüşdü, o vaxtdan bəri bərəkəti murdarlanmış zəmi elə bil yanmağa bəhanə gəzirmiş». Alovun hövründən gözləri hədəqəsindən çıxmış at şahə qalxıb kişnəyirdi. Xırmantəpədən zəmiyə sarı qaçıb gələn adamları görən kimi gözləri Qaraca qonağı – Qisası axtardı. Uzaqda cığırın ortası ilə qaçan qaraltını nişan alıb ox atdı. Qulaqlarına inilti səsi çırpıldı. Atını minib, ölümlə əlləşən səsə sarı çapdı.

* * *

Taxtın başındakı divardan xalça asılmışdı. Gül-çiçək butalı çəməngahda ağ atlı bir ovçu gözəl bir ceyranı kəməndinə salmışdı. Ceyran iri, qara gözləri ilə qanrılıb ovçuya baxırdı, elə bil məhzun baxışlarıyla ondan aman diləyirdi. Taxtın üstündəki yam-yaşıl məxmər mütəkkəyə sarışın saçları səpələnmiş qadının sinəsində uyuyan Azərnur yarıyuxulu, qarmaqarışıq səslər eşidirdi. Gözlərini açmadan fəhmlə başa düşürdü ki, səs meydandan gəlir. «Adam öldürüblər!» Meydandan qopub gələn səslər Azərnurun qulağına çırpıldı, o, gözlərini açıb hərəkətsiz uzanmışdı. Elə bil harada olduğunu xatırlaya bilmirdi. Gözlərini yumub təzədən açdı, başını iri, ətli qadın döşləri arasında gördü. «Bu nədi, yoxsa yuxu görürəm» - düşünsə də, gördüklərini ağlına sığışdıra bilmədiyi həqiqət, sinəsində uyuduğunun canlı-başlı qadın olduğunu anladı. Çılpaq qadının çöhrəsində sevinc hissi gül kimi pardaxlanmışdı. Azərnur boynuna dolanmış qadın qollarının arasından çıxdı, durub xalatını geyindi. Qadın da əsnəyib yuxudan ayıldı, ona baxıb qalibanə gülümsədi. Saçlarını çıl-

paq sinəsinə tökərək mütəkkəyə dirsəkləndi.

Azərnur bədənində qəribə xoşnudluq duyurdu. Türkayın ölümündən bəri heykəl kimi gəzdirdiyi qaməti birdən-birə yumşalmışdı. Qadın tərinin qoxusu çəkilməmiş yataq otağında indi özünü Türkaylı günlərindəki təki cavan və qıvraq görürdü. İyirmi il Türkaysız yaşadığı günlər elə bil bir gecənin sehirli əlləriylə əriyib yoxa çıxmışdı. Bu zaman Türkayın əksi yataq otağının qarşıdakı divarına düşdü, Saçı çiyinlərinə tökülmüşdü, yanaqlarına göz yaşları süzülürdü, qanı qaçmış dodaqları səyriyə-səyriyə pıçıldayırdı: - Sən təkcə mənim yatağımı murdarlamadın! Sən öz KEÇMİŞindən qopub ayrıldın! Məsləkinə arxa çevirdin! Sən!.. Sən!..

-Yox! Bu ola bilməz, Türkay! – deyə Azərnur əllərini uzadıb elə bil divardakı əksin göz yaşlarını silmək istədi. Əks ləngər vurdu, köpük kimi əriyib buxara çevrildi, kölgə kimi yoxa çıxdı.

-Türkay, getmə dayan!

Arxadan səs gəldi:

-Mən burdayam, canım mənim!

Azərnur heyrət içərisində döndü. Yuxulu adamlarsayağı taxtda oturmuş çılpaq qadına yaxınlaşdı. Qadının boynundan asılmış qızıl boyunbağı tərli döşlərini çarmıxa çəkmişdi elə bil. Qollarını açıb Azərnuru ağuşuna basmaq istəyilə dizləri üstə qalxdı. Amma el atasının baxışlarından qorxdu. Tələsik libasını geyindi, səssiz-səmirsiz Azərnurun qarşısında dayandı:

-Sevgini məndən əsirgəsən də, nifrətini əsirgəyə bilməzsən! – deyib qapıya sarı addımladı. El atası taxtın qarşısında dizini yerə qoyub, başını döşəyə söykəmişdi. Əllərilə yorğanı sığallaya-sığallaya sakitcə ağlayırdı.

_____Üçüncü fəsil_____

«...Çirkli bir irmağı içinə alanda kirlənməmək üçün insan gərək dəniz olsun»
«Zərdüşt belə söyləmiş» kitabından.

İLĞIM

Axır ki, günəş qırmızı şəfəqləriylə yer üzərindən gecənin zülmət pərdəsini söküb dağıtdı. Xırmantəpə qaranlığın şər izlərini görmək üçün gözlərini açdı.

Azərnurun yadına düşdü ki, obaşdan qulağına dolan qarmaqarışıq səsə görə oyanmışdı. Kimsə deyirdi ki, adam öldürüblər. Onda niyə duran kimi aşağı – meydana sarı boylanmamışdı?

İndi yəqin, ədalət meydanında hamı onun yolunu gözləyir. Bir az da gec getsə, arxasınca ağsaqqallardan biri gələcəkdi. O isə çirkli bədəniylə yas mərasiminə gedə bilməzdi. Napak olduğuna görə dini dualarını necə oxuyacaqdı?

Sübh çağı çəndən götürüb bədənini yuduğu su ilıq olsa da onu üşütdü. Yuyuna-yuyuna pıçıldayırdı: - Ulu Tanrı, bu necə gecəydi ömrümə bəxş elədin? İndi mənə inanan insanların üzünə necə baxacam? Qoy bu su mənim ruhuma paklıq gətirsin, günaha batmış varlığım təmizlənsin!

Başından çanaqla tökdüyü su dabanından çıxırdı. Çiyinlərindən yeddi çanaq su tökdü. Onda elə inam yarandı ki, içi də çölü təki yuyulub təmizlənir, indi yas mərasiminə çıxa bilərdi, uzun kaftanını əyninə geydi. Su ağzının tamını, burnuna hopmuş qoxunu yuyub təmizləmişdi, amma məbəddən çıxanda yanıq iyi vurdu onu... Meydana çatanda gördü camaat Qaraca qonağın meyidinin başına yığışıb.

Hamı kimi Bayandur babanın da şübhəsi yox idi ki, onun kürəyinə sancılmış oxu Dəli Tomar atmışdı. Amma el atası meydana çatandan sonra bir-birinin ardınca baş verən vaqeələr o qədər gözlənilməz oldu ki, oxu atıb yayı gizlətmiş Tomarın özü də günahkar olduğuna inana bilmirdi.

Öncə Udvan əzgin addımlarla meyidə yaxınlaşdı, başına qoyduğu papaq alnının yanığını gizlədə bilməmişdi. Hamı Udvanın həyəcan dolu gözlərindən çox əllərinin, alnının yanıqlarına baxırdı. Elə bil dumanlı duyğular içərisində bircə el atası o yanıqların sirrindən xəbərdar idi. Udvan meyidin yanında dizi üstə çökdü, oxu dartıb çıxardı, sonra yarpaq təki titrəyən barmaqlarını uzadıb, ölünün açıq gözlərini basdı və özünə uyuşmayan yad bir səslə «oğul» deyə pıçıldadı.

«Ata!»... Qulaqbatırıcı qışqırtı səsi camaatı diksindirdi. Hamı dönüb səs gələn tərəfə baxdı. Sevanın vahimələnmiş gözləri yaşla dolmuşdu. Atasına yaxınlaşıb nifrətlə baxdı, elə bil gördüyünə inana bilmirdi, başını yellədi: - Yox! Yox!... – deyə fəryad qopardı. Udvan qızının baxışlarından qorxub geri çəkildi.

-Onu sən öldürdün, sən! – Sevan atasının dağ basılmış sir-sifətinə baxa-baxa elə bil heykələ dönmüşdü.

-Yalandı, yox, inanmayın, onu mən öldürməmişəm! Mən öldürməmişəm. O, mənim oğlumdu, onu öldürüblər!

Sevanın ağlına yerləşdirə bilmədiyi qorxunc bir fikir getgedə gözlərində böyüyürdü. Əllərini meyidin soyuq, solubsaralmış üzünə toxundurdu: - Atam oğlu, qardaş! Meyiddən səs gəlmədi. Atasını çağırdı: - Ata! – Udvandan da səs gəlmədi. Dodaqlarından qırıq-qırıq sözlər eşidilirdi: - Qaraca taleyim, xeyirim-şərim, fərəhim, qəmim, oxlanmış nə..rim hey!!!

Ulus camaatı arasında pıçha-pıç düşdü. Vaysınan vaysındı, qocalar uf, cavanlar ah elədi, bircə dul qalmış gəlinlər Sevana acıqlı nəzərlərlə baxdılar, ürəklərində onu da, Tanrını

da qınadılar. Əl-ayağı hisə bulaşmış bir dəstə adamla birlikdə tayfa başçıcı Uruf meydana daxil oldu. O, Bayandur babaya yaxınlaşıb dedi:

-Yeddi bölük zəminin yarısı yanıb külə döndü. Qalanını birtəhər söndürdük!

Kimsə dedi: - Qıtlıq olacaq!

Meydandakı adamlar yeddi yerdən ağız-ağıza verdi:

-Süfrəmizdə düşmən oturub, bərəkətimiz göyə çəkilib!

-Kosaralarımızda[96] ikicə bişirimlik dən ola-olmaya!

-Çörək olmasa, nə bəlalar desən bizə urcah olacaq!

-Çörək ətriydi şəri eldən qaçaq salan!

-Aclıq olsa, haqq söz göyərməyəcək!

-Qarın hayına qalan, elin vayına qalar!

-Ulu Tanrı bizi aclıqla, susuzluqla sınağa çəkməsin!

Bayandur baba hamını sakitləşdirdi.

-Nə gəraney kimi səsinizə dəm veribsiniz? Başsız qalmayıbsınız ki? Əllaflardan taxıl almaq üçün adamlar yollayırıq... Boyat eli, Muğan eli, Aran eli, Şərur eli... yoxsa ellərimiz-obalarımız qəhətə çıxıb? Ya məmləkətin bazarları tarmar olub?

Urşan dədə dilləndi:

-Göndərməyinə göndərərik. Yaxın-uzaq yerlərə çox adam getsə bir şey hasil olar!.. Bəlkə, bu quraqlıq məmləkəti bürüyüb! Çoxu əldən çıxıbsa, azının qədrini-qiymətini bilmək yaxşıdı.

-Günəştəpəyə, Şahdağa göndərdiyimiz çaparların söyləməsinə görə, məmləkətin bazarlarında taxıl çox bahalaşıb. – Ulu Saral Bayandur babaya baxdı.

-Hə, dünya böyüyüb, yolları uzandıqca uzanıb. Ələyəzli didərginləri ötürən igidlərimiz hələ də gəlib çıxmayıb!

Bayandur baba meydana yığışmış cavanlara Qisasın meyi-

[96] Kosara – iri həsirdən dairəvi şəkildə düzəldilmiş taxıl saxlanılan yer.

dini Qoç türbəsinə götürməyi işarə elədi. El atası göz yaşları içərisində Qisasın meyidinin yanınca addımlayan Sevana nəzər saldı: «Dünən gecə yarıdan keçmiş onun göz yaşları mənim ayaqlarımı isladırdı, öz atasından qorxub məbədi sığınacaq bilmişdi. İçin-için ağlayaraq deyirdi ki, ulu Tanrı eşqinə qəlbimin dediklərini dinlə, məni rədd eləmə, məni günaha batıran sənin soyuqluğun olub!» Sevanın gecəki görkəmi Azərnurun gözləri qarşısında canlandı. Göz yaşları onu yazıq və gözəl göstərirdi, sarı kəşmiri ipək donunu soyuna-soyuna pıçıldayırdı ki, bax, sənsən, bu istəyincə quculmayan beli, bu ağcamaya bədəni, bu ətli dodaqlarımda çiçək kimi puçurlamış öpüşləri özgənin ixtiyarına verən, sən! Dadlı öpüşlərimi dərmədin, istəyini boğdun, özünü qadın ağuşundan məhrum elədin! Ona görə Tanrı sənin xeyirxahlığına ərməğan təki sevgisi qəlbində dəfn olunmuş bir qızın bədbəxtliyini göndərdi? Mənəm o bədbəxt! Qarşında dayanmışam... İtirdiyim bakirəliyimi qaytar mənə!» Azərnur çılpaq qadın qarşısında duruş gətirə bilmədi, qızdan aralanıb, müqəddəs oda yaxınlaşdı.

Meyidi Qoç türbəsindəki Sükut qülləsinə aparanlar kimi, meydandakı adamlar da el atasının sakit-sakit dönüb məbədə sarı addımlamasına mat-məəttəl qalmışdılar. O elə bil yuxu içərisində yeriyirdi, arxasında sürünən kölgəsi get-gedə əriyib kiçilirdi, ağsaqqallar onun xəstələndiyini zənn elədilər... Azərnur dəfn mərasimində dini duaların icrasını Bayandur babaya arxayın olub, sanki, öz dünyasından əbədi ayrılırdı, ağlına gətirə bilmirdi ki, üç gündən sonra yenə ədalət meydanına çıxacaq.

* * *

O üç günü Qoç türbəsinin yüksəkliyində cəsədlərin saxlandığı Sükut qülləsində Sevan Qisasın meyidinin keşiyini çəkdi, onun ruhuna bədxah ruhlar sahib durmasın deyə gecəli-gündüzlü başının üzərində çıraq yandırdı. Qara libas

geydi, göy örtük saldı başına, ürəyində hamını qınadı, bircə meyidi qınayammadı, onu tale ömür yolu ilə gətirib bu elə çıxarmışdı. Ox da kürəyinə həmin yola çıxdığı cığırda sancılmışdı. Atabir qardaşının bətnində gəzdirdiyi toxumları taleyin vadarı sanırdı. Nə o, qardaşını, nə də qardaşı onu tanımışdı. Amma camaatın qəzəbindən qorxurdu. Qisasın meyidinə baxa-baxa düşünürdü ki, indi o özü də ölümün astanasındadı, bu ölümün ağzından onu Oxçuoğlu Tomar ala bilərdi. Beləcə Tomarla əyləndiyi anları yadına salıb təskinlik tapmağa çalışırdı. Bətnində xəfif tərpəniş duyduqca Tomarın da ipinin üstünə odun yığa bilməyəcəyindən məyus olurdu.

O üç günü yasa batmış Xırmantəpə elinə Oxçuoğlu Tomar da öz aləmində oturub neyi ilə ağı deyirdi. Udvan dağ basılmış bədəninə məlhəm qoydururdu.

Azərnur yataq taxtında uzanıb nəfsin quluna döndüyü anları xatırlayırdı.

O üç günü Xırmantəpədən çıxıb getmək dörd nəfəri düşündürürdü. Biabırçılıqdan qorxan Sevan nənəsinin doğulduğu elə çıxıb getməyi, onun eşqindən havalanmış, nə vüsalından doyan, nə hicranından usanan və bu sirri açıqlamasını hərdən neyinin üstündə köklədiyi tapmaca təki bilməyən Tomar "Hazılı ay Hazılı, yanım Qara tazılı, çıxdım dünya üzünə, gördüm qəbrim qazılı" – deyə ürəyində yuxusunda gördüyü atlının oxuna tuş gəlməyi özünə arzulayaraq elin gözündən uzaq bir yerdə ölməyi, Udvan Sevanı da götürüb Böyük Xaqanın hüzuruna yollanmağı, bulanıq dünyasının durulacağına gümanı azalan Azərnur əzəli çağlarına baş vurmaq üçün Muğana qayıtmağı fikirləşirdilər.

Meydanda toxmaqların sincə çırpılan səsi el atasını səksəndirdi. Səksəkə içərisində bir anlıq gözlərini yumub o qorxunc sədaları dinlədi. Elə bil toxmaqlar boş qalmış mis çörək

tabaqlarına çırpılırdı... İndi meydana yığışanlar həmin səda-ların altında durub Azərnurun məbəddən çıxacağı anı gözlə-yirdilər. Axı bu gün taxıl almağa gedənləri yola salmaq üçün xərc lazım idi. Azərnur qalxıb xeyir xəzinəsindən qızıl axça-lar götürdü, məbəddən çıxdı. Meydana qəfil sakitlik çökdü, ətəkdə itlərin qayımdan hürüşmə səsi eşidildi. Çoxdan idi ki, itlər bir-birlərinə qoşulub belə ucadan hürmürdü. Sanki el atasının görüb-eşitdikləri üç gündən sonra yox, üç qərinədən sonra baş verirdi. Dünya üç gün əvvəlki dünyaya bənzəmir-di, adamlar üç gün əvvəl gördüyü adamlara oxşamırdı. Ağacların qamətindən hüzn yağırdı, ətəkdə axıb köçən arxın suyu soğrulmuşdu, dibindəki daşlar ağarışırdı. Xırmantəpə-nin başı üzərindən isi od nəfəsli bir qoşun külək keçdi. Adamlarını, itini, pişiyini, qoyun-quzusunu, mal-qarasını, ağac-ucağını qarsaladı. Elə bil Tanrı günəşdə qızdırdığı odlu əllərini endirib yerdəki bütün canlıların başına tumar çəkdi. Ağacların yarpaqları qurudu, otlar saralıb-soldu. İtstinin elə bil gücüydü pişikləri miyoldaşmağa, itləri hürüşməyə, atları kişnəməyə, qoyun-quzunu mələşməyə məcbur edən! İstilərin tez gəlməsi adamların gəzdiyi torpağa, udduğu havaya, içdi-yi suya, sitayiş eləyib, sığındığı ocağa ağrı gətirmişdi. Təkcə meydandakı yeddi daş əvvəllərdə olduğu kimiydi, taleyi xe-yir-şərdən yoğrulmuş dünyanı yaxşı tanıyırdı ulu daşlar.

Əcdadların ruhu uyuyan daşlar çox talelərə, alın yazıları-na şahid olmuşdu. Xeyir-şər qardaşlarının dünyaya tən ortaq şərikliyini, müdriklərdən müdrik, ərdəmlilərdən ərdəmli VƏTƏN DAŞları əzəldən Tale və Yaradanın çətin sınaqların-dan çıxa-çıxa mətinləşmişdi, qranitləşmişdi, qismətinə düşən təbiətin ikili taleyi ilə barışmışdı.

Ədalət meydanına yığışanlara aclıq DƏRDİ bütün dər-dlərdən qat-qat ağır idi. Bu dərdin böyüklüyü ondaydı ki,

Tomar təki havalanmış adam indi ağıllanmışdı. Sanki Sevan sarsılmış, Udvan da qorxmuşdu. Dərd insanlara toxluqlarından hayqırıb, ortaq günahlarının cilovunu çəkmək üçün lazımmış, bəlkə də!

Dərd insanları insansifət divlərin ucbatından tapırdı. İnsansifət divlər dünyaya işığın gözüylə baxmaq istəmirdilər. Ona görə DƏRD öz cildini dəyişə-dəyişə adamların yaxasını tanıyırdı.

El atası qızılları boş çuvallar, xarallar, dağarlar yığılmış iki-çarxlı atarabalarla yola çıxanlara verdi, xeyir-dua dilədi. Qızgəlinlər taxıl almağa gedənlərin dalınca su atdılar, ağsaqqallar arxalarınca buyurdular ki, ÜMİD yolu ilə getsinlər, yolları heç vədə qarışıq salmasınlar. Nəbadə ömür yoluyla gedələr, onda ölüm əncam çəkərdi aclıq dəhşətlərinə və qorxularına! Uşaqlı-böyüklü hamı gözlərinə köç salmış qorxuyla dallarınca boylandılar gedənlərin, ta gözdən itənədək baxdılar.

-Məmləkətdə bir dəfə belə quraqlıq olub. Düz yeddi il çəkib. Ulu Tanrı özü bizə rəhm eləsin! Xata-bəladan uzaq olsun gedənlərimiz. Yolları yaxın olsun! – Bayandur baba gedənlərin dalınca baxıb pıçıldayırdı.

* * *

-Xərəngənin biri xərəngə! – İntizar qarı səbrini boğa bilməyib Sevanın üstünə çımxırdı. - Sənin ismətsizliyin ucbatından Tanrının bu elə qəzəbi tutdu. Qızmış gözün nə Tanrı qandı, nə də bəndə!

-Hırı yatar bu ləläyünün! – Bağdagül nənə də nuru azalmış gözlərini Sevana zillədi.

-Onun otaş-paraşdığı bu elə qan saldı. – Ağca nənə dilləndi.

Sonra dul gəlinlər, qarımış qızlar Sevanın üzünə qazan

qarası sürtdülər: Abırsız! İsmətsiz! Xərəngə! Lələyün! Ləçər! – deyə qollarından tutub meydanboyu gəzdirdilər.

Sevan özü də başqalaşmışdı. Elə bil özü-özünə ləc düşmüşdü. Arvadların arasından dönüb Azərnura boylandı. Qazan qarasına boyanmış üzü göz yaşlarıyla luğablandı. Canına lərzə düşmüşdü.

Azərnurun gözləri qarşısında isə üç gün öncə gördüyü Sevan canlanmışdı. Ağcamaya qadın bədəni məbədin yataq hücrəsinin işığına bələnmişdi. Gənc el atasının qəlbini qarşısıalınmaz hisslər bürümüşdü, özününkü özünün deyildi artıq, qızın ehtiraslı baxışları ixtiyarını əlindən almış, içinə od qalamışdı. O, əllərini yavaş-yavaş şamdanın oduna uzatdı, alov dilimləri onun barmaqlarını yaladı, tamsızlıq duymuş kimi, alov dilimləri şamdanın içinə çəkilirdi.

-Ey ulu Hörmüz, məhəbbət ilahəsinin şıltaqlığı tutub! Qoy sənin odun cövhərimi bürüyən coşğunluğumu, şövqümü dağlasın! – Azərnur pıçıldayaraq, barmaqlarının ucunu alovda yandırdı. Yanığın cızıltısı Sevanın, ağrısı Azərnurun ürəyini göynəm-göynəm göynətdi. Hər ikisinin ürəkləri zoqquldadı, damarlarındakı qan şırıltıyla axıb-dolaşdı. Sevan onun yanmış barmaqlarını öpüb-oxşayırdı, ayaqlarına göz yaşları axıdırdı, qarmaqarışıq sözlər söyləyirdi, çılpaq döşlərinin hərarəti Azərnurun dizlərinə hopurdu... Sonra o, Sevanın başına toxundu. - Qalx!-dedi. - İnsanın belə həzzi duymağı bircə nəfərin istəyindən yaranmır.

Qız yavaş-yavaş dirçəldikcə Hiyeredul[97] qadınlar kimi lüt-üryan əndamını el atasının zəfəran rəngli xalatının yaxasına sıxdı... Barmaqlarıyla xalatın düymələrini açdıqca hər yan qatı qaranlığa bürünürdü. Sonra, bəs sonra nə olmuşdu?!

[97] Hiyeredul- Ən qədim çağlarda yunan və erməni məbədlərində fahişəliklə məşğul olan rəqqasələr.

Azərnur xatırlaya bilmirdi, qəlbinin qaranlığında düyünlənib dolaşıq düşmüş hisslərinin ucunu tapıb axarına düşmüşdü. Amma qəfil tapdığı kimi qəfil də itirdi.

-Bu xərəngəni odlu şallaqla cəzalandırmaq gərəkdi.

Azərnur elə bil yuxudan ayıldı.

Qadınlar Sevanı ağır cəzaya məhkum etmək istəyirdilər. Azərnur qəlbində düşünürdü: «Ulu Tanrı, bu qadınmı mənim varlığımı dəyişdi? Bu qadınmı keçmişimi əlimdən aldı? Türkayla şirinli-acılı xatirələrimi yaddaşımdan sildirən bu qadınmı oldu? Odurmu günahkar, yoxsa mən?»

Çənələr şaqqıldayır, ağızlar köpüklənirdi. Qadınların tənəli sözləri elə bil Sevandan nəsə qoparırdı, nəsə içində qarışırdı. Birdən o, başını aşağı əydi, bir-iki ağız öyüdü. Elə bil öfgəsi ağzına gəlmişdi.

«Ulu Tanrı, niyə susuram, niyə bu amansız adətlərə qarşı çıxmağa özümdə güc tapa bilmirəm?»- Azərnur söz deməyə macal tapmadı.

-Dayanın! Əl saxlayın! – Sevanın anası Mağmun qadınları yara-yara ona yaxınlaşdı. - Mənəm onun anası, qoy məni daşqalaq eləsinlər. Rəhm eləyin ona, yalvarıram, axı onun bətnində uşağı var! – Elə bil dediyinə özü də inanmaq istəmirdi, gözlərində şübhə böyüdü. Qadınlar bunu eşidən kimi duruxub qaldılar. Sevanın ürəkbulanması ötüb keçmişdi. Onun yelgəsini tutanların əli boşaldı. Sevan onların arasından çıxıb, anasına sarı gəldi, gözlərinə baxdı. Əzab gördü sifəti avazımış Mağmunun gözlərində. Qorxu və vahimə yerləşmişdi onun bəbəklərində...

- Bu doğrumu? Sənin uşağın var? - Udvanın səsi qızının qulağının dibində eşidildi. Sevan qəzəbli baxışlarla atasına baxdı. Udvan onu itirmək qorxusundan heykəl kimi qurumuşdu. Sevansa onun papağını başından götürdü. Hamı heyrətlə onlara

baxırdı. Elə bil Udvanın dağ basılmış alnı bütün eyiblərini açıqlamışdı. İndi o özü də öz eyiblərinin içərisindən Sevanın əlində tutduğu papağına baxırdı. Sevan qəfil papağı qaldırıb camaatın ayaqları altına atdı. Sonra Azərnura yaxınlaşıb:

-Sevgi bizi qovuşdurmadı, qoy nifrət qovuşdursun! – dedi və dönüb meydanın alaqapısından çıxdı.

-Atasının papağını yerə soxan ləçər!.. - Qadınların biri yanıb-yaxıla-yaxıla onun arxasınca söyləndi.

-Sevanın uşağı varsa, cəzasını necə verək?

Adamlar sual dolu baxışlarla gah Azərnurun, gah da Bayandur babanın üzünə baxdılar. Azərnurun rəngi qaçmışdı. Xəyallarında bir uşaq doğulurdu, uşağın ayağı hara dəyirdi ora od tutub yanırdı, bir gözü ağlayırdı, bir gözü gülürdü, gah eşşək təki anqırırdı, gah da it kimi hürürdü. Dürlü-dürlü sözlər danışırdı, bir əli uzun idi, bir əli gödək. Bir yeri dikəldirdi o birini yerlə-yeksan edirdi. Özünə ev qursun deyə özgələrinin evini yıxırdı, ətirə bələnmiş uluslara üfunət paylayırdı. Qosqoca dünya bic doğulmuş körpənin əlində giriftar qalmışdı. İnsanlar xırdalanırdı, əskilirdi, yaxşıların ömründən aylar-illər oğurlanırdı, pislərin ömrü firavan keçirdi. Göylərdən yerə bic körpələr yağırdı. Yer üzərində biclər göbələk kimi çoxalırdı. Get-gedə dünya öz tarazlığını itirirdi. Yer üzü eybəcərlik libasına büründükcə yetənəkli olanlar məhv edilirdi. Azərnurun xəyalında doğulan uşaq böyüyüb öz doğma yurdunun düşmənləri ilə – Əhrimən nökərləriylə əlbir olurdu. Ayağı yalın körpələri qabağına qatıb qovurdu, əlinə qılınc alıb qocaları qılınclayırdı. Qılınc-qalxan səsləri qulaqlarında səsləndi, gözlərinin önündə olan körpələr yağı atlarının ayaqları altında qalıb çığırışdılar.

-Yox! – deyə dodağının altında pıçıldadı Azərnur. - Odlar yurdu heç vaxt odlara qalana bilməz!

-Mərhəmətin, xeyirxahlığın da həddi var, hörmətli Azər-

nur, - deyə Bayandur baba dilləndi. - Belələrinə mərhəmət eləmək şərə qulluq göstərmək, yol açmaq deməkdi.

-Bic, eybəcər, murdar körpə doğulsa, həm atasının bacısı oğlu, həm də bacısının qardaşı oğlu sayılacaq, atası həm də dayısı, anası həm də bibisi olacaq. Bu ulusun başına qaxınc, üzünə toxunc nəsil yaradacaq! –Ağca nənə, Bağdagül nənə, İntizar qarı, Narınc xatun, Selcan nənə bir-birlərinə dəydi...

-Ey ulu yaradan, yeddiqat yerə bu nə bəladı göndərirsən?

-Dərdimiz azıymış, bu da bir yandan bizə dərd oldu!

-Lökdodaq nənəsinin yatdığı türbə çəksin Sevanı!

-Qardaş deyə huy çəksin, ər üzünə həsrət qalsın!

-Dölünün dönəlgəsi dönsün!

-Körpəsinin üzünə kor olsun!

-Yüyrük yırğalamasın! Toxumu içində çürüsün!

-Piltik-piltik olsun onu!

Udvan xalqın qəzəbindən qorxub, qaçdı kövşənliyə. Adamlar arasına pıçhapıç düşdü: - «O uşaq dünyaya gəlməməlidi!» - «Əgər bu uşaq doğulsa, onda dünyaya elə bil onun timsalında şeytan gələcək!»

Oxçuoğlu Tomar eşitdiklərindən təngə gəlmişdi. Sevanın arxasınca yollandı. Göyçəyə sarı gedən cığırların birindən göyə toz dumanı qalxırdı. Tomar atının başını toz görünən cığıra sarı döndərdi...

* * *

...Kölgəsi Ana Göyçənin dupduru sularına düşmüşdü. İndi dünya onun özü kimi çirkin görünürdü. Bətninin qaranlıq guşəsində tərpəşən kiçik varlığı gözlərinin önündə canlandırmaq istədi. Elə bil dünyanın əyləncəli ləzzətlərindən əbədi məhrum olduğuna görə bətnindəki o kiçicik varlığa ölüm hökmü oxuyurdu. İndi bətni ona xəyanət eləmiş, düşmən kəsilmişdi. "Lənət olsun!" Qulaqlarına uzaqdan Toma-

rın atının kişnərtisi gəldi. O, libasını soyuna-soyuna nəsə pıçıldayırdı. Sanki Ana Göyçəni o öz pıçıltılı sözləriylə ovsunlayırdı. Və ona xəyanət etmiş bətnini təmizləmək üçün suya çəkirdi: - Analaların anası, Ulu Tanrının gözəllik ilahəsinin mavi gözlü qızı, al məni ağuşuna, özünə qovuşdur, ulu adına yaraşdır, məni qəlbinə sığışdır!

İki damla göz yaşı qazan qarasıyla boylanmış sifətinə yuvarlandı.

Tomar özünü yetirəndə Udvanın boz ayğırı Sevanın soyunduğu libası iysiləyirdi. Gölə yaxınlaşdı. Sevan dizəcən suya girmişdi. O, çılpaq qadın əndamını görcək duruxdu, ürəyi sakitlik bilmədən yarpaq kimi əsməyə başladı. Ana Göyçənin qoynundan qopan meh onun burnuna qadın bədəninin tanış qoxusunu doldurdu. Arxadan Sevanı səslədi: - Niyə belə elədin, nyiə?

Sevan üzünə bir ovuc su çırpıb ona sarı çöndü:

-Məni öldürməyə gəldin? – deyə soruşdu.

Tomar onun göbəyinin batığına baxdı. Elə bil Sevanın bətninə ordan baxmaq olardı! Sevanın uşağının olub-olmamasını ordan görə bilərdi. Ona elə gəldi ki, Sevanın bətnində də Qaraca qonağın toxumlarıyla, onun toxumları vuruşur. Darısqal bətndə bu savaş neçə qərinə əvvəl başlamışdı.

-Çıx, sudan! Zəmini murdarladın, barı suyu murdarlama!

Kamanını götürdü, oxdanından ox qoyub, Sevanı nişan aldı: - Çıx!

Sevan dalı-dalı həsləndi, sinəsinə qədər suya batdı. Başını yellədi.

- Mən həmişəlik buranın sakini olacağam! Həmişəlik...

Tomarın əlləri əsdikcə boşalırdı, xəyalında yuxuda gördüyü ağ atlı canlandı. Savaş libası geymiş eynən Tomara oxşayan ağ atlı adam nəhəg yayını çəkib, daş ucluqlu oxunu

havaya buraxdı. Ox düz Tomarın üstünə yan aldı. Oxdan yayınmaq üçün o, özünü atın yəhərinə sarı əydi.

Elə bil qəfil yuxudan ayıldı. Sevan artıq suya qərq olmuşdu. «Yox!» - deyə qışqırdı, gölün dibindən su qabarcıqları qalxırdı. Atdan yerə endi, gəlib Sevanın hələ də bədəninin hərarəti çəkilməmiş libasını götürdü. Boz ayğırın yedəyindən tutdu, yenə öz atına mindi. Atını arxın dəhnəsinə sarı sürdü. Gölün suyu azaldığından dəhnədən keçən şırımdan arxa az-az su tökülürdü. Tomar arxın dəhnəsinə uzunsov bir daş diyirlətdi. Dönüb bir də Ana Göyçəyə baxdı. Öz paklığını, bakirəliyini itirmiş göl Sevanın batdığı yerdən qaralmağa başlamışdı. Yuxarıda qarğalar dövrə vuraraq qarıldaşırdılar. Sanki onlar Sevanın göylərə uçmuş murdar ruhuyla pıçıldaşırdılar.

* * *

Oxçuoğlu Tomar Sevanın geyinəcəklərini ağsaqqalların qarşısında yerə atdı. Adamların sual dolu baxışları atın üstündə heykəl təki oturmuş Tomara dikildi. Elə bil bu qəzəbli baxışlar oxa dönüb Tomarın köksünə sancılırdı. Bayaqdan bəri sızıldayan qəlbinin göynərtisi get-gedə güclənirdi... Qərinələrin o üzündən yeddinci babasının havaya atdığı ox hələ ona sarı yol gəlirdi.

-Ana Göyçədə özünü boğdu! – deyə handan-hana dilləndi. Adamlar təkcə onu deyil, özlərini də qınadılar.

Gölü xilas eləmək olardı, indi göl murdar ruha əsir düşmüşdü. Elin dərdi üstünə bir dərd də calandı: susuzluq dərdi, Sevanın ölümünə sevinənlər belə düşünürdü: «O, ölümə məhkum olunmuşdu, ancaq Ana Göyçənin qoynunda yox! Murdar adamın ölümü də murdarlıq gətirirmiş...»

Tomar da yuxulu adamlar kimi atdan endi. SirDaşla QızDaşına yaxınlaşdı.

-Bahar bayramında, taytaq-taytaq danışdığın yadındamı, Tomar? Sənin nə qara ağzın var imiş! Demədinmi, içilməyən su olsun, tapılmayan duz olsun, təki qırılan mal olsun, aclıq olsun, kef olsun! Sən axmağın nifrinliyi tutdu! Heç acqarına kefmi olar?! – Ağca nənə bağrının başı yana-yana giley-güzar elədi.

- Mənmi qarğamışam bu eli, ulu Hörmüz, eləsə bə məni niyə zavala gətirmirsən onda? - Tomarın ürəyinin zoqqultusu qulağını deşirdi. Adamlara baxdı, daşlara baxdı, meydandakı yeddi ulu daşlar da elə bil onu qınayırdı. SirDaşın köksündən daş ucluqlu oxa baxdı, köksü göynəyirdi. – Hazılı hay hazılı, yanım qara tazılı, çıxdım dünya üzünə, gördüm qəbrim qazılı... İlk qəbrim beşik olmuşdu, son qəbrimi indi özüm qazmalıyam, özüm... – deyə pıçıldadı. Yeddinci babasının oxu ona gəlib çata bilmirdi. Tomar indi bildi ki, ağ atlı adam nə üçün yuxusuna girirmiş, kim imiş? Nə istəyirmiş Tomardan! Ancaq daha gec idi. Tomar babasının ruhunu incitmişdi. Qurşağından neyini götürüb, bir az çaldı. Ney də ondan küsmüşdü sanki. Tomar göylərə baxdı. Yağışsız buludlar elə bil onu ələ salıb gülürdü. Bayaq Sevanı nişan alanda ayırdığı oxu təzədən kamana qoydu. Buludları nişan alıb atdı. Adamlar elə bildilər ki, Tomar Tanrını oxlamaq istəyir, ona görə yenə ürəklərində onu qınadılar. Ox gedib göyün yeddi qatına çatdı, amma buludlara çatmadı. O, buludlara sancılsaydı, bəlkə də, yağış yağacaqdı. Ox aşağı süzdü. Tomar zəhmli addımlarla irəli yeridi, elə bil göydən qayıdan oxu Tanrı dəyişmişdi. Və göyün yeddi qatından qayıdıb gələn oxu göyə sanki o yox, neçə qərinə öncə yeddinci babası Tomar atmışdı. Gün işığında ucluğu parıldayanda Tomar meydanda diz çökdü. Üzünü göyə-oxa tutub sinəsini qabartdı. Ox neçə vədə gecə-gündüz göynərtisi kəsilməyən ürəyinə sancıldı. Hamı af-uf elədi. Tomarınsa gözlərinin önünə bu

ləhzədə ağ atlı cəngavər babası Tomar Turğut gəlmişdi. Elicəsinin köksünə sancılmış oxu görüb gülümsünürdü.

-Ruhun şad olsun, baba, nəslinin adına qaxınc, üzünə toxunc olmadım, - deyə Oxçuoğlu Tomar pıçıldadı.

Dönüb SirDaşın köksündə yumruq boyda ürəyi dəlib keçən oxa, bir də öz köksünə sancılmış oxa baxıb gülümsündü. Sevgi deyilənin, eşq sayılanın, məhəbbət çağrılanın son nəfəsində fərqinə varmışdı. Özünün dərk etdiyi el-oba sevgisini, vətən eşqini, yurd məhəbbətini əcdadlarının RUHU önündə doğrultduğuna sevinirdi. Tomarın özündən razı qalan gözləri yumuldu, açılanda gözlərində bayaq ona gülümsəyən buludlar çilik-çilik oldu. Bir ovuc yurd torpağı başının altında ölüm yastığına döndü...

* * *

...Kəl və öküz arabalarında iri çənlər, çəlləklər, su qabları qoyuldu. Polad biləkli igidlər kərdivarlar, kətmənlər götürdü. Bu dəfə gedənlərin arxasınca qadınlar su ata bilmədilər. Elin su ehtiyatı tükənmişdi, odur ki, göz yaşlarını su təki çilədilər.

-Ağ yolla, Ümid yoluyla gedin, yolunuz yaxın olsun! – dedilər gedənlərə. Qalanlar ümid içərisində gedənlərin arxasınca boylandılar. Bərk istilər düşmüşdü. Elə bil qorabişirən ay vaxtından öncə gəlmişdi. Yeri-göyü yaradan ulu Tanrı Xırmantəpə elinin gün-güzəranından sanki xəbərsiz idi. Ağzı dualı ağbirçəklər əllərini göyə açıb Tanrıdan yağış diləyirdilər. Uşaqlar Tanrıya səsləri çatsın deyə, meydandakı ən uca ağaclara dırmaşırdılar. Ağsaqqallar buyururdu ki, su ilahəsi Nahidin şərəfinə yeddi cöngə qurban kəsilsin! Su ilahəsinin heykəlinin ayağı altında qurbanlar kəsildi. Qanlarını uşaqların alnına sürtdülər, piyalələrə doldurub müqəddəs dualar oxuya-oxuya içdilər. Məbədin qarşısında ayinlər başa çatdırı-

landa ritonları[98] cöngələrin qanıyla doldurdular.

Ritonların ətrafına gildən düzəldilmiş öküz, maral, at heykəlcikləri düzdülər.

Haradansa qəfildən Udvan peyda oldu, elə bil başına hava gəlmişdi. Bərələ qalmış gözləriylə meydandakı adamlara marıtdadı. - Hanı mənim kölgəm? Qızıllarımı, sərvətimi əlimdən aldız, heç olmasa kölgəmi özümə qaytarın! Qaytarın kölgəmi! – Qışqıra-qışqıra haray saldı. Nəhəng tut ağacının kölgəsində əyləşmiş adamlar ona baxıb gülümsəyirdilər. Udvanın kölgəsi görünmürdü. O, gəlib Azərnurla Bayandur babaya baxa-baxa: - Verin kölgəmi, çıxıb getmək istəyirəm! – dedi.

Sonra üzünü göyə tutub: - Ey ulu Hörmüz, heç kölgəsiz adam olar? – deyə soruşdu. Ağsaqqallar yorğun-yorğun ona baxıb fikrə getmişdilər.

-Sən ADAMLIĞINI kölgəndən də öncə itirmisən! – Bayandur baba, axır ki, özünü saxlaya bilməyib dilləndi.

-Onu başa salmaq susuz səhralarda su axtarmaq kimi bir şeydir. – Tut ağacının altından Ağca nənə də qeyzlə Udvana baxdı.

-İndi sənə ulu Tanrının özü də kömək edə bilməz, Udvan! – Ulutürk dedi. – Axı, sən Tanrını tanımaq istəməmisən! Onun qəzəbindən qorxmamısan!

Urşan dədə meydandakı ulu daşlara baxdı, onlarla danışırmış kimi dilləndi:

-Anan səni insan təki doğdu, Udvan! Tayfa başçısı kimi yox. Tayfadaşların səni başçı seçdilər, sən məsləksizlik elədin, vədini pozdun. Zərdüşt buyurmuş ki, vədini pozan adam etimada layiq deyil! İnsanlığını qorumadın, tayfa başçılığını itirdin! Biz sənin pisliyinə qarşı yaxşılıq elədik. İndi

[98] Riton – müqəddəs haoma içkisinin saxlandığı keramik qab.

sən taleyinin ixtiyarındasan, fəryadına qoy taleyin çatsın!

-Dərdimiz bir deyil ki, çəkib qurtaraq! Güneydən də, quzeydən də üstümüzə batman-batman dərd gətirdin. Özün cəhənnəm, gətirdiyin dərdlər oyur içimizi! – Ulu Saral YURDDAŞIN qoynunda alovlanan ocağa baxa-baxa pıçıldadı.

Udvan əzgin addımlarla geri döndü. Ərsiz qadınlar ona elə acıqla baxırdılar ki, bədənindəki dağ basılmış yerlərə sanki ovuc-ovuc duz tökürdülər. Meydanın alaqapısına sarı qaçdı, sızıltılarını ovundurmaq üçün yenə kövşənliyə üz tutdu.

...Ağ çalanın həndəvərində tək-tük mal-qaradan başqa heç bir canlı gözə dəymirdi. Bir vaxtlar yağışlar bol yağanda yay vaxtı adamlar bura duz yığmağa gələrdi. İndi yağış yağmadığından duzlaqlar da əmələ gəlməmişdi. Ötüb-keçdiyi yerlərdə gözə dəyən yulğun ağaclarına qəzəblə baxırdı. Tozlu-torpaqlı cığırda diz üstə aşağı çökdü, dibini qazmadığı yulğun ağacı qalmamışdı. Yeyilib nəzilmiş barmaqlarına baxdı. «Hara gedim indi, hara?» - deyə pıçıldadı. Ailəsini, evini-eşiyini atıb getməyi qət eləmişdi. Amma hara gedəcəyini bilmirdi. Əllərinin arasından elə bil gah Böyük Xaqanın oturduğu saraya, gah da dayılarının yaşadığı obalara baxırdı.

Xəyalında məmləkətin taxt-tacında oturmuş Böyük Xaqanı canlandırdı. İncəbelli, gülyanaqlı, sinəsi açıq, qızılsaç bir qız Xaqana mey süzülmüş piyalə uzadırdı. Qız elə bil işvəli gülüşlərini piyaləyə sıxıb Xaqana içizdirirdi. Xaqan əlini qızın yanaqlarına sürtüb: - Yaxçı, Xoroşa! – deyirdi. Bu ləhzədə Udvan necə olurdusa saraya girib, taxt-tacın qarşısında diz çökürdü. Xaqanın qucağında oturmuş qız qu quşutək diksindi. Malakanbazarın karvansaray hücrələrinin birində əylənib-kefə baxdığı qızılsaçlı-slavyan gözəlçəsi onu tanıdı. Qız Udvanın tökülmüş əyin-başına baxıb gülümsündü. Bu gülümsəyməyi o çağdakı gülümsəməyə bənzəmirdi. İndi

Udvan ömründə ilk dəfə qızılsaçlı nəsara qızlarına xərclədiyi qızıl axçalara heyfisləndi. Xaqan Udvanı dinlədikdən sonra dedi: - Xırmantəpə elinin atası olmaq üçün sən gərək sınaqdan keçəsən. Əvvəla, de görüm bu gözəlçəni iki yerə bölsəm, sən hansı hissəsini mənə verərsən?

-Xaqanın başı sağ olsun, mən bu gözəl əndamın göbəkdən aşağı hissəsini sənə verərdim. - Xaqanı gülmək tutdu. – Dəllal! – deyə qışqırdı.

İçəri Udvanın tanıdığı aybəniz kişi daxil oldu. Xaqana bağır basıb, baş əydi. Xaqan iri qaşlı üzük taxdığı barmağını Udvana uzatdı: - Bizim adamdı, ikinci sınaqdan çıxart, əgər yaxşı çıxsa, fərmanını hazırla. Xırmantəpə elinə...

Dövlətxana dəllalı özünü elə göstərirdi ki, Udvanı tanımır. Udvanı gətirib daş-tərəziyə çıxartdı: - Hə, yeddi girvənkə qızıl, daş-qaş, yeddi girvənkə... «Mənim heç nəyim yoxdu, Azərnur hamısını tutub aldı, lənətə gəlsin onu!» Aybəniz dəllal: - Boş torbaya at tutulmaz! – dedi. Udvan inildədi. Xaqan, qızılsaçlı slavyan gözəlçəsi aybəniz dəllal bir-birinə qoşulub qəhqəhə çəkdilər. «Ədalət olmayan yerdə məsləksiz adamlar sərvət sahibidirlər. Sənsə sərvəti olmayan məsləksizlərdənsən!» Qızılsaçlı gözəlçə də hırıldayıb: «Na bezlyudi i ömka dvoryanka»[99] - dedi.

Udvan Ağçalanın tozlu cığırlarında üzüqoylu yıxılmışdı. Uzaqda ilğımlar işarırdı. Udvan «qızıl» deyə ora yüyürdü, çathaçatda ilğım gözlərinin qarşısında tövşüyə-tövşüyə əriyib yoxa çıxdı. Udvan inildəyə-inildəyə göyə baxdı. Günəş elə bil qəsdən onun təpəsinə dirənmişdi. Odu onu qarsalayırdı, alnında puçurlanmış şor tər damcıları yanığını göynədirdi. «Bəlkə, mənim kölgəm içimə düşüb!..» İçindəki ağrıyla Ağrı dağına sarı boylandı. Ac dağ acgözlüklə onu özünə çəkirdi. «Azərnur söy-

[99] Burada, insanlıqdan uzaq cəmiyyətdə məsləksiz qadın da zadəgan olar!

ləyirdi ki, ölüm divləri qaranlıq səltənətlərdə gizləniblər, insanları ölümlə hədələyərək arxasınca kölgə kimi sürünürlər». İçi göynədikcə elə düşünürdü ki, əcəldi içərisində vurnuxan! «Lənətə gəlmiş əcəl, məni haxlamağa vaxt tapdı, ölümüm içimə çəkilmiş kölgədən doğsa, aqibətimdən dayılarım da xəbər tutmayacaq!» İndi ən böyük arzusu bir içimlik su idi. İçsəydi ərmənzəmin obalarınacan bəsiydi, ancaq ona elə gəlirdi ki, hər tərəfi sudu, hara üz tuturdusa, Tanrı sulu çalaları ilğım kimi yoxa çıxarırdı. Su qəhətə çıxmışdı, o, indi çirkli-çirkablı suyu belə içməyə hazır idi. Xırmantəpə eli görünmürdü. Ana Göyçə lap uzaqda qalmışdı. «Ax, Sevan, Sevan, öldün, məni də ölümün ağzına verdin!» Key-key ilğımlar ləhləyən çöllüyə baxdı. Ömründən qopub at, dəvə, eşşək ləpirlərində uyuyan günlərini xatırladı. Şəhriyar bazarında ustalıqla tovlayıb nikaha girdiyi muğanlı qızı yada saldı. «Ax, niyə tutuquşuya Xilas kəlməsini öyrədəndə onun da, tutuquşunun da başlarını üzmədim?! Onda nə Qisas doğulardı, nə Sevan ona ürcah olardı, nə də mənim bədənim yeddi yerdən dağlanardı!» Sonra Gilanda zorladığı ərəb bəzirganlarının kənizini yada saldı. «İlahi, görəsən, ondan dünyaya gəlmiş oğlum məndən öz anasının qisasını necə alacaqdı?» Ərəb qızının göz yaşları neçə illərin o üzündən axıb üzünə çiləndi. Gözlərinin qarşısında qarasaqqallı cavan bir oğlan canlandı. Poladüzlü qılınc qurşamışdı, əyninə qara libas geymişdi. Arxasınca qara atlı qoşun gətirirdi. Elə bil Udvanın və bu məmləkətdə onun kimi damarıboş, yoluazmışların üstünə Qara Sel gəlirdi. Udvana çatan öncə öz oğlu sandığı qarasaqqallı oğlan oldu, qılıncını siyirib Udvanı iki yerə parçaladı. Udvan dirigözlü ikiyə bölünmüş, əcəli yetişmiş ölü bədəninə baxırdı. Qarasaqqal oğlanın ürəyi soyumadı, gözü baxa-baxa onun kişiliyini kəsib atdı. Sonra bədənini yeddi şaqqa parçaladı.

Udvan xəyaldan ayılıb inildədi. Qasığından aşağısı göy-

nəm-göynəm göynədi. Sanki xəyalda gördükləri aşkarda olmuşdu. Ağrının gücündən aşağı çömbəldi, bir hovur beləcə qaldı. «Lənət, min lənət sərvət xəstəliyinə tutulanlara, lənət Sərvət eşqinə işıqlı günlərini özünə zülmət eləyənlərə!» Bu ləhzədə Azərnurun səsi qeybdən qulaqlarında partladı: «Ən böyük səadət və sərvət ulu Zərdüştə qismət olmuşdu. Bu Səadət və Sərvət şən həyat, sevinc və əbədi şöhrətdən ibarətdir». Səs sanki başının üstündəki qızıl məcmeyitək asılmış günəşdən gəlmişdi. Udvan üzünü günəşə tutub: – «Lənətə gəlmiş, sənmi kölgəmi oğurlamısan?» - deyə donquldadı... Süstləşib tozlu cığıra sərəvəzləndi. Yaxınlıqda qurbağalar quruldaşırdı. Udvanın ayağa durmağa taqəti qalmamışdı. Sürünə-sürünə qurbağanın səsinə sarı yan aldı. Dəc-dəc bağlanmış lığlı-pizəli kopnaların birinin kölgəsində daldalandı. Qurbağalar onun hənirini duycaq susdular. Kopnanın yeddi addımlığında sucaq yer görünürdü. Udvan dikəlib içində qurdlar qaynaşan lıqqalı - palçığlı sucaqlığa boylandı. Sucaqlığın qırağındakı palçıqa eşşək ağnamışdı, ortasındakı çirkli suda su siçanları üzürdü. Udvan tabsız-tabsız çirkli suya baxıb udqundu. Ağrı dağının ətəklərindən əsən meh sucaqlığın üfunətini onun üzünə çırpdı. Amma Udvan fikrindən dönmədi, susuzluğunu söndürmək üçün sucaqlığa süründü. Bu vaxt qarşıdakı kopnanın üstündə qarğa qarıldadı, arxasından şaqqıltı eşidildi, ordan insan qəfəsəsi çıxıb Udvanın üstünə yeridi. Udvan gözlərini acışdıran tərini sildi. Qorxa-qorxa dal-dalı həsləndi. Qəfəsənin sümükləri bir-birinə dəydikcə əcaib səslər çıxarırdı. İnsan qəfəsəsi Udvana çatıb dayandı, çənələri şaqqıldadı. «İlahi, bə bu hansı günahımdı qabağıma çıxardıbsan?!» Udvan düşüncələrə daldı. Diz üstə qalxıb, qəfəsəyə baş əydi: - Keç günahımdan!.. Günahımsansa, əhf et məni!

Qəfəsənin yenə çənələri şaqqıldadı: – Dinlədiyin bu əcaib səslər ölüm mücdəsidi. Amma sənin xəmirin riyakarlıqdan

yoğrulub, istəsən, ölümü də aldadarsan! Yadındamı sərvətdən ötrü məni öldürdün! Dolu xurcunları götürdün! Nəşimi gətirib buradakı çuxurların birində gizlədin, məni qarğa-quzğuna yem elədin! Yadındamı?

Udvanın dodaqları, əyri burnu titrədi, gözləri bərələ qaldı. «Yalvardım ki sənə, öldürmə məni, anam məni yeddilər üstündə tapıb, götür istədiyini, yolumu gözləyənim var! Sənsə rəhm eləmədin! Bədənimə yeddi yerdən xəncərini sancdın!» Udvan qulaqlarını qapadı: - Sus! Sus! İnanmıram!

«Həqiqəti susdurmaq olmaz! Qulaqlarını tıxasan belə, vicdanının səsini eşitməlisən! Sən öz vicdanını da susdurmuşdun! Eşit, vicdanın bundan sonra edəcəyin günahlarına da qiyam qaldırıb!..» Udvan üzüqoylu insan qəfəsəsinin ayaqlarına yıxıldı. Ona elə gəldi ki, Çinvat körpüsündən diyirlənib uçuruma düşdü. Azərnur Ədalət dağının zirvəsində oturub cənnət əhlinə «Kitab – ARDİ-VİRAZ»dan[100] nəsə oxuyurdu. Udvan isə Çinvat körpüsünün altındakı uçurumda eşələnirdi. Günahsızlar körpünü keçib, Cənnət guşəsinin Ədalət dağına qalxırdılar. Günahkarlar keçəndə körpü sap kimi nazilirdi, onlar da Udvanın yanına diyirlənirdilər. Cənnətin qulluqçuları oradakılara şərab paylayanda cəhənnəm əcinnələri uçuruma yıxılanların canına daraşıb, çılpaq bədənlərini çubuqlayırdılar. Udvan bir vaxt ömür yolunun ortasında qəfəsə salıb həyat ağacının budaqlarından asdığı Tutuquşunu xatırlayıb: - XİLAS! – deyə pıçıldayaraq əllərivlə üzünü qapadı. Sonra başını qaldırdı. Elə bil bayaqdan bəri yuxu görürmüş. Qəfəsə başının üstündən çəkilib getmişdi. Udvana elə gəldi ki, ondan öc almağa gəlmiş qəfəsə öldüyünü zənn eləyib yenə ot kopnasının arxasına çəkilmişdi. Qorxa-qorxa

[100] "Kitab – ARDİ-VİRAZ" - "Cənnət sevinci və cəhənnəm əzabı" kitabı.

yan-yörəsinə boylandı. At rəddindən dəvə ləpirindən sanki buxar qalxırdı. Udvan güneyə sarı çöndü. Güneydən üstünə Qara qoşun seli axırdı, çönüb Quzeyə baxdı – Quzeydən üstünə çarmıxlanmış Dağ gəlirdi. O, qoynundan qızıl xaçı çıxartdı. Dodaqlarına yaxınlaşdırıb öpdü. Udvan üzünü çarmıxa çəkilmiş dağa sarı tutdu. Elə bil köç atının ayaqlarından qopan ölüm tozu sifətinə çökmüşdü. Bayaq insan qəfəsindən içinə yayılmış ÖLÜM xofunu və üz-gözünün tozunu sucaqlığın çirkli suyunda yaxaladı. Öpüb əzizlədiyi qızıl xaç Udvanın canından cəhənnəm əzabının hovunu çıxarırdı.

* * *

Xırmantəpə elinin ayağı yalın, başı açıq qalmışdı. Əvvəllər çiyin-çiyinə söykənən binələr, daxmalar, damlar indi birbirlərindən xeyli aralı düşmüşdü. Buludlardan nəm çəkən ləmlərin çoxu sahibsiz qalmışdı. Torpağın susuzluqdan çatçat olmuş sinəsini görüb, göylər də alnını düyünləmişdi. Elə bil ana torpağın bətnindən boy atıb cücərmiş göy-göyərtinin yanıb-qovrulması üçün çox yox, bircə gün bəsmiş ki, ulu təbiətin, insanların qərinələr boyu əlləşib yaratdıqları məhv olsun deyə gözəllik yaradıcısı suyun qəhətə çıxması – murdarlanması gərəkmiş, demə!.. Və sanki indiyə kimi insanların dönüklüyündən usanıb-bezikmiş Ulu Tanrı qərinələr uzunu damla-damla yığdığı QƏZƏBin ağrısını-acısını batman-batman ulusun başına ələyirdi. Dərd Xırmantəpə elinin yaxasını tanımışdı. Çörək qıtlığı, susuzluq kimi ağır dərdlərə indi bir DƏRD də qoşulmuşdu - didərginlər dərdi... Bir yandan qıtlığa, susuzluğa dözməyib elini-obasını köçlü-külfətli atıb gedən ağrıdırdı yurdsevərləri, bir yandan da Ağrı dağının ətəklərindən, Çuxuryurddan yağı zülmləridən baş götürüb Xırmantəpəyə gələnlərin ah-naləsi göynədirdi. Köçüb gedənlər dərd qoyurdular, köçüb gələnlər dərd gətirirdilər. Gələnlərin

çoxu qıtlığa, su qəhətliyinə dözməyib təzədən məmləkətin başqa ellərinə üz tuturdular. Gələnlərin çoxunun əli-ayağı yalın idi. Yağıların qəfil basqınından gün-güzəranlığını keçirməyə, bəd ayaqda xərclik eləməyə dirhəm axçalarını da götürə bilməmişdilər. Gələnlər ulularının, əcdadlarının türbələrini qoyub gəlmişdilər. Vətən adlı ocağı, yurd sığınacaqlı ev-eşiklərini yağılardan qoruyanlar ölüm-itimlə üzləşmişdi. Cavanlar qana bulaşmış, qol-qıçla, uşaqlar, qadınlar zülüm-zülüm ağlayan gözlə, qocalar sızıldayan ürəklə gəlmişdilər. Ağsaqqalların-ağbirçəklərin bəzən görüb söylədikləri itkilərin, dərdin dəhşətinə tab gətirməyən bağırları çatlayırdı.

El ədalət meydanında yığılıb gələnlərin dərdinə şərik çıxırdı, təskinlik verirdi: Dünya belə zülmü götürməz, Tanrı Əhrimən nökərlərinin cəzasını gec-tez verəcək! – deyə ÜMİDlə yaşayırdılar. Xırmantəpənin Qalabazarında, cıdır meydanındakı təzə bazarlarda şıdırğı alver gedirdi. Alqı-satqı yol-yolağaları zəbt eləmişdi. Gələnlər atını-arabasını, olan-qalanını bir qarın çörəyə-suya dəyişirdi, zənginlər daha da zənginləşirdi, kasıblar daha da yoxsullaşırdı. Elin DƏRDi-səri zənginlərə əsər eləmirdi. Zənginlərin sərvəti el-obaya çarə qılmırdı, tayfa başçıları öz aralarında öcəşirdilər, sərvət xatirinə bir-birindən umu-küsü saxlayırdılar, gedənlərin ardı-arası kəsilmirdi. Elin başbilənləri dərd içində başlarını itirmişdilər. Qeyrət ocağının nuru azalmışdı, ədalət meydanına yığışan cavan-comrul qeyrətdən dəm vururdu. Yumruqları düyünlənirdi, qalxırdı, enirdi. Dərd gəzdirən dərddən danışırdı, sərvət içində yaşayan alqı-satqıdan! Yurdun dərdi sərvətiylə daş-tərəziyə qoyulmuşdu. Dünyanın daş tərəzisində yurdun dərdi sərvətindən, sərvəti dərdindən ağır gəlirdi. Sərvət də, Dərd də yurdunkuydu, di gəl ki, Sərvət sərvətsevər adamların əlindəydi, Dərd yurdsevərlərin... Sərvətsevər

də, yurdsevər də bir YURDun balalarıydı. Amma aralarında uçurum yaranmışdı, getdikcə dərinləşən böyük bir UÇURUM! Uçurum qorxulu durum idi, təhlükəli keçid idi. Arada keçilməzlik dərdi dərinləşdirir, əlacsızlaşdırırdı.

Ədalət meydanı alaqapısını dərdə açmışdı. Meydana yığışanlar Ağrı dağından gələn yaralı didərginlərə madar elədikləri yavanlıqlardan yedirib, su içirdirirdilər, yaralarına məlhəm qoyurdular. Ağsaqqallar yığnağında oturanlar didərgin ailələrin ağsaqqalı Qaryağdı dədəylə dərdləşirdilər, yağıların şəhid elədikləri igidlərin ruhunu yad eləyirdilər, ağbirçəklərin yığnağında üç igid oğlunu gözləri qarşısında yağılar rəhmsizcəsinə nizələrə keçirdiyini Nənəş qarı ağı deyə-deyə Ağca nənəyə, İntizar qarıya, Bağdagül nənəyə, Selcan nənəyə söyləyirdi. Dul gəlinlərin yığnağında ərini, oğlunu itirən Rizə xatun yağıların gəlin-qızları atdöşü eləməyindən, hamilə qadınları qılıncdan keçirməyindən danışırdı.

Gün günortadan əyiləndə meydanın alaqapısından içəri ayaqları yalın, saç-saqqalları kirlənmiş yeddi cavan girdi. Hamı ayağa qalxdı, gələnlər tanınmaz kökə salınmışdı, bir neçəsinin baş-gözü sarıqlıydı, tikan batmış ayaqlarını güclə sürüyürdülər.

Gələnlər Bahar bayramından sonra Şörəyelli, ələyəzli didərginləri Eşşəkmeydandakı qaçaq-quldurdan qorumaq üçün yollanan Xırmantəpə elinin igidləriydi.

Analar vay-şivənlə övladlarının qabağına çıxdılar, deyikli qızlar igidlərin halına için-için ağladılar, ağbirçəklər saç yoldular, üzlərini, sinələrini, dizlərini döyəclədilər.

Gələnlərin arasından Şamurla Yağmur ağsaqqalların yığnağına sarı yollandılar.

-Gözünüz-görkəminiz bizə qəlbinizdəkilərdən soraq verir. Danışmasaz belə bu qədər yubanmağınızdan dalağım sancmışdı... – Bayandur babanın qəmli səsi sükutu pozdu.

Yağmur Şamura, Şamur da Yağmura baxdı.

-Bizim heç bir günahımız yoxuydu, arabaları ötürüb qayıdanda yolumuzu kəsdilər, dörd yandan bizi arakəsməyə saldılar. Atlarımızı, yaraq-yasaqlarımızı istədilər, vermədik, sonra əlbəyaxa olduq olarnan, bizi qamarlayıb soyuq zindana saldılar.

Şamur ağsaqqalların üzünə dik baxa bilmirdi. Ona elə gəlirdi ki, günahı avazla nəğmə oxumağı olmuşdu.

-Olacağa çarə yoxdu. - Yağmur çinaq yoldaşına qahmar çıxdı. Ürəyindən keçənlərini duyub, ona təsəlli verdi: - Ola bilsin, bizi tülkü kimi pusurlarmış, qayıdanbaş tələ qurdular. Şamurun nəğmə oxumağı da olmasaydı, yenə tələyə düşməliydik.

-Bəs o soyuq zindandan necə qurtuldunuz? – deyə Ulu Saral cavanlardan soruşdu.

Yağmur dedi:

-Zindanda tək biz deyildik, çoxlu adam vardı, qaçaq-quldurlar onları soyub-talayandan sonra özlərini də zindanda saxlayırdılar. Ulu Zərdüştün vətəni Muğan elindən bir igid gəldi. Quldurbaşıyla söhbət elədi. Onu dilə tutdu, qızıl kisəsini verdi. Hamımızı buraxdırdı. - Ağsaqqallar bir-birinin üzünə baxdı. Ulutürk soruşdu:

-Bə o igid hayana yollandı?

Şamur dedi:

-Quldurbaşı onun verdiyi qızılların az olduğunu söyləyəndə həmin igid dedi ki, olanım budu, əgər istəsəniz məni zindana salın, təki bu qədər igidi yerindən-yurdundan eləməyin!..

-Barı onun adını öyrənə bildinizmi? – Urşan dədə heyrətini gizlədə bilmədi.

-Onun adı XİLAS Elsevəndi. Bizə görə zindana salındığını eşidəndə narazılıq elədik, o bizi sakitləşdirdi. Dedi, bu mənim borcumdu, anam məni belə işlərçün doğub!

- Xilas! Xilas Elsevən! - Azərnur öz-özünə pıçıldadı:- İgi-

din adını eşit, üzünü görmə.

- Tayfa başçılarımız xaqanlıq, hökmdarlıq iddiasındadır, onlar sərvət yığdıqca məmləkətimizdə bəla doğub törəyir. Onların qəlbi yurdun ağrı-acısını duymur, el-obasından didərgin düşənlərin taleyinə biganə qalır.

-Adamları uçuruma sürükləyən fəlakətimiz bizi həm içimizdən, həm də çölümüzdən bürüyür. İçimizdəki fəlakətə əncam çəkməyincə çölümüzdəki fəlakət bizə güc gələcək!

Xırmantərə elinin cavanları ədalət meydanını gur səsləriylə doldurmuşdular. El öz oğullarını qeyrətindən tanıyırdı. Yeddi tayfanın igidlərinə yeddi obanın igidləri qarışdı, yaylaqlardan atlanıb gələn ərənlər meydandakı igidlərin səsinə səs verdi. Qara Şadman, Səlldaroğlu[101], Sarallı Önər, Bala İsgəndər, Hamarobalı Səbir, Qoç Urud, Sarıcallı Atəş, Yanığlı Toğulca, Elcanlı Öndər, Qaraçuqlu Göyəm, Göyöküzlü Yağmur, Azadlı Şamur, Göyçəli Pəmbək, Şişqaya Becan, Yenməz Tuğay dərd əlindən usanıb-bezmiş cavan-comrulu ayağa qaldırdılar.

Azərnur irəli yeriyib onları saxladı, pəhləvicə yazdığı naməni qoynundan çıxardı:

- Qəlbinizi dilləndirən ulu Vətən eşqidi! Bu eşqlə yaşamayanın xoşbəxtliyi ola bilməz! Birliyiniz diriliyinizdi! Alqış deyirəm birliyinizə! Birlik olan yerdə YURD şad günündə də bizimdi, dar günündə də! Yurd dediyiniz torpaqdı, sudu, havadı, bir də müqəddəs ocağımızdı! Bu dörd ünsürün qədrini bilənlərin müqəddəs TUĞU heç vaxt yenilməz! Suyumuzu qoruya bilmədik. Göy üzü murdar ruhların nəfəsiylə paklığını itirib. Bizə qalan torpaqdı, ocaqdı, Tuğdu, bir də sizin kimi yurdsevərə Əcdadlardan miras qalmış QEYRƏTdi. İndi sizin qəlbiniz Elin bu dar günündə ağrıyanda, qan qardaşlarınızın çoxu məmləkə-

[101] Səlldar- siyirmə qılınc gəzdirən.

tin bazarlarında özlərinin dar günlərinə SƏRVƏT yığırlar. Sərvətsevərlikləri YURDsevərliklərini qəfəsə salıb. Göyöküzlü tayfasının başçısı Urufla, Azadlıların tayfa başçısı Toğulcadan başqa qalan tayfa başçıları xəzinəyə xeyir-şər nəzir-niyazları vermirlər. Siz ulu Vətən yolunu seçmisiniz! Ancaq yağı üstünə yalın əllə, ac-susuz getməyiniz üzünüzə məğlubiyyət qapılarını taybatay açar! Neçə gündür yurdundan qovulmuş Qaryağdı dədənin ağsaqqallarla söhbətini dinləyirəm. Yağılar nizəylə, cidayla yaraqlanıb. Bəs siz? Yoxsa siz ovucunuzun qabarı, alnınızın təriylə bir qarın çörək üçün qazandıqlarınızı YADIRĞA Teynur, YADIRĞA Keyfər, YADIRĞA Kirtər, Ecahan Bozca, Hokər Özdahan kimi tayfa başçılarının Malakanbazardan, Rumbazardan, Şeytanbazardan, İrandan, Turandan alıb gətirdikləri vəlləri, boyunduruqları, yabaları, xəlbirləri, sacayaqları, köyüzləri, kirkirələri, gil şişləri Xırmantəpənin Qalabazarından, Cıdır meydanındakı təzə-təzə bazarçalardan od qiymətinə alaraq yağı üstünə gedəcəksiniz?!

Elə bil Cıdır meydanındakı atları əcnəbi tacirlərə su qiymətinə satandan bəri mərdlik, igidlik, cəsarət, ərlik bizim tayfa başçılarından qaçaq düşdü. Kim bilir, bəlkə, yağılar bir vaxt Cıdır meydanının bəzəyi olan qızılboz, ağyal, alapaça, simurq qanadlı atlarımızı yəhərləyib Ələyəzli, Şörəyelli, Çuxur yurdlu qan qardaşlarımızı ailəliklə atdöşü eləyib, dədəbaba ocaqlarından didərgin salırlar?! Müqəddəs od-ocaqların üstünə su töküb şeytanı sevindirənlərin əcdadları köcəbə ömür keçiriblər. «Hər dəfə oda sitayiş eləyəndə yaxşı şeylər fikirləşmək istəyirəm!» Düzlük carçısı ulu Zərdüşt öncə belə buyurmuşdu öz «Avesta»sında. Onun vətəni əzəldən yaxşılıqlar diyarı olmuşdur. O buyurmuşdu: «Bütün YARADILIŞA, hər şeydən əvvəl, SÜLH və əmniyyət diləyirəm». «Ayağınızı əlinizi və ağlınızı düz iş görmək, müqəddəs

əməlləri, əmin-amanlığı yer üzünə yaymaq üçün hazır saxlayın!» Biz - Azər övladları bu müqəddəs sözləri özümüzə örnək eləmişik. Babalarımız üçün od sitayiş yeri olmaqla həm də yaraq-yasaq olmuşdu. Yağı Ələyəz, Şörəyel, Çuxuryurd və başqa ellərimizdə ocağımızı söndürüb, silahımızı əlimizdən almaq istəyir. Baxın, gördüyünüz naməmdə Böyük Xaqanımıza bu qorxunc bəlanın kök-köməcini açıqlamışam! Qoy sizlərdən biri bu naməni Əfşərana çatdırsın!

Bayandur baba dedi:

-Əzəldən ağsaqqala sayğı, onun sözünə baxmaq, dediyini göyərtmək elimizin ən ulu gənəşəyi, ümid yeri, adət yatırı olub! Çox vədə tələskənlik bəlanı dərinləşdirir, SƏBR edin! Bahar bayramından sonra Qızılqoç tayfalarından ilk didərginlər gələndə yaxınlıqdakı hökmdarlara çapar göndərib soraq yetirdik. İntəhası onlar indiyəcən yaraq-yasaqları ola-ola fil qulağında yatıblar. Barı elçi göndərib yağıların işxanını[102] agah eləyəydilər. Buyurdum ki, tələskənlik bəlanı dərinləşdirər, amma bu sayaq hökmdarların gecikdiyindən də bəla böyüyür, müsibətlər qol-budaq atır. Odur ki, təvaxül eləyin, biz hörmətli Azərnurla Akunktəpəyə[103] yola düşüb köçəbə yağı tayfalarının işxanıyla özümüz elçi təki söhbətləşərik. Onacan TAXIL almağa, su gətirməyə, arx çəkməyə gedənlərimiz də qayıdıb gələr! Savaş tutmaq, qan tökmək ÜMİD yeri olmayanda, çarəsiz qalanda son, həm də bizim istəyimizlə baş verilməyən yol olacaq! Ulularımız da savaşa-qovğaya naçarlıqdan qoşulublar.

Tayfa ağsaqqalları Urşan dədə, Ulu Saral, Ulutürk Ağbaba, Bozyel, Basarkeçər, Dondar qağa cavan-comrula öyüd verdilər. Gənəşəkli don gen olar dedilər, xeyirdə-şərdə yeddi ölçüb, bir

[102] İşxan – tayfa başçılarının hakimi.

[103] Akunktəpə – Göyçə gölü ətrafında qədim yer. "Avesta"da insanlar arasına nifaq salan Əhrimənin nökəri olan Divin adı Akunank olub.

biçərlər. Bəlkə, TALE insan ömrünə qocalığı, ululuğu, ona görə bəxş eləyib ki, öyüd-örnək timsallı yetənəkləriylə dağdan ağır işlərdə elin-obanın gərəyi olsun! Yurddaşlar ağsaqqalları dinlədikcə yağılara, Eşşəkmeydandakı qaçaq-quldura sarı atlanmış qəzəbin cilovunu çəkdilər. Ağsaqqallar sözünü qulaqardına vuran tayfa başçılarından söhbət düşəndə Ulutürk dedi:

-Ulu sözünə baxmayan uluya-uluya qalar. Bir Udvan itdi, yerində beş Udvan bitdi. İşdi-şayəd, yağılar, qaçaq-quldurlar cızığından çıxsa, ac-susuz günlərimiz qovğalı günlərimizə qarışacaq! Bu vədə zənginlərin sərvətini zorla olsa da, əllərindən alıb elin-obanın müdafiəsi üçün igidlərin yaraq-yasaqlarına sərf eləməliyik. Sərvət xalqın imdadına çatmırsa onda o sərvət deyil, əfi ilandı, əcdahadı, arxların qabağını kəsmiş divdi. Belə sərvət sahibləri insanlara aclıq-yoxsulluq, susuzluq gətirən şər əməlli Əhrimən nökərləridir.

Xırmantəpə elinin şər vaxtı yaxınlaşırdı. Ədalət meydanına ağır-ağır qaranlıq çökürdü, hamı qarşıdan gələn zülməti görürdü. Qatı zülmət göz qabağındaydı, insanları qapqara ağuşuna basdı, bir azdan insanlar gecənin zülmət qaranlığında ev-eşiklərinə, həyət-bacalarına dağılmışdı. Meydana gətirdikləri dərdi indi də meydandan evlərinə daşıyırdılar. Amma aysız-ulduzsuz gecənin qoynunda qorxa-qorxa addım atırdılar. Qorxu insanların gözünün odunu almışdı. Yıxılmaq qorxusu! Bu cürə qaranlıqda onlar dibsiz uçurumlara da yıxıla bilərdilər. Yol-yolağalar da elə bil qəsdən uzanırdı. Yol-yolağalar, dalanlar, döngələr indi darısqallaşmışdı, dar köynək kimi dağılmışdı. Yol-yolağalığın irili-xırdalı çala-çuxurları da elə UÇURUMa bənzəyirdi. Yolçular, yoldan ötənlər zülmət gecədə elə bil uçurum üstündən çəkilmiş kəndiri tuta-tuta gedirdilər. Yıxılanların ƏLİ-AYAĞI elə bil kəndirdən üzülürdü.

_____*Dördüncü fəsil*_____

«İnsan heyvanla Üstinsan arasında gərilmiş bir ipdir. Uçurum üstündə bir ip».
«Zərdüşt belə söyləmiş» kitabından.

Yer üzünün Əhrimәni – ərməni,
İnsanlığın düşmənidi, düşməni!
Ş.Sədi

UÇURUM

...Ana Göyçənin dupduru göy gözünü murdar ruh sanki kor eləmişdi. Xırmantəpə elinin halına ağlaya bilmirdi ki, dərdini-qəmini yusun, torpağın min yerdən açılmış yaralarına məlhəm qoysun! İndi dünyaya mavi səma boyda göz lazım idi ki, Xırmantəpə elinin dərdinə ağlasın! Şimşək çaxdırsın, yağış yağdırsın!

Çobansız sürülərə canavarlar pərənlik salmışdı. Camışlar, inəklər naxırçısız qaldığından hara baş aldı, ora gedirdilər. Bir vaxtlar dağlarda – daşlarda qamışlığın dərinliyində ulaşan çaqqallar, tülkülər indi obaların qırağında səs-səsə verirdilər. Xırmantəpənin ətəyindən həyət-bacalara soxulurdular. Ac-susuz itlərin, pişiklərin çoxu çöllərə- biyabanlara sarı üz tutub başlarını girləyirdilər. Həyət-bacalardakı hinlərə ayaq açan tülküləri qabaqlarına qatıb qovan tək-tük it qalmışdı. Ulus yetimləşdikcə öv lüm qaranlıq mağar kimi ağzını açmışdı. Elin-obanın qoyunu, quzusu, malı-qarası, adamları yavaş-yavaş qeybə çəkilirdi. Ədalət meydanındakı daşların duruşundan qəmginlik yağırdı. Qız daşının göz yaşları quru-

muşdu, daha daş ovucuna damcılar axmırdı. Ağca nənə Sirdaşla Qız daşının həndəvərinə yığışmış uşaqlara aclıqlarını-susuzluqlarını unutdurmaq üçün nağıl, rəvayət, olmaca danışırdı.

-Ulu nənəm nəql eləyərdi ki, qədim əyyamlarda gözəlgöyçək el qızına bir igid könül verib aşiq olubmuş. Di gəl ki, el qızının atası çox qəddarmış, ona görə o, igidi qovub, bu eldən - ulusdan didərgin salır. Qız bir dəfə gizlində könül söhbətləri elədikləri yerə gəlir, bu daşı görür. Hə, demə, oğlan daşa dönmüş bədəninə xəncərlə sirli sözləri yazıb, ürəyini oxla deşibmiş! Oxla deşilmiş ürəyi görcək qızı ağlamaq tutur. Daşdakı sirdən agah olan qız özü də daşa dönüb qalır onun yanında. O vaxtdan bu daşa Sirdaş, bunasa Qız daşı deyirlər. Qız daşı yay-qış ağlayardı...

-Qız daşı, noolar ağla, biz sənin göz yaşlarını içmək istəyirik! – deyə uşaqlar Qız daşına yalvarırdılar.

Ağca nənə uşaqlara Yurddaşı göstərdi: - O isə böyüklüyünə görə Baş Daşdı, bu ulusda ilk yarandığına görə ona Babadaş deyirlər, Yurddaş da!..

- Ey yeri-göyü yaradan ulu Tanrı, bu uşaqlara rəhm eylə, ulusumuza mədəd göndər!.. – İntizar qarı əllərini göyə açıb, dualar söylədi: - Ey müqəddəs Tiştar ulduzu, qızıl yüyəndi, qızıl yəhərli atını min! Çapıb qara buludların bağrını yar, elimizə yağış ələ, tifillərimizə su bəxş elə! Qara donlu, qara qəlbli, xain Vartanın[104] başında şimşək çaxdır, bağrı yanan torpaqlara yağış yağdır!

Selcan nənə söylədi:

[104] Vartan – Varitra (av). – yağışı gizlədən, oğurlayan qara bulud.

Tanrım göydən baxsana,
Çaxmağını çaxsana.
Buludları yarsana,
Yağışlar yağdırsana!

Bağdagül nənə ağlamsına-ağlamsına dilləndi:

- Ey göy çadırlı Tanrı, saçlarımı yaşımın bu çağında qarşında açıb həşən eləyərəm, ayağımı yalın qoyub, yeddi qapı düşüb dilənərəm, yeddi gün – yeddi gecə ac-yalavac qalaram, əhdimi pozub, yalan söyləsəm, zavalına gəlim qoy. Bu eli aclıqla-susuzluqla sınağa çəkmə!.. Yağı qabağında bizi aciz qoyma!..

Didərgin Nənəş qarı ağı dedi:

Ağacda xəzəl ağlar,
Dibində gözəl ağlar.
Oğlu ölən analar
Sərgərdan gəzər, ağlar.

Narınc xatun da Nənəş qarıya qoşuldu:

Bostanda tağım ağlar,
Susuz yarpağım ağlar.
Nə qədər sağam ağlaram
Ölsəm, torpağım ağlar.

Xırmantəpə elinin gün-güzəranı susuz dəvə karvanı kimi baş alıb beləcə gedirdi. Gecələr başının üstünü müsibət kəsdirmiş, ayağı yalın qalmış elin içini dərd oyurdu, barını-bərəkətini çöl-bayırdan sehrli küləklər sanki göyə sovururdu. Haramxor, oğru əllər halal qismətini – duzunu-çörəyini, su-

yunu götürüb harasa aparırdı. Halalına haram qatıldıqca adamların nəfəsi də təntişirdi. Bağçaların ətirli gülləri saralıb-soldu, həşəm oldu. Elə bil Hic[105] çökəkliyindən qopub gələn sehrli küləklər el-obaya boğucu kəsafət iyi yaymışdı. Bağlardakı bülbüllər səsini içinə çəkmişdi. İndi orada qarğalar qarıldaşırdı, sağsağanlar oynaşırdı. Gündüzlər camaat ədalət meydanına yığışıb dərdləşirdilər. Bir-birinə «pis günün ömrü az olar» deyə təsəlli verirdilər. Uşaqlar meydan divarlarına, ağaclarına dırmaşıb taxıl, su gətirməyə gedənlərin getdiyi Ümid və Ağ yollara boylanırdılar. Yollarda ilğımlar qırçın sular kimi işarırdı. Paxla, günəbaxan, yemiş, qarpız, şamama tağları susuzluqdan pörşələnmişdi, yetişmiş boranılar su həsrətindən partdaq-partdaq olmuşdu. Əkinəcək yerlərini lax yumurta iyi bürümüşdü.

Elə bil bəd əməlli Əhrimən öz nökəri PİRİZ[106] divi Xırmantərə elinin Güllüdüzünə, Acıdüzünə, Qobusuna, Qumlu bazısına, Ağçalasına, bağ-bostanlarına göndərmişdi. Kol-kosları, yemliyi, quzuqulağını, quşəppəyini, köməci də öz zəhərli nəfəsilə murdarlamışdı. Uşaqlar südqanqallarını, adamgöbələklərini tamarzı-tamarzı gəzirdilər. Zəmixəndəyinin döşündə küyənçilər[107] yeddi çanaqlıq buğda zəmisini göz bəbəyi kimi qoruyurdular. Dən dolu sünbülləri dimdikləməsin deyə sərçələri cıvcıqlarla, zəngçalan uyuqlarla hürküdürdülər. Uşaqlar küyənçilərə həvəslə kömək edir, atılıb-düşür, hay-küy sala-sala aclıq-susuzluq qəm-qüssəsini yaddan çıxarırdılar.

[105] Hic- “Avesta”da insanlara aclıq, kasıblıq, fələkət gətirən divin adı.
[106] Piriz – “Avesta”da otlara, bitkilərə zəhər qatıb, canlıları məhv edən div.
[107] Küyənçilər- qaravolçular

* * *

Elçi kəmərlərinə yeddi düyün vurub, yeddi kərə Qeyrət ocağının başına fırlanıb atlanmışdılar. Xırmantəpə elinin qoçaq cavanları el atası Azərnuru, el ağsaqqalı Bayandur babanı, tayfa ağsaqqalı Ulutürkü Dövran yolu ilə Akunktəpəyə sarı ötürürdülər. Yol uzandıqca uzanırdı, çox vaxt qıvrılaqıvrıla dağların-daşların arasından keçirdi. Yol bəzən də paklığını itirmiş Ana Göyçənin qırağıyla gedirdi. Atlar fınxırıb göy sulara döyükə-döyükə qulaqlarını şəkləyirdilər. Yaşıl təpəciklərdən qamışlıqların arasında, alçaq kolların yaxınlığında üzən qu quşları göründülər. Balıq yeməkdən doymuş qarabattaq quşları özlərini qumlu-daşlı yovşanlıqda günə verirdilər. Yeddi ağac yol gedəndən sonra gəlib nəhəng bir təpəyə yetişdilər. Təpənin üstündə QARA MONASTIR görünürdü.

Divarları təzə hörülmüş, kürsülüyü çay daşından tikilmiş monastırın həyətində şənlik vardı. Amma bu şənlik məbəd bayramlarına bənzəmirdi. Təzə tikilmiş Qara monastıra gələnlər qurbanlar gətirirdi. Rahiblər onları görcək irəli yeriyib mehriban qarşıladılar, itaətkarcasına gülümsədilər. Monastırın qönçə naxışlarla işlənən palıd qapısını Xırmantəpə elindən gələn elçilərin üzünə açdılar.

Monastırın içərisi bahalı kürsülərlə, taxtlarla bəzədilmişdi, taxta döşəməyə xovlu Qarabağ xalçası sərilmişdi. Xalçanın naxışları sirlə dolu bir aləmdən soraq verirdi. İlmələr elə bil zindan əzabından yaranmışdı, qoz qərzəyindən çeşnisi boyanmış qara yerlikli xalçanın ortasında çıraq yanırdı, çırağın altında saxsı piyalələr, mizraqlar, onların arasında qəfəs, qəfəsin içində qızıl güllər təsvir olunmuşdu. Kənar haşiyədəki yeddiləçək güllər-bülbüllər ağ və qara yerlikdən qəfəsə boylanırdılar, qıraqdan ağ naxışlar ağ cığırlar kimi gəlib qə-

fəsin yanından keçirdi. Xalça elə bil qaranlıqda bahar həsrətindən, işıq möhnətindən yaranmışdı... Xırmantəpəli qonaqlar bir şeyi özlərində yəqin elədilər ki, xalça qarabağlı qız-gəlinlərin əlindən çıxsa da, oralarda toxunmamışdı. Bayandur babayla Ulutürk xalçaya baxıb fikrə getmişdilər. Azərnur isə divardakı yarıçılpaq qadın təsvirlərinə baxırdı.

Daş arakəsmədən içəri üç-dörd adam girdi. Onlardan ən yaşlısı başına alınlığında xaç şəkilli tac qoymuşdu. Əyninə zərli kaftan geymişdi, əlindəki əsası qızıl suyu ilə naxışlanmışdı:

- Hər nə pərəstlər xoş gəlib, ya xaçpərəst, ya işıqpərəst, hamısına salam olsun! – deyə gələnləri əyləşməyə dəvət etdi. Qonaqlar və İşxanla gələnlər xalçanın qırağındakı qara məxmər kürsülərə əyləşdilər.

İşxan:

- Bu adamlar bizim azqapetlərimizdi[108], hörmətli... – (bu zaman yanındakı adamlardan biri onun qulağına nəsə pıçıldadı) – Azərnur! – deyə əlləriylə yanındakı adamları göstərdi.

Azərnur:

-Xırmantəpə elinin ağsaqqalları Bayandur baba və Göyçəli Ulutürk! – Özü ilə gələnləri nişan verdi.

Bu vaxt içəri əllərində gümüş məcməyilər tutmuş dörd Hiyeredul[109] qadın girdi. Azqapetlərdən birinin işarəsi ilə onlar gətirdikləri nemətləri süfrələrə düzdülər. Qadınların divardakı təsvirlərə oxşarlığı vardı. Kişi dünyasının hər üzünə bələd olan belə qadınları görcək Azərnur «Avesta»dakı Drunasların barəsindəki hekayələri xatırlayırdı. Elə bil həmin pis ruhlar gözəl qadın cildinə girmiş, məmləkətin hökmdarlarını yoldan çıxara-çıxara şirnikləndirici bədəni, işvəkar söhbətləri

[108] Azqapet –tayfa başçısı.

[109] Hiyeredul- burada: məbədlərə irsi mülkiyətilə bağlı qul.

ilə günlərin bir günü onu da düz yolundan sapındırmışdı. Ona elə gəldi ki, Sevan Ana Göyçədə boğulmamışdı, bu hiyeredul qadınların arasında yaşayırdı. Mən sənin nifrətini qazanmışam! – deyə sevinir, anasının, qardaşlarının susuzluğu-aclığı daha onun eyninə gəlmir.

...Monastırın həyətində gur gülüş sədaları eşidildi.

- Əvvəllərdə bu yerdə atəşpərəst məbədləri ucalardı. Dədə-baba ocağının söndürülməsi günah sayılardı. – Bayandur baba araya çökmüş sükutu pozdu.

- Bir vaxtlar Sasani hökmdarı Yəzdəkert Zərdüş dinini bizə zorla qəbul elətdirdi. Kahinlər atəşpərəstliyi qəbul etməkdən boyun qaçıran kişiləri edam, qadınları qul eləyirdilər. Onda bu yerlərdə çoxlu atəşpərəst məbədləri tikilmişdi. Hətta xristian məbədlərinin mehrablarında atəşpərəstlər od yandırırdılar, ibadətxanalarımızı atəş evinə döndərdilər, – deyə İşxan sınayıcı nəzərlərlə Azərnura baxdı.

- Hörmətli İşxan, atəşpərəstlik xristianlıqdan dörd-beş qərinə öncə yaranıb. Onda bu yerlərdə Sasani hökmdarlarına qədər, görəsən, hansı din olub? Bir də Zərdüşt əzəli din yaratsa da, zorakılıq tərəfdarı olmayıb! Sasani hökmdarları Zərdüşt dinindən güc kimi bəhrələndilər. Odur ki, bu yerlərdə kilsə, monastır dediyiniz atəşpərəst məbədlərindən çox-çox sonra yaranandı. Elə yenicə tikdiyiniz bu monastır da keçmiş məbədgahın yerindədi, lakin siz onun qapısına Nuhun mücrəsini həkk eləməklə bildirmək istəyirsiniz ki, bu, çox-çox qədim dövrlərin yadigarı olan bir tikilidi!

- Lakin xaça ibadət eləməklə biz öz ocaqlarımızın odunu daha yaxşı qoruya bilirik! – deyə İşxan dilləndi.

- Əcəm padşahı Ərdəşir Babəkan[110] buyurmuşdu ki, din

[110] Ərdəşir Babəkan- Sasani sülaləsinin (226-651) banisi Sasanın oğlu, Babəkin nəvəsi, əcəm filosofu.

və ölkədarlıq iki sirdaşdır. Hərəsinin də tamlığı o birindən asılıdır. Din qaydadır... İsgəndər bu yerlərdə tayfalar hakimiyyəti[111] yaradanda dinin bünövrəsi üzərində ucalan ölkədarlıq sütunlarını laxlatdı. O vaxtdan bu məmləkətlərdə taxt-taclara sahib çıxan adamların işi-peşəsi sərvətsevərlik oldu. Sərvətsevərlərə camaatın taleyi oyuncaq görünər! Bu torpaqlardan didərgin salınanlar da sərvətsevərlərin qurduqları hiylənin qurbanı olurlar. Gəlişimizin əsas məqsədi də budur.

- Onların baş götürüb getmələrini istəməzdik. Ancaq indi bizə daha güclü din gərəkdir! Sizinkilərsə bunu bəyənmirlər, - deyə azqapetlərdən biri söhbətə qoşuldu...

- Hukəmalardan biri buyurmuşdu ki, Qamçı olan yerdə çomaqdan, toppuz işlədilə bilən yerdə qılıncdan istifadə etməzlər! Ayağı yalın, başı açıq didərgin saldıqlarınızın çoxu qılınc, ox, nizə yarasından ölür. – Ulutürk də söhbətə qoşuldu.

- Sizinkilər ağına-bozuna baxmır, ağızlarına nə gəldi üyüdüb-tökürlər, onlar deyirlər ki, guya, təzə peyğəmbərləri dünyaya gələcək, dünyanı sar-sahmana salıb, adamlara xoşbəxtlik gətirəcək. Bizimkilərsə deyir, dünyanın ölülərə nəfəs verərkən diriltdiyi İsa peyğəmbərindən qüdrətli peyğəmbər yoxdu. Ola da bilməz! – deyə azqapetlərin o birisi də söhbətə qoşuldu.

- İnsanlar yalnız zülm və zillət qabağında aciz olanda Tanrıdan mədəd umub, peyğəmbər doğulacağını gözləyirlər! Amma insanlar heç vədə zor gücünə bir-birlərinə din qəbul etdirə bilməz! Vaxtilə bu torpaqda yaşayanlar Roma sərkərdəsi Pompeyə qarşı birlikdə vuruşublar. İndisə güclü dinə arxalanmaqla siz bu torpaqları əzəli sakinlərinin öz qanı ilə suvarırsız! – Azərnur heybətli bir səslə dilləndi.

[111] Tayfalar hakimiyyəti – feodal hakimiyyəti (bəylik-xanlıq, bəylərbəyilik)

- Vaxtilə çox şeylər olub bu dünyada, hörmətli Azərnur! Qan qardaşlarınız tayfadaşlarınız Urartudan bizim tayfaları didərgin saldı. Dudu[112] deyə qadınları zorla əsir aldılar. Canını əllərindən qurtaran əcdadlarımız bu yerlərə gəldi. Azlığımız həmişə faciəmiz olub. Türklrər, yunanlar, romalılar, sasanilər qənim çıxıb bizə tarix boyu. İndi vaxt-vədə yetişib, biz öz təmiz qanımızı yaratmalıyıq. Böyük nüfuz sahibi sayılan sasani kahinləri dövründə qanımızı yad qanına calaq eləyiblər.

İşxan sözünə ara verib, piyalədəki şərabdan bir qurtum aldı:

- Güclü nəsil törətmək, güclü dinə tapınmaq, güclü arxa tapmaq! Bu, bizim məsləkimizdi,-dedi.

- Elə buna görə də siz qadından dilək kimi istifadə edirsiniz? Hetera və hiyeredul qadınlar əslində dünyaya insan yox, insanlara qənim kəsilən Əhrimənə bənzər övlad gətirir! Bu ki ağılsızlıqdı!

- Ağıllı adamlar yaşayış üçün həmişə əngəl olublar. Bir də hörmətli Azərnur, siz təbiətin işinə nahaq qarışırsınız, canlılara doğub-törəməyi qadağan etdirə bilməzsiniz!

- Nəsil törətmək üçün qadağa yoxdur, əksinə, nikah və məhəbbət insanlara özünü saxlamaq, nəslini qorumaq üçün gərəkdi.

İşxan başını buladı.

- Yox! İnsan nəslinin bu cür artımı korafəhimlikdi. Bəzən də güclü və öz el-obasını sevən bir əri bir qadına urcah etməklə vur-tut ömrü boyu özü kimi beş-altı igidin dünyaya gəlməsinə vadar eləmək cinayətdi. Halbuki o ər dediyimizdən yüzlərlə igid dünyaya gələ bilər! Ancaq nikah dediyin

[112] Dudu –erməni qadını (türk deyimi)

onun yüzlərlə uşaq törətməsinin qarşısını alır, kişiliyini ailə zindanında çürüdür.

- Bu çitəmə döllərdən törəyənlər özünüzə qənim kəsilməzmi? – deyə Bayandur baba soruşdu.

- Bizimkilər bir-birini bütün tayfalardan çox sevir! Bu bizə düşdüyümüz tale burulğanından çıxmaq üçün gərəkdir. İndi güclülərin zəmanəsidir. Bu yaxınlarda Girdimandan kalankatlı Movsesdən namə almışam. Yazır ki, ərəb tayfaları təzə din yaradıblar: İslam dini. Bu yaxınlarda İrana hücum eləyiblər. Bizans imperatoru Heraklisə də onlar namə göndərib İslam dinini qəbul eləməyə çağırıblar. Sizin məmləkətdə parçalanmaya bel bağlaya bilmərik. Odur ki, özümüz güclü sərkərdələrimizi yaratmalıyıq, güclü dinə arxalanmalıyıq!..

- Tanrı özü rəhm eləsin! Din qovğasından dəhşətli qovğa tanımır dünya! Diləyimiz budur ki, dünyanın belə vədəsində biri-birimizə qənim kəsilməyək! Zindanlardan azad eləyin əsirləri, uşaqlarla, qadınlarla işiniz olmasın! Qoyun onları rahat yaşasınlar!

- Biz heç kimi əsir almamışıq, kim istəyib özü köçüb gedib, qalanı indi də bizimkilərlə bir yerdə yaşayırlar!

Bayandur baba əlini aralarındakı xalçaya uzatdı:

- Bəs bu xalçanı toxuyan qadının necə, zindandakı aqibəti, bəlkə, əfsanədi, nağıldı?

İşxanla azqapetlər bir-birlərinə baxdılar. İşxan üzünü Bayandur babaya tutub dedi:

- Bu qadının taleyindən sizə kim soraq verib?

- Tanrısı! Və onun kimi nə qədər əsir saxladığınız qadınlar var, hamısının inandığı müqəddəs, ilahi bir varlıq! Nədən hamınız hallaq-bullaq oldunuz? Buyurun, onları azad eləsinlər, hörmətli İşxan!

İşxan çarəsiz qalıb başı ilə azqapetlərdən birinə işarə ver-

di. Badımcanburun azqapet dik ayağa qalxıb qapıya yan aldı. Ulutürk dilləndi:

- Eşşəkmeydanındakı zindanda Xilas adlı bir igidimiz saxlanılır! Qoy hörmətli İşxan oranın başçısına bir namə göndərsin, onu azad eləsinlər!

- Siz bizi Eşşəkmeydanındakı qaçaq-quldurlara tay eləməyin, biz onların işlərinə qarışmırıq! – deyə İşxan cavab verdi.

- Hər halda onlar sizin Hayas tayfalarındandı! - Azərnur söylədi.

- Bu qədər onların törətdiyi pis əməllərə daha göz yumduğumuz yetər! – Ulutürk qəzəbini boğa bilmədi.

- Ulu Zərdüşt bütün yaradılışa sülh və əmniyyət diləyib! Bu dünyanın minbir bəlası, dərdi-səri var! Aclıq, susuzluq, xəstəlik, zəlzələ, tufan, covğun insanlar üçün fəlakətdirsə, bu yersiz savaşlar, qovğalar nəyə gərəkdi? – Bayandur baba İşxandan soruşdu.

- Bizimlə sizin aranızda bölünməz malımız yoxdur! Ancaq içimizdə malağanlı casuslar qarışıqlıq salırlar. Slavyan tacirləri bu yerlərin sərvətinə aşiq olublar, sizin torpaqlarınızın hər qarışı qızıl kimi qiymətlidir. Hələ qədim Midiya yağınızı, Qarabağ mərmərini, Əfşəran zeytununu, qara cövhərini, Muğanın, Şirvanın yununu demirəm! Bazarlarınıza slavyan tacirləri, malağanlar xeyirliyə gəlmirlər! Baxın, məmləkətiniz axır çağlar xeyli gücdən düşüb, xırda hökmdarların yiyəşkənliyi üzündən adamlarınız ayağı yalın qalıb!

- Hörmətli İşxan, bəlkə, başmaqçılarımızın onlara köməyi gərəkdi? – deyə bic-bic gülümsünən azqapet qonaqlara baxdı.

- Eşitdiyimizə görə, indi sizin başmaqçılar öz dədə-baba peşələrini yadırğayıblar. Onlar daha çox yaraq-yasaq qayırmaqla məşğul olurlar, – deyə Azərnur əsasına söykənib aya-

ğa qalxdı. Bayandur baba və Ulutürk də dikəldilər.

- Hörmətli qonaqlar uzun yol qət eləyiblər, ancaq süfrəmizin nemətini dadmadılar.

- Süfrələrin ən gözəl neməti sülhdü, əmin-amanlıqdı! Elə sanırıq ki, bu gün hər birimiz həmin neməti az da olsa dada bildik! - Azərnur dilləndi.

İşxan da yanındakı azqapetlə ayağa qalxdı və dedi:

- Qoy pərvərdigar özü araqarışdıranların ürəyinə rəhm salsın!

Azqapet dedi:

- Cəngə girib, savaş tutmaq, qovğalar eləmək biz qonşu tayfalara yaramaz!

Ulutürk ona tutalı cavab verdi:

- Savaşdan, qovğadan söz düşəndə qədim bir məsəli xatırlayıram: «Ərəb türkün, türk rumlunun, rumlu da ərəbin qarşısında dura bilməz!» Dünyanın bu hikməti pozulsa bilin ki, şeytanın ucbatından olub!

...Qara monastırın həyətində onlar zindandan azad olunmuş yeddi nəfər qız-gəlinlə rastlaşdılar. Üz-gözləri, geyinəcəkləri pis hala düşən qız-gəlinlər onları görcək sevincdən ağlaşdılar.

* * *

- Yeddi bicəkçə su gətirin! Eşşəklərin başını yuyun![113]

Körpə uşaqlar və qocalar üçün ehtiyat saxlanmış çəlləkdəki suyla bicəkçələri doldurub eşşəklərin başlarını yudular.

O gecə hamı ümidlə yatdı, səhəri ümidlə açdı, yenə yağış yağmadı. Qadınlar eşşəklərin başını yuduqları suya heyfsləndilər. Eşşəklərsə inəyi, camışı, qoyunu-quzunu azalmış

[113] Quraqlıq vaxtı yağış yağsın deyə, eşşək başı yumaq Azərbacyanda ən qədim ehkamlardan biri olub.

el-obanı gəzib dolaşır, istədikləri vaxt anqırırdılar. Başları tər-təmiz yuyulsa da bunun adamlara zərrə qədər xeyir verməməsi heç veclərinə də gəlmirdi. Çöl-bayırda, el-obada kim hara üz tuturdusa eşşəyə rast gəlirdi. Adamlar bu uzunqulaqları qurumuş arxın çipçipə sucaq yerlərində gah ağnaşan, gah da Xırmantəpənin Qumlu bazısı həndəvərində görürdülər. Qobudan və Qumlu bazıdan camış, inək cəsədlərinin iyi gəlirdi. Vaxtilə kövşənniklərin sucaqlarında bir yerdə ağnaşdıqları kimi, indi də cəsədləri burada yan-yana ağarışırdı. Elə bil ölü cəsədlər ağarmış dişlərini göstərib məmləkətin bütün eşşəklərini ələ salıb gülürdülər...

Uşaqlar Qumlu bazını, Qobu ətrafını gəzib-dolaşır, heyvan leşlərinə qəribə uşaq marağı ilə baxırdılar. Ağ sümük yığnaqları göydəki bulud topasına bənzəyirdi. Uşaq ağılı ilə qobuya Ağ Qobu dedilər və elə bil dərk elədilər ki, Tanrı Qumlu bazını, Ağ Qobunu da leşlər üçün məskən yaratmışdı. Axı onların fikrincə Tanrı qabaqcadan bilirdi ki, bu ulusun mal-qarası ağır xəstəliklərdən tələf olacaq!

Bu uşaqlardan yaşca balacaları meydanda ən uca ağaclara dırmaşaraq həmişəki kimi üzlərini Savalana sarı tutub, Tanrıdan su istəyərək yalvarırdılar:

Ulu Tanrı, su gətir, suyumuz olsun!
Göy qurşağı, uzun qamçın boyumuz olsun!
Çək qara buludun qarnına, toyumuz olsun!
Yağış oğrusun öldür! Suyumuz qurtulsun!
Yağışını öpə - öpə, gözümüzə təpər olluq!
Yağıların önündə bapbalaca çəpər olluq!

Bir dəstə qız uşağı isə Tut ağacının kölgəsində, analarının yaxınlığında: - İynə, iynə, Ucu düymə, Bal-ballıca, Ballı keçi,

Şam ağacı, Şatır keçi, Qoz ağacı, Qotur keçi, Happan, Huppan, Yırıl-Yırtıl, Su iç qurtul!.. – deyə oynaşırdılar.

Balaca Gültac küsdü:

- Axı su yoxdu içməyə!

Günel də Gültacın əlindən tutub cingiltili səslə qışqırdı:

- Kov deyil, biz oynamırıq, su istəyirik, su!

Bu oyunu oynayan uşaqlardan savayı, tut ağacının altında Gültacla Günelin sözlərini eşidənlərin hamısının boğazı qurudu. Elə bil uşaqların susuzluqdan ürəklərinin pöştələndiyindən fərqinə indi vardılar. Günelin anası Gültacın anasına baxdı, hər iki ana gah uşaqlara, gah da boş qalmış səhənglərə boylandı, gözləri yaşardı. Aysu adsız körpəsini qaynanasına verdi. Bicəkcəsində qalmış suyun axır-uxurunu tayqulpa tökdü. Uşaqlar hamısı Aysuya tərəf qaçıb, onu dövrəyə aldılar:

- Mən də, mən də... su istəyirəm!

Bu vaxt meydanın alaqapısından içəri ağ dəvə daxil oldu. Üstündə oturmuş kahini hamı tanıdı, uşaqların hay-küyü kəsildi. Meydana sakitlik çökdü, kahinin heybətli səsi istinin əldən salıb yorduğu adamların qulaqlarına doldu:

- Vay, vay, bu eldə cırcıramaların, qarğa-quzğunların səsindən lap qulaq tutulur.

Qoltuğundan yaylığını çıxarıb alnının tərini quruladı. Kahinin səsi Yurddaşın kürsüsündə əyləşmiş Urşan dədəni, Ulu Saralı, Basarkeçəri, Dondar qağanı, Bozyeli, Ağbabanı, didərgin Qaryağıdı dədəni məsləhət-məşvərətlərindən ayırdı.

Urşan dədə dilləndi:

- Hə, bə səni görüb sevindiklərindən hüştürüngü çıxarırlar dana!

Kahin şəstini sındırmadı, dəvəni xıxırdıb yerə düşdü, özündən böyük xurcununu götürüb ağsaqqallara yanaşdı.

İntizar qarı ağbirçəklərin yığnağından dilləndi:

- Baş məbədə sədəqə yığmağa gəlibsən! Gəl, apar bizi, gördüyün boş qalmış həyət-bacalarımızdı, olan-qalanımız bu meydandadı, özgə nəyimiz var axı? Apar bizi sədəqə əvəzinə baş məbədə. Bəlkə, Tanrıya ac-susuz bəndələri gərək döyül!

Kahin dedi:

- O qədər af-uf eləmisiniz ki, pis niyabətinizdən yer-göy qovrulub! Bu boyda məmləkəti gəzib-dolanmışam, elə bil adamlardan bərəkət qaçaq düşüb!

Ağca nənə deyindi:

- Bu eli cürümə salanın ruhunu görüm elə Tanrı işıqlı dünyaya həsrət qoysun! Pisniyabətin yeddi arxadan dönəninə lənət!.. Halalımıza haram qatanın yurdunda bayquş ulasın!

Ağaclara dırmaşmış uşaqlardan biri soruşdu:

- Kahin əmi, əgər mən Savalanın başına çıxıb, Tanrıdan su istəsəm, o mənim səsimi eşidər, ya yox?

Hamı dönüb bu sözləri deyən oğlana baxdı. Ağsaqqallı-ağbirçəkli hamı susdu, uşaqları qınamalı deyildi, dilləri dua eləməkdən yorulmuşdu, gözləri göylərə boylanmaqdan!

Sual verən uşaq kahinin çaşdığını görüb, təzədən Tanrı dağı Savalana sarı boylandı və elə bil sualının cavabı o dağdan gələcəkdi. Dünya bulanandan, cırhacır istilər düşəndən bəri Savalanın başı aydın görünmürdü, dağın hüsnünə qatı duman tül örtük çəkmişdi.

Kahin Ana Göyçədə Sevanın boğulması əhvalatını ağsaqqallardan eşidib, uzun saqqalına tumar çəkə-çəkə fikrə getdi. Sonra xurcununu bir tərəfə qoydu, Yurddaşın qoynundakı ocağa yaxınlaşıb ofsun oxudu. Onun dediklərindən heç kim bir şey başa düşə bilmirdi. Meydana sükut çökmüşdü, elə bil daşlar da, su həsrətindən qovrulan ağaclar da kahinin hərə-

kətinə göz qoyurdu. Uşaqların ən dəcəlləri divarlara, ağaclara dırmaşmışdı. Kahin ocağı üfürdü. Alov dilimləri yuxarı qalxdı, o əlini irəli uzadıb sanki odu qamarlayıb ram eləmək istədi. Alov dilimləri Kahinin çöhrəsini qızartmışdı, o, aşağı çöküb ocağın dibini qurdaladı. Alovun ağ-qırmızı dilimləri havanın boşluğunu yalayırdı. Kahin alovun rənginə baxıb başını buladı, yenə ocağı qurdaladı, rəng dəyişilmədi.[114]

Yalnız qırmızı-ağ dilimlərin arasında azacıq sarımtıl rəng gözə çarpdı. Bu zaman kahin əlini uzadıb ocağın dibindən ehmallıca köz qırığı götürdü və onu cəld göyə tulladı, köz havada uçub göy otu yanıb-qovrulmuş göyənəkliyə düşdü. Kahin cumub közün düşdüyü yeri qazdı. Qupquru torpaq onun əllərində ovxalandı və oradan qoyunun aşıqlıq sümüyü çıxdı, kahin sevinə-sevinə dilləndi:

- Ulu Tanrı çox mərhəmətlidir! Yağış göndərmək naminə sizdən bir qara və bir də ağ qoç qurban istəyir!..

Ağsaqqallar bir-birlərinə baxıb başlarını buladılar.

- Biz qurbanlar kəsmişik, ritonlarımız qanla doludur, amma hələ indiyə kimi bir çimdik yağış yağmayıb! – deyə Urşan dədə dilləndi.

- Siz el adətinə görə qurbanlar kəsibsiniz, indi isə maqın sehri tilsimi sındırmaqdan ötrü Tanrının buyruğu ilə qurban tələb eləyir, – deyə kahin israrla bildirdi.

- Hərçənd ki, biz nə əski maqlara, nə də Əhrimənin yatularına[115] inanmırıq, ancaq elimizin ağıllısından da, dəlisindən də mədəd umduğumuz bu vədədə naçar qalmışıq! – Ulu Saral ağsaqqallara baxdı.

---

[114] Qədim türk kahinlərinin inamına görə ocağın alovu yaşıldırsa, yağmura və bolluğa, ağdırsa quraqlığa, qırmızıdırsa qan tökülməyə, sarıdırsa xəstəliklərə dəlalət edir.

[115] Yatular – cadular, pis ruha qulluq edən insan, cadugər.

Urşan dədə, Ağbaba, Dondar qağa başlarını razılıqla tərpətdilər. Basarkeçər cavanlardan üç-dörd nəfərini kövşənliyə qaçırdıb, ağnaqlarda tək-tük gözə dəyən mal-qaraların həndəvərini arayıb axtarmağı məsləhət gördü. Qaçaq-quldura, qurda-quşa yem olmaqdan yayınan bir sürü qoyun Xırmantəpə dabbaqxanasının yanındakı əncir ağaclarının kölgəliyinə soxulub istidən ləhləyirdilər. Ağızlarının lüqabı qurumuşdu, dabbaqxana həyətində aşdanıb, neçə gündən bəri boyanmaq üçün sərilmiş dərilərə gözlərini döyə-döyə baxırdılar. Dərilər də qoyunlar kimi təbiətin və insanların qayğısından məhrum olub, ömürlərini mürgələrə, gənələrə tapşırmışdı. Cavanlar burmabuynuz qoçların ağ və qara rəngdə, yunu pıtrağsız olanını seçib meydana gətirdilər.

Qoçların hər ikisi kəsildi. Kabab çəkilib yeyildi, hamı kahin kimi barmaqlarını yalaya-yalaya göyə baxdı. Göydəki buludlar Ağ Qobudakı, Qumlu bazıdakı mal-qara leşlərinin qabırğası təki ağarırdı. Elə bil uca göylərin sinəsindən asılıb, dünyanın, Xırmantəpə elinin iştəklərinə biganə baxıb, laldinməz dayanan buludlar ulu Tanrının buyruğundan çıxmışdı. Adamlarsa suya qənaət eləyirdilər. İndi hər qurtum suyun qədrini bilirdilər. Təbərrik kimi içdiklərinin damcı-damcı canlarına necə yayıldığını hiss eləyirdilər. Yedikləri kababdan sonra içdikləri qətrə su yanğılarını söndürə bilmədi. Kahin özüylə yola götürdüyü bir bardaq suyu uşaqlara içizdirdi. Tuman Amanın da payını içdi. Kahin bir Amana baxdı, bir də boşalmış su bardağına:

- Axşama kimi döz, yağış suyu içərsən! Yağış suyunun cana xeyri var! – deyə pıçıldadı.

Kahin bu sözləri desə də, qəlbində yağışın yağacağına şübhə etdi. Amanın başını sığallayıb Savalana sarı boylandı. Günəş dağın arxasına enirdi, uşaqlar da kahin kimi günbata-

na boylandılar. Bir cəngə bulud Tanrı dağının başından qopub ayrıldı, qızılı üfüqlərdən aşağı bəyaz zirvə göründü.

Kahin dedi:

- SAVALAN BUZ BAĞLAYIB! YOLÇUYA QARPIZ BAĞLAYIB!..

Uşaqlar da onun dediyini söylədilər:

- Savalan buz bağlayıb! Yolçuya qarpız bağlayıb!..

Böyüklü-kiçikli hamı gözlərinin qarşısına o buzu gətirdilər, xəyallarında qarpız təpəsini canlandırdılar. Buzu sındırıb sordular, qarpızı dilim-dilim eləyib yedilər, bir anlığa ürəklərinə sərinlik hakim kəsildi. Amansa qarpızın qan rəngli suyunu içdi, buz parçasını köksünün üstünə sıxdı, buz sinəsində əridi. Kababdan sonra buzu ağzında sanki xırçıldatdı, noğul kimi sordu, ləzzət duydu. Beləcə suya təşnə adamlar axşama kimi xəyallarında buz sordular, qarpız yedilər, yanğılarını söndürdülər, susuzluqlarını yatırdılar. Di gəl ki, içlərini bürümüş qorxunu yatıra bilmədilər.

...Şər vaxtı yetmişdi. Gecə göylər gümüşü düymələrini açdı, qupquru bulud köynəyini soyundu. Ay tabaq boyda çöhrəsini dərdli yerə göstərdi, indiyə kimi bu qədər parlaq görünməmişdi. İşığı gecənin qoynuna elə bil göylərin süd dolu əmgəyindən sağılırdı. O süd kimi işığı torpaq doyunca əmdi, ağaclar qurumuş budaqlarına, gövdələrinə hopdurdu, sinəsi çataq-çataq olmuş Xatın arxı içinə sümürdü, adamlar ayın nurunu bəs qədər gözlərinə yığdılar, canlarına çəkdilər, amma doymadılar! Elə bil içlərində gizlənmiş QORXU o südrəngli ay işığını gəmirib-yeyirdi, acgözlüklə udurdu, ona görə də yanğıları sönmürdü.

O gecə Amanın içində yediyi kabab özü boyda daşa dönmüşdü, yuxusu çəkilmiş gözlərindən canına yayılan ay işığının o daşı əritməyə gücü çatmadı. Xəlvətcə ayağa durub bir

şürəmələk ay işığında cığıra düşdü. Ana Göyçəyə tərəf yollandı... Gölə yaxınlaşdıqca havada sərinlik duyur, üz-gözünə həzin meh dəyirdi. Bir ağaclıq yolu nə vaxt qət elədiyini bilmədi. «Bu da Ana Göyçə!» deyə ürəyində sevindi. Bələdçi ay ondan qabaq gölə çatıb, bəyaz əksini ayna sularında çimizdirirdi. Qüzey tərəfdəki sahildən – Tryasuna bataqlığından qurbağaların quruldaşmağı eşidildi. Aman əyilib gölün qırağından horultuyla su içdi. «Ah, bu su nə sərinmiş, ləzzətindən doymaq olmur, bəlkə, axşamdan bəri ay süd kimi işığını bura sağırmış?»

Yenə sudan doyunca içdi. Əllərini suya saldı, ovuc-ovuc götürüb içdi, üz-gözünə çırpdı. Elə bil daha suyu içmirdi, ayın gümüşü nurunu sümürürdü, içinə yayılan da ay işığıydı. Düşünürdü ki, yavaş-yavaş beyni də işıqlanır. Öz-özünə pıçıldadı:

- Məgər suyu, torpağı, havanı murdarlamaq olar? Axı Tanrı bir adama görə camaatı susuz qoymaz! Yox! Qayıdıb adamlara deyəcəm ki, bu su təmizdir! Ana Göyçə murdarlanmayıb!

Suyu ovuc-ovuc götürüb göyə atdı. Ayın sudakı əksi çilik-çilik olub paralandı. «Təmizdi, içməlidi!» deyə yenə su içdi.

- «Təmizdi, gördünmü, murdar deyil, ancaq az iç!..»

Aman birdən üşəndi, tükləri biz-biz oldu. Gölün üzərində əyninə ay işığından libas geymiş bir qadın kölgəsi peyda oldu. «Yoxsa məni qara basır?» deyə Aman ürəyində düşündü. Bir-iki addım geri çəkildi.

- Sevan! Bu sənsən!-soruşdu.- Bəs deyirlər, sən burada boğulmusan?

- «Yox, mən öz qəlbimin qaranlığında boğulmuşdum, burada öz arzularıma qovuşmuşam. İndi bu göl mənimkidi! Həmişə Sevan gölu deyəcəklər bura, Sevan... »

Ağappaq kölgənin saçlarından su damcılayırdı, ayın su üzərində bölük-bölük olmuş əksindən bir neçə qadın kölgələri dikəlib bir-birinə qoşuldu. Və qurbağaların quruldaşdığı o biri sahilə sarı yan aldılar.

- Sevan, hara gedirsən? Bunlar kimdi?

- «Torumuza düşmüş balıqlar yolumuzu gözləyir! Tələsirik!»

- "Ana Göyçə gölündə balıq da var? Onda mənə balıq gətir!"

- «Ana Göyçə demə bura! Bura mənim gölümdür, mənəm buranın ilahəsi, bildin? Daha çıx get...»

Gölün ortasında əriyib yoxa çıxan, eyniylə bir-birinə bənzəyən qadın kölgələrini elə bil meh vurub uzaqlara apardı.

Aman bir ovuc su götürüb içdi, üzünə-gözünə su vurdu. Gözlərinin yuxusunu, sanki, suyla yudu, gölə baxdı. Ana Göyçənin qoynuna sığınmış ayın əksi Amana baxıb qız kimi gülümsəyirdi. Aman diksindi, ayağa qalxmaq istəyəndə içərisində ağırlıq duydu. Elə bil bayaqdan içinə su yox, təzədən daş yığırmış. Astadan inildədi, ağrı içində güclə yeridi, nəhəng bir qayanın yanından ötdü. Dikdiri qalxanda taqəti qalmadı, içindəki ağırlıq onu aşağı çəkdi. «Ana! Ana!» - deyə qarnını tutdu. Səsi daş kimi dikdirə dəyib üstünə qayıtdı.

* * *

O gecə Amanın yaşıdlarının çoxu onun kimi xəlvətcə Ana Göyçəyə cumub, susuzluqlarını yatırmaq fikrinə düşmüşdü, amma hər kəs öz içlinin murdarlanmasından qorxub, göy üzündəki Aya baxa-baxa yuxuya getmişdilər. Yuxularında yağış görmüşdülər. O yağışın altında oynaya-oynaya islanmışdılar, palçıqdan oyuncaq evciklər tikmişdilər, at düzəltmişdilər, körpü salmışdılar, arx çəkmişdilər.

(Son günlər hamı gecəli-gündüzlü məbədin Ədalət mey-

danında olurdu. Hətta yatmağa da damlarına-binələrinə getmirdilər, DƏRD elin adamlarını o qədər yaxınlaşdırmışdı ki, daha tayfa öcəşmələri, xırda-para narazılıqlar yaddan çıxmışdı).

Uşaqları səhərin şirin yuxusundan Mağmunun «Aman hey, Aman hey!» səsi oyatmışdı.

...Amanın meyidi Ana Göyçənin yaxınlığındakı dikdirin altından tapılıb məbədin Ədalət meydanına gətiriləndə böyüklər qorxu içərisində Xırmantəpənin uşaqlarına baxdılar. Anaların gözlərindəki qorxu-təlaş övladlarının gözlərinə düşdü. Qorxu özünü məsum baxışlarda dünyanın yeddi rənginə boyadı, o yeddi rəngli QORXUnun bircə adı vardı: ÖLÜM! Böyüklərin gözlərindən boylanan qorxu, uşaqların baxışlarındakı qorxunun özündən qorxurdu, çəkinirdi, sıxılırdı, uşənirdi. Böyüklər elə bil öz günahlarının qarşısında aciz qalmışdılar. Aclıq, susuzluq, yaxın obalara yağı basqınları, mal-qaraya çər düşməsi, çöl bayırdan sürülərini, naxırlarını qaçaq-quldurun yağmalaması, didərginlərin dərdi, su gətirməyə, arx açmağa, taxıl almağa gedənlərin yubanması, Hayas tayfalarının başçıları ilə sülhyana danışıqlara yollananların vaxtında gəlib çıxmamağı xoflandırırdı adamları. İndi də təzə bəlaya ürcah olmuşdular, yoluxucu xəstəliklər diş qıcamışdı onlara! Adamların gözlərinə çökmüş qorxudan baş məbəddən gəlmiş kahin bərk xoflandı, uzun təsbehini əlində oynada-oynada Ağca nənənin, İntizar qarının, Bağdagül nənənin baxışlarından özünü yayındırmaq istəyirdi.

- Ana Göyçədə boğulmuş murdar qadının ruhu pis ruhların himayəsindədir!

Ağca nənə dilləndi:

- Yoxsa, qara qoçla ağ qoçun qurbanlığı o dediyin tilsimin sehrini qıra bilmədi?

Kahin:

- Hər noy murdarlığın mayası olan pis ruhlar göyün yeddi qatınacan aləmi korruyub, müqəddəslərin ruhu el-obaya mədəd qıla bilmir!

Bağdagül nənənin köksündən yanıqlı bayatı qopdu:

Əzizim Göyçə məndə,
Göy suda, göy çəməndə.
Min il də bundan belə
Yaşayar Göyçə məndə...

Didərgin Nənəş qarı da Bağdagül nənənin səsinə səs verdi:

Elimi yağı tutdu,
Dilimi ağı tutdu.
Tanrı, bizə yol göstər,
Namərd yolağı tutdu...

Çörək əvəzinə, su əvəzinə adamları dərd-qəm tapırdı, istinin cırhacırında dərd onları xəmir kimi yoğururdu, kündə-kündə tutub təndirə yapırdı. Ümid və Ağ yollara boylanan başbilənlər neçə vaxt idi ki, haqqın yolunu gözləyirdilər. Ulu Tanrı elə bil haqqı-nahaqqa təslim eləmişdi. İndiyə kimi verilən qurbanları qəbul etməmişdi.

Ulu Saral dilləndi:

- Ana Göyçəmiz murdarlandı, ruhunu Əhrimənin ölüm divlərinə satmış qadını qoynuna aldı. Gözlərimizin önündə gölümüz əlimizdən çıxdı. İndi onu ana çağırmağa haqqımız yoxdur! O, bizim üçün ölüb daha! Qoy innən belə onun adı Qızbatan, həm də murdar qızbatan olsun!

Böyüklər başını aşağı saldı. Bir dəstə uşaq isə, sanki, Amanın qisasını almaq üçün ətəklərinə daş yığaraq:

- Gəlin, gedək Qızbatana, daş ataq ruhun satana! Ruh bizdən qorxub qaçar, suyuümuz təmiz-pak olar!.. – deyə-deyə Qızbatanın murdar ruhunu daşa basmağa yollanmaq istədilər. Cavanlardan da onlara qoşulanı oldu. Ancaq alaqapıda qadınlardan biri onların qabağını kəsdi.

Kahin saymazyana Yurddaşın ocağına yaxınlaşdı, onun qırağında diz çöküb dua oxudu:

- Ey müqəddəs od! Sənə qənim kəsilmiş Əcdahanı qəhr elə! Pis ruhlar göyləri murdarlayıb. Suyuna murdar ruh qarışmış bu ulusu bəladan xilas et! Gözəl su ilahəsini rəhmə gətir! Qoy bu elin dərdinə ağlasın! Dəyirmanlarının suyu soğrulduqca, odu-ocaqları söndükcə Əhrimənsifət yağıların göz dikdiyi bu eli bəladan hifz eləməkdə atan Hörmüzü köməyə çağır!.. İnsanlara aclıq, kasıblıq gətirən Hici, ölüm carçısı Asdavidadı, quraqlığın dostu, yağışın qənimi Apuşla Əspəncərum qardaşlarını, yalançı və ikiüzlü Mituxtu, otlara zəhər qatıb canlıları məhv eləyən Pirizlə Zirizi, cadugərlik eləyən küpəgirənlərin hamisi eləyən Kundakı[116] və onların yolunu davam eləyən insansifət dialərin məhv edilməsində Odlar yurdunun oğullarının qəlbinə od, gözlərinə işıq ver!

Kahin elə bil ondan cavab alıb göylərə üz tutdu: - Ulu Tanrı mənə kömək ol! Baş mədəbə məni əliboş qaytarma! İnsanları naümid eləmə!..

Tanrı dağı Savalandan üzü bəri məmləkətin yeddi dağının zirvələrindəki buludlar bir yerdə qərar tutmaqdan usanmaq bilmirdi. Elə bil onları zirvələrdə sehirli bir əl tutub saxlamışdı.

Kahinin bir də bu məmləkətə yağışlar yağacağına olan-qalan ümidləri puça çıxmışdı. O üzünü adamlara tutdu:

[116] "Avesta"dakı bədxah divlərin adları.

- Məni qovun, harada yıxılsam, oranı qazın!

Kahin indi Qızbatan deyilən Ana Göyçənin gündoğanda olduğunu zənn eləmişdi. odur ki, üzü günbatana sarı götürüldü. Dizinin tabı-taqəti qalmış adamlar onun dalınca qaçmağa başladılar. Adamlar elə bil kahinin yox, suyun dalınca qaçırdılar. Kahini qovduqca qovdular. Onun ötüb keçdiyi yerlər çat vermişdi. Kahin ötən gecə yuxusunda su ilahəsi Nahidi görmüşdü, ürəyində: «Əgər su çıxsa, adamlar da mənə inanar. Baş məbədə aparmaq üçün olan-olmazlarını mənə sədəqə verərlər!» - deyə düşündü. Ağçalaya çatanda özü də bilmədi nə vaxt göyün yeddinci qatında pərvaz eləyən fikirlərin qoynundan yıxıldı, ayağa qalxmağa taqəti qalmadı. Adamlar kahinin yıxılıb əzildiyini unutmuşdular. Onun ayağının ilişib yıxıldığı yulğun kötüyünün dibini qazmağa başladılar. Yer nəmliydi, amma birdən hamı quruyub qaldı, qazdıqları çaladan sarı bir ilan çıxdı, adamların arasından keçib, qındırğa talasına sarı süründü. Adamlardan biri əyilib ilanın çıxdığı çaladan bardağı götürdü. Bardağın altında rəngi gömgöy, tamı zəqqum təki su yığılmışdı. Adamlar bir kahinə baxdılar, bir də bardağa. Kahin özü də mat qalmışdı, heyrətlə ayağa qalxdı, axsaya-axsaya əlində bardaq tutmuş adama yaxınlaşdı. Bardaq adamların baxışlarına sanki dözə bilmədi, sürüşüb yerə düşdü, sındı. İçərisindəki qulplu qızıllar, daşqaşlar dağıldı. Kahin dodağının altında pıçıldadı:

- Ulu Hörmüz, ucalardan ucasan, çox şükür. Baş məbədə əliboş qaytarmadın məni!..

Adamlar:

- Tanrı Udvanı, bəlkə, ilana döndəribmiş, ilana dönəndən də sonra öz qızıllarından əl çəkmirmiş.

Hamı dönüb istidən qovrulmuş qındırğa talasına baxdı. Gözlərindəki qorxu bir az da böyüdü, qəlblərində Tanrıya

inamları bir az da artdı.

Meydanda ağsaqqallar ağır düşüncələrə dalmışdı. Kahin qızılları xurcununa yığıb, ağ dəvəsinin belinə oturdu:

- Mən sizin dərd-sərinizi Baş məbəddəki möbidlərə ərz eləyərəm,-dedi, - Qoy Akuntəpə səfərindən qayıdıb gələndən sonra elbaşı Azərnur yeddi gün, yeddi gecə müqəddəs kitabları qiraət etsin! Mübarək cavabı həmin müqəddəs kitablardan tapmaq üçün yeddi gün oruc saxlasın!

Kahin ağ dəvəni Dövran yoluna çıxarıb Savalana sarı yollandı. O gedəndən sonra meydana qəribə sakitlik çökmüşdü. Arabir bu sakitliyi təzəcə dil açan körpələrin «Ana, su ver» kəlmələri pozurdu.

* * *

Eşşəkmeydandakı zindanın bacasından süzülən gün işığında üzünü saqqal basmış cavan Xilasın da dodaqları susuzluqdan partlamışdı. Birdən qapı açıldı, qaçaq-quldurlar içəri əli-qolu bağlı bir cavan gətirdilər. Döyülməkdən cavanın üz-gözü qaraqançır olmuşdu. Quldurlar onu zindanın bir küncünə itələdilər.

- Başçınızla söhbət eləmək istəyirəm! – deyə Xilas yaraqlı-yasaqlı quldurların rəhmsiz gözlərinə baxdı.

- Nə istəyirsən? – quldurlardan biri çımxırdı.

- Su!.. Bir içim su verin mənə!

Quldurlardan biri dönüb getdi, bir az ötmüş əlində su bardağı qayıtdı. O biri quldur bardağı ondan alıb acıqlı baxışlarla yoldaşına baxdı. Sonra Xilasın gözü qabağında suyu yerə əndərdi.

Xilas dedi:

- Mən elə bilirdim ki, insan övladlarına əsir düşmüşəm! Siz Əhrimənin insansifət divləriymişsiniz ki?!

- Sus! Bəs hanı sənin xilas elədiyin o yeddi igid? Sən onların həyatını qızılla aldığın kimi, onlar da gəlib səni bizdən qızılla alaydı barı? Qızılları yoxuydusa atları, inəkləri, qoyunları, öküzləri var!

- İnsan taleyi ilə alver eləmək əskiklikdi, namərdlikdi. Tanrı bunu sizə bağışlamaz! – deyə Xilas kürəyini zindanın soyuq divarına söykədi. Elə bil içindəki susuzluğunu divarın soyuqluğuyla yatırmaq istəyirdi.

- Yoxsa sən onların özlərindən qondardıqları peyğəmbərsən? Ha! Ha! Peyğəmbərə bax... hm! – deyə suyu yerə dağıtmış badımcanburun quldur rişxəndlə güldü.

- Azər övladlarının peyğəmbəri yer üzünə gələndə hələ onda bu məmləkətdə nə çitəmə tayfalar vardı, nə sizin kimi köçəbə quldurlar, nə də xəmiri Yadırğaların çirkab sularında yoğrulmuş hökmdarlar! Zərdüşt dünyanın əzəli azman peyğəmbəridir. Onun ulu hikməti Məsihaçılıqdan[117] çox-çox əvvəl qədim yunan torpaqlarını fəth eləmişdir. Fəqət ədalətsiz hökmdarlar özgə məmləkətlərin alabəzək, çitəmə tuğlarını yuxularında görüb, yeni dinlərin fitnəsinə uyduqca öz məmləkətlərinin dərdinə yadırğıyır, dinini unudur, sizin kimilər də bundan sui-istifadə eləyib istədiyinizi eləyirsiniz.

- Kəs səsini! Əgər sənin müqəddəs adlandırdığın odun hikməti vardırsa, bəs niyə mən onu söndürə bilirəm. İnanmıram sizin uydurmalarınıza. Odlar yurdu deyə bar-bar bağırmağınıza!

- Bəs onda siz bu torpağın nəyinə vurulubsuz? Niyə torpaq birəsi kimi Azərzəmin ellərinin canına sadıf, adamlarına qənim olubsuz? – deyə Xilas soruşdu.

- Əgər biz Pont-Əksin[118] sahillərindən Hirkan sahilinəcən

[117] Məsiha - İsa peyğəmbərin ikinci adıdır.
[118] Pont- Əksin (lat.) - Qara dənizin qədim adı

sahib çıxmasaq, bunu sizdən ya malakanlar, ya parslar, ya da onların köməyilə xilafət alacaqdır. Sizinkilərsə Tanrıya, odun, suyun müqəddəsliyinə bel bağlamaqla acizləşiblər. Ancaq bizim güclü dinimiz, arxamız var!

- Dinlər həyatı ağırlaşdırmaq, qan töküb torpaq ələ keçirmək, əmlak və sərvət iştahası ilə hiyləgərlik etmək, od-ocaq söndürmək üçün yaranmayıb! Yalnız bədxahlıq sevən insansifət divlər dindən belə barına bilər! Belələri çox azdır!

- Bəzən azlar hiyləylə də olsa, çoxlarına güc gəlir. Biz AzƏrlər artıq bunun bəhrəsini görmüşük, görəcəyik də!

- Yaradılışdan üzü bəri Hörmüz işığı Əhrimən qaranlığını həmişə üstələyib. Siz Əhrimənin belindən gələnlərsiniz!

- Sus! Əgər sən bütün zalimləri, güclüləri Əhrimənə oxşadırsansa, onda özün də Əhrimənə borclusan! Ona xidmət göstərib canını qurtarmalısan!

Badımcanburun quldur belindən xəncərini çıxarıb Xilasa uzatdı:

- Al bunu, kəs o igidin qulaqlarını!

Xilas zindanın küncünə qısılmış cavana baxdı, sonra ox kimi zəhmli baxışlarını quldurun üzünə tuşlayaraq dedi:

- Günahsız insanları öldürüb, eybəcər hala salmaq nakişilikdi.

- Əgər bunu özümüz eləmiş olsaq da, sənin əməlin kimi aləmə yayacağıq! Məqsədimiz səni Əhrimənə səcdə etməyə, əqidəni dəyişməyə sövq eləməkdi! Axşama kimi qayıdıb gələcəyəm, əgər onun qulaqlarını gəsməsən, onda özüm sənin qulaqlarını kəsəcəyəm. Bildin? – deyə quldur xəncərini Xilasın qulaqlarına toxundurdu. Sonra quldur xəncəri Xilasın ayaqları altına atıb qapıya yaxınlaşdı, boş bardağı götürüb onu gətirmiş quldur yoldaşıyla birlikdə çıxıb getdilər.

Xilas aşağı əyilib, divarın dibində oturdu. Küncdəki əli-

qolu bağlı cavana baxıb soruşdu:

- Sən kimsən?

- Qurdoğluyam, bu namərdlər bizim zəmilərimizi yandırdılar, qadınlarımızı atdöşü eləyib əsir apardılar, uşaqlarımızı nizəyə keçirdilər, gözlərimin önündə qardaşımın qulağını kəsdilər, məni də atın quyruğuna bağladılar, daşlı-kəsəkli yolla sürüyüb bura gətirdilər.

Xilas xəncəri götürüb ayağa qalxdı, gəlib cavanın əl-qolunu açdı:

- Elin hardadı?

- Yaxınlıqda Sarıtəpə deyilən Kürdan elindənəm. Elimiz əl içi boyda olsa da azad, firavan, şad-xürrəm yaşayırdıq. Bu çağacan eşitmişdik ki, bu köçəbə hay tayfası azərbaylar yaşayan el-obalara soxulur, onların var-yoxlarını talan eləyirlər. Dünən bizim Sarıtəpədə yaşayan azərbayların toy şənliyi idi, biz də ora getmişdik. Bir də gördük ki, Sarıtəpənin döşündəki zəmi yanır. Hamı bir-birinə dəydi. «Haylardı» - deyə azər anaları körpə övladlarını xurcunda, səbətdə gizlətməyə başladılar. Əhrimən tör-töküntüləri qundaqda olan uşaqlara belə rəhm eləmirdilər. Qaçıb canını qurtaran qurtardı, qalanlarını haylar qan dizə çıxanacan qırdılar, yarısını da əsir-yesir elədilər...

- Bu yağılar uşaqları, qadınları qılıncdan, nizədən keçirirsə, məqsədləri azər nəslindən olan tayfaların kökünü kəsməkdir. Siz də azərlərlə dostluq elədiyinizə görü bunun qurbanı olubsuz!

- Dosluğun, məhəbbətin nə dini olur, nə tayfası. Bahar bayramı gələndə bizim uşaqlar da azər uşaqları qədər sevinirlər, bayramın dadlı nemətindən onlara da pay düşür... Qaldı ki, bu haylar süfrənin bu ucunda adamla dostdu, o birici ucunda düşmən! Söhbət gəzir ki, onlar azərlərin təzə

peyğəmbərinin dünyaya gəlməsindən qorxuya düşüblər. Deyirlər, əgər azərlərin peyğəmbəri olsa, onlar birləşib güclü məmləkət yarada bilərlər. Yaşlılar deyir ki, bu hayların özlərinin iftirasıdı. Bu sözü ortaya atmaqla onlar sülh və əmniyyət içində yaşayan azərləri dədə-baba torpağından qovurlar. Azərlərin böyükləri isə hökmdarlıq, xaqanlıq iddiası edirlər, yurd yerləri dağılan qan qardaşlarına qahmar çıxmırlar.

- Qurdoğlu, biz bu zindandan qurtulmalıyıq! Bu elə bir fəlakətdir ki, mənim, sənin bilmir. Namərdlər quzeydə yaşayan bütün türk soylu tayfalara qənim kəsiləcəklər.

- Buranı ancaq qapıdan tərk eləyə bilərik, o da bağlıdır.

Xilas Qurdoğluna xəncəri göstərdi.

* * *

Tamah hiylə torunu hörmüşdü. Yağı basqını Ağrı dağının ətəklərindəki azər yurdlarını dağıdırdı, binələr yandırılır, od-alov qol-budaq atıb buludları yalayırdı. Qara qısır buludlar elə bil Tanrıyla müqəddəs torpaq arasında yeddiqat sədd çəkmişdi. Yandırılanların ah-fəğanı yandıranların vəhşi bağırtısına qarışmışdı: ərlərini, qardaşlarını, uşaqlarının nəşini ağuşuna basıb, ağlayan qadınlar yanar oxlara hədəf olurdular. Tumançaq körpələr «Ata! Ana!» deyə yağı atlarının ayaqları altında qalıb çabalayırdı. Ərgən qızları saçlarından tutub sürüyənlər onları əsirləri daşıyan arabalara yığırdılar. Boylu qadınları atdöşü eləyib qovurdular. Qadınların bətni uşağa yox, müsibətə hamiləydi, körpələrindən öncə ölümləri doğulurdu.

Yağılar hamilə qadınlara daha amansız idi, bətinlərini nişan alıb oxlayırdılar, nizələrini, cidalarını sancırdılar.

Xilasla Qurdoğlu zindandan çıxıb, iki-üç qaçaq-qulduru qol-qıç eləyərək yaraq-yasaqlarını, atlarını əllərindən almış-

dılar. Gecəni hara üz tuturdular qarşılarına ac canavar sürüsü təki yağılar çıxırdı. Səhəri Ağrı dağının ətəklərində açdılar. Şeytantəpənin yeddi ağaclığındakı Qaratəpənin döşündə nəhəng bir qayanın arxasında daldalanıb şırıltıyla Ağrıdan axıb gedən Araz çayının qırağına səpələnmiş işıqpərəst azərlərin uşaqlı-böyüklü meyitlərinə baxırdılar. Hayaslı yağılar quzğun kimi öldürdükləri adamların gözlərini deşmişdilər, kişiləri ağaclara sarıyıb diri-diri başlarını kəsmişdilər. Namuslarını qoruyan, qadınlıq haqqı, sədaqəti ovuclarında daşa dönmüş gəlinlərin sinəsindən kəsilmiş döşlərinin qanı qurumamışdı. Yaxınlıqdakı həyət-bacalarda boğazına yaba saplanmış ağsaqqal bir qocanın meyiti təzə biçilmiş otun üstündə üzüqoylu qalmışdı. Çay aşağı fəryad səsləri hələ də kəsilmək bilmirdi.

Binələrin birindən yağılardan ikisi ərgən bir qızı sürüyəsürüyə əsir arabasına sarı aparanda yaralı atası onların arxasınca cumub: - «Onu aparmayın, buraxın» - dedi. Ancaq yağılar yaralı kişiyə məhəl qoymadılar. Bu ləzhə yaralı kişi özünün bütün gücünü toplayıb yağılardan birinin bel qurşağından xəncərini çıxarıb qızının köksünə sancdı. Qız razı baxışlarını atasına zilləyyib gülümsədi, dodaqları al qana boyandı, gözlərini yumub özünün cansız bədənini atasının ağuşuna yıxdı. Ata göz yaşları içərisində qızını bağrına basıb inildədi:

- Ulu Tanrı, bu zülmü necə götürürsən, necə?

Qızının namusunu yağı cəlladlarından xilas etsə də, doğma balasını öz əllərivlə öldürdüyündən yaralı atanın bağrı çatladı. Arabada xeyli qız vardı. Yağıların biri arabaya qoşulmuş atları qırmancladı. Araba yerindən tərpənəndə Xilasla Qurdoğlu onu pusmağa başladılar. Bu vaxt çayın o biri sahilində yağılar hamilə bir qadını yerə yıxıb qarnını qılıncla ya-

rıb körpəsini çıxardılar. - Budurmu, bu köpəydimi sizin peyğəmbər? – deyə qan içində çabalayan qadından soruşdular.

Qurdoğlu özünü saxlaya bilmədi, oxdanından ox götürüb yaya qoydu. Xilas onu sakitləşdirdi:

- Sən bir oxa onların üçünü də vura bilməyəcəksənsə, niyə atırsan? Axı heç olmasa bu qızları əsir düşməkdən xilas edərik!

- Papağım yerə dəysin, özümü basa bilmirəm, ürəyim partlayır, bu vəhşiliyi heç canavar da eləməz!

O üzdə qadından dəhşətli qışqırıq qopdu. Yağılardan biri əlində tutduğu pişik balasını qadının qılıncla yardıqları bətninə qoyub, anqırdı:

- Budur, sizin gözlədiyiniz peyğəmbər, hah, hah, ha!.. Saxla qarnında, gərək olsa doğarsan peyğəmbərinizi!

Qadın başını daşlara çırpır, özünə ölüm arzulayırdı. Bol vaxtında ölüm də qadına sanki rişxənd eləyirdi, o yubandıqca qadın ucadan Tanrıya yalvarırdı:

- Ulu Tanrı, mənə ölüm göndər! Ölmək istəyirəm!

Əsir qızları aparan arabanı güdə-güdə onlar çönüb tez-tez suyuna qan çilənmiş Arazın o üzündə çabalayaraq, son nəfəsini yaşayan bətni yaralanmış qadına baxırdılar.

Araba Şeytantəpəyə sarı yan alanda dar, kimsəsiz yoxuşların birində Qurdoğlunun oxu arabaçının sinəsinə sancıldı. Qızlar diksindilər.

- Qorxmayın! – deyə Xilasla Qurdoğlu arabaya yaxınlaşıb, tez onların əl-qolunu açıb, dalda yerə apardılar.

- Sizi yaxındakı el-obalardan birinə aparmaq üçün kişi libası geyindirmək gərəkdi. Biz libas tapıb gətirməyincə buradan bir yana tərpənməyin!

Sonra onlar atlarını bir mənzil boyu çapıb dayandılar. Arazın yanından ötüb-keçən yolda yaraq-yasaqsız yeddi atlı,

üç at arabası güneyə sarı gedirdi. Arabalara dolu çuvallar yüklənmişdi. Bu adamlar Xırmantəpə elindən tayfa başçısı Urufun başçılığı altında taxıl almağa yollananlar idi. Qırx gündən çox idi məmləkəti gəzib dolaşırdılar. Məmləkətin hər yanı quraqlığa ürcah olmuşdu. Bazarlarında taxıldan başqa min cür nemətlər satılırdı, ancaq adamlar o nemətlərə nifrətlə baxırdı. Onlara çörək gərək idi. Məmləkət elə bil Tanrının zavalına gəlmişdi, çörəyə həsrət qalan el-obalara xəstəlik, ölüm, qaçaq-quldur ayaq açmışdı. Od, su, torpaq, məslək haqları tapdalanmışdı, ancaq sərvətsevərlər çörəyin qiymətini daha da bahalaşdırmaqdan yana əntər kimi min oyundan çıxırdılar. Urufun adamları qonşu Ərzurumdan çoxlu buğda və arpa alıb geri döndülər. Xırmantəpənin susuz günlərindən xəbərləri yox idi. «Kaş bizimlə Ümid yoluna çıxan ikiçarxlı at arabaların hamısı belə dolu qayıdaydı, dağarları, çuvalları, xaralları boş olmayaydı!» Xırmantəpə elinə çatmağa hələ doqquz ağaclıq yol qalırdı.

Urufun atı hürküb dayananda, o fikirdən ayrılıb yola baxdı. Yolun üstünə daş yığmışdılar. Daşlar dünyanın yeddi rənginə boyanmışdı, balacası qarpız boydaydı, böyüyü arabanın çarxları iriliyindəydi.

Xilas Qurdoğluna baxıb pıçıldadı:

- Bu adamlar yağılara oxşamır.

- Bəlkə atəşpərəstlərdir.

- Belə yola yaraq-yasaqsız niyə çıxıblar?

- Hə, deyəsən yağılar onların qabağını kəsmək üçün yola daş düzüblər. Namərdlər!

Onların gizləndikləri yer yoldan yuxarıda idi, mağaraya bənzəyirdi. Yol ovuc içi kimi görsənirdi. Çayın şırıltısı birdən-birə kəsilmişdi. Su yuxarı qalxmışdı, elə bil yolu kəsmiş yağılar çayın qabağına bənd vurmuşdular. Uruf əlini qaldırıb

işarə ilə arxadan gələn arabaları və atlıları dayandırdı. Yola düzülmüş daşlara baxdı. Kol-kosluqdan yaraqlı-yasaqlı, alçaqboylu bir adam çıxdı, irəli yeriyib soruşdu:

- Hardan gəlib, hara gedirsiniz? Kimsiniz, nəçisiniz?

Uruf dedi:

- Təkbaşına yol kəsməyə cəsarətin çatmaz, çağır kol-kos dalında gizlənənləriniz hamısı çıxsın, bizim yaraq-yasağımız yoxdur!

Alçaqboylu adam dönüb kol-koslara boylandı. Oradan xeyli yaraqlı adamlar çıxdı. Onlar yola sarı gəldilər.

Alçaqboylu adam dilləndi:

- Bu yoldan ötən gərək əvvəl bu daşları satın ala!

Arxadakı yaraqlılardan biri dilləndi:

- Bu adamları yaxşı tanıyıram, onlar məndən aldıqları qızıllara taxıl alıb aparırlar!

Uruf bu sözləri deyən adama heyrətlə baxdı.

- Udvan! Sən burda neynirsən?

- Azərnurdan öc almaq üçün, həm də sərvət toplayıram! Əgər bu payız olmasa, bil ki, gələn baharda Xırmantəpədə olacağıq!

- Yox! Yox! Ara, ondan da tez! – deyə alçaqboylu adam güldü.

- Nə istəyirsiniz, əl çəkin bizdən!

- Bu daşları almasanız buraxmayacağıq sizi!

Uruf atdan enib, daşların ən balacasını götürdü.

- Hah! Hah! Hay! Sən elə bilirsən ki, o balaca daş ucuzdur? Atını ver!

Uruf hirsli-hirsli daşı yerə çırpdı.

- Yox, atımı vermərəm!- deyə etirazını bildirdi.

- Onda üç çuval buğda götürərik!

- Taxıla da dəyməyin!

- Yox, dostum, çığallıq eləmə! Bunun hamınıza zərəri var! – deyə alçaqboylu adam yaraqlılara işarə elədi, onlar yay-oxlarını götürüb Urufu və onun adamlarını nişan aldılar.

Udvan iki nəfərlə arabaların birinə qalxıb üç çuval boşaltdı. Onların ağzını açcaq dodağını büzdü:

- Bu arpadıki.

Alçaqboylu adam qılıncını siyirib çuvalları kəsib-doğradı:

- Atın çaya – deyə qəzəblə qışqırdı.

Udvan yenə arabalardan birinə cumdu, çuvalı aşağı endirmək istəyəndə sinəsinə sancılmış ox onu yerə sərdi. Oxun ucunda əski parçasına Xilasın qanla yazdığı sözləri ucadan oxuyan alçaqboylu adam həndəvərinə boylanıb kəkələdi:

- Əgər bu adamları buraxmasaq, yerimizdəcə oxlanacağıq!

Uruf Udvanın başı üzərində dayanıb, əcəl çökmüş gözlərinə baxaraq dedi:

- Sən Tanrıya inanmırdın. Heç olmasa, bu son nəfəsində inan onun varlığına!

- Öl..dü..rün.. Bu..

Udvan keçindi, alçaqboylu adam üzünü Urufa tutub əmr etdi:

- Atları, arabaları qoyun, çıxın gedin!

Bu anda Qurdoğlunun oxu alçaqboylu yağının boğazına sancıldı. Yolkəsənlər oxların haradan atıldığını bilmirdilər. Çaşıb qalmışdılar. Üçüncü dəfə atılan oxun ucunda qanla əskiyə yazılmış namə gəldi. «Təğyiri-libas olun!»

Soyunanlar soyundu, soyunmayanların bəziləri diz çöküb Tanrıya yalvarırdılar ki, günahlarından keçsin. Ata minib qaçmaq istəyənlərin birini Uruf kəməndlə yerə saldı.

Xilasla Qurdoğlu uğultu eşidib yola endilər.

- Tez olun! Uzaqlaşın burdan, dağ-daş uğuldayır, burda ya uçqun, ya da zəlzələ olacaq!

Özləri də quldurların libaslarını götürüb oradan uzaqlaşdılar.

Bir azdan suyunun üzü arpayla örtülmüş çay məcrasına sığmayıb, qarşısına çəkilmiş bəndin üstündən aşıb-daşırdı.

Taxıl aparanlar hansı tərəfə üz tuturdularsa, çayı keçməyə körpü tapa bilmədilər. Sanki bu çayın üzərindən çəkilən körpüləri sel aparmışdı. Uruf əvvəllər burada körpü olan uçurumun qırağında dayanıb çaya baxırdı. Suyun üzərində güllü-çiçəkli qız libasları üzürdü. Uçurumdan keçmək üçün körpü gərək idi. Adamlar üçuruma baxıb udqundular. Elə bil ölüm ağuşunu açıb onları qucmaq istəyirdi. Hamı sıxıntı içində o taya boylanır, Ümid yoluna çıxmaq üçün körpüsüz qaldıqlarına yanıb-yaxılırdı. Uruf bayaq quldurlar qabağını kəsəndə özündə onlara güc gəlmək naminə inam tapmışdı. Elə bil inamından Xilas doğulmuşdu. İndi Xilas ona verdiyi qılıncı daşa çəkə-çəkə düşünürdü. Sanki qılıncı yox, ağlını itiləyirdi, ağlını itilədikcə özündə güc tapırdı, özünə qayıdırdı, ruhu coşub, qanı qaynayırdı. Urufun ruhuna Zərdüşt hikmətlərindən soraq verən Azərnurun səsi qarışdı: «Qardaşlarım, cəsarətiniz varmı? Soyuq ruhlar, qatırlar, korlar, sərxoşlar cəsur ola bilməzlər. Cəsur olmaq üçün qorxunu bilmək, fəqət onu yenmək lazımdır. Uçuruma qürurla baxmaq gərəkdir!»

Urufun fikirləri kəndir kimi uçurumun üstündə gərilmişdi.

_____*Beşinci fəsil*_____

«İnsanda böyük və seviləsi olan şey onun KÖRPÜ və KEÇİD olmasıdır»
«Zərdüşt belə söyləmiş» kitabından

KÖRPÜ

...Ağrı dağından əsən qara yellər Tuğu dalğalandırırdı. Tuğun yeddi rəngi ədalət meydanına yığışanların sifəti kimi soluxmuşdu. Ayparanın içində təsvir olunan yeddiqardaş ulduzlar sanki bir-birindən aralı düşmüşdü. Ədalət meydanındakı nurani-pirani qocaların – qarıların beli bükülmüşdü, hirsli-hikkəli cavan-comrulların çoxu gah əliyalın, gah da dəyənək götürüb Xırmantəpə elinin yaxınlığında yağıların acgöz canavar kimi daraşdığını Türkazər uluslarının harayına gedirdi, qadınlar aclıq-susuzluq içində fəryad qoparan uşaqlarını unudub, savaşlarda yəhərləri qanla dolan, şəhid olan igid oğullarının halına yanırdılar. Adamlar bir-birlərinə «xeyirə qənşər», «qabağına xeyir çıxsın!» deyə-deyə şərə sarı gedirdilər.

Türkazər uluslarının axar çayları qurumuşdu. Suları bulanmışdı, halalına haram qatılmış kəhrizlərinin suyunu yağılar içirdi, zəmilərini yağılar biçirdi, otlaqlarını yandırırdı, bədöy atlarını ilxılarından, qızıl öküzlərini naxırlardan, bənöyüş qoçlarını sürülərdən oğurlayırdı. Gözəgörünməz Tanrı Ələyəzə, Şörəyelə, Təpədöləyə «ərməğan» kimi dərd üstündən dərd göndərirdi. Od içində yandırılanların ah-naləsi ərşə dirənmişdi. Sürüsüz qalmış çobanların tütəyi qəm üstündə köklənmişdi, bu yurdlarda əsən küləklər də ağı deyib inildəyir, ağaclar saçlarını yolub pərişanlıqla titrəşirdi. Təpələrdə,

dərələrdə, enişlərdə, yoxuşlarda, gədiklərdə, keçidlərdə vəhşicəsinə öldürülmüş soydaşlarının cəsədlərinə yaxın düşə bilməyən yurddaşlar minbir əzab-əziyyətlə tikdiyi azərzəmin binələrini, damlarını-bacalarını atıb güneyə köçürdülər. Güneyli-quzeyli doğma VƏTƏN torpağı kiçilirdi, daralırdı...

Azərnurun başçılığı ilə qeyrət suvarilərinin Akuntəpədəki zindandan xilas eləyib gətirdikləri xalçaçı qız-gəlinlər Xırmantəpə elinin ədalət meydanında didərgin doğmaları ilə qol-boyun olub acı göz yaşları tökdülər.

Qaryağdı dədə, Nənəş qarı ərləri yağı zavalına gəlmiş gəlinlərini ovundura bilmirdilər.

Xırmantəpə elinin taleyi elə bil havadan asılı qalmışdı. Ətəklərdə dam-daxmaların həyətlərində, obaların içində yel vurub yengələr oynayırdı, toz-torpağa bələnmiş yol-yolaqda sarı kərtənkələlər vecsiz-vecsiz oyan – bu yana qaçışırdılar, ayaq altında qalmaqdan qorxmurdular, çünki çoxdan idi ki, bu yollardan mal-qaralar ötüb keçmirdi, qız-gəlinlər nəğmə deyə-deyə əkin-biçinə getmirdilər, el-oba cavan-comrulun şaqraq səsinə, hay-küyünə həsrət qalmışdı.

Binələrdə buğdası, arpası tükənmiş kosaralara siçanlar-siçovullar, qırxayaqlar doluşmuşdu. Xatın arxının üstündəki su dəyirmanı, həyət-bacalardakı çəltik dingləri, kirkirələr dənsizlikdən gərəksiz qalmış, insan təmasından uzaq düşmüşdü. İstifadəsiz qalan təndirlər vecə yaramaz hala düşən külfələriylə yol-yolağın lal sükutunu dinləyirdi. Göydə isə Günəş nəhəng təndir qalamışdı. İstisinin hənirində qora bişirdi. Taxıl dalınca gedənlər yubandıqca Xırmantəpənin həyət-bacalarındakı təndirlərin həsrətdən «bağırları» çatlayırdı. Uşaqlar arabir meydandan çıxıb həyətlərdəki təndirxanaları gəzib-dolaşırdılar. Vaxtilə analarının, nənələrinin bişirdikləri çörək külçələrindən təndirlərin divarlarına yapışıb qalmış,

qupquru taqqanağa dönmüş alayanıq qırtdanaqları qoparıb yeyirdilər... Və elə bil göylərdən yağış uman, sinəsi toz-torpağa bələnmiş Xırmantəpə elində həyat deyilən şey: süd şırıltısıymış, mal-qara səsiymiş, at fınxırtısı, qoyun-quzu mələrtisi, təndirlərdə bişirilən isti çörəklərin ətriymiş, dadlıtamlı qaymaq, bıçaqkəsməz camış qatığı, üzlü-gözlü qoyun pendiri, inək yağıymış... Hamısı qəhədə çıxmışdı. Ağsaqqallar-ağbirçəklər hərdən cavan ovçuları qınayırdılar: «Hər dəfə ova çıxanda öyüd verərdik ki, qu quşlarına ox atmayın! Sizsə qulaqlarınızda sırğa eləmədiniz öyüd-nəsihətlərimizi, vədinizi pozdunuz! Arxın suyu qurudu, gölümüz murdarlandı, çöl-bayırın bərəkəti göyə çəkildi, quşu-balığı insanlardan üz döndərdi. Oxluyub yaraladığınız qu quşlarının ahı tutub bu eli!..»

* * *

Akuntəpədən qayıdıb gələndən sonra Azərnur Böyük Xaqana ikinci naməsini yola salmışdı: «Qonşuluqda köçəbə həyat sürən hayas tayfaları elə bic döl yaratmışlar ki, həmin döldən törəyən bədəsillər Türkazər övladlarına nahaq qənim kəsiliblər. Onlar qocaya – uşağa rəhm eləmədən hamısını qılıncdan keçirir, yurdlarından didərgin salırlar. Türk soyundan olan atəşpərəstlərə xaçı zorla, işgəncəylə qəbul elətdirirlər. Məbədləri söküb dağıdır, yerində monastırlar ucaldırlar. Onlar Zərdüştü peyəğmbər kimi yox, şair təki tanıyırlar. Odur ki, odsevərlərin yeni peyğəmbəri doğulacağından təşvişə düşüb, Azər nəslindən olan soydaşlarımızı qırırlar... Ötən naməmdə yazmışdım ki, keçmişinə, dininə arxalanmayan məmləkət gec-tez viranə qalar!

Taxt-tac aşiqləri olan hökmdarlarınız və özünüz dini etiqadlarımıza arxa çevirməklə müqəddəs ruhlarımızı incik sa-

lıbsınız. MÜQƏDDƏSLƏRİN RUHU YAD EDİLMƏYƏN MƏMLƏKƏT PİS RUHLARIN OYLAĞINA DÖNƏR!.. Bu günəcən yağılar Ələyəz, Şörəyel, Təpədölək, Ağrı dağının ətəyindəki çoxlu türkazər uluslarını caynağına keçiriblər. Yaraq-yasaqsız camaat özlərini yağıların qəfil basqınlardan qoruya bilmirlər. Elimizin cavan-comrulu əliyalın, susuz-çörəksiz olsa da, yaxınlığımızdakı el-obalara soxulmağa cəhd edən düşmənlə savaşır. Dinimiz, dilimiz, torpağımız zalımların zavalına gəlir. Şeytanın nökərləri, Əhrimənin insansifət divləri işıqsevərlərdən öc alırlar, ocaqlarımızı söndürür, adamlarımızı didərgin salır, igidlərimizi öldürür, qocalarımızı, uşaqlarımızı əsir-yesir eləyirlər. Əcdadlarımızın torpağını qorumağa kömək gözləsək də, nə Xaqanın, nə də hökmdarların adamlarından bu yanlara üz tutan bir kimsə gəlib çıxır. Ey Böyük Xaqan, eşit, fikirləş və özünə gəl! Muğan Xaqanı yadına sal, onun və Tanrı təki göydə doğulmuş Bilgə Xaqanın soyundan olan türklərə miras qalmış torpaqlara indi tamahkarlar caynaq atırlar! Müqəddəs «Avesta» kimi məmləkətimizi oda qalamaq istəyənlər nifaq oxlarını qan qardaşlarımızın başına yağdırırlar!.. Ayağa qalx, üstünə şərəfsizlik gəlir! Ey Böyük Xaqan!»

Ürəyində Böyük Xaqanın qarasınca deyinən Azərnur dərd içində ovulan meydana nəzər saldı. Elə bil Ulu Tanrı Xırmantəpə elinin yaxasından tutub silkələmişdi, çəpərlər uçulub sökülmüş, divarlar laxlamışdı, nəhəng ağaclar yıxılmışdı. İnsanlar yerin tərpəndiyini duysalar da, zəlzələ sözünü dillərinə gətirə bilmirdilər. Onlara elə gəlirdi ki, Tanrının nəzərindən gen düşmüş ana torpaq dərddən çökmüş, göylərə bağlı həyat ipi qırılmışdı, öküz üstündə qərar tutmuş dünyanın sonu çatmışdı, yağışa hamilə buludlar əlçatmaz göylərin ənginliyində görünməz olmuşdu, yerin tərkindən gələn

uğultuya Savalanda yatmış igidin atı, güya, kişnəmişdi, yaraqlı-yasaqlı həmin igid isə dünyanın göbəyindəki ibadətgahında dərin yuxuya getmiş Mitra[119] kimi səmənd atının kişnərtisinə ayılmaq bilmirdi. Meydandakı adamlar «su», «su» - deyə pıçıldayan yaralılara, uşaqlara baxa-baxa Tanrıdan, nağıllarda uydurduqları Savalanda yatmış, dar günlərində oyanıb imdadlarına yetişəcək igiddən, müqəddəs «Avesta»nın «Yəşt»lərinin birində şəninə dualar yazılmış «köksündə su toxumu saxlayan» Tiştra ilahəsindən mədəd umurdular.

...Azərnur qotazlı döşəkcə sərilmiş kətilin üstündə əyləşmiş Bayandur babaya işarə edərək ayağa qalxdı. Bayandur baba ağır-ağır qəddini düzəltdi, Ulutürklə Basarkeçər də durub Azərnura yaxınlaşdılar. Bir azdan onlar meydanın alaqapısından çıxıb Xırmantəpənin su dəyirmanının yaxınlığındakı dəmirçixanaya yollandılar. Dəmirçixananın həyətinə cavanlar dəmir-dümür daşıyıb yığırdılar. Dəmirçi Domrulun zindan üstə qoyub ağır çəkiclə döyəclədiyi dəmir əyri qılınc şəklinə düşdükdən sonra canı rahatlıq tapdı. Dəmirçi Domrul ağsaqqalları görcək irəli yeridi. Körüyün səsi yavaşıdı. Dəmirçi Domrul dəri qolçaqlarıyla alnının tərini sildi. Bu vaxt dəmirçixananın qabağındakı yoldan qiymətli par-parça yüklü iki at qoşulmuş araba, yan-yörəsində beş-altı atlı gedirdi. Onlardan biri – Göyçəli tayfasının başçısı Yadırğa Teynur yekəpər gövdəsinə görə qalanlarından seçilirdi. Onun əlində tutduğu sabiq tayfa başçısı Udvandan qalma Tutuquşunun elə bil qəfildən beyninin qurdu tərpəndi. «Göyçə!»,

[119] Mitra - «Avesta»da Mitra (Mehr) həqiqət, intiqam, günəş, təmizlik hamisidir, mənası saziş, barışıq, əlaqə; yerlə göy arasındakı bağlılığın rəmzi kimi çıxış edir. Yerdə səmənd at öz rənginə görə, göydə günəş onunla eyniləşdirilir.
Mitra (Mihr) erməni mənbələrində də günəş allahı kimi təqdim olunur.

«Xırmantəpə!», «Qarabağ» - deyə hay-küy saldı. Ulutürk tayfalarının arxasınca baxıb başını yellədi. Dəmirçi Domrul şəyirdləriylə birlikdə neçə gündən bəri qayırdıqları yaraq-yasaqları - nizə, qılınc, cida, qalxan, dəmirdonları dəmirucluqlu oxları ağsaqqallara göstərdi. Cavan şəyirdlərdən biri əkəcəkəc dilləndi: - Ustamızın zindana vurduğu hər zərbə yağıların canına vəlvələ salır!

Dəmirçi Domrul ağsaqqallara dəmirçixananın arxasında yaraq-yasaq qurşanıb təlim keçən gəncləri göstərdi.

- Gecə-gündüz işləməliyik ki, bu cavanların əli yağı qabağında yalın qalmasın!.. – dedi.

Azərnur Əfşaranda gördüyü yuxuda Muğan xaqanın ona verdiyi qılıncı xatırladı. Və qurşağından çıxartdığı kağızı Dəmirçi Domula göstərdi.

- Usta, mənə bu şəkildə çəkdiyim qılıncı düzəldə bilərsənmi?-Ucadan soruşdu.

- Aman Tanrım, - deyə usta heyrətlə kağıza baxdı,- bu iki üzü iti qılıncı Bahar bayramından bəri yeddi gün idi ki, dalbadal yuxumda görürdüm. Onu düzəltməkçün də elə yeddicə gün çalışdım, bax, bura qoymuşam. – Qırmızı parçaya bükdüyü polad qılıncı dəmirçıxananın talvarlndan götürüb Azərnura göstərdi.

Azərnur da heyrətini gizlədə bilmədi:

- Bu qılıncı mən də yuxumda görmüşəm. Onu mənə babam Muğan Xaqan vermişdi. Tapşırdı ki, məqamı çatanda onu elin qeyrətli qılınc sərkərdəsinə verim.

Ağsaqqallar da heyət içində bir-birinə baxdılar.

* * *

Əhriman qəhqəhə çəkə-çəkə üçbaşlı əcdaha kimi hərdən Azərnurun gözləri qarşısında canlanırdı, elə bil qorxulu na-

ğıllar dönüb bir anlığa gerçəkləşirdi.

-Şeytan gəlib dünyaya, Şeytan! Ha! Ha! Ha! Mən onu şər bətnimdən doğmuşam, adını da adıma yaraşdırıb, Ərmən qoymuşam!.. Öz keçmişiylə öyünən türklər gələcəkdə böyük uğurlara yox, böyük itkilərə ortaq olacaqlar! Çünki gələcəyin Əhriməni fələk oğlu türkün ağ gününü qara edəcək. Hay gələcək, vay gələcək! Hi-hi-hi...

«Yox! Əgər dünyanın şeytanı, həqiqətən də, doğulubsa, şəksiz peyğəmbəri də doğulmalıdır, axı dünyanı şərdən-bəladan qurtarmaq naminə Tanrı insan oğluna peyğam göndərməsə, fəlakət olar! Hörmüz övladlarının işığı sönər!»

Öz aləmində tənhalığın ağrı-acısını dadmaqdan usanmış Azərnurun çallaşmış başı elə bil dolaşıq fikir cəngəlliyində ilişib qalmışdı. Gecələri məbəddə müqəddəs kitabları qiraət eləməklə, gündüzləri meydandakı ac-susuz adamların arasında keçdiyindən rəngi-ruhu dəyişmişdi. Vaxtilə könlünə təskinlik verən istəkli Türkayın ruhu ondan inciyərək harasa sonsuz və əlçatmaz bir aləmə getmişdi. Nə arayatı yuxularına gəlirdi, nə də xəyallarında canlanırdı. Həyatının Umud və Xatirə adlı körpüləri uçulub dağılmışdı: «Doğrudan da, şeytan gəlib dünyaya!.. Məndəmi şeytana uyub, içimdəki məni öldürmüşəm?! Yoxsa keçmişimdən ayrılmışam? Ya keçmişimmi məndən üz döndərib? Özümə qayıdışa Umud körpüsü yaradacağammı? Mən insanların qəlbində ümid çırağı yandırmalıyam ki, onlar gedənlərin yolunu gözləsinlər. Taxıl dalınca, su gətirməyə, arx açmağa, yağıyla ac-susuz savaşa yollananlar qayıdıb gələcəklər! Hamı bu ulusu atıb getsə, milyon qərinələrdən bəri dədə-babalarımızın ruhu yaşayan bu ana torpağımızda yağı bayquşlar yuva salacaq! Niyə özümü itirmişəm! Niyə qəlbimdən keçirdiklərimi dilimə gətirə bilmirəm! Böyük Xaqana arxayınçılıq hissi yoxdursa, ulu

göylərdən mədəd yetişmirsə, gedənlərin yolu uzaq, körpüləri keçilməzdirsə, mən özümə dönməliyəm! Keçmişimdən gələcəyimə KÖRPÜ olmalıyam! Xilas ÖLÜM qorxusundan ŞEYTAN xofundan yoğrulur. Ulu Tanrı sevdiyi insanlar yaşasın deyə özlərini yer üzünə qurban verənləri sevir! «Mən gələcək nəsli təmizə çıxaranı, keçmişini qurtaranı sevirəm!.. Mən o adamları sevirəm ki, insanların üstündə asılmış qara bululddan təkəm-təkəm düşən ağır damlalar kimidirlər, onlar şimşəyin çaxacağını xəbər verirlər, mücdəçi olaraq həlak olurlar» Savalandan xalqın içinə qayıdanda ulu Zərdüşt belə buyurmuşdu. İndi insanlar dərdin əlində girinc-girifdar qalıb. Tanrıya, peyğəmbərə şəkk eləməyə başlayıblar! Dərd isə elə bil acıqca batman-batman gəlir!.. Mən də susuram, elə bil suçum varlığımı məhv eləyib! Uşaqlar elə bil sonuncu dəfə uçuq divarların üstünə çıxıb su deyə Ulu tanrıya yalvarır. Qoca qarılar, cavan gəlinlər gözlərini yollara dikiblər, həvəssiz söylədikləri dualara inamları öləziyir. Didərginlərin bir də dədə-baba ocaqlarına qayıdacaqlarına gümanı qalmayıb. Türkazər uluslarını yağı basqınından qoruyan igidlər aclığı-susuzluğu, yaraq-yasağı bəhanə eləyib geri çəkilirlər. Məmləkətin hökmdarlarının, böyüklü-kiçikli azər tayfalarından olan MİLLƏTin içində qeyrət sanki ömürlük uyuyub, xəyanət kök salır, vuran əllər, işıqlı başlar budanır, başsızlıq Gövdəni uçuruma dartır... Mənsə özümü tanıya bilmirəm! Gözlərimi özümdən xəbərsiz Aysuya zilləmişəm, yoxsa sorğu-suallarıma cavab onun qoynunda gizlənib? Ocığaz körpəsini ovundurmaqçın ağsaqqaldan-ağbirçəkdən xəlvətə çəkilib əmizdirmək istəyir. Mən niyə onun döşlərini görmək istəyirəm! Elə bil mən yox, içimdə başqa birisi bu ehtiyacı duyur, gözlərimi iradəsinə tabe edir... İçimə ehtiras çiçəyinin ətri nə vaxt hopmuşdu? Niyə mən bu ağır çağlarda Aysuya bax-

maqdan həzz alır, rahatlıq arayıram? Bir vaxt ona sataşmaq istəyən Udvana qəzəblənmişdim, nifrət içimə çat salmışdı, indisə həmin çatı Aysunun hürkək baxışları bitişdirir. O baxışlar məni qınayır, yoxsa məndən utanıb çəkinir? Hər dəfə ona baxdıqca yadıma Sevan düşür. Sevanla elədiyimi xatırlamaq mənə xoş gəlsə də, şüurumu korşaldır, əzalarımı elə bil küt bıçaqla kəsirlər. Ancaq dolaşıq düşmüş hisslərimi aramaq, özümü özümə qaytarmaq naminə murdar bədəni suçuma müjdə vermiş o qadını xatırlamalıyam. Körpəsinə üzüm giləsi boyda döşlərindən süd verən Aysu xatuna baxa-baxa, günün bu qızmar vədəsində mən Sevanı yada salmalıyam. Elə bil Aysunun pak, ancaq ərinin nəvazişini gözləyən, yad kişi nəfsinin heç vədə toxuna bilməyəcəyi bədəni xatirələrimin körpüsüdü. Gözəl qadın cinsində Əhrimənin göndərdiyi şeytanla məhrəmanə yaxınlığımı, gözlərim önünə gətirirəm. Qəlbimin işığını söndürmüş gecələrin birində Sevanın göz yaşları mənim sinəmi isladırdı. Mənsə ona qadın bədənində coşğun hissləri yatırmaqçın tək onun istəyinin bəs etmədiyini söylədim. Bu, ona iztirabdan başqa heç nə verə bilməzdi, onun şəhvət odunu söndürmək, iradəsinə tabe olmaqdan ötrü nəfsə yox, bədənimin tələbinə boyun əyməli oldum. Bədənimin yarıyuxulu aləmdə duyduğu o böyük ləzzət məni məhəbbət əyləncələrinin ən uca zirvəsinə dartdı, həmin zirvədə ağlım, duyğum, bədənim, qəlbim sevinc içində ani də olsa, rahatlıq tapırdı. Mənim daşa dönmüş bədənimi təkcə Sevanın göz yaşları yumşalda bilməzdi. Ağcamaya bədəni yarıqaranlıq hücrədə ağ qu quşuna bənzəyirdi. Bəs sonra nə oldu? Sonra qu quşunun qanadları mənim boynuma sarıldı. Qalın qız dodaqlarının şirin tamı ağzıma yayıldı (mən nə vaxtsa bu şirinliyin ləzzətini dadmışam) və onun çılpaqlaşmış bədəninin hərarəti canıma hopdu, işvəkar gözlərinin hər birindən

şehli sarmaşıqlar sanki bədənimə sarışdı, elə bil üstümə gərilmiş qu qanadları ruhumu içimdən çəkib çıxarmaq, səmalara qaldırmaq istəyirdi. Sarmaşıqların ehtiras çiçəyinin ətrinə bənzəyən qoxusu yataq otağını bürüdükcə, şüurum qəlbimin hökmündən çıxdı, üz-gözümə səpələnmiş yasəmən qoxulu qadın telləri gözlərimə gecənin qaranlığından da qatı rəng çəkdi, mən xumarlanaraq özümü itirirdim. O ipək kimi saçların qaranlığında bədənimi elə bil iki hissəyə parçalayırdılar. O parçalanma əzabı bəs niyə onda mənim bədənimə ləzzət verirdi? Dayan, dayan, demək içimdəki bütövlükmüş o gecə iki yerə ayrılan! Ona görə dərdimin böyüklüyü içində özümü itirmişəm. Elə isə bu ağrılı-acılı dərdin mənə niyə doğma gəldiyini anlamağa başlayıram. Dərdin də doğması olarmış! Dərd doğmadırsa, dərmanı da doğma olmalıdı»

Azərnurun hüznlü görkəmini görçək Aysunun rəngi qaçdı, döşlərini yaxasının altında gizlətdi, qəlbini sarımış şübhəli fikirlərin qoynunda. - Ümidimiz sənə gəlir, sən də günahına peşman olmuş dərdli adamlar kimi gəzib-dolanırsan. Olan-qalan ümidimiz kəsilir. Ümid ver bizə, ümid yollarından ümidimiz üzülməsin. – deyə pıçıldadı. Pıçıltılarını xəfif meh Azərnurun qulaqlarına doldurdu. O Aysunun düşündüklərini baxışlarının ifadəsindən oxuyurdu, gəlinin avazımış sifətinə baxa-baxa yanından ötüb, meydandakı adamlara üz tutdu:

- Bu dərd məhək daşıdır!

Camaat elbaşılarının heybətli səsinə çoxdan idi ki, qəribsəmişdi, səsə sarı sıxlaşdılar. Azərnur yurddaşın yanındakı kürsüyə çıxdı. Aramla danışmağa başladı:

- Bu dərd gecələrimizin ömrünü uzadıb, işıqlı günlərimizin ömrünü kəsib, zülmətə döndərir! Qoy bu dərdin ağırlığı, gecələrin qaranlığı sizi qorxutmasın! Gündüzlərin qaranlığa

qərq olması daha dəhşətli olur! Od-ocaq sönür, şərin toxumu hər yanda artır, yurdlar sahibsiz qalır, susuzluğa-aclığa tab gətirə bilməyənlər yağı zülmündən baş götürüb uluslarından gedirlər. Örüşlərimizdəki oğurluq, dağ-daşlarımızda qaçaq-quldurluq eləyən yağıların iştahasına tət deyə bilmədik, indi yurdlarımıza göz dikiblər... El arasında ulu keçmişimizdən miras qalmış bir əfsanə yaşayır. Çox-çox öncə, dünyanın əzəli çağlarında yağıların başçısı Mətə adlı xaqandan qovğaya bəhanə tapmaq üçün atını istəyir. Xaqanın ətrafındakı saray adamları yağı başçısının bu tələbindən coşsalar da, Xaqan hökm verir: bir at üçün qonşuluğu pozmaq olmaz!

Bundan şirnikən yağı başçısı xaqandan sarayındakı ən gözəl qadınlardan birini istəyir. Yağının əsl niyyətini bilən xaqan yan-yörəsindəkilərin qızışmasına baxmayaraq, qadını da verir! Yağı üçüncü dəfə Mətə xaqanın üstünə elçi göndərir, ulusların arasında əl içi boyda, kiçicik verimsiz löhran torpağın bağışlanmasını xahiş edir.

Saraydakılar «Boş bir yerdən ötrü ixtilaf başlamayacağıq ki» deyə razılaşmaq istəyəndə xaqan deyir: «Məmləkətin təməli sayılan torpaq da başqasına verilərmi? At da, qadın da mənim idi. Ancaq türbələrində əcdadlarımızın sümükləri uyuyan torpağı verməyə mənim ixtiyarım yoxdur!». Mətə qurşanıb yağıyla savaşa gedir, ona qalib gələrək torpağını xilas eləyir.

Taleyimiz belə gətirib, indi Mətə kimi şanlı, Bilgə kimi Tanrı mərtəbəli*, Muğan kimi cəsur xaqanlarımıza həyatda yox, əfsanələrdə tuş oluruq. Böyük xaqana yolladığım namələrdən soraq yoxdur. Son humayun naməmdə ona Bilgə xaqanın öz xalqına sevgi dolu öyüdünü xatırlatdım. Bilgə xaqan öyüdündə vəsiyyət edərək belə buyururdu: "Mən məmləkətin yaxşı vaxtında ona xaqan olmadım. Türk soyunun,

türk dövlətxanasının ad-sanı yox olmasın deyə, gecələr də uyumadım, gündüzlər oturmadım, ölənə qədər çalışdım, azı çox, acı tox etdim. Yoxsulunu zəngin, dustağını azad (öz nəfsinə hakim) etdim. Mən Tanrı kimi göydə olmuş Türk Bilgə xaqan bu çağımda taxtda oturdum. Bütün soyum... oğuz bəyləri, sözlərimi yaxşıca eşidin, diqqətlə dinləyin! Doğuda[120] gündoğuşuna, Batıda[121] günbatısına, quzeydə gecəyarısına qədər olan yerlər içində yaşayan tayfalar mənə bağlıdır. Bu yerlərdə artıq pozğunluq, qarışıqlıq yoxdur. Hər yerdə qanun-qayda yaratdım. Türk xaqanı Ötükən ormanında otararsa, eldə sıxıntı və üzüntü olmayacaq... Qoy uca başınız heç zaman əyilməsin, türk xaqanları!..."

- Ulu Tanrı, bu vəsiyyəti eşidib ona məhəl qoymayan məsləksiz xaqanlara bizi möhtac eyləmə! - Bayandur babanın bu sözündən sonra bütün ağsaqqallar xorla: - Tanrı özün bizə nicat ver!- dedilər.

-Nicatımızı özümüz tapmalıyıq! – deyə Azərnur sözünə davam etdi. - Gərəkdi bu çətin anlarda hər kəs böyük ümidlə yaşasın! Ümid həm də insanı susuz səhralardan çıxarıb, saf çeşməli ümmanlar qoynuna aparan karvan kimidi. Qəlblərinizdə ümid çırağını sönməyə qoymayın! Ulu Tanrı dərd qabağında qaçanları sevmir!

Azərnura qulaq asanlar elə bil pərişanlıq atına minmiş Xırmantəpə elinin alataş olmuş kövşənlərindən ÜMİD köhlənin kişnərtisini eşidirdilər. Adamlar xəyallarında ümid köhlənini yəhərləyirdi. İnsanların yaddaşlarının cığırlarına sərin sular yayılırdı. Şehli otlar günəşə boylanırdı o cığırlarda. Xəyalları-arzuları qanad açırdı, sevincləri qol-budaq atırdı, cəsarətləri dirçəlirdi, məhəbbətləri çiçəkləyirdi, nifrətləri

[120] Şərqdə
[121] Qərbdə

yuvalara təpilirdi, yağıların ayağı ana torpaqlardan çəkilirdi, dünyanın gözəlliyi dünyaya qayıdırdı. Hamı gözəlliyi görməyə, duymağa tələsirdi. İnsan oğlu Hörmüz işığında ən böyük amacına (ayağına dolaşan qara zəncirini qırmış qul kimi fərəhlənərək azad ruhlara qovuşmağını bayram edə-edə) can atırdı...

Bayandur baba da xəyalların qanadından meydana endi, ağacına söykənib uşaqlı- böyüklü hamını nəzərdən keçirdi. Dedi:

- Qoy bu ədalət meydanının YADDAŞI elin müsibətlərini, yaxşısını-pisini, ulu hikmətlərini, öyməcələrini, əfsanələrini yaşatsın! Qoy insanlar ac olanda toxluq nə olduğunu, tox olanda aclıq nə olduğunu unutmasınlar!

Ağsaqqallar adamlara ümid dolu sözlər söylədilər. Dərd meydandakı adamları doğmalaşdırmışdı, insanlar dərk eləyirdilər ki, dərdlərə doğmalıqla, elliklə tablaşmaq, bəlalara əlac tapmaq olar! Azərnur qəlbində düşünürdü ki, günahı, günahdan doğulmuş müsibətin ağırlığını dərk eləmək təzə müsibətlərin qarşısını almaq üçün atılmış addım kimidi. Yer üzünün əşrəfi bilməlidir ki, ulu söz də yara sağaltmağa qadirdir. Xeyirxah sözdən xeyirxah əməllər yarana bilər.

* * *

Oğlan uşaqlarından biri tövşüyə-tövşüyə özünü meydanın alaqapısı ağzında dayanan Aysuya çatdırdı. Həyacan və tələşlə:

- Zəmiyə çəyirtkələr daraşıb! Qoruya bilmirik! –dedi.

Aysu özünü itirmədən qız-gəlin yığnağına sarı yeridi.

- Tez olun! Zəminin olan-qalanına bir qoşun çəyirtkə daraşıb, yığışıb gedəyin, əlimizə keçən sünbülləri biçib, qurtaraq.

Qız-gəlinlər, uşaqlar-böyüklər zəmiyə sarı üz tutdular.

Atlı və qanadlı qarışqalar yerə tökülmüş sarı buğda dənələrini sürüyə-sürüyə yuvalarına daşıyırdılar. Çəyirtkələrin qanadlarından qopan vızıltının səsi zəmini başına götürmüşdü. Elə bil zəmiyə çəyirtkə qiyafəsində bəla daraşmışdı. Uşaqlar qarışqaların yuvalarını qazıb, ovuc-ovuc dən yığırdılar. Qadınlar sünbülləri son başaqınacan topladılar.

Yığdıqlarını ən çox ehtiyacı olanlara bölüşdürmək üçün meydana gətirib, döyüb, hövsədilər. Bu zaman Günəştəpədəki hökmdarın adamları Böyük Xaqanın vergi toplayan dinməver çaparlarla meydana doluşdu. Əllərində tuğ və nizə tutmuş atlıları görcək meydandakıların səs-səmiri kəsildi. Dinməverlərin başçısı əlindəki eni-uzunu yeddi höllük olan fərmanı açıb oxudu:

- Ulu Zərdüştün odunu qorumaq məmləkətin bütün elobalarının borcudur.

Başçının həbəşi dodaqları tərpəndikcə camaatın heyrətdən gözləri bərəldi. Əfşəran taxtında oturmuş Böyük Xaqan səltənəti qorumaqdan ötrü vergiləri hər il olduğundan yeddi dəfə artıq qaldırmışdı. Mal-qara, at, yun, buğda, arpa, aşdanmış dəri, keçi, qoyun-quzu istəyən dinməverlərə acıqla baxan camaatın gözlərində narazılıq nişanələri güclənirdi.

Ulutürk dözməyib fərmanı oxuyan adamın sözünü kəsdi:

-Yoxsa Böyük Xaqan adamları bu müqəddəs tuğun altında soyğunçuluq eləməyə başlayıblar. Bə Xaqan bizim elin hal-qəziyyəsindən agah deyil?

- Hanı sizin elbaşınız qoca? Qoy o dillənsin! Niyə Kiçik hökmdarın və Böyük Xaqanın adamlarını qarşılamır?

- Neçə vaxtdı suyumuz yoxdu yağışlar yağmır, gölümüz murdar ruhların oylağına dönüb, bir yandan da hayas tayfalarının vəhşi basqınları. Savaşlarda, qovğalarda igidlərimiz şəhid olur, qan qardaşlarımız elindən-obasından didərgin dü-

şür... Nə Böyük Xaqandan, nə Kiçik hökmdardan köməyimiz yoxdur! - Ulu Saral sözünü qurtarmamış dinməverlərin başçısı onun sözünü kəsdi, domba gözlərini bərəltdi. Əsəbiliklə:

- Mən sizə bu sayaq danışmağı yasaq eləyirəm, -dedi, - soruşuram hanı sizin elbaşı?

Bayandur baba dedi:

- Yeddi gün, yeddi gecədir müqəddəs kitablarda dərdimizin çarəsini arayır. Tanrlya humayun dualar edib, Böyük Xaqana humayun namələr göndəririk. Ancaq hələ nə Tanrıdan, nə xaqandan, nə də Günəştəpə hökmdarından mədəd kömək yetişir.

Basarkeçər dilləndi:

- Hökmdar vergi toplamağa adam göndərə bilir, amma bizim oğlanlarımız bu gün din naminə, Vətən yolunda canlarını qurban verirlər. Xaqanın hökmdarların, saray adamlarının oğlanları Ərəsey məmləkətlərində sarısaç qızlarla əylənib kefə baxırlar, Malakanbazarda, Şeytanbazarda baş girləyirlər...

- Barı, zindanlarda günahsız yerə saxladığınız ərənlərimizi buraxın, bu dar gündə elin gərəyinə yarıya bilsinlər! – Ağca nənənin səsindən elə bil daş asılmışdı.

- Görünür, bu elin başçısı nə hökmdarın, nə də xaqanın adamıdı, onun puçunu burmaq mənə borc olsun! – deyə dinməverlərin başçısı barmağını silkələdi.

- O çağacan ki, bu məmləkətin xaqanı elin içindən çıxmayıb, giley-güzar əskilməyəcək, yurdun taleyi tükdən asılı olacaq!

Urşan dədə, Dondar qağa, Ağbaba, Bozyel bir-bir danışdıqca gələnlərin kürkünə birə düşürdü.

- Məmləkətin hökmdarlarını nə haqla günahkar sayırsınız? Bilin və agah olun, üstümüzə yağıların böyük qoşunları göndərilib, vergilər bu məqsədlə yığılır.- deyə dinməverlər-

dən biri ağsaqqalların sözünü qulaqardına vurdu.

Ulutürk hikkəsini boğa bilmədi:

- Biz müqəddəs tutduğumuz, torpaqlarımız uğrunda canımızdan keçməyə hazırıq! Ancaq məmləkətin taxt-tacında oturmuş xaqanın və onun ətrafında yığılanların cövhəri yalandan, riyadan yoğrulub! Ulduzların miqdarında mülk yiyəsi olub. Cahan sərvəti yığmaqla yağılara güc gəlmək olmaz! Mən səni yaxşı tanıyıram, atan kimi ədalətə yox, güclülərə xidmət göstərməyi sevirsən. Unutma, güc deyə qürrələndiyinizlə siz ancaq öz soydaşlarınızı əzməyə qadirsiniz.

- Mən də sizi yaxşı tanıyıram. Güneydə düşmənlərimiz az imiş kimi sizin kimilərin sayəsində indi Quzeydə düşmənlər qazanmışıq, bu elin şəhriyarı Günəştəpə hökmdarını və Böyük Xaqanı unudub deyəsən. Sizi özbaşına buraxıb, elədiyiniz, gördüyünüz əməllərdən adamlarımız bizə soraq verir!

- Sizsə öz murdar əməllərinizi odun, suyun, torpağın, ocağın yaddaşından poza bilməyəcəksiniz, gələcəyimiz sizin kimilərə lənət oxuyacaq! Yalandan bu yeddirəngli tuğun altına sığınmaqla siz, əslində özgələrin, yadların, ordan-burdan gəlmə köçəbə soysuzların məsləkinə xidmət göstərirsiniz. Dilinizdə Hörmüz andı olsa da, əməlinizdə Əhriməni yaşadırsınız. Siz ODLAR YURDUMa qara günlər gətirən Əhrimənin nökərlərisiniz!

- Hökmdarın və Böyük Xaqanın buyruğuyla hesablaşmayan, onun adamlarıyla danışmağın çəm-çöyrünü bilməyən, onlara böhtan atanlar zindana salınmalıdır! -Dinməverlərin başçısının işarəsiylə adamları Ulutürkün qollarına qandal vurdular, camaatın giley-güzarına, quraqlığa məhəl qoymayıb meydana bölüşdürülmək üçün gətirilmiş buğdanı dağarlara yüklədilər, qıtlığa, aclığa, susuzluğa, yağı zülmünə, Xaqanın dinməverlərinin özbaşınalığına dözməkdən səbri

çoxdan bəri tükənmiş Sarallı Önər, Yenməz Tuğay, Səldaroğlu irəli yeridilər. Buğdanın qaytarılmasını, Ulutürkün azad olunmasını tələb elədilər.

- Hə, təkcə ağsaqqalı yox, cavan-comrulu da dilini dinc qoya bilmir bu elin! Tutun bunları da!

Meydandakı cavanların sinələrinə tuşlanmış və qardaş qanı tökməyə hazır olan nizə, qılınc, cida gün işığında elin irəlidə hələ çox qara günlərlə üzbə-üz qaldığından soraq verirdi.v Cavanlar ölümə qarşı, ölüm cavanlara qarşı yeriyirdi. Sarallı Önər, Yenməz Tuğay, Səldaroğlu qan tökiləcəyini görüb hökmdarın və Böyük Xaqanın adamlarına müqavimət göstərmədilər. Onların da qoluna qandallar vuruldu.

Aysu irəli yeriyib, qucağındakı adsız körpəsini göstərdi:

- Yazığınız gəlsin, heç olmasa bu körpələri ac qoymayın! – dedi, - Hara uz tutaq, kimdən əlac soraq? Öz qan qardaşlarını zindanlara atan kəslər uşaqlarımızı da rəhm etmirlərsə, yırtıcı canavarların ən yırtıcısıdır!

Yeddi höllük xaqan fərmanını büktələyib atına minməyə hazırlaşan başçı Aysuya heyranlıqla baxıb dedi:

- Farslar demiş, qərbə şirəst dər giriftanə muş, leyk muşəst dər məsafə pələng![122]

Ey füsunkar mələk, biz xaqanın qarşısında kimik ki?..

Gəlinin abrı-namusu sanki onun hiyləgər baxışlarında əriyirdi. Aysu yaz bayramından öncə əyriburun, göygöz Udvanın bic baxışlarını yadına saldı. Onların baxışları necə də bir-birinə bənzəyirdi, elə bil Udvan təzədən peyda olub baxışlarıyla onu gəmirirdi. Cavan-comrul yenə coşdu. Hayküy səsləri bir-birinə qarışdı. Bayandur baba əl ağacını göyə qaldırdı, var səsiylə qışqırdı:

[122] Pişik siçan tutanda şirdir, amma pələng qarşısında siçandır

- Dayanın! Bu adamların gözünü qan tutub, sərvət onları kor eləyib. Aclığın nə olduğunu duymayandan bundan artıq nə umursunuz ki? Ancaq qoy unutmasınlar ki, babalarımız namərd qarşısında acizlik eləməyib, daşa dönməyi şərəfsizlikdən üstün tutublar.

Bayandur baba danışa-danışa başçıya yaxınlaşdı:

- Sizin pərəstiş elədiyiniz farsların belə məsəli də var. Xər həmin xərəst, leyk çulu digərəst[123]. Xaqan və onun hökmdarları bir şeyi yaddan çıxartmasınlar, onlar son bişirimlik buğdamızı da əlimizdən ala bilərlər, igidlərimizi, ərənlərimizi zindanlara sala bilərlər, ancaq qeyrətimizi, yurda sevgimizi əlimizdən ala bilməzlər. Dediz ki, xaqan qarşısında siz kimsiniz? Bəs öz vicdanınızın səsini niyə dinləmirsiniz? Axı vicdan xaqanın hökmünə yox, insanlığa xidmət etməlidi... Heç özünüzə, ətrafınızda olanlara sual vermisinizmi niyə sərvət sizin, qeyrət bu qollarına qandal taxdığınız adamların payına düşüb?! Heç fikirləşmisiniz ki, nəyə görə sərvət də, qeyrət də bir adamda ola bilməz?! Sərvəti olanın qeyrəti, qeyrəti olanın sərvəti olmur! Baxın! Yaxşı baxın əcdadlarımızın qanına boyanmış bu daşa! – deyə Bayandur baba Qan daşını göstərdi. – Ruhlarımızı hövsələdən çıxarmayın! Gedin, xaqana deyin, qoy başı eyş-işrətdən ayılsın! Bu daşları qoyanları, qoruyanları yada salsın. Əgər o xalqı bu yurdun dərdinə-sərinə şərik edirsə, bəs nə əcəb bir az qa bu yurdun sayəsində yığdığı sərvətə şərik eləmir?!

- Taxtı başına çöyrülsün, görüm elə Xaqanın! Bizim təki suya həsrət qalsın! Sarayında bayquşlar ulasın! Çörəyi didərgin düşsün! – deyə Ağca nənə qarğış elədi.

Hamı Qan daşına baxırdı. Günəşin istisindən daş qıpqır-

[123] Eşşək həmin eşşəkdir amma çulu başqadır.

mızı qızarmışdı, bağrı yarılmış daşdan sanki qan sızırdı. Qan daşı daş dili ilə elə bil meydandakı Yoldaşını, Sirdaşını, Yurddaşını, Yaddaşını haraylamışdı. Namərdliyin üzərinə yermək istəyən daşların zəhmi dimvərləri basırdı. Birdən meydanı bürümüş sükutu Qan daşından qopan vahiməli bir səs pozdu. Yer silkələndi. Qan daşı haray qopara-qopara çatladı, əlində Xaqanın fərmanını tutan adam qorxu içərisində geri çəkildi, atına minib başının dəstəsi ilə tozlu-torpaqlı dövran yoluna çıxdılar. Əsir tutduqları adamları buğda dağarları yüklənmiş arabalara mindirib aradan çıxdılar, onların atlarının ayaqlarından qopan toz elə bil bütün mə\mləkəti bürümüşdü...

Hamı həyacan içində Qan daşını dövrəyə almışdı. Aysu əli titrəyə-titrəyə daşın çatlamış bağrına toxundu, titrək səslə dedi:

- Qan daşı, sənin bağrınımı çatlatdılar! Qan daşı, dünyanın sonumu çatıb, daş səbrin çatlayıbsa, demək insanlıq da əldən gedəcək!

Aysu Qan daşını qucaqlayıb göz yaşları içərisində onun çatlamış köksünü öpdü...

* * *

Həmin gün zəlzələni Azərnur da məbəddə hiss elədi. Su ilahəsi ilə Torpaq ilahəsinin heykəlləri aşdı. Od oğlu Atarın, Ulu Zərdüştün heykəlləri silkələndi, müqəddəs kitablar taxçalardan yerə töküldü. Azərnur məbədin daş gözlüyündən ədalət meydanına boylandı. Meydanda Qeyrət ocağının odu qığılcım sancırdı, adamlar Qan daşın yanında dayanmışdı. Elə bil Xırmantəpə eli səssiz fəryad qoparıb «ağlayırdı», göz yaşları əvəzinə, sinəsinə toz calanırdı.

Ağca nənənin boz iti iri bir kəsəyi ağzına alıb çeynəyir,

ayaqları ilə torpağı cırmaqlayırdı, elə bil zəlzələni qorxuzmaq istəyi ac-yalavac itə güc vermişdi... Amma həmin günü boz itin acığına yer yeddi dəfə silkələndi. Zindandakı sahibinin yolunu gözləməkdən bezmiş boz it quyruğunu bulaya-bulaya Ağca nənənin ayaqlarını yaladı. Üzünü Aysunun libasının ətəyinə sürtdü, adsız körpəsinin üzünə baxıb zingildədi, sonra meydanın alaqapısına tərəf getdi, dönüb meydandakı adamlara baxdı. İki dəfə qayımdan hürüb Qumlu bazıya sarı qaçdı. Bazıda və Ağ Qobuda heyvan cəsədləri arasında tək-tük insan cəsədləri də görünürdü. Otu-ələfi yanıb qovrulmuş Qumlu bazıdan Xırmantəpə elinə ölüm iyi yayılırdı. Boz it zingildəyə-zingildəyə cəsədləri imsiləyib, göyə baxdı. Göydə qarğa-quzğun dəstəsi dövrə vururdu. Boz it qarğa-quzğunlara hürə-hürə can verirdi.

* * *

...Düz yeddi gün, yeddi gecə dizlərinin altına ululuların yadigarı sayılan tunc qılıncı qoyub müqəddəs kitablara baxaraq, dualar oxuyan Azərnur məbəddən çıxandan sonra ağır-ağır ədalət meydanına endi. Sifəti avazımışdı, aclıq-susuzluq öz işini görmüşdü, görkəmindən xəstəlik yağırdı.

Meydandakılar son yeddi gün ərzində Azərnurun, Azərnursa camaatın, Xırmantəpə elinin necə dəyişildiyini bütün varlığı ilə dərk edirdi. «Elə bil gözəgörünməz Tanrı Xırmantəpə elinin yaxasından yapışıb sirkələdikcə meydandakı daşlar da yerindən dəbərmişdi». Azərnur ürəyində daşınırdı: «Yoxsa, dünyanı fəlakət gözləyir? Canlıları xilas etmək üçün «VARA»[124] tikmiş Yima kimi hökmdarı yoxdursa, demək,

[124] VARA - Qala, otaq-«Avesta»da Vara Nuhun gəmisiylə, Yima Nuh peyğəmbərlə uyğunlaşır.

dünyanın taleyi Əhrimənin insansifət divlərinin əlində olacaq! Duaların, andların, alqış nəğmələrinin, igidlərin, ərənlərin xilas edə bilməyəcəyi dünyanı bəs kim fəlakətdən qurtara bilər?! Tanrımı? Yox, xaqanların, imperatorların, hakimlərin, böyüklü – kiçikli hökmdarların günahı bezdirib Tanrını. Tanrının fövqünə qalxmağa insanın gücü çatarmı?».

...Ağsaqqallar Azərnurun görkəmindən təşvişə düşdülər, ömürlərində ilk dəfə onun hüzurunda ayağa qalxdılar. Hamısı bir-birinə sual dolu nəzərlərlə baxıb susdular. Ağca nənə Qeyrət ocağının başına yığılmış ağsaqqallara yaxınlaşdı. Gözlərindən qırışlanmış sifətinə yaş süzülürdü. O, gözlərini yumub açdıqca sanki bədənindən son damla suyu da sıxıb çıxarmaq ıstəyirdı:

- Barı, bu elin ozan ərənlərini su gətirməyə, taxıl dalınca yad ellərə, yağıyla savaşa göndərməyəydiniz? Qoy dərdimizə söz qoşub, dastan bağlayaydılar. Bu ulusun sonuncu atəşpərəstinin yaddaşında əbədiyyən qalaydıq!

Ağca nənənin neçə vaxt idi ki, içi qaynayırdı. Ürəyinin giri gedəncən ağladı. İntizar qarı, Bağdagül nənə, Nənəş qarı, Səlcan nənə onu güclə sakitləşdirdilər.

- Bu el Tanrının əbədi yadından çıxıb! Yoxsa xaqanın dinməverləri son bişirimlik buğdamızı əlimizdən alıb, ərənlərimizi əsir aparmazdı, adamlarımızı həqir eləyib, yazıq günə qoymazdı!.. - Urşan dədə Ulutürkün, Yenməz Tuğayın, Sarallı Önərin və Səldaroğlunun xaqanın adamları tərəfindən əli-qolu aparılmasını Azərnura xəbər verdi.

- Türkün tuğunu əllərində baydaq eləyən qoluzorlu xaqan adamları çapolçuluq eləməyi özlərinə peşə sanırlar, - deyə Bozyel dilləndi.

- Baş məbəddəki möbiddən də bir xəbər hasil olmadı! - Ulu Saralın səsi xırıldadı.

İntizar qarı soruşdu:

- Bəs taxıl, su dalınca gedənlərimiz niyə belə yubandılar? Bəlkə quldurlar gətirdiklərini əllərindən alıb, özlərini də öldürüblər?!

- Elə bil onların keçib gələcəyi bəndlər-bərələr tutulub, körpülər dağılıb! – deyə Ağbaba yorğun-yorğun kətilin üstündə əyləşdi.

- Arayatı yuxularımızda məmləkətin yeddi böyük körpüsünü görmüşəm. Xudafərin, Qırmızı körpü, Sınıq körpü, Umud körpüsü, Taxta körpü insansifət divlərin zavalına gəlmiş, uçurulub dağıdılmışdı. Etibar körpüsü göydən asılı qalmışdı. Doğmalar bir-birindən aralı düşmüşdü. – Dondar qağa elə bil yuxuda danışırdı. – Bircə qarımış Xatirə körpüsü ilə təsəlli tapırıq.

Basarkeçər dedi:

- Bu məmləkəti cəhənnəmin orta göbəyinə döndərənlər insansifət divlərdi. Yurdumuzu, elimizi-obamızı dağıdan, çörəyimizi boğazımızdan çıxaran, qeyrətli ərənlərimizi zindanlara atan Əhrimənin şər bətnindən törəyən insansifət divlər dünyanı zülmət pərdəsinə bürüyürlər!

- Dünya zülmətə bürünəndə yalan ayaq açıb yeriyər, haqqın qolu bükülər, əyri düzü kəsər, xoşbəxtlik insanlardan qaçaq düşər! Doğma yurdda qəriblik, qəriblikdə doğma yurd həsrəti yaşayır! – didərgin Qaryağdı dədənin gözləri dolduğu üçün sözünün gerisini söyləyə bilmədi.

Bağdagül nənə soruşdu:

- Görəsən, bu elin şad-xürrəm günləri yenə olacaqmı?

Selcan nənə ah çəkdi:

- Bu el Ulu Tanrının gözündən uzaq, könlündən iraqdı.

Ağca nənə pıçıldadı:

- Ərənlərimizin yəhəri qanla dolur, ərgənlərimizi yağılar

öldürür, murdar ruhlar yeri-göyü korruyub, bətnində uşaq gəzdirən gəlinlər elə bil yerikləyəndə dəvə əti yeyiblər. Körpələr işıq üzü görməmiş paymal olurlar. Bahar bayramından üzü bəri bu eldə bir salamat körpə də doğulmayıb!

- Nə İsgəndər Zülqərineyn, nə Sasanilərin zamanında bu məmləkət belə müsibətlər görməyib. Nə dualarımız Tanrıya çatır, nə harayımız! Alqışımız alqış, qarğışımız qarğış deyil elə bil! – deyə Bayandur baba işarə ilə Azərnuru əyləşməyə dəvət elədi.

- İsgəndər padşah odlar yurdunun on iki min inək gönünə yazılmış müqəddəs söz xəzinəsini yandırdı... Sasani padşahları bu yurdun sərvətini daşıdı, batman-batman bac-xərac aldığı insanlara işgəncə verdi. İndi bu yurdun olan-qalan yeraltı, yerüstü sərvətinə təzə-təzə müxənnətlər həris gözlərini dikib! – deyə Urşan dədə də Azərnurun yanında əyləşdi.

Azərnur ağır-ağır dilləndi:

-İsgəndər yadelliydi, məmləkətlər basa-basa gəlmişdi. Sasanilər də hakazə, fars soylarından idilər. Ancaq Sasani hökmdarı Keyqubadın zamanında Muğana su çəkilmişdi, BəcİRƏVAN da abad, gözəl şəhər idi. İndi bizim məmləkətə qəlbən Tanrıya bağlı olan Muğan xaqan kimi cəsur hökmdar lazımdır. O, başında durduğu yurdun taleyüklü işlərini ağsaqqallar məclisində - qurultayda həll edərdi. Muğan xaqan türk dövlətxanasında Böyük Hun imperiyasından qalma varislik ənənəsinə yeni düzən gətirdi. Həmin düzənə görə, dövlətxana işində oğul atanın varisi ola bilməzdi. Bu da xaqanlıq taxt-tacına daha cəsur, böyük sərkərdəlik məharəti olan hökmdarların oturmasına imkan verirdi. Taxt-tac deyəndə Muğan xaqanın, eləcə də o biri türk xaqanlarının taxtı öz atlarının yəhəri idi. Muğan xaqan yağıları Çin səddindən də o yana qovmuşdu. Məmləkətin sərhədləri gündoğandan

günbatanacan - Böyük Okeana* qədər uzanırdı. Böyük İpək yolu Muğan xaqanın nəzarəti altındaydı. Cəsur xaqan Çin kimi qədim məmləkəti Göytürk imperiyasından asılı duruma salmışdı. İndi isə nəzarətsiz qalan İpək yolu ilə Odlar yurduna həm də böyük bəlalar, xəstəliklər, şeytan xislətli adamlar gəlir. Əlbəttə ki, bu yurdun düşməni öz içindən doğulursa, aqibəti, şəksiz, «AVESTA» kimi olacaq! Əski torpaqlarımızın o müqəddəs kitab təki yeddidə bir parçası qala-qalmaya. İndi quzeydən də, güneydən də Odlar yurdunun torpaqlarına birə kimi daraşanlar var! Bu yandan da özümüzünkülərin mənəm-mənəmliyi... Bir ömrün səadətini minlərcə ömrün bədbəxtliyi üzərində quranlar kimlərdi? Əgər hər eldə-obada Udvan kimi bir şöhrət düşkünü, Sevan kimi bir-iki bədniyyət olsa, onda görün ki, bu məmləkətin bəxtini düyünə salan nə qədər Tanrı bəndəsi var. Bəs xalqın yiyəsi olan öz xalqının tikəsini boğazından çıxararmı? Yağılara güc verənlər, öz dəyirmanlarımızı susuz qoyub, özgə dəyirmanlarına su tökənlər kimdi? Nə Tanrını qınayın, nə taleyi! Günah qanı qanımızdan, soyu soyumuzdan, dili dilimizdən olan insanlarındı! Ağsaqqalı incik salan, cavan-comrulu küsdürən, elləri-obaları ac-susuz qoyan, didərginlərin dərdinə əlac tapmayan, ağlı-zəkanı zindarlara salan, şəhidlərin, müqəddəslərin ruhunu yad etməyən insanlar da Türkazərin övladlarıdı! Düşünəndə yadellilərdən bu adamların fərqi nədir? Onda nə gündüzlərin günəşini, nə də gecələrin aylı-ulduzlu səmasını seyr etmək istəyirsən! Tanrı deyə inandığımıza da bu dolaşıq kələfin ucunu tapmaq çətindi! Bəlkə, yadların yox, doğmaların təqsiri, qəbahəti Tanrını öldürür. Körpülər dağılanda, yollar keçilməz olanda İNSAN körpü olmağı bacarmırsa, yol tapa bilmirsə o ÜSTİNSAN sayıla bilməz!.. Baxın o taxta qılınc qurşanıb savaş oyunu çıxaran oğlan uşaqlarına! – deyə o, əli

ilə meydanın bir küncündə taxta qılınc döyüşdürən uşaqları göstərdi. - Bu uşaqların qan yaddaşında torpaq sevgisi, Vətən məhəbbəti, əcdadlarının ruhu yaşayır! Onların cövhəri qeyrətdən yoğrulub! Böyüyüb boya-başa çatdıqca da bu hissi özləyriylə böyüdəcəklər. Dar gündə elin gərəyi, yurdun dirəyi olacaqlar! Ancaq onların həmyaşıdı olan sərvətsevər insanların balaları bu oyunu çoxdan oynamırlar! Yadırğayıblar. Yadırğalar olacaqlar! Yeddi-səkkiz yaşından sərvətsevər olanın torpağında fitnə-fəsad göyərər! Cahil insan içində yiyəsizlik, başsızlıq[125] gəzdirər! Bunlar biclik törədənlərdir! Zərdüşt son insanı kökü kəsilməyən torpaq birəsinə bənzətmişdi! Əsl insan yer üzünün anlamıdır, yolsuz, əqidəsiz insan isə çirkli irmaqdı. Çirki içinə alanda kirlənməmək üçün insan gərək dəniz olsun! Üstinsan – ali insan həmin dənizdir! Üstinsanın yaşaması elin yaşamağı deməkdi. Tanrı və onun peyğəmbəri bəşər yaşasın deyə özlərini yer üzünə qurban verənləri sevir! Ağca nənə giley edir ki, ozan ərənləri savaşa göndərmişik, ərgənlərimizin qanlı köynəkləri üstümüzə gəlir! Onlar vətən yaşasın deyə özlərini qurban verənlərdi. Vətən, torpaq, namus uğrunda savaşa gedənlərin savabı Baş atəşgaha ziyarətə gedənlərin savabından qat-qat artıqdı!

Ağca nənə dedi:

- Ağrın-acın mənə gəlsin! Mən Tanrıya çox inanirdım! İntəhası, elə bil murdar ruhlar çəkilib göy üzünə, ulu Tanrının gözlərinin önünə qara buludları pərdə kimi tutub. O gözəgörünməz göyçadırlı heç nə görə bilmir. Oturmaq vaxtı çatan otura bilmir, imək̆ləmək vaxtı çatan körpələr imək̆ləmək bacarmır, toyumuz yasa dönür, ağbirçəklər saçını yolur, gəlinlər ərsiz, yurdlar adamsız, ellər ac-susuz qalır! Su, taxıl da-

[125] xaos

lınca gedənlər sanki gedərgəlməzə yollanıblar. Tanrı əgər bunları görüb əlac etmirsə, deməli, onun insafı ölüb!

Sonra Ağca nənə üzünü cavan gəlinlərdən birinə tutdu:

- Göyçəli ozanın qopuzunu gətir, Türkay xatun!

Azərnur qəfilcə diksindi, Ağca nənə qotazlı döşəkçənin üstündə bardaş qurub oturdu. Gözəl, cavan, boylu gəlin əlində qopuz utana-utana Ağca nənəyə yaxınlaşanda Azərnur özünü itirmişdi. "İlahi, Türkaymı dirilmişdi" - Düşünürdü ki, el arasında bir-birlərinə bu qədər oxşar adamlar görəndə deyirdilər, elə bil, bir almadı tən yarı bölünüb! Ancaq alma da almaya bu qədər bənzəyə bilməzdi. Bu Türkay xatunsa, öz sevimli Türkayının sanki əkiz tayıydı...

Ağca nənə Azərnurun fikrinin yayındığını görüb yavaşca pıçıldadı:

-Göyçəli Pambəkin ömür-gün ortağıdı, ozan idi. Qaratəpə elinə yağı təpiləndə, köməgə gedib, hələ də xəbər-ətər yoxdu, yağının əli qurusun! Tanrı cəmi cavanlarımıza qıymasın! – deyə gəlindən qopuzu aldı. Hamı susub Ağca nənəyə baxırdı, sükut ağır daş kimi çiyinlərinə enmişdir, cavan gəlin qayıdıb qız-gəlin yığnağına getdi.

Ağca nənənin neçə vaxt imiş ki, içi qaynayırmış, durulduqca ömründə əlinə ilk dəfə qopuz alan və onu asta-asta dilləndirən bu yaşlı qadının dodaqlarına bədahətən öz istəyinə tabe olmayan sözlər axdı.

Ulu Hörmüz, hər yanımız yağıdı,
Ağrı dağı ah-nalə yığnağıdı,
Qız-gəlinin ağı deyən çağıdı,
Ərgənləri getdi, əri qalmadı.

Naqafil dünyanın çöndü gərdişi,

Basdı bu ulusu mal-qara leşi,
Camışın qobuda ağarır dişi,
Nə çər ürcah oldu, sirri qalmadı.

Yuxuda gördüyüm tez oldu gerçək,
Qarımış ürəyim, gəl indi dərd çək.
Obaya pasiban yazıq boz köpək,
Nə azar tutdusa, diri qalmadı.

Gənə düşdü çöldə qoyun-quzuya,
Duz tapmadım dərilərin duzzuyam.
Çit olmadı yorğan-döşək üzzüyəm,
Qırıldı arağaş, iri qalmadı.

Sinəmə yayılıb ölüm soyuğu,
Gözüm seçmir uzağılən, yovuğu.
Nə qızıl xoruzu, nə çil toyuğu,
Teyxa gördüyümün biri qalmadı.

Suyuna el həsrət qalan Göyçəmin,
Üstünü murdar ruh alan Göyçəmin,
Sevanı qoynuna salan Göyçəmin,
Suyunun paklığı, mehri qalmadı.

Ağca görməyibdi heç belə yazı,
Yüz yazın halvasın çalmışam azı,
Nə qobu dolardı, nə Qumlu bazı,
Tanrı, ürəyimin giri qalmadı...

- Ey yeri-göyü yaradan! Şükür dərgahına! Yazın axur-uxuru ola-olmaya, isti qorabişirən aydan da betərdi. Susuz-

luqdan torpağın sinəsinə yaralar vurulur, insanların ürəkləri pöştələnir! Heyvan cəsədlərinə qarışmış insan cəsədləri çöl-bayırda qurda-quşa yem olur. Ələngəsi çıxmış mal-qara leşlərinin kəsafət iyi eli başına götürüb... Tanrım, Ağrı dağı yağıların oylağına dönüb, Ana Göyçəmizin bəkarəti pozulub! Savalandan bulud göndər! Yağış ilahəsinə kömək ol! Ölüm yatağında can verən Xırmantəpə elinə rəhmin gəlsin! Bu el-obanı igid-igid oğlanların al qanına xırman olmasına qıyma!

Ağca nənənin söz deməyə ürəyinin taqəti qalmamışdı, üzünü Tanrının dərgahına tutub canlı heykələ dönmüşdü.

Uşaqlı-böyüklü hamı xorla deyirdi:

- Şimşək çaxsın, yağış yağsın, bağ-bostanın kəhəri su, qanımız su, canımız su, elimizin cöhəri su. Özünlə bolluq gətir, yamyaşıl otlar bitir. Ərənlər su içsin, yağının kökün biçsin! Susuz bu yurd ölüdü, yağımız Əhrimən dölüdü, od oğlunun düşməni ərmənidi, ərməni... Su! Su! Su!..

Cavanlardan biri yoğun səslə lap bərkdən qışqırırdı:

- Ac qarına, susuz bədənə, nə etmək olar Vətənə. Şimşək, çax! Yağış, yağ!..

Hamı yenə xorla dedi: - Su! Su! Su!..

Azərnur elə bil iynə üstündə oturmuşdu. Azad ağacından olan əsasına söykənib ayağa qalxdı: - Ac qılınca çapar deyiblər, yağı qabağına susuz çıxan ərənlərimizdən zəfər ummaq olmaz!.. Zərdüşt peyğəmbər buyurmuşdu ki, çörək bol olarsa, müqəddəs söz də yaxşı duyular. Ac qarına insanlar xeyirxah işlər görməkdən məhrum olurlar. Əhalini yedizdirmək qayğısı hər şeydən üstündür.[126] Ac-susuz camaatın mədəsi quru vədləri həzm eləməkdən cana doyub. Ağzıgöyçəklik, hay-küyçülük bu eli, məmləkəti ovundura bilməz! Bö-

[126] «Avesta»nın 9, 10, 31-ci «Yəsna»ları aqrar islahatlardan bəhs edir.

yük Xaqandan, Baş məbəddən, hökmdarlardan bizə əlac yoxdur! Yağı ayağının elədiyini başbilən sandığımız kəslərin BAŞI eləmir. Çobansız sürüyə bənzəyir məmləkətimizin yurdsevərləri!.. Gedənlərin yolunu gözləmək xatirinə, yaşamaq gərəkdir! Siz yaşamalısınız. Gecələrin yuxusuna bel bağlamayın, üzünüzə xeyirliyə açılacaq sabahlara ümid bəsləyin!

...Ulu Günəş sanki Savalana Tanrı ilə məsləhət-məşvərətə tələsirdi. Azərnur isə məbədə – özü ilə məslək ilahəsi Türkayla görüşə qayıdırdı.

Hamı elə bilirdi ki, Ağca nənə o gecədən sabaha çıxmayacaq. Yarımürgülü, yarıoyaq huş arasında onun səsini eşidirdilər.

- Ulu Tanrı, apar məni, bir gündə on dəfə öldürüncə, elə birdəfəlik apar məni, çək ruhumu yanına! – deyə Ağca nənə sayıqlayanda Aysu onun yanını kəsdirib, səhəri dirigözlü açdı. Suları tamam qurtarmışdı. El uşaqlı-böyüklü ürəyində xəlvətcə Ana Göyçə deyə andıqları, dildə-ağızda gah Sevangöl, gah da Qızbatan dedikləri gölə sarı boylanırdılar. Amma Amanın ölümünü yadlarına salıb, gözlərini tez də oradan çəkirdilər...

Səhər gün erkən çıxmışdı, ay da batmamışdı. Elə bil Günəşlə Ay yaradılışdan bəri bir-birlərinə bu qədər yaxın-yaxına dayanmamışdılar... Adamlara elə gəlirdi ki, Tanrı dedikləri gözəgörünməz qüdrət sahibi göyçadırlı taxt-tacında əyləşərək Xırmantəpə elinə nəzər salmışdı. Elin uşaqları həmin gün Xatın arxının qırağında susuzluqdan qurumuş söyüd ağaclarının qabığını soyub dillərinə sürtürdülər. Dəmyə yerlərə əkilmiş toxumlar göylərdən yağış payını uma-uma yanıb-qovrulmuşdu. Bağ-bostanları gəzən uşaqlar yemiş-qarpız iyi çəkilməmiş tağları qoxulayır, çölləmədə biyan kökü tapıb yeyirdilər. Meydanda körpə uşaqlar daha analarından,

nənələrindən su istəmirdilər, hər nə istəyirdilər, Ulu Tanrıdan istəyirdilər, ondan diləyirdilər. «Ulu Tanrı, su ver! Ulu Tanrı mənə qarpız ver. Ulu Tanrı Savalandan buz göndər!.. Ulu Tanrı, atamı istəyirəm! Yağılara ölüm göndər, atam qayıdıb gəlsin!»

Tanrı deyə çağırdıqları müqəddəs varlıq yuxarıda – buludların üstündə oturub ağzına su almışdı sanki. Xırmantəpənin adamları azaldıqca, dərdi çoxalırdı, olan-qalan bərəkəti tükənirdi... Qumlu bazıda, Ağ Qobuda sümüklər tığlanmışdı, obalarda doğub törəyən bircə eşşəklərdi. Xırmantəpənin yeddi tayfasının sağ-salamat qalanlarını bir yerə yığmaq olsaydı, vur-tut yeddi eşşəyə yük olardı. Tanrı elə bil qəsdən ədalət meydanındakılarını umsundururdu...

Meydanda halay qurmuş ulu daşları da Tanrı hövsələdən çıxarmışdı. Hər dəfə yer sirkələndikcə bu yeddi nəhəng daşın səbri çatlayırdı, əcdadların daşlaşmış ruhu ovulurdu.

Yaddaşına sığınmış tut ağacının kölgəsindəki həsirin üstündə bir yığın sür-sümüyü xatırladan Ağca nənə fikirli-fikirli oturub, hardansa tapıb gətirdikləri bağanı oyuncaq kimi oynadan uşaqlara tamaşa edirdi. Elə bil bir gecənin içində Ağca nənənin əti tökülmüşdü, kirpiyinəcən birçəkləri ağappaq süməyə dönmüşdü, sanki bir yığın sür-sümüyün içərisində tərpəşən bir cüt soyuq gözləriydi, bir də qupquru dərisi qalmış dodaqları.

- O bağanı bəri gətirin! – Səsi elə bil quyunun dibindən eşidildi. Bağanı oynadan uşaqlar bu gün Ağca nənəni sanki ilk dəfə görürdülər. Dünənə kimi arvad onu görcək qorxuya düşərdilər. Ağca nənə diriykən ölüyə oxşayırdı. Uşaqların lal-dinməz durduğunu görüb bir də soruşdu:

- Axı gözüm yaxşı seçmir? O bağa diridirmi?

Uşaqlar başlarını tərpədib, «hə» dedilər.

- Onda asın onu ağacdan!

Uşaqlar elə sandılar ki, Ağca nənənin başına hava gəlib, ona görə mat qalmışdılar.

- Nə quruyub bəbək qaldız, ayağından asın!

Bayandur babanın heybətli səsini eşidəndən sonra uşaqlar qatma tapıb, bağanı tut ağacının ən uca budağından asdılar. Ağca nənə üzünü gözəgörünməz Tanrıya tutdu:

- Ey yerin-göyün sahibi, eşit və agah ol! Dualarımızı, qurbanlarımızı, yalvarışlarımızı qəbul eləmədin. Andımızı, əhdimizi, hədəmizi qəbul et! Nə qədər ki, yağış yağdırıb bizə su verməyibsən, o vaxtacan sənin canlılarını asacağıq!

Müqəddəs «Avesta»da Tanrının buyruğu ilə Zərdüşt peyğəmbər insanlardan tələb eləmişdi ki, heyvanları incitməsinlər. Səbri tukənmiş Ağca nənə elə bilirdi ki, Tanrı hövsələdən çıxıb qəzəblənəcək. Bağanı tut ağacının budağından asmış uşaq aşağı enə-enə qəfil qışqırdı:

- Odur ey, odur ey! Qadasını aldığım bulud gəlir!..

Elə bil Savalanın zirvəsindən bir qoşun bulud Xırmantəpə elinin üstünə yaydan çıxmış ox kimi gəlirdi. Savalandan əsən yellər buludları tələsdirirdi. Sanki Acıdüzünün, Güllüdüzün, Ağçalanın, Ağ Qobunun, Qumlu Bazının, Ana Göyçənin... başlarının üstünü kəsdirmiş ÖLÜM mələklərinin, Varitraların – əcdahaların üzərinə Tanrı dağından qara zolaqlı pələng sürüsü gözlərindən od çaxdıra-çaxdıra yüyürürdü. Elə bil Savalanda yatmış od oğlu oyanaraq, ayağa qalxıb yaraq-yasağını qurşanmışdı. Əcdaha buludların canına vəlvələ düşdü. Qara zolaqlı buludlarla toqquşanda sanki qabırğaları sındı: ŞARRAQ! Şaraqqıltıdan sonra göyün ağzından düşən mıxça boyda yağış damcısı torpağa sancıldı, qoz boyda dolu meydana düşdü. Düşən kimi əriyib istidən pörtmüş daşların təşnə sinəsinə hopdu...

Yağış ilahəsi Tiştranın «Qızıl yüyənli, qızıl qulaqlı, gözəl ağ at»ı kişnədi[127], göydə iki çaxmaqdaşı bir-birinə toxundu, üfüqdə şimşək yanıb söndü. Köpək bürcünə daxil olan Sirius ulduzu[128] su dolu kuzəni yerə –bolluq və torpaq ilahəsinə uzatdı. Xırmantəpə elinin ədalət meydanında ləyənlər, lüləyinlər, kuzələr, güyümlər, bicəkçələr, su və gülab səhəngləri, süd sərincləri, saplıcalar, tayqulplar, taxta çəlləklər, dünyanın yeddi rənginə bürünmüş buta naxışlı qab-qacaqları sənətkarların, miskərlərin onlara ömür verdiyi gündən bəri ilk dəfəydi ki, bir-birlərinə sıx, çiyin-çiyinə söykənib Tanrıdan su istəyirdilər. Onları bir göz qarpımında yan-yana düzmüş qız-gəlinlərin üzünə həzin bir meh sığal çəkdi. Adamların qəlbi fərəhlə doldu, içərilərində ÜMİD böyüdü. Biri dedi, bu külək Savalanın qarlı zirvəsindən qopub gəldi. Biri dedi, Savalan çox uzaqdı, bu külək Şahdağdan ya da Hirkan dənizindən əsir! Adamlar küləyin haradan əsdiyini unutmuşdular. Çünki burunlarına yağış iyi dəmişdi, yağış yağacaqdı... Amma Əhrimənin quraqlıq sevən divləri sanki gözəgörünməz ənginlikdə hiylə toru qurdular. Təslim olduqlarını duyub Ağrı dağına sarı çəkildilər, onlar yağış ilahəsi Tiştiranı da orada savaşa çəkdilər. Əmcəyi yağışla dolu buludlar Əyriuzunuyan Ağrı dağına sarı – Apuş və Əspəncərum div qardaşlarının axırına çıxmaq üçün qəzəblə gedirdi. İldırımlar göydə təndir kimi şölə saçırdı. Xırmantəpə sakinlərinə elə gəlirdi ki, əllərini uzatsalar, yağışa çatar.

Yağış Əcdaha buludları məğlub eləyəndən sonra Əyriuzunyan Ağrı dağlarına Tanrının alqışı kimi yağırdı. Qara zolaqlı buludlar su dolu əmcəyini həmin yerlərə sağıb qurtarandan sonra dağıldı. Sonra göylər oğlu elə bil qəsdən Ağrı

[127] «Avesta»nın «Tiştar-Yəşt»ində özündə su saxlayan ulduz belə təsvir olunur.
[128] Sirius- Tiştira ilahəsi.

dağının boynuna yeddirəngli göy qurşağını çələng təki taxdı. Göylər oğlu hardan biləydi ki, Ağrı dağının ətəklərindən neçə vaxtdı türkazərlər didərgin salınır, yurd yerlərində köçəbə tayfalar meydan sulayır. İndi ağrı dağının ətəklərində didərgin düşmüş odpərəstlərin dədə-baba yurduna yiyələnmiş hayas tayfaları sanki göylərdən yağış uman Xırmantəpə sakinlərinin halına gülüb: - TANRI BİZİM ADAMDI! – deyə qürrələnirdilər.

Meydandakı adamlar yağış yağan səmtə boylana-boylana yanıb-yaxılırdılar:

- Ax, hiyləgər Əhrimən, yalançı buludlar, oğru buludlar! O yağışları Ulu Savalandan Tanrı bizim üçün göndərmişdi, əcdaha buludlar qəsdən yağış ilahəsinə məğlub oldu. Tanrının bol suyunu bizə çox görən Varitra[129] Vartanları himayə edir!

- Ulu Tanrı, kərəminə çox şükür olsun! Əziyyət çəkən biz, ac-susuz qalan biz, qurbanlar verən biz! Sənsə yağışı sudan yorğanı, kəhkaşan binələri buluddan nəm çəkən, qara topuğundakı xal-xal daşlarından sısqa bulaqlar süzülən, meşələrində acgöz canavarlar, hiyləgər tülkülər bəsləyən, qan qardaşlarımızı yurd-yuvasından qovan xain Əhrimənin nökərlərinə bəxş eləyirsən! Kaş o bir damla yağış damcısı da üzümüzə çırpılmayaydı, onda ürəyimiz bu qədər göynəməz, içimiz yanmazdı!

- Əyriuzunyan Ağrı dağının köçəbə sakinlərini himayə edən Əhrimənin divləri elə bil Tanrını da yoldan çıxarıblar!

Xırmantəpə elinin naləsini eşidən Azərbay məmləkətinin yeddi dağı yanıqlı ah çəkdi. Torpağın dərdi böyüyüb yeddi yerdə dağ oldu. Yeddi dağın ahından həmin dağlara od düş-

[129] Varitra - gizlədən, oğurlayan

dü. Fit dağından dəhşətli səs gəldi. Dəlidağ havalanıb özündən çıxdı. Tufandağdan tufan qopdu, Şah dağının başından duman çəkildi. Yanardağın odu ərşə dirəndi, Mişardağ hikkəli-hikkəli daş dişlərini itilədi. Ağrı dağının xəcalətdən bağrı qanadı, Əraz çayı qana boyandı, Qaradağın qaşına qaranlıq çökdü... Diri dağ dirigözlü cürümə düşmüşdü. Məmləkətin sinəsinə çəkilən DAĞLAR get-gedə artırdı. Savalanda isə Ulu Zərdüştün ruhu göynəyirdi, zirvəsindən göz yaşı kimi axan çayın səsi Tanrı dağında yuxuya getmiş yaraqlı-yasaqlı igidi soydaşlarına qahmar çıxmağa haraylayırdı.

Odlar yurdunun ağır günündə dağlar çiyinlərini bir-birinə söykək verə bilmirdilər. Dağlar aralı düşmüşdü, elə bil onların bir-birinə yaxınlaşması üçün DAĞDAN da ağır DAŞ körpü gərək idi. Xudafərin körpüsü kimi!

* * *

Xırmantəpə elinə yağış yağmadı. Adamlarda Tanrının varlığına inam yerlə göy arasındakı körpü kimi uçub-dağılmışdı... Göylərin firuzə rənglü işıq tağı hərəkət, yerdə isə dünyanın Xırmantəpə kimi quraqlıqdan –susuzluqdan əziyyət çəkən çox elləri sükunət içindəydi. Sükunətdə ümüdi ölənlər göylərin hərəkətindən daha bərəkət gözləmirdilər. Qarılaşıb qəlbi kimi üzü dərddən qırışlanmış Ağca nənə öz vücudu tək qurumuş yasəmən xoçasını qoxulaya-qoxulaya pıçıldadı:

Mən aşıx yasəməni,
Libası yasəməni,
Tanrı, insafın ölüb?
Gəl apar yasə məni.

Onun düzüb-qoşduğu bayatı meydandakıların ürəyinə su kimi yayıldı. Səbri, dözümü, hövsələsi qalmayanlar qorxa-

qorxa ürəklərindən keçirdiklərini indi şəstlə dillərinə gətirirdilər. Tanrı yoxuymuş, göylərin üzü dönükmüş! Peyğəmbər hikmətlərinin dəyəri heçmiş! Xaqan xaindi, hökmdarlar satqındı, din bizi kor eləyib, dinsizləri adam yerinə qoyanlar heç bizi canlı-bəşər sanmırlar.

Mən aşıq keçdi məndən,
Su gəldi keçdi məndən.
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən...

Yağış yağmadığından çoxlarının əlinə girəvə düşmüşdü, ürəklərini boşaldır, acıqlarını soyudurdular. Ancaq aclıq, susuzluq və ölüm qorxusu intəhasız bir aləmdən sanki bu adamlara dişlərini ağardıb var gücüylə qəh-qəhə çəkirdi... Hətta tayfa ağsaqqalları da inamını itirmişdilər, ümidsiz söhbətlər eləyirdilər:

- Daha göylərdən əlimizi üzək!..

- Elə bil Əhrimən Hörmüzü işıqlı dünyanın taxt-tacından salıb, yerində özü əyləşib. Yurda gələn bəlaların sanı-sonu yoxdur.

- Tanrının varlığına bel bağlamaq əbəs şeymiş! Baş məbəddəki möbid insan deyilmiş, hökmdarları ipləmələrdən olan Böyük Xaqan xırdalanıb, məmləkət bir yığın qoçunun, dəli-dolunun əlindədi. Ayaq başa keçib, baş ayağa.

- Başla ayağı əzəldən taydəyişik salmışıq. BAŞmaq başa qoyulmalı, PApağ ayağa geyilməli idi. Şeytana PAPış tikənlər dilimizi də korlayıblar.- Basarkeçər adəti üzrə yenə coşdu:
- Odun singəsi olan Buta naxışlı BaşMAQ ayağda, addım-yeriş anlamında olan papaq başda.

Ağbaba başındakı dəri börkünü çıxarıb qabağına qoydu,

fikirli-fikirli:

- Yağış da, külək də, şimşək də Tanrının yaraq-yasağıdır, - dedi, - Tanrı öz yaraq-yasağı ilə bəndənsini xilas da edə bilər, məhv də edə bilər. Fələyin sirrindən baş açmaq olmaz. Belə getsə, Güneydən xilafətə qoşulmuş farslar, Quzeydən xaçpərəstlərin qızışdırdığı hayaslar məmləkətimizi xarabazara döndərəcəklər!

- Mənə indi agah oldu ki, dayılarının Udvana bağışladığı tutuquşu niyə Xırmantəpə, Göyçə, Qarabağ deyə haray-həşir salırmış... – Urşan dədə qalın qaşlarınə çatıb köks ötürdü: - Xırmantəpə - bolluq, Göyçə -su, Qarabağ eli də – Bağdad kimi cənnət... Yəni bol ruzumuz, müqəddəs suyumuz, cənnət ulusumuz hiyləgər yağıların caynağınamı keçəcək?! Bir dəfə Qırmızı bazardan gələndə Ərgünəş qalasından yanıqlı bir səs eşitdim:

Mən aşiqəm qara bağ,
Qara salxım, qara bağ.
Bağdad cənnət də olsa,
Yaddan çıxmaz Qarabağ.

Bozyel də səbrini basa bilmədi:

- Qarabağ yox e, qorx ki, Qəbələ, Şabran, Şirvan, Muğan, Əfşəran, Bəciravan cənnətə dönsə, bizim Xırmantəpə eli, Ana Göyçəmiz yaddan çıxa! Səbr edə-edə qəbirə gedirik. Tanrının nə günahı? İnsanları ucaldan da, endirən də, alçaldan da, öldürən də insan oğludu! Məmləkətləri güclü edən də, gücdən salan da insan oğlu, insan zəkasıdı! Əfşəranda – Böyük Xaqanın sarayının həndəvərində fır-fır fırlananlar bəs kimdi? Dövlətxanalarda yadırğa məmurlar, yarırğa məmurlarınsa kaşanə saraylarında yabançı tutuquşular dil-dil ötür. Hayas

tayfalarının ayağı yer tutduqca ayağımız yalın, başımız açıq qalır! Əlimiz doğma torpaqlarımızdan üzülür!

Dondar qağa xırıltılı səsiylə söhbətə qoşuldu:

- Xaqan və onun yadırğa məmurları bəd ayaqda xəzinəni götürüb yağıların pişvazına çıxacaqlar! Dövlətxana adamlarından nə namərdlik desən gözləmək olar! Yazıq başsız qalmış el-obalardı, yazıq xalqdı!

Bayandur baba onlara acıqlandı:

- Bəsdirin! İndi nə Tanrının, nə Xaqanın, nə onun sərvətpərəst məmurlarının, nə də möbidlərin qarasınca danışmaqla əlimizə bir şey gələn döyül!

Azərnur ayağa qalxıb YURDDAŞIN qoynundakı ocağa yaxınlaşdı, qəlbindən keçirdiyi sözləri ağır-ağır pıçıldadı:

- Ey müqəddəs ocaq! Ey ulu Hörmüzün Odsaçan – ATAR damar oğlu! Mən öz ömrümü ulu Hörmüzə həsr etdim, Zərdüştün hikmətlərini adamlara çatdırdım, onları haqq yoluna çağırdım! Odun, suyun, torpağın, havanın müqəddəsliyinə inandırdığım bu insanları indi Tanrının qüdrətinə, böyüklüyünə necə inandırım! Qəlblərinə səpdiyim həqiqət toxumlarını sənin ulu Zərdüştə bəxş etdiyin «Avesta»nın xəzinəsindən gövhər misalı götürmüşdüm. Ulu Tanrı, niyə o toxumların cücərtisini yandırırsan? Bu günahsız insanların giley-güzarını niyə eşitmirsən?

Azərnur məbədə sarı boylandı. Yeddi gün, yeddi gecə müqəddəs kitabları, duaları oxuyandan sonra bircə dəfə ora baş çəkmişdi. Türkayın xəyalını gözləri qarşısında canlandırıb, ruhu ilə barışmaq istəmişdi... Yenə istədi ki, məbədə getsin. Ancaq mədəsində aclığının dəhşətli ağrısını duydu, səssiz-səmirsiz, kölgə kimi meydanın alaqapısına yaxınlaşdı.

Tut ağacının yanından ötüb keçəndə Ağca nənənin səsini eşitdi:

- Göylümə horra düşüb, ay gəlin! - Ağca nənə gəlini Aysuya yazıq-yazıq baxırdı. Arvad Tanrıdan üz döndərəndən sonra elə bil cana gəlmişdi. O, Tanrıdan üz döndərmişdi, ölümsə ondan. Aysu qaynanasının qırışlanmış sifətinə baxıb, ümidsiz-ümidsiz binələrinə sarı yollandı.

- Elə bil taxıl dalınca, su dalınca gedənlər ÖMÜR yolu ilə yollanıblar, yoxsa qayıdıb gələrdilər! Yollara baxmaqdan gözümüzün kökü də saraldı. - Bağdagül nənə fikirli-fikirli özüözüylə danışırdı. - Benava uşaqları bit-birə basıb...

Azərnur alaqapıdan çıxandan sonra sanki ilahi bir güc onu dartıb Aysunun arxasınca aparırdı. Onların pələdində ayaq saxladı. Aysu adsız körpəsini binənin busağası ağzında yerə qoydu. Azərnur yolağdan körpəyə boylana-boylana pələdi keçdi. Körpə qurcuxa-qurcuxa ağlamağa başladı. «Ulu Tanrı, bu uşağın fəryadını eşitmirsənmi?» - deyə Azərnur istədi ki, gedib uşağı ovundursun. Bu vaxt Aysu kosaranın[130] yer-dibindən bir ovuc buğda yığıb həyətə çıxdı. Tut ağacının altındakı kirkirədən keçirdi. Kirkirənin xırıltısını eşidən kimi adsız körpə ovundu. Aysuya bir an elə gəldi ki, uşağın ağlamaqdan bağrı yarılıb. Qorxa-qorxa ona tərəf baxdı. Uşaq arxası üstə uzanmış halda əl-qol ataraq elə bil göyləri hədələyirdi. Aysu ocaqlıqda mis qazançaya yarmaqarışıq unu tökəndə dönüb bir də körpəsinə baxdı. Su yoxuydu. Körpəsindən gizlin əllərini döşlərinə apardı. Hər iki döşünü köynəyinin yaxasından çıxarıb, qazançaya sağmağa başladı. Azərnur torpaq kimi qara yumru gilələrin son damla südünəcən qazançaya sıxıldığını görüb yerindəcə qurumuşdu. «Ulu Tanrı, görürsənmi bu gəlini?.. Amma mən həm görürəm, həm də insan yaşasın deyə balasından və qaynanasından öz canını

[130] kosara – taxıl saxlamaq üçün püzədən (içərisi boş olan qamışdan) dairəvi həsir şəklində toxunan xüsusi qab.

əsirgəməyən Odlar yurdunun bu cəfakeş qızının XEYİR-XAHLIQ naminə çəkdiyi əziyyəti duyuram! Bəs nədən yurddaşlarımın əzab və əziyyətlərinə İNSAN kimi əlac tapa bilmirəm? Axı mən də insanam! İnsan! Böyük Xaqan deyiləm ki, ulusa himayədarlıq etmək məqamım olsun, peğəmbər deyiləm ki, bu başıbəlalı insanlara nicat yolunu göstərim. Sənin qəzəbinə tuş gəlmiş günahkar və aciz bir bəndənəm. Bəs sən bu aciz bəndələrinin müsibətlərinə necə dözürsən?»

Azərnur xəyalda XATİRƏ körpüsündən keçib ötən günlərinə qayıtdı. Müğanda uşaqlıq çağı, Əfşəranda gəncliyi, Türkaylı anları, yuxuda Muğan xaqanın ona qılınc verdiyini, «Məzdək» kitabını yazdığına görə zindana düşdüyü vədələr, bir də Sevanın iri, ətli döşləri gözünün qabağında canlandı. Gözəgörünməz bir əl yasəmən qarışıq tər qoxulu döşləri onun ağzına dürtüşdürürdü, şirin təmasdan məst olub gözlərini yumanda özünü ələ alıb, xəyaldan yaxasını güclə qurtardı, onu keçmişinə qaytaran körpüdən keçib yenə indisinə döndü. Gördü Aysunun dərdi daş kimi kirpiklərindən asılıb, döşlərindən qazançaya süd yox, sanki dərd sağırmış, o dərdlə horranı bişirdi, bir çömçəlik horranın iyinə qarışan DƏRDi nəfəsinə çəkib, içinə doldururdu. Daha içindən çıxmayacaq DƏRD varlığına hakim kəsilmişdi. Ətrafa çökmüş ölü sükut da elə bil o dərddən yoğrulmuşdu. Azərnurun başının üstündə ulu Vətən göyləri də sükut içindəydi, ayağının altında əcdadlarının sümükləri sızıldayan yer də! Təkcə boşluğuna dərd yığılan içərisində nəsə səs eləyirdi, haray qoparırdı! O səsdən canına qorxu düşürdü, içindəki dərd böyüdükcə qorxusu da böyüyürdü. Dərd və QORXU dünya kimi Azərnurun gözlərinə yerləşmişdi. Və birdən, sanki, Tanrı ətrafa çökmüş sükutdan bezikmiş təki var gücüylə ona tərs qırmanc çəkdi. Sükutdan daranqıltı səsi qopdu. Aysu diksindi,

busağanın ağzındakı adsız körpə hövllənib ağladı. Azərnur ixtiyarsız irəli yeriyib dilləndi:

- İçəridən gəldi!..

Aysu tələş içərisində el atasına binələrini götərdi, Azərnur içəri keçdi, o da onun arxasınca. Daranqıltı divarlarda əks-səda verib hələ də içəridə titrəyirdi.

- Çörək tabağıymış!

Bir vaxt çörəyin bolluğundan dibi çökmüş, çörək bərəkətinə, ağırlığına vərdiş eləmiş mis tabaq boş qalmasına – çörəksizliyə qiyam edirmiş kimi qabarıb var gücüylə səs salmışdı. Səsin gücündən titrəyib dərdli adam kimi başını yelləndən eşmə hörgüylə tavandan asılmış tabağın qabarmış «sinəsinə» əllərini sürtən Aysunun barmaqları gizildədi.

- Boş qalmış ÇÖRƏK TABAQLARI da nalə edərmiş!

Azərnur Aysuya yaxınlaşdı. Azad ağacından olan əsasını qılınc kimi aralarında tutub dilləndi:

- Özünə İNAM ruhi qidadı! İnamın itməsin! Tanrı istəyini verəcək! Hər enişin yoxuşu, gecənin gündüzü, müsibətin sonu var! İztirabdan-əzabdan üzülmək yoxluqdur. Yoxluqdan (yəni ağır iztirablardan) dirçəlmək yaşamaq!

Aysu «qılınc»in o üzündə ah çəkdi, Azərnurun üzünə gülab ətri çırpıldı. Azad ağacından olan əsasını qılınc kimi sıyırmış Azərnur yenə Xatirə körpüsünə yan aldı, elə bil Aysudan yox, özü-özündən uzaqlaşırdı. Burnuna qadın canköynəyinin xəfif ətri dolurdu, qulaqlarınasa onun ehtiras coşduran xışıltısı. Sarıtel qızın qolları sarmaşıqtək onun boynuna dolandı, dodaqlarına bal kimi şirin öpüşlərin dadı yayıldı. O dadlı qız öpüşlərini dərdikcə sinəsində əzilən şamama döşlər içərisindəki daş tilsimi sındırdı... Azərnur üçün əxlaq və məkan anlamı artıq dəyərini itirmişdi, özündən asılı olmadan ehtirasın quluna dönmüşdü, mis şamdanlardan yağan çıraq

nuru alçaq taxtda lüt-üryan uzanmış qadının qolları arasından sıbçınıb çıxan Azərnuru işıqlandıranda meydandan «Adam öldürüblər» səsi eşidilirdi. Məxmər yastıqlı taxtın baş tərəfində divara vurulmuş xalçada təsvir olunmuş güllü-çiçəkli çəməngahda ovçunun kəməndinə ceyran düşmüşdü. Ovçunun baxışları elə bil kəməndindən çırpınıb qurtarmağa can atan ceyrana yox, taxtda xumarlanan qadına dikilmişdi. Görəsən, qadınlarda nə sirr idi ki, içində daş gəzdirib, heykəl kimi dayanan kişiləri də ahənrüba təki özünə çəkirdi. Mən öz istəyimi necə boğa bilərdim. Belə bir qız Tanrının özünü də yoldan çıxarardı.

Aysunun titrək səsi Azərnuru xəyaldan ayırdı. Keçmişinə keçib getdiyi körpüylə özünə döndü. Azərnur Aysuya baxıb udqundu:

- El atası, görünür, bərk acıxıb?

Gəlin dal-dalı həslənib divara qısılmışdı. Azərnurun gözləri bayaq südünü qazançaya sıxmış, adsız körpəyə qan verəcək döşlərə dikilmişdi. «Körpələr analarının döşündən süd əvəzinə qan əməcəklər...» Aysunun utancaq baxışları silə kimi Azərnurun üzünə çırpıldı. Aralarında qılınc təki tutduğu ağac əsa köksünə dirəndi. Həyəcanından beyninin yağı əriyib ürəyinə doldu. İçərisində nəsə şölələndi və yatmış məslək ilahəsinin çöhrəsini işıqlandırdı. Elə bil əxlağı durulaşıb saflaşırdı. Azərnurun üzünə yayılmış nur ər yolunu gözləməkdən yorğun düşmüş gəlinin çöhrəsini işıqlandırdı. «İnsan işıqdır!» deyə bir addım geri çəkildi.

Azərnur indi özü-özünü tam tanıyıb dərk edirdi. «Bu mənəmmi?» Çay kimi kükrəyib daşan coşğun fikirlər beynində dolaşdı. Aysunun gözlərində hökmdar Kirlə döyüşən və onu məğlub eləyən Tomrisi gördü. Muğan Xaqana məhəbbətinin gücü ilə saraylar saldırıb, əzəmətli Muğan gurodunu

tikdirən Saray xatunu xatırladı. Hirkanın ləpədöyənindən Tanrı dağı Savalanın ayağından su içən Gür-Gür və Baharı çaylarınacan uzanan Muğanın hər elində - obasında Saray xatunun adına ucalan saraylarda elə Saray adında da gözəllər böyüyürü. O isə Saray xatınun adının işığında qızlar bulağından su içən qızın bacısı Türkaya aşiq oldu. Türkayla ələlə tutub gəzdiyi güllü-çiçəkli yerləri, keçdiyi cığırları yada saldı.

...Türkayın görüşünə yolu Taxta körpüdən keçib gedərdi. Bir dəfə həmin körpünü sel apardı. O, Türkayın vüsalına tamarzı qalmışdı. Sel yatmaq bimirdi. Bir-birindən aralı sahillərdə dayanıb, vüsala yetişmək üçün coşğun selin ağuşuna atılmaqdan özlərini güclə saxlayırdılar... Uzun ayrılıqdan sonra özünün əziyyətlə qurduğu təzə körpünün üstündəki görüşün şirinliyini canında-qanında duydu... O günlərin əziz xatirəsi elə bil Türkayın yarımçıq ömrünün davamı oldu. İndi Türkayla günləri gözlərinin önündə canlanmışdı... Amma bu, uzun çəkmədi. Aysunun pıçıltısı Azərnurun tamaşa elədiyi yaddaş güzgüsünə daş kimi çırpıldı.

- Mən meydana qayıtmalıyam!..

Hər şey bir anda qeybə çəkildi. "Sevginin bitdiyi andan nifrət başlayır. Demək, sevgiymiş dünyada hər şeyi gözəlləşdirən! Mən nəyin acıyam, ey Tanrım?"

- Hə, meydana qayıt, Odlar yurdunun mərd qızı! Öz doğmalarının yolunda ömrünü çıraq eləməyi bacaranları Tanrı mükafatlandıracaq. Qoy Ulu Tanrı hamını öz niyyətinə qovuşdursun!.. – deyə Azərnur nəfsinə güc gəlib, Aysugilin binəsindən çıxdı.

O, ac idi... İstəyini boğub, getdi...

Aysu onun arxasınca çıxıb pələdə yaxınlaşanda Azərnur yol-yolağda gözə dəymirdi...

* * *

«...Qəlb odur ki, ətraf aləmi ağlın gözüylə görür, duyur, dərk edir, danışır!

Duyğu və düşüncələrdən məna doğur. Bəs məna özü nədir? Bəndə Tanrısına bəndəlik etmirsə, Tanrı özünün bəndəsinə necə tanrılıq edə bilər? Tanrıdan yuxarı atlı buludlar, Tanrıdan aşağı payi-piyada, sərgərdən, susuz bəndələr!.. Ünü Tanrıya yetməyən, gücü nahaqqa ərişməyən, ayağının altından torpağı qaçırılan, başının üstündən yağışı oğurlanan AZƏR elləri ölümün pəncəsindən nə vaxt xilas olacaq?..

Tanrı özü görəsən, indi nə fikirləşir?!

Göylər niyə bəs alnını düyünləyib? Bəlkə o düyünlər Tanrının göylərin qoynuna ələnmiş fikirləridi?!

Yox! Göylər Tanrının səsini eşidib. Dərd qabağında əlacsızlıqdan alnı düyünlənmiş yağış ilahəsidi. Əhrimənin divlərinə gücü ərişmədiyinə görə Tanrıdan imdad diləyir.

Sənin səsini mən də eşitmək istəyirəm, Ulu Tanrı!

...At çapmaqda, qurşaq tutmaqda, əkin əkib, biçin biçməkdə bir-birinə öyünc olan Şamur kimi igid oğulları harda qaldı bu elin? El dərdinə şərik olan, elin qeyrətini çəkən, adıyla sanılıb, tədbiri ilə seçilən Uruf təki tayfa başçıları niyə gəlib çıxmaq bilmir? Ulutürk kimi ağsaqqalına necə rəva gördün zindana düşsün!,, Təbriz kimi ərənlərin gənc ikən şəhid olmasına niyə göz yumursan? Çörəyimizi yeyib, suyumuzu içən kəslər nədən qanlı yağıya döndü, niyə torpaq birəsi kimi azərzəmin ellərimizə daraşdı?.. Ulu Tanrı yetməzmi sona – aclıqla-susuzluqla, qovğayla sınağa çəkdiyin bu günlər?! Qadınlıq ləyaqətini uca tutan Aysu kimi gəlinlərin niyə gözlərini yolda qoyubsan?! Şikəstliyinə görə qaça bilməyən, acgöz canavarlara yem olacaq bir ceyranı ovladığına görə, soydaşlarının əmniyyətini istədiyinə görə neçə-neçə ərənləri zin-

danlarda işgəncələrin ağuşuna atanların günahından niyə keçirsən?.. Vətən yolunda, din və məslək uğrunda şəhid olanq oğulların qara geyib, göy bağlayan analarının ağısını dinlə!.. Süd əvəzinə döşlərindən körpələrinə qan əmizdirən analara nəzər eylə! Yağıların beşikdəcə oxladığı, nizəyə keçirdiyi türkazər körpələrinin son fəryadını eşit!..

Bu ulusda nələr olub, ulu Tanrım? Qısır qalmış inəkləri, yanıbalalı camışları, boğaz düyələri, şirlə pəncələşən kəlləri-öküzləri oğruya qismət, qoyun-quzusu susuz çöllərə ürcah, atları ölümə düçar oldular.

Hinlərində tülkülər, ovlaqlarında canavarlar məskən saldı. Torağayı, cüllütü, bildirçini yoxa çıxdı, boş qalmış yuvalarda ala qarğa, qara qarğa bala çıxartdı. Ağ Qobuda, Qumlu Bazıda insanların cəsədləri heyvanların leşlərinə qarışdı. Ana Göyçə murdarlandı. Əcdadların ruhu pərişan dolaşan bu yurd yerlərində ac-susuz qalan insanlar səndən ümid gözləyirlər, ulu Tanrı! Mən öz ömrümü, Ulu Tanrım, sənin üçün yaşadım, Zərdüşt hikmətiylə adamları haqqa çağırdım. İndi belə bir bəndən də elbaşı ola-ola cavabsız suallar qoynunda çaş-baş qalıb!.. Mən o kəsəm ki, özümü itirmiş, keçmişimi unutmuşdum!.. Sevanın işvəkar əməllərindən bəri ömrümü boş yerə keçirmişəm. Onunla yaxınlığım məni özümdən uzaqlaşdırdımı? Mənim müsibətim xeyirxahlığımdanmı, çarəsizlikdənmi, ya korafəhimlikdənmi doğdu? Müqəddəs ağılı, pak məhəbbəti, məsləkimi bir ani heyvani şəhvətəmi qurban verdim? Mənim məslək ilahəm də məndən üz döndərdi... Ruhu başım üstündən həqiqət iksiri təki əskik olmayan Türkayın yatağını murdarladım. Onun yatağını murdarlamaqla həmin iksir elə bil qəhətə çıxmışdı... Bir az əvvəl Aysunun qarşısında içimə calanmış o hissi tapanda özümə qayıtdım. Mən öz keçmişimdən qopmamışam. Mən hələ dü-

şünə bilirəm. Sevanın bədəniylə çirklənmiş ruhumu sanki odlar qızı Aysunun baxışları saflaşdırdı, bütövlüyümü özümə qaytardı, içərimdə uyumuş keçmişimi oyatdı...

Qəlb görür, duyur... Danışır... Necə?

...İçərimdə diliylə sahili yalayan suyun pıçıltısını duyuram... Bu nədir? Bəlkə, bu su pıçıltısı Ana Göyçədən gəlir? Yox!.. Ana Göyçə yoxdu… Qızbatan var, Sevan gölü var! Buranın adı Ana Göyçə idi. Lap nağıllarda olduğu kimi, «biri vardı, biri yoxdu, bir Ana Göyçə var idi!.. İndi SUYU atəşpərəstlərə yaşamaq, yurdu yaşatmaq və qorumaq gücü verən bu göldə pis ruhlar qərar tutmuşdu...»

Bayaq Aysugilin pələdindən çıxandan sonra Xırmantəpənin ətəyində mindiyi eşşəklərdən biri onu bura gətirmişdi. Amanın öldüyü dikdirin yaxınlığında Azərnurun gözlərinə quşüzümü kolu sataşdı. Kola qarğa qonmuşdu. Azərnura baxırdı, elə bil üç yüz il əvvəl də bu kola qonmuşdu. Üç yüz il öncə Azərnurun ulu babası sanki beləcə dayanıb bu qarğaya baxa-baxa fikrə getmişdi. Qarğalar üçün dünya həmin dünyaydı, ellər-obalar da hakəza!.. İntəhası adamlar dəyişirdi, dondan-dona, sifətdən-sifətə girirdi. İnsansifət divlər çoxaldıqca yurdlar dağıdılır, ölüm artır, məzarlar çoxalır, yağılar qısqırdılmış it kimi yurdun torpaqlarını, onun əzəli sakinlərini didişdirirdilər. İnsanlara nə sədəmə toxunurdu TAMAHIN ucbatından baş verirdi.

Azərnur düşünürdü. Bir vaxtlar qılınc gücünə elədiyinə insan qılınc təki kəsərli sözlə də nail olub! Qılıncla lələyin dəyəri olub! İndi qılınc da, düz söz də kəsərdən düşüb. Yalan ayaq açıb yeriyə bilir. Zərdüşt «mənim möbidlərim – od qoruyanlarım, od daşıyanlarım hər yana yayılıb... Yurdumuz Azərbana dönüb» demişdi. Ancaq mən Azərnur deyirəm: «Məmləkətimiz Azərbaydağa dönüb, xaqanın baydaq deyə

başı üzərində asdığı tuğun rəngi bilinmir. O boydaq dediyinin altında hökmdarlar minbir fırıldaq işlədir. Odlar yurdunun çox elində od-ocaq yerləri sahibsiz qalıb... Mən Böyük Xaqana neçə dəfə müraciət elədim. Nə ondan, nə baş möbiddən cavab gəldi... Deməli, bu eldə də atəşpərəstlərin sitayiş elədiyi od-ocaq sönməlidi, türbələrimiz yağıların tapdağı altında qalmalıdı! Demək, heç kimdən imdad yoxdu?!» Azərnur quşüzümü kolunu dimdikləyən qarğaya baxdı. Qarğa toxluğundan qarıldadı, elə bil fəlakətdən xəbər vermək istəyi ilə səsinə ara vermirdi. Azərnur müqəddəs «Avesta»da insanları fəlakətdən qurtaran qüdrətli Yima barədə yazılanları xatırladı. Tanrı ona insanları, bitkiləri, canlıları xilas etdiyinə görə YEDDİ yüz ildən artıq ömür vermişdi. Yimanın səltənətində yaşayan canlılar nə aclıq, nə susuzluq, nə də qorxu bilmişdilər. Odur ki, uzun ömür sürərdilər. Zərdüşt ilhamla yazdığı müqəddəs qatlarda onu belə tərənnüm eləmişdi:

Qüdrətli Yimanın səltənəsində
Nə aclıq var idi, nə bərk istilər.
Nə divlər yaradan xəstəlik vardı,
Nə şərdən doğulan amansız ÖLÜM.

İnsanlar müqəddəs qanunları pozmasaydılar, uzun və sağlam ömür yaşayacaqdılar. Ancaq Tanrının ilk bəndələrindən biri, kişi cinsindən olan Qayamərdan bir əxlaqsız QADIN-DİVanə tərəfindən aldadıldı, odur ki, insan oğlu ölümə məhkum olundu. İrili-xırdalı qəbahətlər, günahlar dünyanı o vaxtdan, sanki, çirkli bir dənizə döndərib. Çirklənmiş bir dəryanın suyunu təmizləmək isə çətin və zor bir işdir. Dəryanın suyunu çanaqla daşıyıb qurtarmaq kimi ən çətin şey bulanıq dünyanın durulmasıdı... Soyqırımlar, ölüm-

lər, torpaq qovğası bütün yaradılışa sülh və əmniyyət dilə-yən ulu peyğəmbərimizin adını, onun doğulduğu Odlar yur-dunun günü-gündən azalıb əskilən qədim yurd yerlərini dünyanın yaddaşından əbədi silməzmi? Ulu Tanrım, uca Tanrım! – Bu ULUSDA GÖZ YUMDUĞUN ZÜLMÜN ƏZABINDAN İNSANLAR SƏNƏ İNAMINI İTİRMƏYƏ BAŞLAYIBLAR! Yoxsa SƏN GÜNBATANDAN GÜNDO-ĞANACAN YAYILMIŞ ETİQADINI İTİRMƏYƏ ÇOXDAN BAŞLAMISAN? Əgər insanlar dərk eləsə ki, Tanrı deyilənin özünü qınayıb, alçaldıb, həqir eləmək olur, (amma Tanrı ye-nə öz qüdrətini göstərə bilmirsə, bu onun yoxluğuna dəlalət etmirmi?!) onda yerlə göyün arasını ədalətsizlik bürüməzmi? İNSANLARDA İNAMI, ETİQADI ÖLDÜRMƏK, İNSAN-LIĞI MƏHV ELƏMƏK DEYİLMİ?!

Azərnur susub, gözlərini göyə zillədi, qulaqlarını qəlbi-nin dərinliklərinə yaxınlaşdırdı. İçi su şırıltısına bənzər səslə doldu. Ana Göyçənin yüksəkliyindən Tanrı dağı Savalanın tərtəmiz zirvəsi göründü. Bir əsimlik küləyə qoşulmuş Tanrı-nın səsi Azərnurun qulağına çırpıldı.

TANRININ SƏSİ:

- Mən insanlarda özünəinamı və insanlığı çətinliklər za-manı yetişdirirəm! İnam ƏN BÖYÜK cövhərlərdən yoğrul-muş, ən böyük dərdlərə açar tapan hissdir! İnsan ölür. İnam və insanlıq yaşayır. İnamı və insanlığı özündən öncə ölən kəslərin məsləki də məhvə məhkumdur.

Səs Azərnurun içindən gəlsə də o, yan-yörəsinə boylandı və heybətli bir səslə soruşdu:

- Ey mənim göylümdəki, məgər sən mənim özümdən güclüsən?

Səs:

- Güclüyəm! Yoxsa, sənin fikirlərindən keçənləri duy-

mazdım!

Azərnur:

- Mən axı Tanrıya xitab eləmişdim, - deyə pıçıldadı.

Səs:

- Ona görə də sən öz qəlbinin səsini dinləməlisən! Qəlbinin səsinə qulaq as! Qəlbin bədəninin tanrısıdı.

- Mən qəlbimi həmişə dinləmişəm.

- Sən ona çoxdandı ki, arxa çevirmişdin, qəlbinin səsini dinləməyənlər Tanrısına arxa çöndərənlərdi. Aysunun od saçan iztirab dolu baxışları uyuyan qəlbinlə keyləşmiş beyninə körpü saldı. Ruhunu dirçəltdi.

- Eşit məni, ulu Tanrım, mənə yar ol, qoy bu çətin anlarda elin adamlarını sənin varlığına inandıra bilim! Onlara ulu Zərdüştün hikmətləriylə həyan olum!

- Bu elin müsibəti səadətinə hamilədi. Unutma, sən öz taleyinin və məsləkinin ixtiyarındasan! İnsan Tanrının bir parçasını özündə daşıyır. Ona görə dərd dedyinə dərmanı özündə ara. Gündüzlərin qaranlığında özün öz yoluna işıq sal!

Bu vaxt böyürtkən kollarının arasından iri bir canavar çıxdı, vahiməli bir səslə ulayıb, Azərnura sarı boylandı. Azərnurun elə bil fikir köhləni büdrədi. İçərisindən gələn səs qırıldı, Ağrı dağından qara yellər əsib keçdi, ayaqlarının altından buğanaq qalxdı. O özünü yıxılmaqdan güclə saxladı. Pəzəvəng canavarın lırt qarnı sallanıb yerə çatırdı, tox gözlərini cavan el atasına marıtlayıb dayanmışdı... Ətrafdakı qarğalar, cırcıramalar susdu. Təkcə Ana Göyçənin sahilə toxunan ləpələrinin səsi eşidildi. Bayaq Aysuyla aralarındakı yarım nəfəslik yol Azərnurun keçmişindən indisinə körpü olmuşdu, indi canavarla onun arasında bir nəfəslik məsafədə ölüm dayanmışdı. Bayaq yeməkdən alacağı ləzzətdən imtina

elədi, indi ölümün dəhşətindən yaxasını qurtarmağa taqəti qalmamışdı. Ölüm onun gələcəyini əlindən alacaqdı! «Bu nədir?» - deyə Azərnur düşündü, yoxsa Ölüm mələyi qarşıma canavar donunda çıxıb? Mənəvi ölümüm cismani ölümlə bitəcəksə, bəs onda canavarın gözlərindəki o hikmət nədir?»

Canavarın başı üzərində bir yığın hünü qaynaşırdı. Aralarında iri bir gögöyün aramsız dızıltısıyla sanki canavara qıcıq verirdi. Canavarsa lal-dinməz, insan oğlunu pəsənd eləmədən, dünyanın gərdişini vecinə almadan havasatı imsiləyirdi. Hava yanıq iyi qarışıq üfunət qoxuyurdu, elə bil iy canavarın canına sinmişdi. İndi şəklənmiş qulaqlarına el-obalardan nə itlərin hürüşü gəlirdi, nə də çöl-bayırdan qoyunquzu mələrtisi. Doğulduğu gündən bəri ilk dəfəydi ki, sonsuz cəng meydanlarında sel kimi qanı axan çoxlu insan nəşini parçalayıb, içalatını yemişdi. İndi tox qarnına əsnəyən canavar bir hovur dincini alıb, son ləhzədə yeddi yerə parçaladığı insan oğlunun cəsədini, sanki, xatırlaya-xatırlaya Azərnura baxırdı. Parçaladığı adamın harasına dişini vurmuşdusa, xoşuna gəlməmişdi, insanın əti nə yaman acıymış! Amma o boyla bədəndən nə ləzzətlisə bərələ qalmış bir cüt gözlərin yağı, bir də beyninin ilikləri ilə dili olmuşdu. Di gəl ki, canavar onları yediyinə peşimançılıq çəkirdi. Beyin dilinə dəyəndən yırtıcılığını unutmuşdu, düşüncələrə dalırdı. Gözləri yeyəndən sonra dünya gözlərinə dəhşətli yırtıcı kimi görsənirdi. İnsan dili yemiş canavar az qala insan kimi dil açıb danışmaq istəyirdi:

«Siz insanlar özünüz özünüzə qənim kəsilibsiniz! İçərinizdəki yırtıcıları məhv eləməsəniz, çölünüzdəki yırtıcılar sizə güc gələcək! Ey bulanıq insanlar, durulun! Ey baş-ayaq olan yetkililər, ayıq BAŞ olun! Yırtıcı heyvanlarla, vəhşi adamlarla ayıq-sayıq davranın!..»

Azərnura elə gəlirdi ki, üzbəüz dayandığı ÖLÜM onu Böyük Xaqanın fərmanıyla haqlamışdı. O, Tanrıdan hamı kimi inciyib küsmək istədi, amma bacarmadı. «Əgər hər şeydən xəbərdar olan Tanrı təkcə bu fərmanından xəbərsizsə, onu bağışlamaq olar! Ancaq Tanrını bağışlamaq onunla barışmaq deyil! Tanrıyla barışmaq üzüdönük tale ilə, ölümlə, öz təbəələrinə biganə qalan Böyük Xaqanla barışmaq olardı. Tanrıyla barışmaq susuzluqla, aclıqla, qırğınla, yurdları yağmalayan yağıyla, yadırğa hökmdarlarla, sərvətpərəst tayfa başçıları ilə barışmaq olardı!»

Azərnur canavara baxıb düşünməkdən, canavarsa Azərnura baxıb harın-harın əsnəməkdən yorulmuşdu. Azərnurun yadına ulu Zərdüşt haqqında bir rəvayət düşdü: «Qədim əyyamlarda Əhrimən dünyanı bərbad hala saldığı zaman Tanrı bir peyğəmbər yaratmışdı, uşaqkən Əhrimənə qulluq eləyənlər onu oğurlayıb oda atmışlar, lakin od onu yandırmamışdı. Sonra uşağı qurda atmışdılar, qurd uşağı yemək istədikdə ağzı bağlanmışdı. Əhrimənin istəyi işində qalmışdı, Zərdüştü məhv edə bilməmişdi».

"Zərdüşt dünyanın ən günahsız insanı idi. Mənsə günahkar insan dünyasının və acı taleyin günahsız qurbanı... Zərdüştün insanlığa xidmət edən ışıqlı amalı Günəşin dünyaya xidmətinə bənzəyir; bu əbədi həyatdı, ölməzlikdir. Tanrı Zərdüştü qurddan xilas etməsəydi, o bu ölməzliyi, əbədi həyatı qazanmazdı. Bəs məni Əhrimənə qulluq eləyənlərin əsarətə aldığı bu ulu gölün sahilinə çəkib gətirən nədir? İndi bu qoca qurd mənim axırıma çıxsa, bəs Tanrının ac-susuz bəndələrin yaralı qəlblərinin qəmxarı kim olar? Bu dünyada inandıqları yeganə insanı belə acanlıqla, ucuz ölümlə itirmək onlara dərd olmazmı? Tanrım məni bu qoca qurdun ağzından qurtarmasa, mən necə əbədi həyat, ölməzlik qazanaram?

Bəlkə Tanrı doğurdan da ölüb?! Yooox!" Günahsız GÜNAHKAR bəndə elə bil birdən başının üstündəki Tanrıya, qarşısındakı ÖLÜMƏ, Əfşəran taxtı-tacında oturmuş Böyük Xaqana, Günəştəpədəki hökmdara, Suraxanıdakı baş möbidə, quzeydəki – güneydəki yağılara, dünyanın bütün müxənnətlərinə qiyam elədi. İçindən eynən canavar ulartısına bənzər bir səs qopdu, əzabdan, dərddən yoğrulmuş o səsdən kol-kos titrədi... Au-u-u... Au-u-u. Canavar diksindi. Quyruğunu qısıb İki-üç addım geri çəkildi. Qurd ulamasına bənzər səsdən sonra Azərnurun ruhu sanki ağır bir yükdən xilas oldu. O səsin içindən gəldiyinə şübhə eləyərək dilləndi:

- Ulu Tanrı! Yoxsa sənin böyük iradənlə canavar güzəşt eləyib, ömrümün olan-qalanını mənə borc verir? Ey böyük Yaradan, mənə artıq ömür verməyinə dəyərmi?

TANRININ SƏSİ:

- Nə Tanrının ətəklərindən yapışıb,qalmısan! Tanrı dediyin o canavarla üstündə dayandığın müqəddəs torpaqdı. Susuzluqdan içalatı yanıb pöştələnir! Tanrı dediyin nəfəsinə çəkdiyin havadı. Tanrı dediyin oyunbaz qadınlar kimi nazqəmzə satıb, donunu gündə yeddi dəfə dəyişən göylərdi. Tanrı dediyin saf suyu çirklənən, natəmiz ruhlara əsir düşən Ana Göyçədi, indi siz insanlar adını dəyişib gah QIZBATAN, gah da SEVAN qoymusunuz, Tanrı dediyin Aysu təki qadınların qucağında fəryad qoparan, ac-susuz anasının döşlərindən süd əvəzinə, qan əmən körpələrdi. Tanrı dediyin yurdu uğrunda VƏTƏN yolunda şəhid olan ərənlərdi, soyuqırılan yurddaşlarındı- cəng meydanlarında yəhərləri qanla dolan (göydən xəlbir atsan, torpağı qanla suvaran bağrı yaralı insanlardan yerə düşməz) azər övladlarıdı. Tanrı dediyin odocağı yağmalanmış didərginlərdi, sahibsiz qalmış yurd yerləridi – Şörəyeldi, Ələyəzdi, Təpədələkdi, Çuxuryurddu,

Ağrı dağının ətəklərində ağrı-acı içində qalmış adı dağdan ağır ellər-obalardı... Tanrı dediyin ODLAR YURDUDU. O yurd ki, dörd bir yandan yağılar cırmaqlayır. Tanrını çox uzaqda axtarma, o sizin aranızdadır. Tanrı dediyin ÖZÜNSƏN! ÖZÜN!.. Özündən imdad dilə! ÖLMƏZLİK, əbədi həyat özünü el yolunda qurban verməyi bacaran insanın ən UCA məqamıdır.

- Get bu ulusdan, canavar oğlu, canavar! Sənsiz də bu məmləkətin torpağını, adamlarını iki ayaqlı canavarlar gəmirir.

Canavar böyürtkən kolluqları arasında qəfildən peyda olduğu kimi qəfildən də çəkilib, gözdən itdi. Qulaqbatırıcı səssizlikdə onun həcini qalmışdı... Azərnur kolluğa yaxınlaşdı. Səmadan sevgi quşu şığıyıb Ana Göyçəyə baş vurub, yenə göyə qalxdı. Adı özgələşən göl xəcalətindən sanki kiçilmişdi, dayaz yerlərində daş köksü şişmiş, qabarmışdı.

Azərnur köksünü ötürdü. Elə bil ölümünü ayaqları altına qoyub, ucalıqdan, Tanrının rizası ilə canavarın borc verdiyi GƏLƏCƏYƏ boylanmışdı. Gələcəkdə keçmişiylə indisi içiçə yaşayırdı, daxilində yanan od-alovla səcdə edən insanlar zahirdə Zərdüşt peyğəmbərdən yeddi min il sonra dünyaya gələn peyğəmbərlərin dininə sitayiş eləyirdilər... Odlu diyarın oğulları əsl-nəcabətini unutduğuna görə müqəddaratı həll edən başbilənlərə həsrət qalacaq, bəd ayaqda nə qəhrəman, nə böyük düha, nə də böyük şəxsiyyət yetişəcəkdi!.. «YOX! İnanmıram!» - deyə Azərnur pıçıldadı.

- Zərdüşt təlimi halal əməyə, doğruluğa, düz yola, ruhani təmizliyə, odu-ocağı, ailə həyatını, evi-eşiyi qorumağa, sülhə-əmniyyətə çağırışla və təlqinlə doludu. İşıq və Xeyir Tanrısı Hörmüz amalının icraçısı olan Zərdüşt haqqın, ədalətin carçısı, dünyanın azman peyğəmbəridi. Odsuz-alovsuz

insanın xoşbəxt həyatı ola bilməz, yurdsuz-yuvasız insanın bütövlüyü parçalanar, işıq insanı paklaşdıran, saflaşdıran nemətdi. Su işıq, işıqsa həyat deməkdi. AzərBAY övladlarının ZƏRDÜŞT PEYĞƏMBƏRİ UNUTMAĞA haqqı yoxdur! "Avesta" da ulu peyğəmbərin buyurduğu kimi: HƏR ŞEYDƏ RUH VAR. Ağacın da, quşun da, daşın da, suyun da, torpağın da...

* * *

Günün cırcırama istisində ədalət meydanındakı camaatın cəfakeş anatək sığındığı nəhəng tut ağaclarının dar kölgəsi get-gedə uzanırdı. Adsız nəvəsini qucağına alıb, oynadan Ağca nənənin gözlərinə işıq gəlmişdi. Hamı ona Tanrıdan üz döndərmiş, ölümə yaxa verməyən bir insan kimi baxırdı. Ağca nənə içdiyi bir qaşıq horradan sonra gəlini Aysuya Tanrıdan artıq inanırdı. Aysunun döşlərinin südüylə bişirilmiş horra dirilik suyu kimi onun canına yayılmışdı, bədəninin əzaları hərəkətə gəlmişdi, üz-gözündən uzun ayrılıqdan sonra oğlunu görmüş ana sevinci yağırdı. Ağca nənə Aysuya tez-tez xeyir-dualar eləyirdi:

- Çömçəyə qail olmayan canım, sən demə, bircə qaşığa möhtacmış! Səni ağgünnü olasan ay gəlin, gedənin gəlsin, üzün gülsün! Yer-göy muradını versin!- Tanrı deməyə dili gəlmirdi Ağca nəninin. Adsız nəvəsini «tanrım» - deyə çağırırdı.

Meydana bir yığın qansoran həşərat təpildi. İnsan qanı sormaqdan şişib, yekəlmiş gögöyün eşşək arıların, hünülərin içərisindən şığıyıb, Ağca nənənin ovqatını sancdı. O, yaşına uyğun olmayan bir cəldliklə gögöyünü vurub yerə saldı.

- Səni öldürüb qanımı yerə tökərəm! – dedi. Gögöyün

ləzzətlə sorduğu İNSAN QANININ içərisində çabalaya-çabalaya boğulurdu.

Bayandur baba qotazlı döşəkçənin üstündə oturub ağsaqqallara keçmişdən nəsə danışırdı. Hafizəsinin yəqinliyini yoxlamaq üçün dirçəlib özünə gəlmiş Ağca nənəni şahid təki soraqladı:

- Ağca xatunun ağyal at belində gəlin köçdüyü gün yadına gələr!

- Hə, o vaxt sən qurşaq tutmaqda ad çıxarmışdın, bu adsız körpənin babasısa at çapmaqda, biriniz elcanlı, biriniz Göyçəli. O qədər öcəşdiz ki, az qala dədəm evimdə qız qarıyacaqdım. – deyə Ağca nənə hələ də qan içində çabalayan göygöyünə baxırdı.

Urşan dədə dedi:

- Hə, yadıma düşdü, onda bu köçəbə hayaslar hansı ki, indi igidlərimizin qanını axıdır, öz qanımızla öz torpaqlarımızı suvarır, bir ovuc buğda üçün qapı-qapı düşüb dilənərdilər. Ağca gəlin köçəndə xış üçün, öküz üçün bizim elə üz tutdular, əsirgəmədik. Nə biləydik ki, öz cütümüzlə, öküzümüzlə torpaqlarımızı şumlayan bu tayfa müxənnətlik edib bizə yağı kəsiləəcək!

- Ac-susuz igidlərimiz yağı basqınına tab gətirə bilmirlr. Su gətirməyə gedənlərimiz əyər qayıdıb gəlməsə, yağı qabağını kəsməyə gücümüz qalmayacaq! – Basarkeçər susuzluqdan çatlamış dodaqlarını gəmirirdi.

- Nə südünü içməyə sağmal inəklərimiz var, nə də çölbayırda acından ölməmək üçün yeməyə ot-əncər, biyan kökü qalıb. - Ulu Saral, Ağbaba, Dondar qağa, Qaryağdı dədə Bayandur babanın üzünə baxdılar. Bayandur baba susmuşdu, adsız körpənin babası Vüralın qoçaqlığını yadına salmışdı, köçəbə hayaslardan söz düşəndə Vural həmişə deyərdi ki, bu

adamların gözlərindən xayınlıq yağır. Bir dəfə də onları qabağına qatıb Şeytantəpəyə sarı qovmuşdu. O vaxtlar İpək yolunda iki ermənin xəyanətkarlığını cavan Bayandura isbat eləyəndən sonra Ağca xatun Vurala qismət olmuşdu. Bayandur baba isə hələ ailə qurmamışdı. Amma Xırmantəpə elinin yeddi tayfasına əməlli-başlı ağsaqqallıq eləmişdi. Elbaşılar (el ataları) onunla məsləhətləşməmiş iş görməzdilər... Kövrək xatirələr Bayandur babanı yerindən tərpətdi. Ayağa durub, çubuğuna dəm verə-verə meydandakı adamları – daşları nəzərdən keçirdi, əlini YURDDAŞIN çatağına sürtdü. Yer üzü daraldıqca, sanki, tez-tez silkələnirdi, silkələndikcə daşların çatı elin dərdi kimi böyüyürdü.

Azərnur meydanın alaqapısından içəri girəndə hamı göyə boylanmışdı. Meydanın başı üzərində asılmış bir parça göydə bir quş qanad çalırdı, uşaqlar elə bil çoxdan idi ki, quş görməmişdi:

- Göy quşu, göylər quşu! – deyə qışqırışdılar. – Tanrımızdan mücdə gətir, gedənlərimizə yol göstər! Qoyma yağılar sevinsin! Ey Tanrının sevimli quşu!

Göydə qanad çalan quş uşaq-böyüyə cavab olaraq bir dəfə «XİLAS!» deyə səsləndi və meydanın tən ortasına düşdü. Hamı onu dövrəyə aldı, quşun qanadları sınmışdı, ayaqlarını uzadıb, can verirdi, paslı qan köpüklənən ağzından qana bulaşmış buğda dənələri tökülürdü...

- Bu, Udvanın bir vaxt didərgin saldığı, üç qərinənin şahidi olmuş həmin tutuquşudu! - Bayandur baba xırıltılı səslə dilləndi və əyilib yerdən quşu götürdü, qanlı buğdaları ovcuna yığdı, - Bu ilin buğdasıdı, Turan toxumudu, bu taxıl dalınca gedənlərin gəlməyinə işarədir! Onlar yaxındadır...

Azərnur susmuşdu. Qərinələrin o üzündən ölmək üçün ədalət meydanına uçub gəlmiş tutuquşuya insan günahları-

nın qurbanı kimi baxırdı... Amma tutuquşunun ölümü də insanlara təsəlli verirdi: Gedənlər qayıdacaqdı!

Bu vaxt Xırmantəpəni bürümüş sakitliyi Yadırğa Teynurun gəzdirdiyi, Udvandan qalma yabançı tutuquşunun səsi pozdu:

- GÖYÇƏ! XIRMAN-TƏPƏ! QAR-RA-BAX!.. DURRAK!..

Xırmantəpənin ətəyindən keçən Vətən yolundan gələn bu əcaib səslər getdikcə uzaq bir aləmdən eşidilirdi.

- Gedənlərimiz qayıdacaq! Taxılımız da olacaq!.. Xəmir eləməyə suyumuz ki, yoxdu. Neynirik o qızıl teşti ki, içinə qan qusaq! – İntizar qarı gileyləndi.

- Taxıl dalınca gedənlərimiz qayıdırsa, su gətirməyə yollananlar da gec-tez gələcək! - Bayandur baba könülsüz dilləndi və Azərnura yaxınlaşdı:

- Uzaqdan gələnə oxşayırsan?

- Hə, çox uzağa yollanmışdım, Tanrı deyilən bir varlığı görüb, duyub, dərk eləyəndən sonra, özümə qayıtdım, mən onun səsini eşitdim!.. İçinizə qayıtdım ki, onun buyruğunu Sizə söyləyim. – Azərnurun pıçıltısını uşaqların səs-küyü eşidilməz elədi:

- Ordan, uzaqdan adam gəlir!..

Uşaqlar meydanın divarına dırmaşaraq son dəfə «XİLAS» deyə qışqırıb, keçinən tutuquşunun gəldiyi səmtə boylandılar.

Aysu özünü saxlaya bilməyib uşaqların göstərdiyi El yoluna sarı qaçdı. İlğımlar ləhləyən yolda bir insan qaraltısı Xırmantəpəyə yaxınlaşırdı. Aysunun yalın ayaqlarına tikanlar batsa da, qaraltıya çatmaq istəyi onu saxlaya bilmirdi. Aclığı-susuzluğu, yağıların zalımlığını unutmuş adamlar Aysuya baxırdılar.

Xırmantəpənin sakinlərinin qulaqlarında bir qəmli nəğ-

mə səslənirdi. Elə bil bir vaxt Oxçuoğlu Tomarın sağlığında çaldığı yanıqlı ney səsi havaya hopmuşdu, indi yağış əvəzinə göydən el-obanın başına ələnirdi... Aysu qaçırdı. Azərnurun gözlərinin qarşısında o qəmli ney sədalarının altında Türkayın göz yaşları içərisində ölüm yatağındakı anları canlanırdı... Aysu qaçırdı. Azərnurun gözləri önündə yaz bayramından öncə bu namuslu, qanacaqlı qadını zorlamaq istəyən Udvan canlanırdı. Aysu qaçırdı: Azərnurun qulaqlarında Sevanın qəhqəhələrinə bənzər səs gəlirdi: "Şeytan gəlib dünyaya, ha, ha, HAY! Onu mən ƏHRİMƏNin mayalandırdığı şər bətnimdən doğmuşam!.. Ərmən Əhrimənin şeytan balasıdı! Hay gəlir, vay gəlir! Hah! Ha!.. Hay..." – yaddaşının çığırlarında əcaib bir insansifət div canlanırdı. murdarlanmış Ana Göyçə, uçulub dağılmış KÖRPÜLƏR, susuz Xatın arxı, itmiş kölgəsini axtaran Udvan, su əvəzinə Aysunun qazançaya döşlərini sağmağı, uşaqların anaların döşlərindən qanlı süd əmməsi səhnələri kitab kimi vərəqlənə-vərəqlənə, xəyal kimi canlana-canlana bir-birini əvəz eləyirdi...

Aysu dayanmadan qaçırdı, qaraltıyla onun arasında yol uzandıqca uzanırdı. El-obanın yadına Ana Göyçənin sularında qərq olan Sevan düşürdü, öz oxuna sancılan Oxçuoğlu Tomar, Böyük Xaqanın və hökmdarın dinməverləri, onların dağarlara yüklədiyi buğda, yanan zəmi, didərginlərin araba karvanı, yağıların vəhşiliyi canlanırdı... Və Aysu qaraltıya çatıb, dayananda, onun ayaqlarına yıxılıb ağlayanda, hamı dönüb adsız nəvəsini qucağına almış Ağca nənəyə baxdı.

- Olmuya oğlum QEYRƏTdi gələn? – Ağca nənə sual dolu baxışlarla adamların gözlərinin içinə boylandı. Adamlar bu şad xəbərdən arvadın ürəyinin partlamağından qorxurdu. Adamların susduğunu görən Ağca nənə:

- Yuxumda KÖRPÜ görmüşdüm! – deyə Azərnura baxdı.

Azərnur adamlardan aralanıb məbədə sarı addımladı: «Ağca nənə yuxusunda körpü görüb, yuxusu çin çıxdı, oğlu Qeyrət gəldi. Mənə yeddi il öncə yuxumda Muğan xaqan bu qılıncı qeyrətli türk oğluna verərsən demişdi. Demək, Qılıncın sahibi zindandan xilas oldu. Gəldi. Mənim də son sözümü demək, onu əməlimlə isbat etmək məqmım çatıb! "Qoy hər söz sərkərdəsi bir qılınc sərkərdəsi yetişdirsin!" – buyurmuşdu Muğan xağan. Tanrı deyilən bir varlığı görüb, duyub, dərk eləyəndən sonra özümə gəldim. Mən onun səsini eşitdim, xalqın içinə qayıtdım ki, onun mənə buyurduğunu söyləyim!..» Məbəddə atəşin istisindən dayanmaq olmurdu. O, taxçalarda toz basmış müqəddəs kitablara baxıb fikrə getdi: «Tanrının mənə borc verdiyi ömrümü yurddaşlarıma israf eləməliyəm. Onlar sabahın sahilinə çatıb yaşasınlar deyə mən də bu gün KÖRPÜyə dönməliyəm!..»

Məbədin divarından asdığı qılıncı qınından çıxartdı. Qulağında yuxuda Muğan xaqanın dilindən eşitdiyi öyüd əkssəda verdi: "Ey Azərnur eloğlu, qələminin gücü, sözünün qüdrəti qoy yurdu qorumağa mənim kimi qılınc sərkədəsi yaratsın, məmləkətin cavahirxanalarda tığ vuran sərvətini insanlar arasında bərabər bölən Məzdək kimi qeyrətli oğullar yetişdirsin! Al bu qılıncı, məqamı catanda yurdun ən qeyrətli türk oğluna, qılınc cəngavərinə ver!"

Sonra taxçadakı kitablardan birini götürüb tozunu sildi, «Avesta»nın «Divlər əleyhinə qanun»[131] hissəsi idi, yaxınlaşıb oda atmaq istədi. Din və dini mərasimlərdən bəhs olunan bu hissədə Hörmüz Zərdüştə buyurmuşdu ki, günahları yumaq, təmizliyi qorumaq üçün divləri məhv etmək gərəkdir. Hörmüzün yaratdığı, gözəlliyi tərənnüm olunan on altı ölkə-

[131] "Vəndidad" – 22 fəsildən ibarət ən böyük hissədir.

dən danışılan bu hissəni oxuyanda itirilmiş türkabad yurdların, dağıdılmış atəşgahların, məbədlərin indi Böyük Xaqana, onun yetmiş yeddi hökmdarına az əsər elədiyinə heyfsləndi. Gələcək azərbay nəslinin övladları bu günahı onlara bağışlamayacaqdı.

«Söz zamanı bitdi, indi qılınc zamanıdır. Kitabların da, onu əziyyət çəkib yazan insanların da günahı yoxdu! Neçə min qərinə bundan öncə Makedoniyalı İsgəndər «Avesta»nın ən dəyərli hissələrini yunancaya çevirtdirib, əslini oda atıb yandırdığı gündən Azər övladlarının faciəsi başlandı. İndi yaddaşlardan toplananlar bu kitabın, həm də yurdumuzun – ODLAR DİYARIMIZIN xarabalıqlarına bənzəyir! Əgər mən bu kitabları da yandırsam, onda ulu peyğəmbərimizin ruhunu ikinci dəfə incidərəm!» Dönüb müqəddəslərin heykəllərinə baxdı. Hörmüzün baxışlarından mərhəmət yağırdı, Zərdüşt isə: «Həmvətənlərim sağlığında məni başa düşmədilər. Tanrı dərgahından aldığım ilahi vəhylə yazdığım «Avesta»nı ölümümdən sonra qoruya bilmədilər. Bilmədilər ki, Odlar yurdu Azərzəmin dünyada ilk dinin, ilk peyğəmbərin vətənidir. Burada ilk dini ayinlə başına tac qoyan və üç əsas öyüdümü özünə məslək seçən Cəmşid hökmdar ədalətli və əfsanəvi şahənşah kimi şərəfli ad-san qazandı. İndi isə Böyük Xaqanla onun yetmiş yeddi hökmdarı ölkədarlığın bu üç əsas qanadını qulaqardına vurur. Bəd niyyət edib, xeyirxah fikir söyləsələr də, şər əməllərə yiyəlik edirlər. Ona görə məmləkətdə müqəddəs odu, suyu, torpağı qorumaq belə müşkülə dönüb!» - deyə heykəlləşmiş ömrüylə də vidalaşmağa hazırlaşırdı.

Su ilahəsi NAHİDƏ isı gülümsər, xoş təbəssümlərlə Azərnuru elə bil uzaq səfərə yola salırdı. Onun arxasınca öz təbəssümünü su kimi çiləyirdi.

Azərnur taxçadan o biri kitabları da götürdü. «Vispe-

red»i[132] vərəqlədi. Bu hissədə dini məsələlərdən əlavə, ailə və məişətlə bağlı olan örnəklər açıqlanırdı. Burada ədalətli insanların necə olduğu, insanların mənəvi təmizliyi, qadınların qəlb dünyası, xasiyyəti, ailə-əxlaq münasibətlərini öyrənmək, dərk eləməkdən bəhs olunurdu.

Azərnur qatma[133] tapıb kitabları bağladı. Gəlib müqəddəs odun yanında dayandı, gözlərini məbədin künc-bucağında, divarlarında, orada təsvir olunmuş həyat ağacında gəzdirdi və dilləndi:

- Bəs sən haradasan Türkay? Niyə məni tənha qoydun? Arayatı yuxularıma gəlmirsən, heç olmasa ruhun son dəfə gözlərimin qarşısında canlansın. Sənin ruhunu incitmişəm? Söylə, niyə ölümlə görüşə məni ruhun yola salmaq istəmir? Mən sənə qovuşmağa can atıram. Səni məndən ayırmış o murdar anları lənətləyirəm, mənim əbədi tənhalığıma bais olmuş, məsləkimə rişxənd eləyən o murdar anı! Lənət insanları öz sevdiklərinə, pak məslək ilahələrinə dönük çıxardan mənəvi EHTİYAC hissinə! Ehtiyac şəhvətpərəstlik, sərvətsevərlik pərdəsinə bürünəndə daha dəhşətli olurmuş! Yadındamı, mən sənə söz vermişdim ki, sənin ruhun məndən razı qalacaq, Türkay?!

Azərnur müqəddəs odun atəşinə bir məşəl yandırdı, yataq hücrəsinə sarı addımladı. Daş arakəsmələrdən keçib məxmər yastıqlı taxtına yaxınlaşdı: «Mən murdarlanmış yatağımı müqəddəs oda verirəm, Türkay!.. Bu yataq sənin ölümündən sonra özgə qadına xidmət göstərib!» - pıçıldadı. Və oranı yandırdı.

...Əlində tutduğu polad qılıncla kitabları meydana aparırdı. Qürub günəşinin qırmızı boyaları sanki damarlarında

[132] Vispered -mənası «hər şeyi dərk etmək»dir.
[133] qatma - ip, kəndir

dolaşan qana qarışmışdı. Qanından-canından qida alan fikirlərin içərisində məsləki qol-budaq atıb dirçəlirdi. Onun fikirləri indi Xırmantəpə elinin hüdudlarını aşıb, dünyanın hər yanına yayılırdı.

«An var keçmişi məhv eləyir, an da var keçmişi oyadır... Bu məmləkətin düşməni içindən çıxıbsa, xilaskarı da öz içindən çıxmalıdır!» Fikirlər qoynunda Yurddaşa yaxınlaşan Azərnuru görcək uşaqlı-böyüklü hamı ayağa qalxdı. Təkcə Aysudan savayı. Ərinin başını dizləri üstünə alıb, yaralarına tut yarpağından təpitmə qoyurdu...

Susuzluqdan dodaqları partlamış, teşnəqəlb olmuş Qeyrətin ayağa qalxmağa heyi qalmamışdı, amma Azərnura baxa-baxa ayağa qalxmağa çalışdı:

- Biz zindanların qapılarını taybatay açdıq. Böyük Xaqanı taxt-tacından salanlara qoşulduq. Eşitdik ki, HÖRMÜZ dəryasını tutmuş xilafət qoşunları Odlar yurduna soxulmaq istəyir. Bu yandan da xaçpərəstlərin qızışdırıb üstümüzə sadıf elədiyi hay tayfaları torpaqlarımıza basqın eləyir. Gördük ki, Əfşəranda boş qalmış taxt-tac uğrunda qan qardaşlarımız arasında öcəşmələr güclənir, bir dəstəyə ayrılıb kömək üçün Ana Göyçəyə sarı üz tutduq. Suyumuz qurtarmışdı. Qaraçinardan keçib Güllüdüzə yaxınlaşanda elə bil bizi qara basırdı. Üstümüzə sel gəlirdi. Selin üzəri arpayla doluydu, çiynağ yoldaşlarım: «ARPA ÇAY, ARPA ÇAY» - deyə qışqırdılar. Biz susuzluğumuzu yatırmaq üçün çaya sarı yüyürdük. Ancaq ona çatar-çatmaz elə bil sehrli bir aləm torpağın altına sümürdüyü çay selini qəhətə çıxardı. Çayın yatağında saralan arpadan yeyən atlarımız dənə düşdü, yoldaşlarımızın çoxunun bağrı çatladı, susuzluqdan, zindan əzabından ölməyənlər Tanrının ədalətsizliyindən öldü. Mən tək qaldım. Atım Çataşığa çatar-çatmaz öldü, yüyəni əlimdə qaldı.

Adamların çoxu başını aşağı salmışdı. Qeyrət Bayandur babanı səslədi: - Körpənin adını BABƏK qoyun! Bu gün məmləkətimizə bir yox, minlərlə Babəklər gərəkdi. Bizim bacarmadığımızı qoy onlar eləsinlər! Ana, Aysu... bir içimlik su, su istəyirəm!

Ağca nənə ürək ağrısı ilə sızıldadı:

- Can bala, öləydim kaş, bu gününü görməyəydim, zindanda qalmağına dözdüm, susuzluğuna dözə bilmərəm!

Gün qüruba getsə də, bürkü çəkilməmişdi. Adamlar güclə nəfəs alırdılar. Azərnur susuzluqdan bağrı yanan Qeyrətin, ərlərinin yolunu gözləməkdən gözlərinin kökü saralmış qadınların, yaz öynəsi əhd-peyman bağlamış ərlik qızların, hamilə gəlinlərin, yaralı didərginlərin, Vətən yolunda savaşa yollanmaq istəyən yaraqlı-yasaqlı cavanların, susuz qalmış uşaqların qarşısından keçib, ağır-ağır beli dərddən bükülmüş ağsaqqallara yanaşdı. Aramla söhbətə başladı:

- Siz tayfaların, elin-obanın, mən isə Böyük Xaqan və onun kiçik hökmdarının buyruğu və el ağsaqqalı Bayandur babanın məsləhəti ilə bu elin şəhriyarı oldum. İndi Böyük Xaqan taxt-tacdan salınıb, kiçik hökmdarlar öz başlarının hayındadırlar. Bu gündən mən ulu Tanrının elçisiyəm! O Tanrının ki, nicat yolunu mənə göstərdi. Mən özümə əziz sandığım xalqımın – elimin elçisiyəm. Ulu tanrının buyruğunu yerinə yetirirəm: - Ey şərəfli qardaşlar, doğma Vətən göyləri altında ulu Vətən torpağını qorumaq borcumuzdu. Ruhumuzu qoruyun ki, gələcək nəsillərimiz dostumuzu-düşmənlərimizdən seçə bilsin!..

Azərnur Bayandur babanın qarşısında diz çökdü. Dağdan ağır mənalar yağan baxışlar bir-birinə dikildi:

- Eli sənə tapşırıram! – deyə Azad ağacından qayrılmış başı aypara təsvirli əsanı Bayandur babaya verdi. – Bu odu, –

Yurddaşın qoynunda şölələnən ocağı göstərdi. - Bu kitabları qoruyun! – Müqəddəs kitabları da Bayandur babaya verdi.

- Dinimiz məhv olsa belə, dilimizi, odumuzu, kitabımızı qoruyun! Dilimiz yaşasa, məsləkimiz yaşayar, məsləkimiz yaşasa, torpağımız yaşayar, torpağımızı yaşatsaq, azər övladları yaşayar!

Sonra polad üzlü iti qılıncı Qeyrətə verdi.

- Bu qilincı mənə cəsur Muğan xaqan yuxuda bağışladı. Mən də onu sənə verirəm. Bu qılınc neçə qərinədi ki, öz qeyrətli sərkədəsinin yolunu gözləyir. Sən də onu oğlun Babəkə verərsən! Çünkü bu qovğa hələ çox sürəcək.

Aysu susqun görkəmlə Azərnura baxa-baxa ayağa qalxdı. Xırmantəpənin başında Oxçuoğlu Tomarın ruhu göydən yanıqlı ney səsini yağdırdı. Neyin ah-naləsi kirpikləri nəmlətmişdi. Azərnura elə gəlirdi ki, ətrafında qadın hıçqırığı yox, vida nəğməsi eşidilir.

- Tanrım NİCAT YOLUNU mənə göstərdi... Gedənlərin yolunu gözləyin, Tuğumuzu qoruyun!.. Yağılarla savaşa yollanan igidlər, unutmayın ki, ayaqlarımızın altında ana torpaq, başımızın üstündə uluların ruhu təhqir olunur. Mətin olun, Vətən yolunda şəhid olmaq ziyarətgahlara getməkdən üstün və şərəflidir. Qan qardaşlarınıza səxavət göstərin! Səxavət hər cür ibadətlərdən uca və üstündü! Xeyir əməlləri azaltmayın!

Azərnur danışdıqca Bayandur babanın saqqalından yaş damcılayırdı. Ömründə ilk dəfəydi ki, ağlayırdı. Azərnura söyləməyə söz tapmadı. El ağsaqqalı susuzluqdan bağırları pöştələnən uşaqlara, aclıqdan əldən düşmüş xəstə adamlara baxdı. Məsum, günahsız gözlərini göy üzünə dikməkdən yorulmuş uşaqlar da, oğulları şəhid olmuş, saç yolmaqdan, əllərini dizlərinə çırpmaqdan, gözləri ağlamaqdan bezikmiş-usan-

mış anaları da, torpaqlarını yağı basqınından qorumaq üçün yaraqlanıb-yasaqlanmış cavanlar da lal-dinməz dayanıb Azərnura qulaq asırdılar. Göy üzünün göylüyü çoxalmışdı. Buludlar dar ağacına bənzəyirdi, elə bil yağış ilahəsi göydə Əhrimənin quraqlığa himayədarlıq eləyən divlərini asmağa hazırlaşırdı.

Azərnur irəlidə gedirdi, adamlar da arxasınca. Dünya adamların gözlərində daralmışdı, indisə getdikcə böyüyürdü, adamlar dünyanın gözündə kiçilmişdi, getdikcə ucalırdılar. Xırmantəpə elinin sakinlərinin qəlbində yanıb, qovrulmuş ÜMİD çiçəyi indi-indi cücərməyə başlayırdı, içlərindən süzülüb gələn acı göz yaşlarıyla suladıqları həmin çiçək xəyallarının, arzularının saf çeşməsindən su içib pöhrələnirdi. Xoş ətri ilə ömürlərinə SƏADƏT bəxş eləyirdi. Azərnur onları müsibətli günlərdən səadətə qovuşduran körpü kimi dayanmışdı.

Adamlar gah Qızbatan, gah da Sevan gölü adlanqdırdığı Ana Göyçəyə çatanda dayandılar. Qürub Günəşi qızılı saçlarını zərli kəlağayıtək gölün sularına sərmişdi. O mavi sulara baxanda adamlar dərk elədilər ki, təmiz, saf su onlara hava kimi gərəklidir. Susuzluq müsibətlərini çoxaltmış, bədənləri kimi hiss və duyğularını da kirləndirmişdir.

Bayaq canavarla rastlaşdığı kolun yanından ötüb gölün qırağında məğrur dayanmış Azərnur üzünü camaata tutub dedi:

- Qoy mənim ruhum bu suyun paklığını və ulu adını özünə qaytarsın! Tanrının buyruğu murdar ruhları qovmaq, əzəli təmizliyi qorumaqdı. Mən sizin inandığınız o şəxsəm ki, öz Tanrımın buyruğuna əməl etməklə Ana Göyçənin bakirəliyini, təmizliyini özünə qaytaracağam! Günəş batanda mən aranızda olmayacam, onda bu suyu içməklə siz mənim ruhumu sevindirəcəksiniz.

Adamlar bir Ana Göyçənin dupduru sularına baxdılar, bir də el atası Azərnura. Bu iki varlıq içlərinə sərinlik yayırdı, xə-

yallarına, istəklərinə qol-qanad verirdi, xəyalların şirinliyi adamları göyün yeddinci qatına qaldırmışdı. Göyün yeddinci qatına xəyalla yüksəlmiş adamlar təsəvvür aynasında çox şeylər görüb, möcüzələr yaradacaqdılar! İntəhası Aysunun için-için ağlaması, hıçqırtısı hönkürtüyə dönəndə qız-gəlinlərin çoxu Aysuya qoşulub ağlaşmağı onları yerə – Ana Göyçənin sahilinə qaytardı. Qız-gəlinin ağlaşması Oxçuoğlu Tomarın vaxtilə çaldığı neyin səsindən də kövrək və yanıqlıydı. Azərnur dizəcən suya girəndə ağbirçəklərin – ağsaqqalların da gözləri doldu. Suyun sərinliyinin canına yayılacağını zənn eləmiş el dərdinə-sərinə toxdaqlıq verib sanki özünü ovundurmaq üçün Ana Göyçəyə boylanırdı. Azərnur sulara əksi düşmüş qız-gəlin kölgələrinin kiçicik ləpələrin qoynunda sevincdən yırğalanıb «rəqs» elədiyini görəndə ürəklə irəli yeridi.

Bu zaman Ana Göyçənin sularında Sevanın qara kölgəsi canlandı.

- Ha, ha, ha! Sevgim bizi qovuşdurmadı, amma bax, ölüm bizi qovuşdurur. Mən bətnimdə gəzdirdiyim o bic körpəni burda dünyaya gətirdim. İndi mənim ruhum bu suların qoynunda yaşayır. Sənin səcdə elədiyin müqəddəs odun günçıxandan günbatanacan düşən işığı mənim ağuşumda sönəcək. Sən oddan-alovdan yoğrulduğunu zənn etdiyin məsləkinin ucbatından mənə məhəl qoymadın, özünü aldatdın. İndi isə özün təhlükəni seçib ölümünü elin dərdinə dərman sanırsan. Ölümün də yaşamağın kimi gülüncdü! Səndən sonra mənə aid olan bu gölün ətrafında bir nəfər də atəşpərəst qalmayacaq... Bunu bil... bil...

- Yox! Bu danışan sənin ruhun deyil! Çünki murdar ruhlar yaşamır, onların yeri əbədi qaranlıqdı. Sənin ruhun qaranlıqlar səltənətində sərsəmləyir. Bic körpənlə sən bu ayna suların üstündə qərar tuta bilməzsən. Çünki bu ayna suların

qoynunda işıq pərisi Mehrin odlu təbəssümləri yanır! Ana Göyçə işıq pərisinin himayəsindədi! - Azərnur sinəsinədək suya girəndə pıçıldadı:

- Ey müqəddəs su ilahəsi, ey müqəddəs məhəbbət ilahəsi, ey gözəl işıq pərisi, ey torpaq ilahəsi, sizi şahid tuturam. Mən öz Türkayımın ruhunu şad eləyəcəyəm! Mənə kömək olun! Ey müqəddəs ruhlar, mən insanlara xeyir mücdəçisi olmaq istəyirəm! Türkayım, mən sənin ruhunla qovuşmağa can atıram!

...Qızılı, tül libasda Ana Göyçənin tən ortasında dayanmış Türkayın ruhu qollarını açıb:

- Gəl, nurum, gəl, əzizim! Sənin öz məsləkinə qovuşmağın DÜNYA ÜÇUN TƏMİZKARLIQ TİMSALI OLACAQDIR!- deyirdi.

Son anda qürub Günəşinin Ana Göyçəyə sərdiyi zərli kəlağayının üstündə Azərnurun gözləri önündə Türkay və onun bətnindəki KÖRPƏnin gülümsər çöhrəsi canlandı.

- Məgər o körpəni sənin ruhun qoruyub yaşadır?

- Bu sənsən! Özünsən, özün öz balansan!.. Yer üzündən AZƏRLƏRin nəsli silinməyəcək!.. İndi onlara qarşı həm güneydən, həm də quzeydən soyqırımı başlayıb! Sənin ölümünsə HƏYATın davamıdı. İnsanlara təmizkarlıq tapşırığıdır!.. Yoxluğunda var olacaqsan: Yer üzündə min-min qərinə bundan sonra yaşayacaq, son işıqpərəst də ölümünü KÖRPÜ sanacaq! Həyata körpü olan bu ölüm TANRININ ən böyük neməti və töhfəsidir!

...Ana Göyçə ən əziz və əbədi qonağını qoynuna alanda göydə ildırımlar çaxırdı. Ulu Vətən göylərinin gözü dolurdu. Xırmantəpənin qovurğa kimi yanıb qovrulmuş Xatın arxının dəhnəsi açıldı. Arxın qırağındakı söyüdlər bellərini dikəltdilər, ərkən qızlar bir-birlərinə Ana Göyçədən götürüb atdığı

suyla sanki Azərnurun ÖLÜMÜnü yaşamaq və yaşatmaq sevinciylə qarşılayırdılar. Amma pişvazına çıxdıqları YAŞAYIŞ eşqi içərilərində yuva salmış Qorxunu yuyub apara bilmirdi. QORXU insanların sümüklərinə keçmişdi. Və elə bil o qorxu insanların iç dünyasında hələ neçə-neçə qərinələr də yaşamağa can atırdı. Ana Göyçənin suyundan içmiş yaraqlı-yasaqlı igidlərin dizlərinə təpər, qollarına güc gəldi... İgidlər atlanıb Qeyrətin başçılığı altında yağıların üstünə – Tamahı və hiyləni, şərin kökünü kəsməyə gedəndə adamlar içlərini bürüyən qorxunu hürkütdülər.

Azərnur özünün məslək ilahəsinə qovuşaraq suda görünməz oldu.

KEÇMİŞİ ÖLÜMÜNDƏN KEÇİB GƏLƏCƏYƏ DOĞRU gedirdi...

_____SONDEYİŞ[134]_____

YOL

«Mən insanlara varlıqlarının mənasını öyrətmək istəyirəm.
Üstinsandı bu, - qara buluddan, insandan çıxan şimşəkdir...
Baxın, mən şimşəyin mücdəçisiyəm və buluddan düşən
ağır damlayam...»

«Zərdüşt belə söyləmiş» kitabından.

Gələcəyin yetişməsi qərinələrlə ölçülmürdü. Hər anın öz hökmü vardı, gecələrin qaranlığında, gündüzlərin işığında yarımürgülü şübhə gəzişirdi. Amma Azərnurun ölümü yurddaşlarına sonsuz sevinc bəxş eləmişdi. Axşamqabağı Xırmantəpə elinin başı üzərində güzgü kimi asılmış göydə ağappaq

[134] Sondeyiş –epiloq

ocaq çatıldı, yanıb-söndükcə göyün tarıma çəkilmiş əzaları titrədi, bu titrəyişdən ulu VƏTƏN göyləri məşum-məşum uğuldadı. Güzgü gözlərdən şimşək çaxdı, yağışlar yağmağa başladı. Azərnurun ömrünün qürub çağı başlayandan bəri dolmuş ürəyini sanki boşaldırdı göy. Çəngə-çəngə bulud saçlarının suyunu sıxırdı yerə! Torpağın qaysaq bağlamış sinəsi yumşaldı, çatçat olmuş yerlərə sanki məlhəm qoyuldu. Ağacların toz-torpağa bələnmiş yarpaqları yuyunub-təmizləndi. Arada meydan sulayan BÜRKÜ köç-külfətiylə qeybə çəkildi. El-oba yağışın pıçıltısına səhərəcən qulaq kəsildi.

Sübh tezdən dan ulduzu və günəş dərdinə çarə tapılmış Xırmantəpə elini alqışlayırdı. Zirvəsi qara buludlardan təmizlənmiş Tanrı dağı Savalan apaydın görünürdü. Ana Göyçənin suyu artmış, Xatın arxının qırağında xalça-palaz yuyub-yaxalayan alyanaqlı qızların çiçəyi çırtlamışdı. Savaşa yollanan igidlərin su qablarını Daşbulaqdan süzülüb gələn suyla dolduran analar arxalarınca su atıb xeyir-dua diləyirdilər.

Dünya böyük qovğalara hamiləydi. Əhrimənin şər toxumuyla mayalanmış bətnindən şeytan doğulmuşdu. Şeytanın nökərləri Hörmüz övladlarına hiylə və kələk toru hörməkdəydilər.

Odlar yurdunun boynuna Dünya dədənin tamah mirasına sahib duran nəvələri kəfən biçmişdilər. İndi təkcə Odlar yurdu yox, dünya özü də savaşla üz-üzə, diz-dizə dayanmışdı. Adamlar arasında pıçhapıç gəzirdi ki, əgər dünyanın şeytanı peyda olubsa, onun müsibətlərindən xilas olmaq üçün peyğəmbəri də doğulmalıydı... Ancaq dünya yubanırdı. Yubandıqca insafsız təqiblərin, ədalətsiz savaşların ucbatından tövşüyə-tövşüyə bağrı yarılırdı, günəşdən, aydan, ulduzdan, oddan-ocaqdan əbədi məhrum olacaqlarını dərk etmiş adamların duruşlarında hüzn, könüllərində narahatlıq var idi.

Əzazil hökmdarlar, hiyləgər imperatorlar dünyanın gərdişini zərrə qədər veclərinə almırdılar. Vəhşi bir ehtirasla insanları bir-birinə didişdirən insansifət divlər torpaq birəsi kimi ürüyüb artmışdı.

Atəşpərəstlik özündən sonra əmələ gələn dinlərin qurbanı olurdu. Sağlığında Azərnurun «Avesta»dan oxuduğu Zərdüştün alqış nəğmələrini hafizələrində qoruyan Xırmantəpə elinin ağsaqqalları tez-tez söyləyirdilər: - «Ulu Hörmüz, bəşər nəsli doğruluğa haçan üz tutacaq? Ulu Hörmüz, sənin qərarlaşdırdığın cəza günü[135] çatmazdan öncə doğruluq ardıcılları yalana tapınanlara qalib gələcəkmi?..»

Torpağın oyandığı, insanların qəlbində günəşin doğduğu bir vaxtda (yağışdan sonra əmələ gəlmiş kölməçələrin kənarında uşaqlar evcik-evcik oynayanda) Odlar yurdunun əzəli sakinlərinin od-ocağı, ev-eşiyi dağıdılır, əzəli etiqadları dördbir yandan sıxışdırılırdı.

...Yurdunun dar günündə Savalanda yatmış igid oyananda ulu Zərdüştün ruhuyla Azərnurun ruhu doğma vətən göylərində baş-başa verib dərdləşirdilər:

- Müqəddəs ruhlar tərk olunanda, insanlar arasında münasibət pozulanda dünyanın zülmət dövrü başlayır. Böyük yaradanın qüdrətiylə yeddi günə yaranmış dünya indi sıxıntı içərisində yaşayır. İnsanların şərəfli ölümü şərəfsiz həyatlarından çox-çox yüksəklikdə dayanır. «Əskidən bu dünya dəliymiş!» - deyə ömür-gün keçirən son və əksik insanlar məni anlamırlar, mən bu qulaqlar üçün ağız deyiləm! Mən ruhu dərin yaralanmış və həyatın kiçik bir sınağından məhv olmağı bacaranı sevirəm. O körpünü həvəslə keçər. Necə ki, adına körpü, keçid deyilən bu seviləsi şeyi səndə görüb, səndən də

[135] qiyamət günü

umdum. Ancaq söylə, insanları, dünyanı fəlakətdən qurtara biləcək sağlam və salamat bir insan qaldımı?.. İndi Odlar yurdunda, atəşpərəstlərin doğma vətənində müqəddəs ruhlar qərib kimi dolaşır. Savalanda mənim, Ana Göyçədə sənin ruhun kimi göynəyən ruhlarımız, görəsən, çoxmu olacaq?..

- Ey Ulu Zərdüşt, indi insanlara şirin vədlər verib, yer üzünün umudlarından söz açanlar çoxalıb, onların sözləriylə zəhər saçan əməlləri bilgəli adamları usandırır, cana doyurur, boğaza yığır!.. Sərvətsevərlik cılız düşüncəli son insanları əyri və haram qazanc ehtirası ilə ərdəmlilərin canına daraşdırıb. Onların iyrənc toxluğu, günahlarının miskinliyi ÜSTİNSANLARIN arasında vurnuxur. Sənin buyurduğun kimi onlar bizim bilmədiyimiz o biri dünyanın anlamını yer üzünün mənasından üstün tutmaqla həmvətənlərini aldadır, ən qorxunc günah işlədirlər... Ruhu yoxsul və çirkin olan belələri ömürlərini kef-damaqda, zənginlik və firavanlıq içərisində keçirirlər, eli-obanı düşünmür, özlərindən sonra gələn nəsilləri fəlakətə sürükləyə-sürükləyə onların XOŞBƏXTliyindən dəm vururlar. Əgər belə getsə məmləkətimizin başı üzərində bundan sonra da çoxlu ruhlar sızıldayıb-göynəyəcək! Qoy tale və bəxt ilahəsi Odlar yurdumuza, dünyaya və dünyanın qoynuna sığınmış bütün ADƏM övladlarına yar olsun!..

Ulu Zərdüştün ruhu pıçıldadı:

- Alqış nəğmələrimin birində buyurmuşdum ki, mən pak bir təbiətlə insanların ruhunu qorumaq üçün təyin olunmuş şəxsəm... Ey insanlar, əgər ulu HÖRMÜZün müqərrər etdiyi əzəli hökmdən faydalansanız, bu dünya və o dünyanın xoşluğundan, əbədi əzabdan, yalan tapınanların zərərindən, düzlük istəyənlərin xeyir və faydasından agah olsanız, onda gələcəyiniz həmişə yaxşı keçəcək. Amma min əfsus ki, sağlığımda olduğu kimi, dünyamı dəyişəndən sonra da həmvə-

tənlərim mənim hikmətlərimdən, Savalanda tamamladığım «Avesta»dan çox az bəhrələndilər... İndi şər qapıları vətən övladlarının üzünə taybatay açılıb. Lap çoxdandı ruhum böyük sevinclərə möhtac qalıb...

Azərnurun ruhu dilləndi:

- Ruhun şad olsun, ulu Zərdüşt!

- Ruhuna azadlıq nəsib olsun, Azərnur Eloğlu!

Analaların fəryadından lərzəyə gələn, od övladlarının qanı ilə suvarılan, dörd yanında fitnə-fəsad göyərən doğma Vətən torpağının ulu göylərində bir cüt nigaran ruh ayrılıb əbədi sığınacaqlarına çəkilirdi.

- Xeyirə qənşər!

- Şərin toxumu çürüsün, xeyirə qənşər!

...Yeddirəngli göy qurşağı Savalanla Ana Göyçə arasında ruhları qovuşduran KÖRPÜ kimi havadan asılmışdı. Tanrı dağı Savalanın dizinə baş qoymuş təzə dünya üzünə çilənmiş nurlu damcılardan sonra diksinib ÖZÜNƏ gəlmişdi. Ulu Zərdüştün qranit məzarı önündən qalxıb zirvəyə boylandı, neçə qərinə burada mürgüləyən yaraqlı-yasaqlı igid gözə dəymirdi. Qısırlaşmış, gücdən düşmüş bətnindən peyğəmbər uman dünyanın qarnına ağrı doldu. Ağuşuna aldığı adamlar qəlblərində qorxu, şübhə və ÜMİD, çiyinlərində qismətlərinə düşmüş TALE yükünü hambal kimi daşıya-daşıya UMUD və XATİRƏ körpülərindən, YADDAŞ keçidlərindən keçirib GƏLƏCƏYƏ aparırdılar!..

SON

1987-1992
Masallı.

_____MÜƏLLİFDƏN_____

"Oxucusu olmayan kitab ölü doğulmuş körpə kimidir..."

Qəlb odur ki, görür, duyur, dərk edir və danışır.
Zərdüşt

Qədimdən ta üzü bəri yaddaşlarda ulu Zərdüştün belə bir hikməti də qalıb: «Ey fikri, dili və əməli yaxşı olmayan! Əmin ol ki, elədiyin hər bir yamanlıq özünə qayıdacaq!» Soyundan, dinindən, dilindən və irqindən asılı olmayaraq, hər birimizin öz dünyası olsa da, biz bu dünyanın övladlarıyıq. Adəm babamızdır, Həvva nənəmiz. Əskidən birinə sərvət, birinə şəhvət, birinə siyasət, birinə zülmət, birinə işıq miras qalıb! Biri isə çox gecikmişdi, hər şey umdu dünyadan. Amma ona çatası mirasın adı tamah və hiylə oldu. Tamaha sahib duran acgözlər həris caynaqlarına Şər qılıncı, Nifaq və Rəxnə odu götürdülər. Yeddisindən yetmişinəcən yer üzünün işıqlı məmləkətinə səpələndilər. Onları ilk tanıyan Şərqin böyük hikmət sahibi "Yer üzünün Əhrimәni gəldi!" - deyə həyacan təbili çaldı. Bəd əməlli Əhrimənə ürcah olanda gah Tanrıdan, gah da göydə uçan durnadan da mədəd umub xalqım! Di gəl ki, mədədi də, xilası da içindəki iztirablardan və işıqdan doğulub. Qismətinə miras qalan oddan ucalıb AZƏRBAYCAN olub!

Varlığı müsibətlə səadəti arasındakı körpü olan, qəlbini şumlayan DƏRDDƏN sevgi və ümid cücərdə-cücərdə bu çağımıza gəlib çıxan millətimin qan yaddaşında, ruhunda, mifik duyumunda əsrlərin o üzündən yol alıb gələn əsl tarix yaşayır. O tarix ki keçmişimizdən bu çağımıza uzanır, ruhumuza hopa-hopa gələcəyə doğru gedir. O tarix ki fələyin çərxinə təkrar dolanır. Bu, taleyidir, alın yazısıdır Odlar yurdumun! Qəlbi işığa, xeyirxahlığa, sülhə və əmniyyətə köklənən xalqımın əzəldən səadəti müsibətə, müsibətləri səadətinə hamilə olub!

Vətənimin varlığından və taleyindən keçən, söykəyi qan yaddaşı olan bu yazımı çoxdan qələmə almışam. Onda təzə müsibətimiz hələ yol gəlirdi... And yerimiz olan OCAĞIMIZI söndürməyə hiy-

ləgər bir addım atılmışdı. Odumuza, suyumuza, torpağımıza riyakarcasına tamah salan yağı qələm sahibləri yeni nifaq "OCAĞ"I qaladılar. Müqəddəs ocaqlarımızı söndürmək üçün bu nifaq ocağına şimaldan, qərbdən, hətta cənubdan çoxlu çır-çırpılar atıldı.

Əsərin ilk əlyazması ilə tanış olan Azadlıq mücahidi Xəlil Rza Ulutürk: "oğul, beynumib gücü qalmayıb, özün iki vərəqlik ön söz yaz gətir imaza edim". Yazmadım. (Çox sonralar eşitdim ki, müəlliflərin çoxu ilk kitablarına yazdığı ön sözü görkəmli şair və yazıçılara imzaladırmış) Xalq yazıçısı Mövlud Süleymanlı da əsərin ilk variantını oxuyub bəyəndi və yalnlz obrazların adını dəyişməyi məsləhət bildi. Nə isə... Onu da deyim ki, romandakı Ulutür obrazı elə Xəlil bəyin prototibidir.

...Kitabın ilk nəşrindən ("Azərnur", Bakı-1994, Azərbaycan nəşriyyatı, 3000 tirac) 20 il vaxt ötüsə də, əfsus ki, bu illərdə oxucu ilə kitab arasına işıq tutan tənqidçilərin diqqətindən kənar qaldı. Tanınmış bir kinorecissor əsəri ekranlaşdırmağı, millət vəkili olmamışdan qabaq ədəbiyyatşünas bir alim isə roman barədə məqalə yazacağını vəd etdi. Nə isə... Allah oxuculardan razı olsun! Kitabı barədə şifahi tərifləri dilə gətirmək müəllif üçün gülünc şeydir.

Ötən ilin sonu Azərbaycan Yazıçılar Birliyində "Qara sarmaşıq" romanımın təqdimat mərasimində Çağdaş Azərbaycan ədəbi tənqidinin cəfakeşi Vaqif Yusifli "Azərnur"a dəyər verəndən sonra bir OXUCU təklif etdi ki, əsər latın qrafikasıı ilə nəşr olunsun. Vədinə əməl edən hər kəs böyük hörmətə, ehtirama layiqdir!

Mən gec də olsa vədimi yerinə yetirib bu təkrar nəşri Odlar yurdumun ərazi bütövlüyünə qovuşacağı günə ən böyük inam və etiqadla dəyərli oxuculara təqdim edirəm.

Zərdüşt buyurduğu kimi: «Ey həqiqət! O vaxt ki sən mənim ürəyimdəsən, deməli, xalqımın arasındasan!». Qoy həqiqət, düzgünlük və səadət həmişə BİZƏ yar olsun!

07. 02. 2012.

_____ROMAN HAQQİNA_____

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi M.F Axundov adına Milli Kitabxanasının 18 aprel 2007-ci il tarixli arayışı.

"Ümummillı liderimiz Heydər Əliyev 1995-ci ildə Milli Kitabxanada olarkən öz şəxsi kitabxanasından Ədiloğlu Nurəddinin "Azərnur" (1994-cü il nəşri) kitabını M. F. Axundov adına Dövlət kitabxanasına hədiyyə etmişdir"

H-37.
Direktor: K. Tahirov.

* * *

" ...Azərbaycan yazıçıları Yüsif Vəzir Çəmənzəminli də, Nurəddin Ədiloğlu da "Avesta" qaynaqlarına söykənərək romanlar yazmışlar! Biri sovet rejiminin qaynar çağında, o biri dövlət müstəqilliyimizin bərpa olunduğu ilk illərdə...

Hər iki qələm sahibi, qədim dövrün əxlaqı normalarını bədii boyalarla təsrvir etmişdir. Nurəddin Ədiloğlu Çəmənzəminlidən fərqli olaraq milli əxlaqlqınmızin mənəvi normaları daha qabarıq şəkildə tərənnüm etmişdir....

Çünki Yusif Vəzir öz dövrünü - ədəbiyyatdan, incəsənətdən ideoloji silah kimi istifadə edən partiyanın "zövqünü" nəzərə alaraq "Qızlar bulağı"nı qələmə almıişdır, Nurəddin isə gerçəyi içində yaşadan sadə xalqı – Zərdüştün məşhur "xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl" triadasının əzəmətini düşünərək! Bax elə buna görə "Azərnur" romanını daha müstəqil düşüncənin, azad qələmin məhsulu hesab edirəm..."

Fərahim Sadıqov,
Pedaqoji elmləri doktoru, professor,
Azərbaycan Dövlət Radiosuna müsahibəsindən.
1996-ci il

* * *

Nurəddin Ədiloğlunun imzası ilə on ilə yaxındır ki, tanışam... Bədii yaradıcılığında tarixi mövzulara meyl göstərir. O, "Azərnur" romanında qədimliyi, adət-ənənələri, dini ayinləri qələmə almışdır. Zərdüşt fəlsəfəsi üzərində qurulan bu əsər ədəbi ictimaiyyətin diqqətini az cəlb etsə də, əyalətdə yaşayan bir ziyalının bədii axtarışlarının məhsuludur.

Sabir Rüstəmxanlı.
27 may 1998-ci il.

* * *

"Azərnur" romanı mürəkkəb kompozisiyaya malik əsərdir. Müəllifin məharəti ondadır ki, bu mürəkkəb quruluşlu əsərdə oxucunu hadisələrin axarından ayırmadan həm müəllif təhkiyəsi, həm də müxtəlif səpkili dialoqlarla əsas ideya ətrafında səfərbər edir. Əsərdən çıxan əsas nəticə isə bizcə, budur: duymağa,dərk etməyə layiq olan insanlar elin, millətin rəhbəri, xilaskarı olmağa qadirdir!"

Əhməd Səmədov.
"Duymağa, dərk etməyə çağırış..." məqaləsindən.
"Kredo" qəzeti, 26.02. 2005-ci il.

* * *

Yazıçı Nurəddin Ədioğlunun "Azərnur" roman- pritşasının oxuculara təqdim olunduğu vaxtdan 12 il keçir. Amma bu əsər mövzusunun müqəddəsliyi ilə həmişə təzə çap olunmuş kitab gücündədir.

"Azərnur" "zamanın tələbinə uyğun" – müəllifinə maddi firavanlıq vəd edən, ucuz şöhrət, vəzifə kreslosu qazandıran "əsər" olmadığı üçün köhnəlməyəcək, unudulmayacaq.

...Bəzi mətləbləri duymaq – oxucuya duydurmaq, çatdırmaq, anlatmaq üçün ulu keçmişimizi hər fürsətdən istifadə edərək yada salmaq, xatırlamaq lazımdır. "Azərnur"un qəhrəmanları kimi və elə müəllifi kimi... Axır ki, keçmiş uğrunda, Atalar-Babalar- Dədələr uğrunda vuruşa bilməsək, Qarabağ uğrunda vuruşmaq da bizə çətin olacaq.

"Azərnur"un qəhrəmanları da özlərindən əvvəlki, Ataların-Dədələrin adları və əməlləri uğrunda, onların müqəddəs əmanətləri: Vətənin və Xalqın bütövlüyü uğurunda döyüşürlər. Əsərin baş qəhrəmanı Azərnur bu mübarizədə həlak olur və bir möcüzə kimi. əbədi nura- əbədi işığa çevrilir. O işıq bu gün də sönməyib, sabah da sönməyəcək.

Əcdər Fərzəli, filologiya elmləri nanizədi,
"Azərnur"un işığı" məqaləsindən.
"Qarabağa aparan yol" qəzeti,
31 oktyabr 2006-cı

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz: Avesta işiğinda 3
«Azərnur» - ədəbi avtoportiretimiz 5
Öndeyiş: Qanli ocaq 9
Birinci fəsil: **Məslək** 15
İkinci fəsil: **Tale** 116
Üçüncü fəsil: **İlğım** 154
Dördüncü fəsil: **Uçurum** 184
Beşinci fəsil: **Körpü** 220
Sondeyiş: Yol 286
Nüəllifdən *291*
Roman haqqına 293

Format: 60x84. 1/16. F.ç.v 18,5
Sayı: 500

«OL» MMC
AZ 1009, Bakı, Azərbaycan, M.İbrahimov 43.
Tel: 497-36-23
E-mail: olnpkt@gmail.com